AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

Bakı Dövlət Universitetinin
100 illiyinə həsr olunur

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN İNTEQRASİYASI DÖVRÜN TƏLƏBİDİR

Gənc tədqiqatçıların Respublika elmi-praktik
konfransının materialları
(17 aprel 2020-cu il)

Bakı-2020

## TƏŞKİLAT KOMİTƏSİ

Elçin Babayev, rektor - sədr
Hüseyn Məmmədov - elm və innovasiyalar
üzrə prorektor, sədr müavini
Afət Məmmədova-magistratura və doktorantura
şöbəsinin müdiri, sədr müavini
Hikmət Əlizadə-dekan, sədr müavini
Bəxtiyar Əliyev- kafedra müdiri, üzv
Kamilə Əliyeva- kafedra müdiri, üzv
Rəbiyyət Aslanova- kafedra müdiri, üzv
Rafail Həsənov - kafedra müdiri, üzv
Rəna İbrahimbəyova- kafedra müdiri, üzv
Ləzifə Qasımova-kafedra müdiri, fakültə
tədris-metodik şürasının sədri, üzv
Üzeyir Şəfiyev - kafedra müdiri, üzv
Qızılgül Abbasova- elmi işlər üzrə dekan müavini,
məsul katib

## FƏLSƏFƏ BÖLMƏSİ

***bölmə rəhbəri: b/m A.M.ALLAHVERDİYEV***

# ФИЛОСОФСКИЙ АНАЛИЗ АЛЬТЕРНАТИВНЫХ СОЦИАЛЬНЫХ КОНЦЕПЦИЙ

***Динара Алиева***
***Магистрант II-го курса БГУ***
***dinaraliyeva94@mail.ru***

Как одна из современных социальных концепций, постинформационное общество характеризуется со стороны доверия. Постинформационный период в отличие от информационного, спешит использовать как достоверную, лишь информацию, воспринятую самостоятельно, либо полученную от доверенных лиц.

Информационным может считаться лишь то общество, когда любой разумный член общества, организации или предприятия имеет доступ к техническим устройствам, позволяющим получить любую открытую информацию и знания, а также передавать или получать любые несекретные сведения и сообщения в любое время и в любой точке планеты. Таким образом, главными проблемами информационного общества являются производство, хранение, передача, преобразование и применение знаний и информации, доступных и используемых без нарушений действующего законодательства и прав других физических и юридических лиц.

Постинформационное общество прошло ряд систематизированных уровней, дойдя до качественно новой ступени, которая именуется как «Смарт общество» [2].

Эко общество, общество знаний, цифровое общество лежат в основе развития Smart-общества. Оно построено

таким образом, что «умная» работа, которая образована «умной» жизнью, государством и бизнесом, основывается на «умной» инфраструктуре и «умных» гражданах, которые играют центральную роль в создании smart-культуры. А развитие таких отраслей, как Smart-транспорт, Smart-здравоохранение, Smart-энергетика, Smart-питание и т.д. приведет в конечном итоге к появлению Smart-мира.

Прослеживая эволюцию понятия «креативное общество», одного из модных слов современного политического дискурса, многие исследователи иронично замечают, что возникновение и распространение новых понятий зачастую обусловлены не столько их способностью схватывать и обозначать суть происходящих изменений, сколько потребностью человеческого разума создавать и использовать новые категориально-понятийные формы освоения окружающей среды. Теория креативного общества может стать одной из таких форм адаптации к современной действительности, материальной и духовной среде нового тысячелетия.

В креативном обществе в наибольшей степени раскрывается творческий потенциал людей. По сравнению с творчеством, креативность означает оптимальную вовлеченность в общественную жизнь в контексте осознания себя не только в ближайшем окружении, но и с обществом в целом.

Запрос общества на социальную самореализацию является катализатором перемен в отношении к модернизации нового креативного типа, в которой основным является поиск новых движений к креативному обществу, к обществу равных возможностей.

Креативность не только может быть присуща внутренне людям, но и является тем качеством, которое в духовном, социальном и экономическом смысле отличает человека от всех остальных, ему подобных.

Учитывая наличие креативности во многих сферах жизнедеятельности человека, стоит отметить и многообразие форм её проявления. Креативность является «масштабной и непрерывной практикой», появляются всё новые формы, применяемые в технологической, экологической, экономической, социально-политической, духовной сферах.

Креативность является многокачественным явлением и не может быть сведена к определённому набору моделей поведения или действий человека. Так, активность сродни креативности, однако активность соотносится с характеристикой поведения человека, а креативность преимущественно является качеством его умственных особенносте [4].

Изменения, связанные с переходом к постиндустриальному обществуопределяются тем, чтооони укрепляет роль науки и знания, как основных институциональных ценностей общества, делая процесс принятия решений более техническим, они все более непосредственно вовлекают ученых или экономистов в политический процесс, углубляя существующие тенденции в направлении, бюрократизации интеллектуального труда, они вызывают к жизни набор ограничителей традиционных определений интеллектуальных интересов и ценностей, создавая и умножая техническую интеллигенцию, они поднимает серьезнейший вопрос отношения технического интеллекта к гуманитарному собрату.

Знания людей, которые накапливались в течении длительного времени, использовались с целью достижения и совершенствования средств и технологий производства и привели к весьма значительным изменениям общественного устройства.

Новый тип человека - «человек информационный», который обладает хорошим образованием и специальными

навыками, а также способный быстро и качественно работать с информацией, умеет адаптироваться в быстро меняющихся условиях и занятый исключительно умственным трудом. В результате в обществе значительную часть, которого будет составлять «человек информационный», наступит следующий этап общественного развития - становление «общества знания», в котором особое место занимают образование и управление.

«Общество знания» - это, прежде всего, общество интеллектуальное, в котором вместе с главными ресурсами: трудом, землей и капиталом станет - само знание. Причем знание станет не одним из видов ресурсов, а займет главенствующее место. Конечно, само «чистое знание» не способно принести плодов, но если обеспечить эффективное управление, в смысле применения знания к знанию, другие ресурсы всегда можно будет изыскать. В новом обществе становится очевидным, что экономический капитал или, точнее, источник эконо-мического роста и прибавочной стоимости, в большей степени оказывается зависим от знания и от системы управления им.

Вместе с тем, сама наука, выступая источником рационализации процесса принятия социально значимых решений, одновременно позволяет осознать масштабы неопределенности и, следовательно, ограниченность экспертного знания. Дефицит достоверного знания эксперты стремятся компенсировать использованием различных методов, статистического анализа риска, построением моделей, применением гипотетического подхода и т.д

Говоря об обществе знания, большинство исследователей отдают себе ясный отчет о масштабах проблем, порождаемых развитием мегатехнологий. Использование человеком информационно-коммуника-

тивных технологий резко увеличивает скорость получения информации и возможность расширения знаний-компетенций. Однако при всей своей позитивности такая тенденция ведет к указанному выше «цифровому» неравенству, когда появляется пропасть между теми, кто имеет большие возможности использования технологий, и теми, кто находится на периферии информационного общества.

## ЛИТЕРАТУРА

1 Бэлл. Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования. 1999.- 956 с.
2 Бреслер, М. Г. Социальные сети и сетевые сообщества информационного общества. Уфа; РИЦ БашГУ, 2014.- 174 с. С. 12-14.
3 Кастельс М Информационная эпоха экономика общество и культура 2000 608 с
4 Лэндри. Ч. Креативный город. М; Классика- XXI, 2005.
5 Тоффлер, Э. Третья волна. Пер. с англ Э. Тоффлер- М; АСТ 2004.- 781 с.

# ИДЕЙНЫЕ ПРЕДПОСЫЛКИ ВОЗНИКНОВЕНИЯ СОЦИАЛЬНОЙ ФИЛОСОФИИ К.ПОППЕРА

***Саламлы Тамара***
***магистрант II курса БГУ***
***salamli9393@mail.ru***

Поппер был одним из немногих философов науки, который обратился к социальной философии.Общество для него - это объединения по решению проблем и поэтому их следует оценивать по навыкам решать эти проблемы, точно также как мы оцениваем работу какого-

либо научного сообщества. Но что, же явилось причиной написания работы об обществе?

Нападение Гитлера на Австрию стимулировало работу над книгой, задуманную под названием «Ложные пророки: Платон, Гегель – Маркс», но которая,в последствии превратилась в две книги: «Нищета историцизма» и «Открытое общество и его враги». В «Нищете историцизма» он наложил ответственность за устройство тоталитарного мышления на те социально-философские учения, которые отстаивали историцизм и профетизм, то есть убеждение, что возможно открыть законы истории и на этой основе давать долгосрочные исторические предсказания и даже создавать программы, рассчитанные на практическую реализацию этих предсказаний.

А свою концепцию демократии Карл Поппер изложил в книге «Открытое общество и его враги». Понятие «открытое общество» впервые введено в научный оборот французским философом Анри Бергсоном в «Двух источниках морали и религии» в 1932 г. и потом развито в работах австрийского философа Карла Поппера, написанных в годы второй мировой войны.

В ней автор рассматривает взгляды Платона, Гегеля и Карла Маркса на демократию и проводит их последовательную критику. Основа критики лежит в различной интерпретации и видении демократии.

В «Нищете историцизма» и «Открытом обществе» кроме собственно концепций социального знания рассматриваются множество вопросов, относящихся к власти, демократии, государству и др.

Противовес открытому обществу было и закрытое общество. Закрытым такое общество являлось благодаря наличию всевозможных табу, верований, запретов, слепого преклонения перед авторитетом вождя и коллективом, из-за чего человек жил не ради себя, а для рода, бога,

общества, семьи, друзей. В них проповедовалось «служение», а свободное поведение, в том числе в мыслях, осуждалось, проявление индивидуальности и забота о собственном благополучии было запрещено.

В этом отношении Поппер критикует социально-политические взгляды Платона. Как говорит Поппер, идеальным обществом в учении Платона является государство, базирующаяся на тоталитарной форме правления.

Как считал Поппер в своем общественно-политическом учении, Платон пытается, соединить такие две полярные силы как патриархальный строй и государство. Образцом такого общества во времена Платона считалось Спартанское общество. Анализируя эти полярные силыПоппер подчеркивал что в недрах древнего общества рождалось и развивалось принципиально иное общественное устройство. Это новое общественное устройство Поппер называет демократическим обществом и считает, что оно в полной мере развилось и проявилось в современном западном мире.

Итак, Поппер критиковал закрытое общество. Поскольку такая система не контактируется с окружающим миром и в неё ничего не привносится, то в ней нет развития или она идёт по одному пути, ведущем в мираж светлого будущего. В открытом же обществе существует множество способов развития. Безусловно выбирая, какой -либо путь открытое общество может ошибиться, однако, это не представляет смертельной угрозы, а в то же время подтолкнет его в сторону реального развития, отмечает Поппер.

## ЛИТЕРАТУРА

1. Критика К. Поппером «историцизма». С.Н. Мареев, Е.В. Мареева. История философии (общий курс). [Электронный ресурс]. // Полка букиниста
2. В.Н. Фадеева. Феномен социальной инженерии в концепции К. Поппера [Электронный ресурс]. // Научно техническая библиотека.
3. Поппер К. «Открытое общество и его враги», Киев, 2005. К. Поппер.
4. Открытое общество, государство и демократия в концепции Карла Поппера: http://www.prof.msu.ru/publ/omsk1/2_12.htm

# İSMAYIL BƏY QASPİRALININ SİYASİ-FƏLSƏFİ GÖRÜŞLƏRİ

***Güllər Məmmədova***
***BDU-nun II kurs magistrantı***
***memmedovaguler82@gmail.com***

XIX-XX əsrlərin böyük Türk mütəfəkkiri İsmayıl bəy Qaspıralının siyasi-fəlsəfi görüşləri öz dövrü üçün mühüm əhəmiyyətə malik olmuşdur və eyni zamanda onun fikirləri yalnız Kırım-Tatar Türkləri arasında deyil eləcə də Rusiya Müsəlmanlarının yaşadığı bütün ərazilərdə, bütün Türk dünyasında geniş şəkildə yayılmışdır. Qeyd etmək lazımdır ki, İsmayıl bəy Qaspıralının siyasi görüşlərin araşdırarkən onun "Tərcüman" (1883-1918) qəzetinə və orada toxunduğu məsələlərə nəzər salmaq lazımdır. Çünki belə demək mümkündürsə bu qəzet Rusiya Müsəlmanlarının problemlərini əks etdirən və bu sahədə İsmayıl Bəy Qaspıralının fikirlərinin tərcumanı olmuşdur. Bu qəzetdə yer alan məsələlər bunlar idi: ortaq dil məsələsi və bu istiqamət üzrə "Dildə, Fikirdə, İşdə birli" ideyasını irəli sürən Qaspıralı birliyin yalnız dil sahəsində

deyil eləcə də fikirdə və əmlədə birlik ilə ümümilikdə Türk birliyinin yaradılamsına çalışırdı. Lkin onu da vurğulamaq lazımdır ki, Qaspıralı Tərcüman qəzetindən Əvvəl Tonquç qəzetində dil haqqında fikirini bu sözlərlə çatdırırdı: Millətimizin əsəri olan dilimiz əbədi olaraq işlənməmiş olsa da təhsil və qaydalara riayət edə biləcək bir dildir. Kifayət qədər incə Tatar türkülərindən, Noqay cönklərindən, Qırğız və Türkmən cırlarından məlum olur ki, dilimiz usta tapıb, söz alınıb işlənərsə, indikinə görə daha çox parlaq və istifadə edilməyə yararlı olar. Arzumuz dilimizi inkişaf etdirməkdir. Müqəddimənin davamı olaraq iyirmi beş illik həyatı boyunca nələr etdiyini və bundan sonra nə edəcəyini belə izah edir: "İyirmi beş ildən bəri yazdığım, dediyim, çalışdığım budur. Yol açmaq, çarə açmaq  başqa bir şey deyildir.Çünki, nəcib, ömürlü, cəsarətli və səbirli olan Türk millətinin, pərakəndə düşüb Çin səddindən Ağdənizə qədər yayıldığı halda, nüfüzsuz, səssiz qaldığı dilsizliyindən, yəni lisanı-umumi (ortaq dilə) yə sahib olmadığından irəli gəlmişdir. Bu inancla yaşadım, bu inancla da məzara girəcəyəm" [1, s96].

İsmayıl Bəy Qaspıralının usanmadan mübarizə apardığı əsas məqsədi, həmçinin bəzi elm adamları tərəfindən utopya olaraq dəyərləndirilən və "Dildə, Fikirdə, İşdə Birlik" ifadəsində öz əksini tapan, yer üzərindəki bütün Türklərin tək vücud halına gəlməsidir. O, dünya üzərindəki Türklərə ayrı bir millət kimi adlar verilməsinin (Azəri, Başqurd, Qazax, Qaraqalpaq, Qırğız, Özbək, Tatar, Türkmən... və sair), Türk millətini bölüb parçalama oyununun ilk pərdəsi olduğunu,  bu oyunun ikinci pərdəsində isə Türk millətinin yox edilməsinin səhnələşdiriləcəyinin hələ gənc yaşlarında olarkən fərqinə varmış və bu oyuna qarşı necə davranılacağı barədə fikirlər irəli sürməyə başlamışdır.

İsmayıl bəy hər şeydən əvvəl Rusiya türlərinin ümumilikdə İslam dünyasının inkişaf etməsi üçün təhsilin vacibliyinə inanırdı və bu səbəbdən də "Üsuli-cədid"

məktəblərinin açılmasında və yayılmasında böyük rola malik olmuşdur. Həmçinin bu məktəblərdə təhsilin ana dilində aparılmasına da həsaslıq göstərilmişdir. Bundan əlavə bu bu məktəbin üstünlüyü ondan ibarətdir ki, bu məktəblərdə yalnız oğlan şagirdlər üçün deyil qız uşaqları üçün də dərslər və siniflər təşkil olunurdu. Bu da səbəbsiz deyildir, belə ki, İsmayıl bəy Qaspıralı qadına bir ana, həyat yoldaşı kimi böyük önəm verir və qadının uşqaların tərbiyyəsindəki roluna görə onun təhsil almasının vacibliyimə inanırdı. İsmayıl bəy bununla kifayətlənməyərək qadınların həm sosial həm də siyasi həyatda iştirakı üçün əlindən gələni etmişdir və "Aləmi-Nisvan (Qasınlar dünyası-1906-1910-cu illər müddətində fəaliyyətdə olmuşdur)" adlı jurnal çıxarmağa başlamışdır ki, bu jurnala ilk olaraq Qaspıralının həyat yoldaşı Zöhrə xanım, sonra isə qızı Şəfiqə xanım Qaspralı rəhbərlik etmişdir və bu jurnalda həyatın müxtəlif sferaları üzrə qadınlara məlumatlar çatdırılırdı.

İsmayıl bəy Qaspıralının siyasi fəlsəfi görüşlərindən danışarkən onun millət və din haqqında fikirlərinə nəzər salmaq lazımdır ki, təbii ki, bunu da Türk milləti və İslam dini timsalında nəzərdən keçirməliyik. Bunu da qeyd etmək lazımdır ki İsmayıl bəy din və milləti bi-birindən ayrı deyil vəhdət halında, bir-birini tamamlayan anlayışlar şəklində nəzərdən keçirirdi. İsmayıl Bəy Qaspıralının milliyətçilik anlayışı "Türklük şüurunu", "Türklük adını çox sıx vurğulamas ilə Türklükdə əksini tapmaqdadır: "hər hansı məkanda-coğrafiyada olursa olsun, hər hansı bir millət ilə qarışmış olursa olsun Türk övladı Türklüyü mühavizə etmişdir. Çöhrəssində və qiyafəsində Türklük, yaradılışında qədim türk səyi-cəsarəti(qayret) mövcuddur və dili də yenə Türk dilidir. Hər hansı müxtəlif bir ölkədən bir neçə türkü bir yerə toplayıb onlara nəzər salsaq hər birində o yerlərə xas olan izlərlə rastlaşacağımız kimi onların hamsında da ortaq nöqtə olan maddi və mənəvi Türklük xüsusiyyətin aydın şəkildə görə bilərik" [2, s. 425]. İsmayıl qaspıralı öz dövrünün şərtlərinə

uyğun olaraq Türk və Müsəlman  sözlərinin bir-birini əvəz edən sözlər olaraq istifadə edirdi və Bernard Lewis də  qərbdə türk və müsəlman sözlərinin bir-birinin yerinə işlədildiyinə diqqəti çəkirdi. Bununla birlikdə ismayıl bəy  rusiya türklərinə Müsəlmançılığın bir din və Türklüyün isə bir milliyət olduğu şüurunu təlqin etməyə çalışmışdır.

İsmayıl Bəy milləti tərif edərkən “dil və din birliyini” bir-birindən ayırmaz və bunlar arasındakı əlaqə haqqında bu sözləri deyir; “Milləti millət edən iki şeydir:tevhid-i lisan və tevhid-i dindir yəni vahid din və vahid dindir. Bunlardan hər hansı biri olmazsa tarazlıq pozularsa millət dərəcəsindən-rütbəsindən düşər, bəlkə batmağa, süquta uğrayar” [3].

İsmayıl Bəy İslam haqqında düşüncələrini ən açıq şəkildə “Darürrahat Müsülmanları” adlı ütopik əsərində görürük və o bu əsərdə xəyalındakı, arzuladığı İslam cəmiyyətini anlatmışdır. Eyni zamanda bu əsərində İsmayıl bəy müsəlman-ların digər millətlərdə niyə geri qaldıqları məsələsinə də toxunur və islam aləminin inkişafı üçün öz fikirlərini irəli sürürdü.

İsmayıl Bəy Qaspıralıya görə Türk milləti ifadəsinin, anlayışının ayrılmaz parcası İslamdır. Xalqın bu istiqamətdəki bağlılığını və mədəni quruluşunu başqa bir anlayış ilə əvəzləməsi halında öz idealları istiqamətində uğur qazanmaq şansı olmayacağının fərqində idi. Amma onun səyləri ənənəvi dini kimlik əsaslı mədəniyyəti, müasir mənada bir milli mədəniyyət və milli kimliyə razılıq daxilində çevirməkdir. İsmayıl Bəy xüsusilə İslamın mədəni, siyasi və sosial həmrəylik və birliyinin ortaq problemlərə gətirə biləcəyi tövhələr kontekstində İslam dininə və İslam dünyasına böyük maraq sərgiləməkdə idi.

## ƏDƏBİYYAT

1. Yusuf Akçura-Türkçülüğün tarihi Gelişimi.yeni yazı-1ci baskı.İstanbul,1978, S96 v.d
2. Gaspirali İ, Seçilmiş Eserleri: I Roman ve Hikayeler, Hazırlayanlar: Yavuz Akpınar-Bayrak Orak-Nazım Muradov, Ötüken Yayınları, İstanbul-2005.s. 425
3. "Lisan məsələsi", Tərcuam, 4 noyabr, sayı90

## ELMİ İDRAKIN METODOLOJİ PRİNSİPLƏRİ

***Ülkər Vəliyeva***
***BDU-nun II kurs magistrantı***
***veliyevaulker1997@gmail.com***

Dünyanın dərk edilməsi prosesi özünün ən yüksək və təmərgüzləşmiş ifadəsini məhz elmdə tapır. Elm insan fəaliyyətinin tarixən qərarlaşmış, dünyanın dərk olunmasına və onun praktik dəyişdirilməsinə yönəldilmiş formasıdır. Deməli, elmin qarşısında iki fundamental məqsəd durur: 1) Dünyanı dərk edib onun haqqında bilik qazanmaq; 2) Bu bilik əsasında təbiət və cəmiyyəti məqsədəuyğun şəkildə dəyişdirmək.Elmi ideyaları həqiqi elmdən necə fərqləndirmək məqsədilə elmin metodologiyasının müxtəlif istiqamətləri tərəfindən bir sıra metodoloji prinsiplər formula edilmişdir. Belə prinsiplərə verifikasiya, falsifikasiya, T.Kunun "paradiqmalar konsepsiyasını", İ.Lakatosun "tədqiqat proqramlarının metodologiyasını" aid etmək olar.

Verifikasiya hərfi mənası yoxlama deməkdir. Bu prinsipə görə, hər hansı bir anlayış və ya mühakimə yalnız o zaman məna kəsb edir ki, onun təcrübi bazası olsun, yəni o empirik üsulla yoxlana bilsin. Əgər həmin anlayış və ya mühakimə empirik yoxlamadan keçmirsə, o ya taftalogiya elan edilir,ya da heç bir məna kəsb etmir. İnkişaf etmiş nəzəriyyənin anlayışları

bir qayda olaraq təcrübi məlumatlara müncər edilə bilmədiyindən verifikasiya prinsipi onlara yalnız dolayı yolla tətbiq edilə bilir. Məsələn, müasir fizikada “Kvark” anlayışının təcrübi analoqunu tapmaq mümkün deyil. Buna baxmayaraq kvark nəzəriyyəsinin irəlicədən söylədiyi bir sıra hadisələri eksperimental yolla almaq mümkün olmuşdur.

Göründüyü kimi, verifikasiya prinsipi ilk yaxınlaşmada elmi biliyi psevdoelmi bilikdən fərqləndirməyə imkan verir. Lakin mümkün empirik faktların mövcud ideyanın xeyrinə şərh olunduğu bütün hallarda (məsələn, ideologiya, din, astrologiya və.s) bu prinsip öz qüvvəsini itirir. Belə hallarda elmi biliyi qeyri-elmi bilikdən fərqləndirmək üçün XX əsrin görkəmli filosofu K.Popperin təklif etdiyi falsifikasiya prinsipindən istifadə olunur. Bu prinsipə görə, nəzəriyyənin elmi status qazanmasının başlıca şərti onun saxtalaşdırılması və təkzib edilənliyi ola bilər. Başqa sözlə, bilik yalnız o zaman "elmi" dərəcəyə layiq görülə bilər ki, o prinsip etibarilə təkzib edilən olmuş olsun. Zahirən paradoksal görünməsinə baxmayaraq bu prinsipin sadə,lakin dərin mənası vardır. İdrakda təsdiqetmə və təkzib etmə üsullarının assimetriyasına ciddi fikir verən Popper irəli sürülən ixtiyari mühakimənin həqiqiliyinin yoxlanılmasının iki üsulunu təklif edir: a) mühakimənin həqiqiliyini təsdiq edə biləcək faktların axtarılması; b) mühakiməni təkzib edə biləcək faktların axtarılması. Popperin falsifikasiya prinsipi məhz mühakiməni təkzib edə bilən faktların axtarılmasına əsaslanır. Fikrimizə aydınlıq gətirmək üçün misallara müraciət edək. Belə bir mühakiməyə nəzər salaq: “Qışda bütün ağaclar yarpaqlarını tökür”. Aydındır ki, bu fikrin təsdiqi üçün milyardlarla ağacları yoxlamaq lazımdır. Halbuki həmin fikrin təkzibi üçün qışda təkcə bir ağacın yarpaq tökmədiyini müəyyənləşdirmək kifayətdir.

Ümumi mühakimənin təsdiqlənməsi ilə təkzib olunması arasındakı asimmetriya və induksiyadan biliyin həqiqiliyinin əsaslandırılması metodu kimi istifadə edilə bilməsi fikrinin ciddi

tənqid edilməsi Popperi falsifikasiya prinsipinə gətirib çıxarmışdır. Bu prinsipə görə, ağacdan qopub düşən almaların say çoxluğu ümumdünya cazibə qanununun həqiqiliyini təsdiq etmək üçün kifayət edə bilməz. Ancaq Yerdən yan keçən və buna görə də onun üzərinə düşməyən təkcə bir almanın müəyyən edilməsi faktı bu qanunun ödənilmədiyini, onun yalan olduğunu söyləmək üçün kifayətdir. Buna görə də Popperin fikrincə, nəzəriyyənin saxtalaşdırılması və ya təkzib edilməsi onun həqiqiliyinin və elmiliyinin təsdiq edilməsi baxımından daha səmərəlidir.

Verifikasiya və falsifikasiya prinsipləri ilə yanaşı T.Kunun paradiqmalar konsepsiyası da mühüm rol oynayır. Kunun konsepsiyasının mərkəzində hərfi mənası "nümunə" olan "paradiqma" anlayışı durur. Kunun təbirincə, paradiqma elmin inkişafının müəyyən dövründə ideyaların, metodların, konkret problemlərin, elmi ictimaiyyət tərəfindən həllinin hamılıqla qəbul edilən nümunələrinin məcmusudur. Bu anlayış, habelə tədqiqat istiqamətinin seçilməsinə təsir göstərərək biliyin təşkilinin üsulunu da ehtiva edir. Paradiqmanın nüvəsini fundamental nəzəriyyələr, qanunlar, tənliklər təşkil etsə də, paradiqmalı bilik bilavasitə izahedicilik funksiyasını yerinə yetirmədiyindən o "xalis" nəzəriyyə rolunu oynaya bilmir. O, müxtəlif nəzəriyyələrin qurulması və onların əsaslandırılmasının ilkin şərti olub, metanəzəri törəmə kimi elmi tədqiqatların ruhunu və üslubunu təşkil edir. Kunun təbirincə desək, paradiqma "hamılıqla qəbul edilən və müəyyən zaman müddətində elmi ictimaiyyətə problemlərin qoyuluşunu, modelini və həllini verən elmi naliyyətlərdən təşkil olunur".

Hakim paradiqma nəinki bir sıra ümumi müddəalar formula edir, o, həm də, öz çərçivəsi hüdudlarında həll edilə biləcək problemləri müəyyənləşdirir. Həmin problemlərin həlli üsullarını verən və onlardan hansının elmi, hansının isə yolverilməz olduğunu da açıqlayan paradiqma problemin nümunəvi həllinin köməyilə öz tərəfdarlarına müəyyən faktları

seçib ayırmaqla, onun vasitələrlə ifadə oluna bilməyən problemləri isə lüzumsuz bir fon kimi elmdən uzaqlaşdırmaq vərdişləri aşılayır. Kun elmi idrakda paradiqmanın rolunu belə ifadə edir: paradiqma alimin yaşayıb yaratdığı dünyanı yaradır. Buna görə də bir paradiqmadan digərinə keçidə bir dünyadan özünün dünyagörüşü, metodları, faktları, spesifik problemləri, hətta hissi qavrayışları ilə fərqlənən başqa bir dünyaya keçid kimi baxmaq lazımdır.

T.Kunun konsepsiyasına əks olan bir sıra alternativ konsepsiyalar vardır. Belə alternativ konsepsiyalardan İ.Lakatosun "tədqiqat proqramlarının metodologiyasını " ayrıca qeyd edə bilərik. Lakatosun fikrincə, elmin əsas nailiyyəti, elmi fəaliyyətin "vahidi" bir-birindən təcrid edilmiş nəzəriyyələr deyil, tədqiqat proqramları sayılmalıdır. Tədqiqat proqramı "bərk nüvə" və yardımçı hipotezlərin müdafiə zolağı ilə xarakterizə olunur. Bundan əlavə, tədqiqat proqramlarına "neqativ" və "pozitiv" evristika adlanan metodoloji qaydalar da əlavə olunur.

İ.Lakatosun tədqiqatlar proqramının əsas ideyası Puankaredən əxz olunmuşdur. Puankare belə güman edirdi ki, fizik həmişə hər hansı bir fiziki qanunu təcrübi faktlarla təkzib olunmayan prinsipə çevirmək imkanına malikdir. Təcrübi faktların qanuna zidd olduğu hallarda fizik bu uyğunsuzluğu qanunla birlikdə istifadə olunan əlavə hipotezlərlə əlaqələndirmək yolu ilə aradan qaldırır. Tədqiqat proqramlarının fəaliyyəti də məhz bu strategiyaya uyğun təşkil edilir. Proqramın neqativ evristikası "modus tollens"-i onun "bərk nüvəsinə" tətbiq etməyi qadağan edir. Bu qadağana əvəz olaraq alim öz yaradıcı qabiliyyətindən əlavə hipotezlərin yaradılması üçün də istifadə edir və bu sonuncular nüvə ətrafında müdafiə zolağı yaradaraq "modes tollens"-i onlara doğru istiqamətləndirir. Müsbət evristik isə hipotezlərin müdafiə zolağının yaradılmasının yolunu göstərir.

Puankerinin nöqteyi-nəzərinə görə fiziki qanunun prinsipə çevrilməsinin əsasını sadəlik mülahizəsi təşkil edir. Məsələn, Puankare belə güman edirdi ki, fizik evklid həndəsəsini həmişə fiziki həndəsə kimi qoruyub saxlamağa çalışır və bu məqsədlə digər fiziki qanunlardan yalnız ona görə imtina edir ki, məhz evklid həndəsəsi mövcud həndəsi sistemlər içərisində ən sadəsidir. Puankaredən fərli olaraq Lakatos empirik meyardan proqramın təkzibedilməz nüvəsini qoruyub saxlamaq məqsədilə istifadə etmişdir. Lakatosa görə proqram "mütərəqqi" olduğu müddətdə onun təcrübə ilə heç bir toqquşması baş vermir. Bu, o deməkdir ki, "mütərəqqi" proqramın nəzəri artımı onun empirik artımından geri qaldıqda proqram durğunluq və tənəzzül sahəsinə daxil olur və bu halda vəziyyəti yaxşılaşdırmaq üçün "modus tollesi"n onun nüvəsinə tətbiq edilməsi labüd olur.

Lakatosa görə elmi inqilablar tədqiqat proqramlarının bir-birini əvəz etməsi prosesidir. Lakatos fəlsəfi prinsiplərə hansı yeri ayırır? Lakatosa görə fəlsəfi prinsiplər elmi idraka nəzərən xarici amil olmayıb, elmin strukturuna daxil olan komponentlərdir. Fəlsəfi prinsiplər tədqiqat proqramlarının nüvəsinin məzmununa və pozitiv evristikasına daxildir. Lakatos fəlsəfənin öz konsepsiyasındakı rolunun Popper konsepsiyasındakı fəlsəfənin rolundan fərqini məhz bunda görür. O, yazır: "Popper üçün xarici nüfuzlu metafizika sayılan burada proqramın daxili" "bərk nüvəsinə" çevrilir. Lakatosun təbirincə, hər kəs tədqiqat proqramını pozitiv evristikanın "metafizik prinsipi" kimi formula edə bilər.

## ƏDƏBİYYAT

1. Ə.Məmmədov, V.İsmayılov, F.Məmmədov. "Rasionallıq və qeyri-rasionallıq". "Elm"nəşriyyatı, Bakı 2010 ,880 səh
2. Qəhrəmanov Nadir Fərrux oğlu, Məmmədov Əziz Bəşir oğlu, İsmayılov Vilayət oğlu. "Təbii-elmi biliyin fəlsəfi əsasları"."Elm"nəşriyyatı, Bakı 2014, 584 səh

3. Məmmədov Əziz Bəşir oğlu . “ Elmi idrak və onun inkişaf dialektikası”. “Səda” nəşriyyatı ,Bakı 1998, 109 səh
4. Məmmədov Ə.B Dialektik idrak və ümumelmi tədqiqat metodları. Bakı, Azərnəşr 1997, 287 s.
5. Məmmədov Ə.B , A.X.Mustafayev. Təbii-elmi idrak və insan dünyası. Bakı, Təknur nəşriyyatı 2011, 463 s.
6. Hacıyev Zeynəddin Camal oğlu. “Fəlsəfə” Ali məktəblər üçün dərslik . “Turan evi” nəşriyyatı, Bakı 2012, 488 səh
7. İmanov Həmid Rza oğlu. “Fəlsəfənin əsasları”. “Turan evi” nəşriyyatı, Bakı 2007, 438 səh

## İBN XƏLDUNUN İQTİSADİ NƏZƏRİYYƏSİ.

***Murad Həsənov***
***BDU-nun II kurs magistrantı***
***muro.hasanov.804@gmail.com***

İbn Xəldun müxtəlif mövzularda fikirlər irəli sürmüş XIV əsr müsəlman mütəfəkkiridir. Bir çox məsələlərə toxunduğu “Müqəddimə” əsərində eyni zamanda ölkələrin, xalqların yüksəliş və geriləmə səbəblərini tapmağa çalışmışdır. İbn Xəldunun iqtisadiyyat, iqtisadi siyasət mövzusunda olan bəzi araşdırmaları bugün üçün də keçərli hesab olunur. O, xüsusilə hökümətlərin pul qarşılığında döyüşən ordu üçün ayırdığı maliyyəni azaltmağı önəmli sayır. Bir sıra ölkələr bu təklifi dəyərləndirmiş, beləcə maliyyəni ordudan daha çox təhsil və digər sahələrə ayıraraq inkişaf etməyə çalışmışlar. İbn Xəldun eyni zamanda ticarəti və istehsalı əngəlləyən vergiləndirməyə də qarşı olmuşdur. O, dövlətin istehsalda və ticarətdə iştirakını düzgün hesab etmirdi. Bürokratların ticarətin önəmli qaydalarını anlamadıqlarını vurğulayan müəllif, onların tacirlərlə eyni imkanlara sahib olmadığını qeyd edirdi.

İqtisadiyyatın funksiyalarını sistem halına gətirən İbn Xəldun, iqtisadi sahənin inkişafını texniki sahə ilə, istehsal və

xarici ticarətin inkişafı ilə əlaqələndirirdi. Düşüncə tarixində İbn Xəlduna qədər heç kim onun "Müqəddimə"də etdiyi kimi mədəniyyətlərin, ölkələrin, imperatorluqların yüksəlişini və çöküşünü açıqlayacaq qədər tutarlı iqtisadiyyat nəzəriyyəsi yaratmayıb. O, yalnız dövlətin iqtisadi siyasətini, istehsal, ticarət və sairə kimi anlayışları izah etməmiş, eyni zamanda bunları müəyyən bir dövlətin nə qədərtətbiq edə biləcəyi ilə bağlı fikirlər də irəli sürmüşdür.

İbn Xəlduna görə dövlətin sosial, siyasi və iqtisadi sahədə nə qədər uğurlu olduğunu müəyyən etmək üçün idarəolunan toplumun rifahına diqqət etmək lazımdır [1]. Onun fikrincə dövlətin rolu iqtisadi fəaliyyəti dəstəkləyən qanunu və nizamı qorumaqdır. Bununla yanaşı dövlət, toplumda ticarət və istehsalın fasiləsiz olaraq işləməsi üçün mülkiyyət haqqlarını, ticarət yollarını, sülhü və sabitliyi qorumağa məcburdur. Müəllif dövlətlərin uzunömürlü olması üçün iqtisadi sahəni inkişaf etdirməyin vacibliyini vurğulayır. Dövlət iqtisadi sahədə sabitliyi qoruduğu və verdiyi dəstəyə görə kiçik bir vergi tələb etməlidir. Vergi sistemi elə təşkil olunmalıdır ki, dövlətin istehsala və ticarətə müdaxiləsi olmasın. Əksi təqdirdə iqtisadi sahənin zəifləməsi baş verər ki, bu da öz növbəsində dövlətin sonunu gətirə bilər. Müəllif bildirir ki, dövlətdəki mütləq gücün böyüməsi iqtisadi rifahın və bunun nəticəsində dövlətin gücünün azalmasının səbəbidir. Yüksək vergilər, şişirdilmiş muzdlu əsgər ordusu, bürokratik aparat insanların iqtisadi fəaliyyətlərini əngəlləyir.

İbn Xəldun, bir insanın davranışını və tarixini başa düşmək üçün iqtisadi, siyasi, sosial sahələri tədqiq etmişdir. Onun fikrincə, hər bir toplum müəyyən sahə üzrə ixtisaslaşmağa meyillidir. Toplum fərdləri sərf etdikləri əməyin nəticəsini gördükdə, bu nəticədən yararlana bildikdə ixtisaslaşma ortaya çıxır. Buna görə də qanuna və nizama uyğun olan ixtisaslaşma, əmək, ticarət, istehsal və sairə ilə əlaqəlidir. "Hər bir gəminin işçilərə və xüsusilə təcrübəli işçilərə ehtiyacı vardır. Müəyyən

bir sənətkarlıq sahəsindəki istehsal mərhələləri nə qədər çox və müxtəlifdirsə, o qədər çox insan buna qoşulur və hər işçi qrupu öz işi ilə maraqlanır. Yavaş-yavaş, müxtəlif iş növləri sənətkarlıqda getdikcə daha açıq şəkildə ortaya çıxır və bu sahədə işləyən insanlar gördükləri işdə daha çox təcrübə qazanırlar. Eyni hərəkətlərin zamanla davamlı təkrarı, sənətkarlığın müxtəlif sahələrinin yaradılmasına və ixtisaslaşmasına səbəb olur."[3]İbn Xəldun bunu, müxtəlif iş növlərinin ayrılmasının necə reallaşması haqqında danışarkən qeyd edir. İbn Xəlduna görə sülh şəraitində, hüquq və nizamın olduğu şərtlərdə fərqli iş növləri nə qədər çoxalarsa, əhali də o qədər çoxalar.

İbn Xəldun əmək bölgüsü haqda danışarkən ona səbəb olan bir səbəb göstərir. Onun fikrincə birlikdə işləməklə fərdlər ehtiyacı olduqlarından daha çoxunu istehsal etmiş olurlar. Yəni işçilərin birgə əməyi nəticəsində bu işçilərin sayından daha çox insanın ehtiyacını qarşılayacaq məhsul ortaya çıxır.

İbn Xəldun bir şəxsin əldə etdiyi karın əməyi sayəsində qazandığı dəyər olduğunu qeyd edirdi. Ancaq burada işçilərlə yanaşı sahibkarların da istehsal fəaliyyətlərini nəzərdə saxlamaq lazımdır. İdeal toplumda həm işçilərin karı, həm də sahibkarların fəaliyyəti göz önündə tutulmalıdır. İbn Xəlduna görə işçinin kar əldə etmək istəyi ticarət əlaqələrinin inkişafının başlıca səbəbidir və işçinin kar əldə etmək istəyi istehsalda artıma səbəb olur. Bununla yanaşı müəllif qeyd edir ki, ticarət, ucuz qiymətə mal satın alaraq onları yüksək qiymətə satmaq və sərmayə toplayaraq kar əldə etmək mənasını verir. İbn Xəldun üçün bir şəxsin qazandığı karın əməyindən aldığı dəyər olduğu məlumdur. Lakin bu əməyin qiyməti tələb-təklif qanunu əsasında müəyyən edilir. Onun fikrincə məhsul nadir və tələb olunandırsa onun qiyməti yüksək olur. Tacir daha ucuz və qıt olmayan bir məhsulu satın almalı və həmin məhsula yüksək ehtiyac duyulduğu anda onu yüksək qiymətə satacaqdır [2].

İbn Xəldun bir mədəniyyətin həyatda qalması üçün mülkiyyət haqlarının qorunmasını və sağlam şəkildə tətbiq olunmasını önəmli hesab edir. Onun fikrincə mülkiyyət haqqı qorunmaz və müdafiə olunmazsa iqtisadi fəaliyyətdə geriləmə müşahidə olunacaqdır. Çünki mülk əldə etmək çətinləşdikdə heç kim onu əldə etməyə cəhd göstərməyəcəkdir.

İbn Xəlduna görə insan yalnız mülk vasitəsilə varlığını davam etdirir. Mülkiyyətə başqaları tərəfindən təcavüz olunması haqqsız hərəkətdir. Müəllif mülkiyyətə təcavüz deyərkən qanuni olmayan vergiləri, şəxsin mülkünü almaq istəyənləri nəzərdə tutur. Şəxsin mülkiyyəti qorunmadıqda, mülkiyyəti zorla əlindən alındıqda ədalətsizlik bərqərar olar və bunun da nəticəsi olaraq mədəniyyət tənəzzül edər. O, mülkiyyət hüququ və ədalətli cəmiyyət haqda danışarkən İslam dinindən örnəklər verir.

Beləliklə İbn Xəldun insanı, toplumu, dövləti analiz edərkən onların qarşılıqlı əlaqədə olduğu sahələri diqqət mərkəzinə gətirir. Mədəniyyətlərin yüksəlməsində və yaxud çöküşündə iqtisadiyyatla olan bağlılığı izah edir. "Rahat yaşam arzusu, mübarizə və çətinliklərin öhdəsindən gəlmək üçün insana ilham verir. Sonra insan münaqişəyə girər amma daha əvvəl qeyd etdiyimiz ümidləri üçün deyil. Aclıq qorxusuyla yaşadığı üçün, yalnız həyatda qalmaq üçün savaşır." [2].

İbn Xəldunun iqtisadi sahə ilə bağlı bir sıra mütəfəkkirlərdən bir neçə yüz il əvvəl əsas iqtisadi anlayışları kəşf etdiyini demək olar.

## ƏDƏBİYYAT

1. Rüstəmov Yusif. Siyasi-hüquqi təlimlər tarixi. Bakı: AzərbaycanUniversiteti, Bakı, 2000
2. Prof. Dr. Recep Şentürk. "İbn Haldun Güncel okumalar". İstanbul, 2017

3. İbn Haldun- “Mukaddime” (Süleyman Uludağ tərcüməsində) İstanbul, 2017

## MÜASİR ELMDƏ “HƏQİQƏT” ANLAYIŞI VƏ ONUN METODOLOGİYASI

***Şəmsəddin Cəfərov***
***BDU-nun II kurs magistrantı***
sjafarov9@gmail.com

Həqiqət problemi idrak fəlsəfəsində aparıcı rol oynayır. Fəlsəfi idrak nəzəriyyəsinin bütün problemləri ya həqiqətə nail olma vasitə və yollarına (hissi və rasional, intuitiv və diskursiv və s.), ya da ki, həqiətin mövcudluq formalarına (fakt, hipotez, nəzəriyyə və s. anlayışları), onun həyata keçirilməsi formalarına, idraki münasibətlərin strukturuna və s. aiddir. Bütün bunlar bu problem ətrafında cəmləşir, onu konkretləşdirir və tamamlayır.

Həqiqət problemi ümumi dünyagörüşü problemlər sistemində ən mühüm yeri tutur. O, ədalət, xeyir, həyatın mənası kimi anlayışlarla eyni gərcədə durur.

Həqiqət problemi ilk baxışdan adi görünsə də, belə deyil. Demokritin atomistik nəzəriyyəsinin taleyini xatırlatmaq kifayətdir. Onun əsas müddəası “bütün cisimlər atomlardan ibarətdir, atomlar bölünməzdir” olmuşdur. Müasir elm nöqteyinəzərdən bu müddəa düzgündürmü? Müasir elm atomun bölünə bildiyini sübut etmişdi. Bəs onda bu fikir yanlışdırmı? Əgər onu yanlış hesab etsək, onda bu, subyektivizm olmazmı? Özünün həqiqiliyini praktiki olaraq sübut etmiş hər hansı bir konsepsiya (Demokritin atomistik nəzəriyyəsi məhz bu konsepsiyalardandır) necə yanlış ola bilər? Onda belə çıxır ki, bu günkü sosioloji, fiziki, fəlsəfi nəzəriyyələr də yalnız bu gün

həqiqidirlər, sabah, 10, 100 ildən sonra isə yanlış olacaqdırlar. Bəlkə biz yanlışlarla məşğuluq? Bu, volyuntarizm deyilmi?

Biz bunu istəmiriksə, o zaman Demokritin konsepsiyasını yanlış elan edən alternativ mövqeni də atmaq lazım gələcəkdir. Deməli, antik dünyanın atomist nəzəriyyəsi, elə XVII-XVIII əsrlərin atomiztik nəzəriyyəsi də nə həqiqət, nə də yanlışdır.

Fəlsəfi mənada həqiqət problemi biliyin həqiqiliyi məsələsindən daha genişdir. Beləki, biz "həqiqi həyat tərzi", "həqiqi gözəllik"dən bəhs edirik. Nisbətən dar qnoseoloji mənada həqiqlik dedikdə reallığın bilikdə dəqiq və düzgün inikası başa düşülür. Həqiqtin klassik konsepsiyasını formülə etmiş Aristotel həqiqəti məhz bu cür şərh edirdi.

Bu konsepsiyaya görə, həqiqət təsəvvürlərin və ya fikirlərin real vəziyyətə uyğunluğu deməkdir. Burada əsas ideya uyğunluq ideyası (korespondensiya) olduğundan bu konsepsiyanı "həqiqətin korespondent nəzəriyyəsi" adlandırırlar (Aristotel, Spinoza, Didro, Helvetsi, Holbax, Feyerbax, Marks).

Beləliklə, idrak prosesində əldə etdiyimiz biliklərin ətraf gerçəkliyi yeni şəklə salmaqda faydalı olması üçün onlar onunla müəyyən uyğunluqda olmalıdırlar. Biliklərin obyektiv gerçəkliyə uyğunluğu problemi də fəlsəfədə həqiqət problemi kimi məlumdur. Biliyin strukturunda iki qatı qeyd etmək olar. Onlardan biri insanın sosial və bioloji təşkilindən, sinir sisteminin, beyninin xassələrindən, informasiyanı emal etmə üsullarından, bu mədəniyyətin özəlliklərindən, tarixi dövrdən, dildən və s. asılıdır. Digər qat isə obyektiv reallıqldan, idrakda əks etdirilən hadisə və proseslərin spesifikliyindən asılıdır. Bu mənada meydana çıxan məsələrdən ən vacibi aşağdakıdır: bizim biliklərimizdən nə fərdi innsandan, nə də bəşəriyyətdən asılı olmayan hansısa məzmunu qeydə almaq mümkündürmü? Biliyin həqiqiliyi problemində bu, əsas məsələdir.

İnsandan və bəşəriyyətdən asılı olmayan bir şeyi ondan asılı olan şeydən hansı üsula ayırmalı? Fəlsəfə tarixində bu

məsələyə iki yanaşma mövcud idi. Birinciyə biliklərin və onlara aparan mülahizələrin məntiqi təhliliaiddir. Platon, məsələn, hesabe dirdiki, həqiqi yalnız əbədi və dəyişməz ideyalar haqqında biliklər ola bilər. Lakin belə olduqda maddi dəyişkən proseslər, təbiət və cəmiyyət haqqında biliklərimizin yanlış olduğunu söyləməliyik, çünki Platonun rəylər adlandırdığı bu bilikləri yalnız məntiqi mülahizələr yolu ilə əldə etmək və ya yoxlamaq mümükn deyil. İkinici üsula hissi seyr, müşahidə aiddir. Lakin hiss qavrama bizə abstrakt biliklər, məsələn, riyazi aksiomları, verə bilməz, bundan əlavə, onların yoxlanması vasitəsi, gerçəkliyiə uyğunluğunun meyarı ola bilməz

Konkret həqiqət anlamına zamana işarə daxildir. Başqa sözlə, burada obyektin mövcudluq zamanı və onun subyekt tərəfindən əks etdirilməsi məqamı və ya dövrü nəzərdə tutulur. "Obyektin zamanı" və ya "subyektin zamanı" dəyişərsə, onda bilik öz obyektivliyini itirə bilər.

Hamıya məlumdur ki, elmin əsas məqsədi həqiqi biliyi əldə etməkdir. Buna görədə elmi biliyin quruluşu və inkişafını araşdıran elm fəlsəfəsində həqiqət anlayışının mərkəzi yerlərdən birini tutmalıdır. Lakin bu heç də belə deyildir. Hətta son illərin fəlsəfi-metodoloji ədəbiyyatında həqiqət anlayışına demək olarki, rast gəlinmir.

Lakin XIX əsrin sonu-XX əsrin əvvəllərində elmin inkişafı, elm dilinin məntiqi-semantik təhlil vasitələrinin meydana gəlməsi klassik həqiqət konsepsiyası qarşısında ciddi problemlər qoymuşdu. Fizikada klassik elmin materiya, zaman və məkan haqqında fundamental təsəvvürlərinə yenidən baxılması ilə əlaqədar baş vermiş inqilab göstərdiki, yüz illər ərzində heç bir şübhə doğurmayan, praktikada geniş tətbiq olunan və insan fəaliyyətinin nəhəng materiallarında öz təsdiqini tapan nəzəriyyələr buna baxmayaraq sözün əsl mənasında doğru deyildirlər. Əgər indiyədək klassik konsepsiya sərt həqiqət-yalan dixotomiyasına arxalanmışdırsa, kvant

mexanikası və nisbilik nəzəriyyəsinin meydana gəlməsi ilə əlaqədar bu dixotomiyanı əhəmiyyətli şəkildə yumşaltmaq lazım gəldi. Əlbəttə, 300 il bundan əvvəl kainatın geosentrik mənzərəsinin yanlış olması aşkar edildiyi kimi, bu dixotomiya nöqteyi-nəzərdən klassik mexanikanın da sadəcə yalan konsepsiya olduğu məlum oldu.

## ƏDƏBİYYAT

1. По тронам науки. М., 1962.
2. А.Эйнштса, Л.Инфельд . Эволюция физики. М., 1948.
3. İmanovHəmidRzaoğluB.: Turanevi, 2009. -438 s.
4. Заблуждение//Философская энциклопедия. Т.2.М., 1962.
5. Поппер К. Логика и рост научного знания. М., 1983.с.347.

# "HƏYATIN MƏNASI" ANLAYIŞININ FƏLSƏFƏDƏ YERİ VƏ ROLU

***Tural Hacıbəyli***
***BDU-nun II kurs magistrantı***
***tvhacibeyli@gmail.com***

Fəlsəfədə "həyatın mənası" anlayışı,fəlsəfənin toplumda yarandığı ilk gündən yəni insanın düşünməyə başladığı ilk vaxtdan var olmuş fenomen anlayışdır.İnsanları daima dünyaya niyə gəldikləri,nə üçün yaşadıqları,ölümdən sonra onları nələrin gözlədiyi maraqlandırmışdır.Filosoflar daima ilk başlanğıcı yaxud həyatın mənası anlayışlarını tədqiq edərək bu suallara cavab axtarmağa çalışmışlar. Həyatın mənasını anlamaq, onun həqiqətlərini və dəyərlərini fikrimizdə – hissi – irrasional sferada zənginləşmiş hadisələri dərk etmək və bunun nəticələrini fəaliyyətimizdə, davranışımızda, münasibətlərimizdə həyata keçirməkdir. Qeyd etmək olar ki, həyatın

mənasını anlamaq insanın öz tələbatlarını realizə etməsi və ya öz varlığını anlaması üsuludur. Belə olduqda həyatın mənası və onun anlanılması insanın bilavasitə maddi və cismani varlığına təsir edən ruhi varlığının müəyyən üsuludur.Həyatın mənası fenomeninin məğzini təşkil edən bu sualları mahiyyət xarakterinə görə belə qruplaşdırmaq olar:

1) ontoloji (insanın varlığı, onun sonluluğu və sonsuzluğu, əbədiliyi) haqqında suallar;

2) qnoseoloji (mənim dünya haqqında, özüm və özümün bu dünyada yerim haqqında təsəvvürlərimin həqiqiliyi probleminə aid olan suallar);

3) aksioloji (bu dünyanın və özümün mövcudluğumun dəyərlərinə aid olan suallar).

Tarixi inkişafın müxtəlif mərhələlərində insanlar həyatın mənası məsələsini mücərrəd deyil, mövcud konkret tarixi şəraitdən və özlərinin dünyagörüşlərinin prinsiplərini əsasında həll etmişdirlər. Həyatın mənası haqqında düşüncələr insanda öz «Mən»ini, əmək fəaliyyəti prosesində öz ləyaqətini və həyatının əhəmiyyətini, dəyərini dərk etdikdə yaranır. Həyatın mənasını dərk edən insan özünün yaradıcı – fəaliyyət mahiyyətini həyata keçirir. Buna görə də həyatın mənası haqqında hamıya və bütün dövrlərə məxsus olan, ümumi formula vermək mümkün deyildir.

Dini-fəlsəfi təsəvvürlərə görə, bütün insanlar üçün həyat eyni olduğu üçün onun mənası da eynidir. Belə ki, onlarda bir məqsəd, bir inam – Allah vardır. Bu təsəvvürə görə, həyatın son məqsədi Allahdır. İnsanın təbii məqsədi öz xoşbəxtliyini əldə edib, onu kamilləşdirməkdir. Lakin sonra insan dərk edir ki, bu dünyada tam xoşbəxtliyə nail olmaq mümkün deyildir. İnsanın xoşbəxt olmaq arzusunu təmin etməyə ancaq Allah qadirdir. İlahi ilə ünsiyyət xoşbəxtliyi təmin edə bilər. Bu dünyadakı həyatın məqsədi axirət dünyasında tam xoşbəxtliyə nail olmaq üçün bir hazırlıqdır.

Həyatın mənası anlayışını bir qədər konkretləşdirsək, onun özündə insan nə üçün yaşayır və nə üçün yaradır kimi

keyfiyyətləri ehtiva etdiyini deyə bilərik. Hər bir şəxsin öz həyatının mənasını necə başa düşməsi onun əxlaqından, davranışından, yaxınlarına, doğmalarına və bir qədər kənarda olanlara və bütünlükdə cəmiyyətə münasibətindən asılıdır. Həyatın mənası anlayışının məzmununa daxil olan keyfiyyətlər şəxsiyyətin formalaşmasına xeyli təsir göstərir. Tarixi inkişafın müxtəlif mərhələlərində insanlar həyatın mənası məsələsini mücərrəd deyil, mövcud konkret tarixi şəraitdən və özlərinin dünyagörüşlərinin prinsiplərini əsasında həll etmişdirlər.

İnsan həyatda bir dəfə yaşadığını, ölümün qaçılmaz olduğunu başa düşdüyü üçün öz fəaliyyətini, imkanlarını mükəmməlləşdirir. Həyatın hüdudunun məhdud olması insanı sonsuz, təxirəsalınmaz qərarlar qəbul etməyə və fəaliyyət göstərməyə səfərbər edir. İnsan heç də ölümün qaçılmaz olduğunu qabaqcadan gördüyü üçün deyil, öz zəruri tələbatı üçün fəaliyyət göstərir.

## ƏDƏBİYYAT

1. Мысливченко А.Г. Человек как предмет философского познания. М.: Мысл, 1972, 190 с.
2. S.H.İmanov Fəlsəfənin əsasları Dərslik, Bakı: 2007, 451 s
3. Hazlett, Allan, The Myth of Factive Verbs, Philosophy and Phenomenological Research, 2010, 497–522 p
4. R.Ə.Mehdiyev Fəlsəfə ali məktəblər üçün dərs vəsaiti layihənin rəhbəri. A.Aslanov; elmi red. B.Əliyev; red. D.İsmayılov; tərc.red. O.Məmmədov; rəyçi.Azərb.Resp. Prezidentiyan. Dövlət İdarəçilik Akad, Şərq-Qərb, Bakı: 2010, 359 s.

# PSİXOLOGİYABÖLMƏSİ

***Bölmə rəhbəri – dos.Mirələm Vəliyev***

## TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ SƏVİYYƏLƏRİ

***dos. Aydan Səməndərova***
***BDU-nun Psixologiya kafedrası***

Tələbənin idrak fəallığı onun qarşıya qoyulmuş müəyyən idraki məqsədlərə nail olması üçün bütün iradi və idrak proseslərinin kompleksinin vəhdətində təzahür edən inteqral keyfiyyətidir.

Heç şübhəsiz ki, müəyyən biliklərin mənimsənilməsi tələbənin idrak fəallığı olmadan mümkün deyil. İdrak fəallığı nümayiş etdirən tələbələr üçün biliklərə hərtərəfli və dərin maraq, diqqətin həmin məsələ üzərində mərkəzləşməsi, qarşıya qoyulmuş məqsədə çatmaq üçün ciddi əqli və fiziki səy göstərmək səciyyəvidir. Tələbənin idrak fəallığı onun təlimin məzmununa və təhsil alması prosesinə, idrak fəaliyyətinin özünə münasibətində təzahür edir.

Bu istiqamətdə aparılmış tədqiqatlarda tələbələrin idrak fəallığında iki əsas səviyyəni fərqləndirirlər: I səviyyə- bərpaetmə elementləri üstünlük təşkil edən fəaliyyət; II səviyyə- yaradıcılıq elementləri üstünlük təşkil edən fəaliyyət [2, səh.27].

Müəlliflərdən R.A.Nizamov bu səviyyələri müvafiq olaraq icraedici və yaradığı fəallıq kimi adlandırır.

Şukina bu səviyyələri reproduktiv-təqlidedici (bu halda tələbənin öz fəallığı kifayət qədər olmur) və axtarış-icra kimi fərqləndirir. İkinci səviyyədə tələbə artıq müstəqil olaraq qarşıya qoyulmuş məsələlələrin həllini tapmağa çalışır. 3-cü səviyyə yaradıcı səviyyə adlanır – bu halda həm təlimlə bağlı

məsələlər, həm də onun həlli yolları tələbənin özü tərəfindən təklif edilir.

T.İ.Şamova idrak fəallığının aşağıdakı səviyyələrini fərqləndirir: bərpaedici (bu halda tələbə bilikləri verilmiş nümunəyə əsasən mənimsəməyə və yaddasaxlamağa çalışır. İkinici izah səviyyəsi adlanır. Bu halda tələbə öyrəndiyi məsələlərin mənasını dərk etməyə, onların mahiyyətinə varmağa, müəyyən təzahür və proseslər arasındakı əlaqəni dərk etməyə, eləcə də dəyişən situasiyada bilikləri tətbiq etmək üsullarına yiyələnməyə çalışır.

Üçüncü səviyyə yaradıcı səviyyə adlaınr. Bu halda tələbə təkcə təzahürlərin, onlar arasındakı qarşılıqlı əlaqənin mahiyyətinə varmağa maraq göstərmir, həm də bu məqsəd üçün yeni üsullar axtarır.

Korotkova da idrak fəallığının 3 səviyyəni fərqləndirir:

Sıfır səviyyəsi – bu səviyyədə təlim fəaliyyətinə münasibət indifferent səciyyə daşıyır. 1- səviyyə nisbi fəallıq adlanır- sıfır səviyyəsindən tələbənin icra mövqeyinə sabit keçid mərhələsi 3-cü yaradı səviyyə adlanır.

D.B.Boqoyavlenskiyə görə də idrak fəallığında 3 səviyyə fərqləndirilir [1,səh.25]:

1) Stumullaşdırıcı-məhsuldar, passiv – tələbə çox enerji ilə işləsə də, ilkin hərəkət üsulunun hüdudlarından kənara çıxmır. Qarşıya qoyulmuş məsələlər  digər məsələlərlə əlaqəli şəkildə təhlil edilmir.

2) Evristik səviyyə - bir sıra məsələlər qarşılaşdırılır və nəticədə məsələlər sistemi üçün ümumi olar yeni qanunauyğunluqlar müəyyən edilir.

3) Kreativ səviyyə - bu səviyyədə  müəyyən edilmiş qanunauyğunluq sadəcə həll üçün nümunə olmur, eyni zamanda müstəqil probelmə çevrilir. Bu problemin öyrənilməsi üçün tələbə daxildən movtiləşən fəaliyyətə başlamağa hazır olur.

Bu səviyyələrin hər birinin fəallığı situativ, epizodik səciyyə daşıya, eləcə də tələbənin sabit şəxsiyyət keyfiyyətinə çevrilə bilər. Başqa sözlə, tələbənin fəaliyyətə münasibətinin nə qədər sabit olmasından asılı olaraq biz situativ (bu halda tələbənin fəallığı yalnız müəyyən hallarda ayrı-ayrı təlim fəaliyyəti növlərində təzahür edir) və yaradıcı fəallığı fərqləndirə (bu halda tələbədə güclü və davamlı idrak fəaliyyəti motivləri müşahidə edilir) bilərik.

Tələbənin idrak fəallığında məhz idraki motivlər mühüm rol oynayır. Məhz bu motivlər digər bərabər şərtlər daxilində tələbənin idrak fəaliyyətinin maksimal səmərəliliyini təmin edir, tələbəni mühazirədə eşitdiyi informasiya ilə oxuduğu informasiyanı tutuşdurmağa, mətnin müxtəlif hissələrini müqayisə və təhlil etməyə, əlavə ədəbiyyata müraciət etməyə, özünə aydın olan konspektlər tutmağa, referat yazmağa təhrik edir. İstənilən digər motiv qaçınılmaz olaraq fəaliyyətin təhrif olunmuş inikasına səbəb olacaq. Başqa tələbələrin qarşında biliklərini nümayiş etdirmək istəyi lazımi informasiyada onun diqqətini mərkəzləşdirməyə gətirəcək. Uğursuzluq qorxusu isə tələbəni biliklərin formal mənimsənilməsindən çəkindirəcək.

## ƏDƏBİYYAT


1. Богоявленская Д.Б. Интеллектуальная активность как проблема творчества. Ростов на Дону, 2007
2. Гусева Т.А. Психология познавательной активности: системно-стилевое исследование: монография. Бийск, 2006

# MƏKTƏB MÜHİTİNDƏ BULLİNQİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Aydan Əliyeva***
***BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin IV kurs tələbəsi***

Son zamanlar dünyanın bütün ölkələrində təhsil müəssisələrində müşahidə olunan ən qabarıq problemlərdən biri də bullinqdir. Bullinq şüurlu şəkildə bir qrup şagirdin digər şagirdlərə şifahi hücum, fiziki zorakılıq və ya manipulyasiya yolu ilə zərər verən davranışdır. Bullinqin şagirdlər üçün ciddi bir travma olduğu və onun neqativ təsirlərinin məktəb vaxtı ilə bitməyib, şəxsin bütün həyatını əhatə etdiyi və cəmiyyət üçün təhlükə yaratdığı təsdiqlənmişdir.

Bullinq aralarında fiziki və ya psixoloji baxımdan bir güc bərabərsizliyi olan uşaqlardan güclünün, qarşı tərəfə bilərək və istəyərək, niyyətli, qəsdən və sistemli bir şəkildə müəyyən zaman aralıqları ilə tətbiq etdiyi, qurbanda qorxu, narahatlıq və ya zərər vermə məqsədi güdən, fiziki, şifahi, psixoloji hücum və qorxunu əhatə edir.

Məktəb mühitində bullinq problemi ilk dəfə ötən əsrin 70-ci illərində skandinaviya tədqiqatçıları D.Olveus, P.Xayneman, A.Pikas, E.Roland tərəfindən öyrənilməyə başlanmışdı. Onlar bullinqin konsepsiyasını işləyib hazırlamış (bullying, ingiliscə bully sözündən göütülmüş – xuliqan) və onu diskriminasiya kimi müəyyən etmişlər.

Skandinaviyalı alim Den Olveus 70-ci illərin sonlarından başlayaraq oğlanlar arasında bullinqi tədqiq edirdi. D.Olveus bullinqi zorakılığın xüsusi bir növü kimi nəzərdən keçirirdi. Bu zaman bir şagird yaxud şagirdlər qrupu fiziki olaraq özünü müdafiə edə bilməyən zəif şagirdə hədə-qorxu gəlir, yaxud fiziki olaraq ona hücum edir. D.Olveusun fikrincə, bullinq həm

psixoloji, həm də intellektual aspektdə təzahür edə bilər, uzunmüddətlilik, sistematikliklə səciyyələnə bilər.

Beləliklə də, bullinq zamanı bullerlə qurbanın mövqeyi bir-birinə uyğun gəlmir. Buller fiziki və ya psixoloji təbiətli üstünlüyə malik olduğu halda, qurban özünü müdafiə etmək imkanına malik olmur. Bundan başqa, bullinq qurbana qəsdən ziyan vurmaq və iztirab yaşatmaq, qurbanı özünə əminlikdən, müqavimət göstərməkdən məhrum etməklə, onu alçaltmaqla və ləyaqətinə toxunmaq, fiziki və psixi sağlamlığına xələl yetirməklə və s. xarakterizə olunur [1, s .29].

Məktəb mühitində bullinqin təzahürünə bir sıra amillər təsir göstərir [2, s.47]:

1. Şəxsi amillər (pis tərbiyə, qeyri-adekvat aşağı və ya yuxarı özünü qiymətləndirmə, impulsivlik);

2. Davranış amilləri (ətrafdakılara mane olan davranış, vandalizm, məktəbdə aşağı davamiyyət, erkən seksual kontakt, erkən məhkumluq);

3. Sosial amillər (cəmiyyətdə mövcud olan zorakılıq kultu, KİV-in təsiri, valideynlərin təsiri, yayınan davranışı olan dostların təsiri);

4. Ailədaxili konfliklər (valideynlərin boşanması, ailədə ikinci uşağın dünyaya gəlməsi, davamiyyətlə, məktəbdəki nailiyyətlərlə bağlı, uşağın imkanları ilə uyğun gəlməyən yüksək tələblər);

5. Şəxsi problemlər (cinsi yetişkənlik dövrünün başlanması və bununla bağlı fizioloji və psixoloji xarakterli problemlər).

Qeyd edilən amillərlə yanaşı bullinq aşağıdakı səbəblərdən də təzahür edə bilər. Belə ki, qurbanın bullinqə məruz qalmasına səbəb zahiri görünüşü, dialekti, aşağı və ya yüksək özünüqiymətləndirməsi, qorxu və həyəcan, hədsiz həssaslığı, qabarıq ifadə olunmuş fiziki xəstəliyi, təlimdə qazandığı uğurları və ya uğursuzluqları, geyim tərzi, dayaq-hərəkət aparatının xəstəlikləri, populyarlığı, digər şagirdlərin qoyduqları qaydaları pozması və s. ola bilər. Bullerin kiminsə bullinqə

məruz qoyma səbəbi kimi isə özünə diqqəti cəlb etmək, intiqam almaq, status uğrunda mübarizə, ədaləti bərqərar etmək, paxıllıq, rəqibi kənarlaşdırmaq və s. ola bilər.

Bullinqin növləri ilə bağlı müxtəlif təsnifatlar mövcuddur. Bu təsnifatları ümumiləşdirərək bullinqin aşağıdakı növlərini göstərmək olar: fiziki zorakılıq, emosional zorakılıq, seksual zorakılıq, iqtisadi zorakılıq, kiberbullinq – mobil telefondan, çatdan, e-maildən istifadə ilə, sosial şəbəkələr vasitəsilə, video portallardan istifadə ilə və s.

Məktəb bullinqinə məruz qalmış uşaq və yeniyetmələr tez-tez baş ağrısından, yuxunun pozulmasından, mədə-bağırsaq ağrılarından, qorxulardan, pis əhvaldan, iştahın pozulmasından, depressiya və həyəcanın digər simptomlarından şikayətlənir. Bu uşaqlarda bullinqə məruz qalmayanlarla müqayisədə depressiyanın səviyyəsi 3-7 dəfə daha yüksək olur. Bullinq qurbanlarında aşağı özünüqiymətləndirmə, depressiv və həyəcan pozuntuları, suisidal fikir və cəhdlər müşahidə edilir [3, s.585].

Hər hansı vəziyyətdə ortaya çıxan bullinqə düzgün reaksiya verməmək, onun təkrarlanmasına şərait yaratmaq deməkdir. Bullinq şagirdlərin fiziki və psixoloji sağlamlığına ciddi ziyan vurduğuna, hətta bəzi hallarda intihara səbəb olduğunu görə hər bir məktəbdə bullinqin profilaktikası ən vacib vəzifə kimi qarşıya qoyulmalı, onun qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görülməlidir.

## ƏDƏBİYYAT

1. Лейн Д.А. Школьная травля (буллинг). Питер, 2001

2. Руланн Э. Как остановить травлю в школе: Психология моббинга. Москва, 2012

3. Rigby K. Consequences of bullying in schools // Canad. J. Psychiatry. 2003, №9, v. 48, p. 583-590

# DERMATOLOJİ XƏSTƏLİKLƏR VƏ ONLARIN ŞƏXSİYYƏTƏ PSİXOLOJİ TƏSİRİ


***Elmi rəhbər:* dos. Sevinc Allahyarova**

***İradə Həsənova***

***BDU-nun II kurs magistrantı***


Dəri xarici mühitlə daim təmasda olduğu üçün xəstəliklərin meydana gəlməsinə açıq bir orqandır. Gündəlik həyatda ətraf mühit amillərinə, kimyəvi maddələrə, allergenlərə və buna bənzər stimullaşdırıcı maddələrə tez-tez məruz qalması səbəbi ilə dermatoloji xəstəliklərin ortaya çıxmasını asanlaşdıra bilər. Dəridə meydana gələ biləcək xəstəliklər bəzi hallarda estetik və kosmetik problemlərə, bəzi hallarda gündəlik funksiyaların yerinə yetirilməsində çətinliklərə səbəb ola bilər.

Dermatoloji simptomların başlanmasının orta yaşı - 28 yaş - gənc əmək qabiliyyətli bir həyat dövrünə düşür. Son illərdə xəstəliyin mütərəqqi cavanlaşması və müalicəyə davamlı formalarda artım müşahidə olunur. Bir çox müəlliflər dermatozun meydana gəlməsində və şiddətlənməsində sosial və fərdi-psixoloji amillərin əhəmiyyətini qeyd edir, psoriazın kompleks müalicəsində neyroqulatuar korreksiyaya ehtiyac olduğunu göstərir. Son zamanlar xəstəliyin psixoneyroimmün aspektlərinin öyrənilməsi tədqiqatçıların diqqətini cəlb edir. Prosesi alovlandıran amil olaraq stressin əhəmiyyəti, müəyyən bir irsi şərt olmadan spontan formaların sayının artması, xəstələrin bu kontingentinə psixoloji yardım göstərməyin əhəmiyyəti bir çox əsərdə göstərilmişdir.

Hal-hazırda dermatozların müalicəsinin effektivliyi yalnız fizioloji göstəricilərə görə qiymətləndirilir. Eyni zamanda, kompleks müalicə-reabilitasiya tədbirlərinin optimallaşdırılmasında və effektivliyinin artırılmasında şəxsiyyətin rolunu açıqlayan xəstəliyin psixoloji komponenti kifayət qədər öyrənilməmiş qalır. Bununla əlaqədar olaraq sədəfdə

eksperimental psixoloji tədqiqatların aparılması və sədəf xəstələri üçün psixokorreksiya xidmətinin təşkili çox aktualdır.

Psixodiaqnostik məlumatlar xəstəliyin adaptasiya səviyyəsinə, xəstənin davranışına və emosional reaksiyalarına təsirini aydınlaşdıraraq, psixokorreksiya tədbirlərinin hədəfini müəyyən etməyə və xəstələrin emosional reaksiyalarını sabitləşdirməklə müalicə prosesini optimallaşdırmağa, sosial adaptasiya səviyyəsini və müalicəyə motivasiya səviyyəsini yüksəltməyə imkan verir. Fərdi psixokorreksiya proqramının tərtib edilməsi üçün zəruri olan kompleks psixodiaqnostik tədqiqatın optimal aparılmasını və məlumatların toplanmasını təmin edən "psixosomatik xəstəlikdən əziyyət çəkən xəstənin müayinə xəritəsi" işlənib hazırlanmışdır.

Dermatoloji xəstəliklərin psixoloji təsiri xəstənin şəxsiyyət xüsusiyyətləri, xəstəliyin forması, xəstənin həyat tərzi, ailədə və cəmiyyətdə xəstəliyə verilən məna kimi xəstəlik və xəstə ilə əlaqəli xüsusiyyətlərlə də əlaqələndirilir.

Sosial mühitdən gələn mənfi şərhlər xəstənin narahatlıq səviyyəsini artırmaqda çox təsirlidir. Narahatlıq səviyyəsi artan xəstənin zədələnmələrinin daha da ağırlaşması da təbiidir.

Onu da qeyd etmək istərdim ki, son tədqiqatlar nəticəsində dermatoloji xəstəliyin insanın özünüqiymətləndirməsinə və psixoloji vəziyyətinə təsir etdiyi aşkarlanmışdır. Bu səbəbdən də dermatoloji problemdən əziyyət çəkən xəstələrin düzgün psixoloji dəstək alması çox vacib bir şərtdir. Düzgün təşkil olunmuş psixoloji yardım xəstəliyin gedişində azalmalarla müşahidə olunur.

## ƏDƏBİYYAT


1. Аксель Е.М. Состояние онкологической помощи населению России и стран СНГ в 2005 г. // Вестн. РОНЦ им. Н.Н.Блохина РАМН. 2007. - Т. 18, №°2. (прил.1). - С.8-51.

2. Baflak P.Y.: Tez-tez görülən bəzi dəri xəstəliklərinin həyat keyfiyyəti üzərindəki təsirlərinin araşdırılması. T Klinik Dermatoloji 2000. S. 171-174.

## NEYROPSİXOLOJİ KORREKSİYA

***Elmi rəhbər: prof. Elnarə Şəfiyeva***
***Çinarə İskəndərli***
***BDU-nun II kurs magistrantı***

Neyropsixoloji korreksiya mərkəzi sinir sisteminin pozulmuş funksiyalarının yenidən qurulmasına, bərpasına və kompensasiya vasitələrinin yaradılmasına yönəldilmiş xüsusi psixoloji təsirlər sistemidir.

Neyropsixoloji korreksiya inkişaf qüsurlarını aradan qaldırmaq üçün psixoloji köməyin ən effektiv metodlarından biridir. Bütovlükdə fərdi ontogenetik fərqlərin bir variantı kimi anormal inkişafın neyropsixoloji müşayiəti (korreksiya, profilaktika, abilitasiya) həmişə uzanan, fasiləsiz bir diaqnostik prosesdir, çünki uşaqlar üçün faktorlarası və funksiyalarası yenidən qurmaların dinamikasının tez-tez meydana çıxması məhz uşaqlara xas olan spesifik xüsusisiyyətdir.

Neyropsixoloji korreksiya ən erkən yaşdan məktəbqədər və yeniyetməyə yaşlı uşaqlar üçün nəzərdə tutulmüşdur. Xüsusilə erkən uşaqlıq autizmi, əqli geriliyi, müxtəlif növ psixi inkişaf ləngiməsi, ümumi inkişaf pozuntuları, alaliya, dizartiya, disqrafiya, disleksiya, hiperaktivlik və diqqət əksikliyi sindormu, serebral iflic kimi dizontogenez tipləri üçün xüsusilə göstərilmişdir. Eyni zamanda neyropsixoloji korreksiya psixoloji səbəblərdən (nevrotik pozuntular, psixosomatik pozuntlar, şəxsiyyət əlamətləri), ümumi fiziki cəhətdən inkişafdan qalma, məktəb uyğunlaşmama və stress pozuntuları səbəbindən öyrənmə çətinlikləri yaşayan uşaqlara kömək edir.

Neyropsixoloji korreksiyaya ontogenezi əvəzedilməsi metodu da adlanır.A.R. Luriyanın beyinin üç funksional bloku haqqında təliminə, L.S. Çvetkovanın neyropsixoloji bərpa nəzəriyyəsinə uyğun olaraq hazırlanmış üç səviyyəli bir sistemdir. Ontogenezin əvəzedilməsi metodu müxtəlif inkişaf variantları olan uşaqların korreksiyası, profilaktikası və ablitasiyası üçün əsas neyropsixoloji texnologiyadır.

Korreksiya prosesinin hər bir səviyyəsi özünəməxsus "hədəfə" malikdir və beyinin hər üç blokuna yönəldilmişdir.

**Birinci** səviyyəbədənin enerji potensialının sabitləşmə və aktivləşdirilməsi səviyyəsidir. Birinci səviyyənin metodları ilk növbədə baş beynin qabıqaltı formasiyalarının funksional aktivləşməsinə yönəldilmişdir.

**İkinci** sensomotorun xarici dünya ilə qarşılıqlı əlaqəsi üçün operasional təminat səviyyəsidir. İkinci səviyyənin metodları sol və sağ yarımkürələrin funksional ixtisaslaşmasına və yarımkürələrarası qarşılıqlı təsiri sabitləşdirməsinə yönəldilmişdir.

**Üçüncü** ixtiyari özünütənzimləmə və psixi proseslərin məna verən funksiyası səviyyəsidir. Üçüncü səviyyənin metodları beynin ön (alın) hissələrinin optimal funksional vəziyyətinin formalaşmasına yönəldilmişdir.

Korreksiya prosesinə1-ci, 2-ci və 3-cü səviyyəli məşğələlər tədricən daxil edilir, lakin buməşğələlər müəyyən metodların tətbiqi zamanı uşağın ilkin vəziyyətindən asılı olaraq dəyişir.

## ƏDƏBİYYAT

1. Семенович А.В.Введение в нейропсихологию детского возраста: Учебное пособие. — М.: Генезис, 2005. — 319 с.
2. Семенович А.В.Нейропсихологическая коррекция в детском возрасте. Метод замещающего онтогенеза: Учебное пособие. — М.: Генезис, 2007. — 474 с.

3. Л.С. Цветкова. Методика нейропсихологической диагностики детей. Изд. 2-е, исправленное и дополненное. - М.: "Российское педагогическое агентство", "Когито-центр", 1998. - 128 с.

## QADIN CİNAYƏTKARLIĞININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Rəşidə Cavadova***
***BDU-nun I kurs magistrantı***

Qadın cinayətkarlığı cinayətkarlığın müstəqil bir növü olub özünün kəmiyyət və keyfiyyət göstəricilərinə görə fərqlənir. Bu fərq həmin qəbildən olan cinayətlərin miqyasında, xarakterində, qadın cinayətkarların törətdikləri əmələ münasibətində, qurbanları ilə münasibətlərində, özünəməxsus psixoloji xüsusiyyətlərində ifadə olunur.

Qadın cinayətkarlığının strukturunda qadınların peşə fəaliyyəti ilə bağlı olan tamah cinayətləri üstünlük təşkil edir. Qadın cinayətkarların törətdikləri tamahkar cinayətlər arasında mülkiyyət əleyhinə cinayətlər, oğurluq, dələduzluq, mənimsəmə və israf kimi cinayətlər dominantlıq edir. Bundan əlavə, qadın cinayətkarlığının strukturunda həyat və sağlamlıq əleyhinə, ailə yetkinlik yaşına çatmayanlar əleyhinə, mənəviyyat əleyhinə törədilən cinayətlər də mühüm çəkiyə malikdir.

Qadınları digər cinayətkarlar kateqoriyasından residivin yüksək səviyyəsi fərqləndirir. Bu da qadın cinayətkarın şəxsiyyətinin ictimai təhlükəliliyini müəyyən edir. Belə ki, residivistlər sabit antisosial baxışlar, aşağı mənəvi-etik səviyyə, cəmiyyətdə qəbul edilən davranış formaları haqqında deformasiya olunmuş təsəvvürlər, yüksək həyəcanlılıq və yüksək emosional oyanıqlıqla, davranışlarındada nümayişkar reaksiyalarla səciyyələnirlər.

Qadınlarda nevroz və psixopatiya səviyyəsi kişilərdə müvafiq göstəriciləri xeyli üstələyir. Psixopatik şəxsiyyətlər üçün konfliktlilik, yüksək oyanıqlıq, tez özündən çıxma, aqressivlik, impulsivlik və s. səciyyəvidir. Cinayət törətmiş qadınların şəxsiyyətinin daha dərin mənəvi-psixoloji deformasiyalarından onların davranışında təsadüf edilən sosial patologiyanın daha bir forması xəbər verir – bu da intim münasibətlərdə əxlaqi-etik seçiciliyin olmamasıdır.

Qadın cinayətkarları kişilərdən fərqləndirən əsas cəhət həm də qadınların daha çox emosional qeyri-sabitliyi, yaranmış situasiyadan emosional asılılığı, reallığa daha kəskin, emosional reaksiya verməsi, öz daxili dünyasına qapılma və törətdiyi kriminal əmələ görə günahının dərkidir. Bu keyfiyyətlər qadın cinayətkarlarla ünsiyyəti çətinləşdirsə də, eyni zamanda onları islahedici təsirlərə daha həssas edir [1, s.25].

Ümumilikdə, demək olar ki, qadın cinayətkarlar kişilərlə müqayisədə daha az dərəcədə asosial ustanovkalar səciyyəvidir. Qadın cinayətkarlarda sabit kriminal əqidə müşahidə edilmir. Qadın cinayətkarların sosial psixoloji adaptasiyasında pozuntulara təsadüf edilsə də, dərin qüsurlar yoxdur. Lakin eyni sözləri qadın residivistlər haqqında demək olmaz. Onlarda sosial baxımdan pozitiv əlaqələr itirilib. Qadın residivistlər dezadaptiv şəxslərdir. Onların əsas psixoloji spesifikliyi ondadır ki, onların bir çoxunda psixi anomaliyalar və pozuntular müşahidə edilir.

Şəxsiyyət əleyhinə zorakı cinayətlər törətmiş qadın cinayətlarlara xas rigidlik, yüksək impulsivlik, yaranmış həyati situasiyanı adekvat qiymətləndirmək qabiliyyətinin olmaması frustrasiya vəziyyətində onları düşünülməmiş, qeyri-mütəşəkkil kriminal əməllərə təhrik edir.

Kişi cinayətkarlardan fərqli olaraq qadın cinayətkarlara bir qayda olaraq günahkarlıq hissi, öz gələcəyinə görə narahat olma səciyyəvidir. Qadın cinayətkarlara həm də yüksək

həyəcanlılıq, emosional həssaslıq xasdır. Ümumilikdə, qadınların kriminal davranışı impulsiv, kişilərinki isə məntiqi xarakter daşıyır. Qadın cinayətkarlar arasında nevrotik pozuntuları olan, həyəcanlı-depressiv vəziyyətdə olanlar da az deyil.

Zorakı cinayətlər törətmiş qadınların müxtəlif kateqoriyalarını səciyyələndirən psixoloji xüsusiyyətlər də böyük maraq doğurur. Belə ki, həyat yoldaşlarını qətlə yetirmiş və ya onlara çoxlu xəsarətlər yetirmiş qadınlar yüksək emosionallıq səviyyəsi, inadkarlıqla, törətdiyi əmələ görə günahkarlıq və peşmanlıq hiss etməməsi ilə fərqlənir.

Övladını qətlə yetirmiş qadınlar üçün şəxsiyyətin qeyri-ahəngdarlığı səciyyəvidir. Bu da onlarda iki bir birinə zidd meylin birləşməsində ifadə olunur: bir tərəfdən yaşadıqları depressiya onları digər insanlarla ünsiyyətə təhrik edir, digər tərəfdən isə əksər insanlara şübhə ilə yanaşdıqları üçün onlar ünsiyyətdən qorxurlar. Bu cür xüsusiyyətlər daha çox nigah-dankənar övladını qətlə yetirmiş qadınlar üçün səciyyəvidir. bu tip cinayətlər ətrafın qınağından qorxu ilə, eyni zamanda ətrafdakı insanların hörmətini qazanmaq meyli ilə bağlıdır [2, s. 49].

Çoxsaylı tədqiqatlar göstərir ki, qadınlar öz kriminal fəaliyyətini daha yetkin yaşda, ailə-məişət konfliktlərinin təsiri altında başlayır.

Beləliklə də, qadın cinayətkarların şəxsiyyəti problemində qadınların intellektual, emosional, iradi keyfiyyətlərin əsas xüsusiyyətləri, iddia səviyyəsi, maraqlar, sərvət meylləri, baxışlar sistemi haqqında məlumatları özünə daxil edən göstəricilər mühüm rol oynayır. Qadın cinayətkarlar haqqında belə məlumatlar onların kriminal davranışını for- malaşdıran və müəyyən edən fəallıq stimullarını, təhrikləri üzə çıxarmağa, onların motivasiya sahəsinə sirayət etməyə imkanı verir.

## ӘDӘBİYYAT

1. Попова С.А. К вопросу о личностных характеристиках женщин, совершающих насильственные преступления. // Российский следователь, 2007, № 21, стр. 24-26
2. Федотов И.С. Расследование детоубийств. Москва, 2003

## HİPERAKTİVLİYİN ETİOLOGİYASI

***Elmi rəhbər: dos. Sevinc Allahyarova***
***Savrum Kadir***
***BDU-nun II kurs magistrantı***

Son dövrlər artıq hamımızın tanış olduğu bir termin əhalinin demək olar ki, bütün təbəqəsinin dilindədir: “HİPERAKTİV UŞAQDIR”. Tez-tez səslənməkdə olan bu ifadənin nə məna kəsb etdiyindən isə çoxları bixəbərdir. Əksəriyyət “aktiv” və “hiperaktiv” sözlərindən eynimənalı söz olaraq istifadə edir. Əslində isə bu çox yalnış bir yanaşmadır. Əgər uşaqda hiperaktiv müşahidə olunursa, çox güman ki, həmin uşaq “Hiperaktivlik və diqqət çatışmazlığı sindromu”ndan əziyyət çəkir. Tarixinə nəzər salsaq, sözü gedən sindromu ilk dəfə 1845-ci ildə alman alimi, doktor Henrix Hoffman təsvir etmişdir. O, bunu 3 yaşlı oğlu üçün oxumağa kitab tapmayanda yazmağa başlamışdır və nəticədə sakitləşə bilməyən Flippin hekayəsi-uşaqların xarakterini əks etdirən kitab ortaya çıxmışdır. Həmin alim bu qəbildən olan uşaqlara “hərəkətli fil” adını vermişdir. Bəs necə olur ki, cəmiyyətdə bu iki termin eyniləşdirilə bilinir? “Hiper” yunan sözü olub “yüksək”, “aktivas” isə “hərəkət” və ya “hərəkətli” deməkdir. Ona görə də əksər insanlar sözü məhz tərcüməsi ilə nəzərdə tutub səhvə yol verirlər.

Hiperaktivlik sözü bu iki sözün birləşməsindən əmələ gəlib və aktiv, hərəkətli davranış sistemini tənzimləyə bilməyən uşaqları ifadə edir. Müasir dövrümüzdə həddindən artıq hərəkətli uşaqlar valideynlər və pedaqoqlar üçün həqiqətən də böyük çətinlik yaradır. Ona görə ki, hiperaktiv uşaqlarla olması gərəkən davranış qaydaları tərəf müqabilindən çox böyük diqqət və səbir tələb edir. Bir çox dünya ölkələrində - ABŞ, İngiltərə, Fransa və İtaliyada bu cür uşaqlara daha çox rast gəlmək olur.Amerika Birləşmiş Ştatlarında aparılmış statistik tədqiqatlara əsasən 2 milyondan çox uşaq Hiperaktivlik Və Diqqət Çatışmazlığı sindromundan əziyyət çəkir. Bu da onu göstərir ki, bir sinifdə oxuyan 25-30 şagirddən ən azı birində Hiperativlik və Diqqət Çatışmazlığı sindromu vardır. Bəzi tədqiqatçılar sindromun rastgəlm tezliyinin şagirdlər arasında 5-18 faizə qədər olduğunu qeyd edir. Rastgəlmə tezliyi oğlanlarda qızlara nisbətən iki dəfə çoxdur. Statistik məlumatlara əsasən hər il dünyaya gələn uşaqların 70 faizi hiperaktiv doğulur. Araşdırmalar zamanı o da bəlli olub ki, problemli insanların da 50 faizi məhz hiperaktiv olanlardır.

Hiperaktivlik və diqqət çatışmazlığı sindromunun olub-olmaması haqqında çoxsaylı fikirlər mövcuddur. Sindroma yanaşma ilə bağlı mübahisəli fikirlər var. Bəziləri bunun sadəcə uşağın bacarıqsızlığı ilə əlaqədar olduğunu və ya yaşla, ailədəki vəziyyətlə bağlı olduğunu qeyd edirlər. Bəli, bu danılmaz fikirlərdir, belə hallar mövcuddur. Amma bu heç də o demək deyil ki, məhz belə bir xəstəlik yoxdur. Çünki sindromun özünü açıq-aşkar büruzə verdiyi halları hiss etməmək mümkün deyil. Hiperaktivlik və diqqət çatışmazlığı sindromuna diqqət yetirməmək də olmaz. Onun diaqnozu vaxtında qoyulsa, davranışterapiyası var, dərmanlar var, həmçinin psixoloqla işləmək olar, əlavə tədbirlər görülə bilər. Hər uşaqda vəziyyət başqa cürdür. Hər birinə fərdi yanaşmaq lazımdır ki, effektiv nəticə əldə etmək mümkün olsun.

Hiperaktivlik və Diqqət Çatışmazlığı isə uşaqlarda adətən anadan olduqdan sonra mərkəzi sinir sisteminin funksiyalarının pozulması, xüsusəndə retikulyar formasiyanın disfunksiyası nəticəsində yaranan və xüsusilə, 3-4 yaşlarından etibarən özünü büruzə verməyə başlayan, yaşıdları və inkişaf dövrü ilə müqayisədə həddən çox hərəkətlilik, bir yerdə dayanmamaq xüsusiyyəti ilə yanaşı diqqətin tez dağılması və uzun müddət bir işin üzərində cəmlənib saxlanıla bilinməməsi ilə xarakterizə olunan sindromdur. Patologiyanın səbəbi tam araşdırılmasa da , tədqiqatçıların böyük əksəriyyəti sindromun genetik etiologiyasını da təsdiqləyir. Həmin uşaqların nəsil ağacında sayrışan hallar, sinir tikləri və Jil de la Tuaretta sindromundan əziyyət çəkən yaxın qohumlara təsadüf edilməsi neyromediator pozulmaların genetik meyilliliklə əlaqədar olduğunu göstərir.

Hiperaktivlik və diqqət çatışmazlığı sindromu dofamin mübadiləsi və daşınmasını təmin edən genlərin mutasiyası ilə determinə olunur. İrsiyyətlə yanaçı sindromun ailə, pre və perinatatal risk faktorları da müəyyən edilib. Ailə faktorlarına ailənin aztəminatlılığı, ətrafdakı kriminal durum və valideynlər arasında kəskin anlaşmalıq aiddir. Psixoloqlar anada olan neyropsixi pozulmaların, onun alkoqol asılılığının və ya seksual davranışında pozulmaların olmasını xüsusi qeyd edirlər. Pre və perinatal risk faktorları arasında yeni doğulmuşların asfikasiyası, ananın hamiləlik dövründə alkoqol və ya dərman preparatları qəbul etməsi və siqaret çəkməsi əsas yer tutur. Doğumdan sonrakı dövrdə normal qidalanmayan uşaqlar, dəmir və yağ turşusu əskikliyi, uşağın özündə qalxanabənzər vəzin funksiyasının pozğunluğu, epilepsiya, beyin travması və s. problemi olan uşaqlarda hiperaktivlik və diqqət çatışmazlığı sindromunun olması ehtimalı yüksəkdir. Sindromun patogenezində retikulyar formasiyada noradrenalinin miqdarının azlığı və buna görə də onun aktivləşmə mexanizmlərinin pozulması əsas rol oynayır.

Retikulyar formasiya öyrənmə və yaddaşın koordinasiyası, daxil olan informasiyanın təhlil olunması və diqqətin spontan saxlanılmasına cavabdeh olan nahiyədir. Retikulyar formasiyada baç verən pozulma informasiya selinin adekvat təhlilinə mane olur, nəticədə uçaq görmə, səs və emosional qıcıqların öhdəsindən gələ bilmir, daha narahat, həyəcanlı və aqressiv olur. Retikulyar formasiyadan başqa sindromun inkişafında alın payının qabığı ilə qabıqaltı nüvələri birləşdirən aparıcı yollarda baş verən disfunksiya da aparıcı rol oynayır. Hiperaktivlik və Diqqət Çatışmazlığı sindromu geniş yayılmış bir sosial problemdir, uşaqların çoxu bu xəstəlikdən əziyyət çəkir və bu onların sosial mühitə adaptasiya olmasına maneçilik törədir.

Qeyd edək ki, bu problemdən əziyyət çəkən uşaqlar cəmiyyət içində tez-tez problemlər yaradırlar, nəinki özləri utanırlar, hətta valideynlərini də utandırırlar. Çünki ürəklərindən nə keçirsə həmin an düşünmədən, analiz etmədən deyirlər. Məsələn, kiminsə saçı dağınıqdırsa, "a, bu adamın saçı necə də qorxuncdur" və ya otaqdan xoş qoxu gəlmirsə, "burdan nə pis iy gəlir" kimi fikirləri rahatlıqla səsləndirilər. Bu hal təbii ki ətraf mühit tərəfindən diqqəti cəlb edir və valideynlərin utanmasına səbəb olur, sıxlırlar, nə etmək və demək lazım olduğunu bilmirlər. 3 yaşında xəstəliyin əlamətlərinin ortaya çıxmasına baxmayaraq, ümumi olaraq ibtidai məktəb illərində tam diaqnozun qoyulduğu qeyd edilir. Təbii ki, son vaxtlarda testlərin inkişaf etməsi ilə əlaqədar erkən diaqnoz imkanları artır. Hər bir xəstəlikdə olduğu kimi Hiperaktivlik və Diqqət çatışmazlığı sindromunun müalicə-sində də erkən diaqnozun əhəmiyyəti xüsusi vurğulanır.

Bəzən cəmiyyətdə yalnış olaraq belə bir düşüncə səsləndirilir: "Oğlan uşağının belə aktiv olması sevindirici haldır. Gələcəkdə çətin vəziyyətə düşdükdə daha asan çıxış yolu tapacaq". Və ya digər bir təbəqə yaş dövrü ilə əlaqələndirir, keçib gedəcəyini üstünə basa-basa deyillər. Bir

də digər qəbildən olan insanlar var ki, hansılar ki, həmişə ananı günahkar görür, və “anası tərbiyə versə idi, belə olmazdı” deyirlər. Hər bir yalnış yanaşma yuxarıda qeyd etdiyimiz aktivlik və hiperaktivlik haqqında eyni düçüncəyə sahib olan insanlar tərəfindən yaradılır. Əksinə, vaxtında müdaxilə sindromun gedişatında daha tez nəticə əldə olunmasına, eləcə də simptomların aradan qaldırılmasına kömək edir.

Onu da qeyd etmək lazımdır ki, həkimlə qısamüddətli konsultasiya zamanı hiperaktivlik sindromu aşkar edilməyə bilər. Belə ki, uşaq tanış olmayan şəraitdən, həkimdən qorxa və yaxud özünə başqa maraqlı bir məşğuliyyət tapa da bilər. Bir də, hər bir xəstəlikdə olduğu kimi Hiperaktivlik sindromundan da əziyyət çəkən uşaqların valideynləri bunu gizlətməyə, müalicədən imtinaya və ya xəstəliyi qəbul etməməyə üz tuturlar. Bu tip halların yaranmasına səbəb isə cəmiyyətdə formalaşmış eynitipli düçüncələrə məruz qalmamaq istəyidir. Valideyn stiqmadan qorxur, çəkinir. Ya onun uşağına həmişə xəstə kimi münasibət göstərilərsə, ya cəmiyyətdən kənarlaşdırılarsa onda necə olar kimi suallar valideynləri daima narahat edir. Bu tip narahatlıqların aradan qaldırılması üçün valideynlərə də dəstək xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. İsmayılov N.V., Psixiatriya, Bakı 2001, s. 562
2. Şəfiyeva E. İ. Anomal inkişafın psixologiyası, Bakı 2012, s.312
3. Белоусова Е.Д., Никифорова М.Ю. Синдром дефицита внимания / гиперактивности. / Российский вестник перинатологии и педиатрии. - 2012. - № 3. - с.39-42
4. Attention Deficit Hyperactivity Disorder A detailed booklet thatdescribes the symptoms,causes,and treatments,with information on getting help and coping,National Instute Of Mental Health,2003
5. www.hiperaktif.org Dikkat Eksikliği ve Hiperaktivite Derneği

# NATAMAM AİLƏLƏRDƏ YENİYETMƏLƏRİN HÜQUQAZİDD DAVRANIŞI

*Tamilla Ağazadə*
*BDU-nun II kurs magistrantı*
*tamillaaghazada@gmail.com*

Son iyirmi il ərzində Azərbaycan Respublikasında çətin iqtisadi vəziyyət, köhnə dünyagörüşün dağılması və yenisinin formallığının olmaması vətəndaş cəmiyyətində çətinliklərin və daxili qarşıdurmaların yaranmasına səbəb oldu. Bu dövr xüsusilə gənc nəsil üçün çətin oldu, məsələn, çətin həyat vəziyyətində olan uşaqların sayının artmasında özünü büruzə verdi.

Yeniyetmələrin hüquqazidd davranış problemi müasir cəmiyyətdə getdikcə aktuallaşır, heç bir sərhədi yoxdur və həm inkişaf etmiş ölkələr, həm də inkişaf etməkdə olanlar üçün xarakterikdir. Müasir Azərbaycan cəmiyyətində yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqazidd davranışların sayı ildən-ilə azalmaqdadır, lakin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqazidd davranışların səbəblərinin müəyyən edilməsi problemi hazırda aktualdır. Bu səbəblərin müəyyənləşdirilməsi yeniyetmələr tərəfindən törədilən cinayətlərin qarşısını almaq üçün lazımdır. Yetkinlik yaşına çatmayan hüquqazidd davranış cəmiyyətin gələcək inkişafını təhdid edir, erkən yaşda formalaşan və əldə edilən asosial vərdişləri, dünyagörüşü, görüşləri yeniyetmənin dünyagörüşünün yenidən qurulmasına səbəb olur. Nəticədə residiv və cinayətkarlığın artması müşahidə olunur. “Hüquqazidd davranış” kateqoriyasını müəyyən etmək lazımdır, cinayət ictimai təhlükəli olan, ictimai münasibətlərin müəyyən edilmiş qaydasına zərbə vuran, hüquq subyektlərinin günahkar hərəkətləri və ya hərəkətsizliyi olan bir şəxsin qanunsuz hərəkətidir [3, s. 31].

Hüquqazidd davranış ictimai münasibətləri pozur, qanunla qorunan insanların və təşkilatların maraqlarına zidd olur, buna

görə də cəmiyyət üçün arzuolunmazdır və cəmiyyət və dövlət tərəfindən mənfi reaksiya doğurur. Qeyd etmək lazımdır ki, hüquqazidd davranışın səbəbləri müxtəlif bilik sahələrinin alimlərini əhatə edir: müəllimlər, psixoloqlar və hüquqşünaslar, yeniyetmələrin davranışlarına təsir edən amilləri müəyyən etməyə çalışırlar. N.V.Silkina, K.E. İgoşev kimi müəllimlər kiçik bir cinayətkarın, bir qayda olaraq, asosial bir həyat tərzi keçirdiyini, antisosional davranışın stereotiplərini qurduğunu, bir qayda olaraq, pedaqoji cəhətdən laqeyd bir uşaq olduğunu düşünür.

Natamam bir ailə həyat yoldaşlarının boşanması, nikahdan kənar bir uşağın dünyaya gəlməsi, valideynlərdən birinin ölümü və ya ayrı bir yaşayış yeri nəticəsində meydana gəlir. Belə bir ailədə daha çox valideyn ata deyil, ana olur. Boşanma nəticəsində yaranan natamam bir ailə, tərbiyə funksiyası baxımından ən həssasdır. Boşanma və ailədəki əvvəlki münaqişə uşağın psixikasını, mənəvi və emosional inkişafını pozur. Natamam bir ailədə ana və övlad arasında münaqişələr daha çox olur. Çox vaxt belə bir ailədə böyüdülən bir yeniyetmə öz ailəsini və ailə həyatını yaratmaq üçün kifayət qədər hazır deyildir.

Psixoloji və pedaqoji ədəbiyyatda natamam ailələr, yetniyetməlik yaşına çatmayanların hüquqazidd davranışının inkişafına mənfi təsir göstərən xüsusiyyətlər toplusu ilə fərqlənir. Bunlara ailədəki uşağa kifayət qədər diqqət yetirilməməsi, tərbiyə təsirinin birtərəfli olması, valideyn hisslərinin qeyri-taraz olmasının təzahürləri, uşağın şüurlu olma ehtimalı, öz alçaqlığı düşüncələri daxildir. Mövcud təcrübə, natamam ailələrin tərbiyə baxımından ən həssas olduğuna inandırır, onlara təsirli dəstək vermək üçün, natamam ailələrdən olan uşaqların öyrənilməsində vahid bir yanaşma tələb olunur, bunlar: uşağın sosial mühitinin müəyyən edilməsi; şəxsiyyəti bütövlükdə inkişaf etdirmək üçün ətraf mühitin sintetik tədqiqi; məsuliyyət və ona hörmət tələbləri ilə əlaqəli

uşağın inkişafı şəraitində müəyyən dəyişikliklərin təşkili; uşaqların sosiallaşması məqsədi ilə müxtəlif fəaliyyətlərə cəlb edilməsi [1, s.97].

Natamam ailələrdə qeyri-kafi tərbiyənin aşağıdakı növlərinə rast gəlinir - laqeydlik, emosional imtina, uşağa həddindən artıq şiddət və tələbkarlıq, sıx münasibətlərdə tərbiyə, zorakılıq və fiziki cəza, bir uşağa həddindən artıq heyranlıq və hiperhimayə.

Uşaqların inkişafı üçün əlverişsiz olan natamam ailədəki sosial-psixoloji vəziyyət ən çox aşağıdakı təzahürlərlə xarakterizə olunur: valideynlər, xüsusən atalar, uşaqlar ilə ümumi ünsiyyət çatışmazlığı; uşaqlar üçün uyğun ünsiyyət formalarının olmaması; ailələrdə uşaqlarla ünsiyyətin avtoritar-komanda tərzinin yayılması; müxtəlif təşviq və dəstək formaları ilə müqayisədə geniş yayılmış cəza (fiziki daxil olmaqla); valideynlərin uşaqlara qarşı həddən artıq tələbləri.

Ailədəki problemlərin mənfi nəticələri kifayət qədər tez özünü göstərir və bəzən geri dönməz olur. Bunlar uşağın psixi inkişafındakı qüsurları və çətin təbiəti və sosial pis uyğunlaşma və sapma davranışlardır. Nəticədə nəinki ailə və həyata qədəm qoyan insan, eyni zamanda bütövlükdə bütün cəmiyyət əziyyət çəkir, yəni əvvəlcə şəxsi problem, ifrat problem sosial problemə çevrilir [2, s. 64].

Ancaq qeyd etmək lazımdır ki, natamam ailə şəraitində özünü tapan hər uşaq hüquqazidd davranış formalarının daşıyıcısı olmur. Bütün uşaqlar eyni ailədə böyüdülsə də fərqli xüsusiyyətlərə malik olurlar. Bəlkə də zərərli təsirlər uşağın inkişafı üçün əlverişli bir vaxtda bütün şəxsi qaynaqları səfərbər olunduqda uzun müddət təsir etmirlər, bu dövrdə bəzi yaxın böyüklər uşağı dəstəkləyir və çətinliklərin öhdəsindən gəlməsinə kömək edirlər və s. S.P.Rubinşteyn qeyd edir ki, "xarici şərtlər həmişə daxili şəraitdə olur". Belə daxili şərtlər uşağın özünün psixofizik xüsusiyyətlərini əhatə edir: zəif bir genetik fond, inkişaf əlillərinə irsi meyl; yavaş fərdi inkişaf

tempi; pis psixosomatik sağlamlıq; mənfi təsirlərə qarşı müqavimətini azaldan şəxsi keyfiyyətlər; sinir sisteminin tipinə görə uşağın xarici təsirlərə reaksiyalarının təbiəti.

Beləliklə, uşağa münasibətdə psixoloji və pedaqoji xüsusiyyətlərin səbəblərini və amillərini müəyyən edən ailənin narahatlığına səbəb olan bütün səbəblər və amillər, yəni şəxslərarası ailədaxili münasibətlərdəki pozuntular və ailədəki uşaqların tərbiyəsindəki qüsurlardır. Başqa sözlə, patogen amil ailənin tərkibi və quruluşu, maddi rifahının səviyyəsi deyil, onda formalaşmış psixoloji iqlimdir. Yeniyetmələrin hüquqazidd davranışları və natamam ailə arasında sıx əlaqə vardır.

## ƏDƏBİYYAT


1. Салаев Б.К. Формирование ценностных ориентации как средство преодоления девиантного поведения подростков: Дис. . канд. пед. наук, 2004. 176 с.
2. Самыгин П.С. Девиантное поведение молодежи. – Ростов н/Д: Феникс, 2006. 440 с.
3. Тачина С.В. Особенности девиантного поведения подростков: социологический анализ :Дис. канд. социол. наук, 2003. 191 с.


## BÖYÜK MƏKTƏBLİLƏRDƏ CİNSİ TƏRBİYƏNİN PSİXOLOJİ ASPEKTLƏRİ


***Elmi rəhbər: Müşfiq Mustafayev***
***Qüdrətli Ülkər***
***BDU-nun II kurs magistrantı***
***u.qudratli@gmail.com***


Psixoloji cins müəyyən cinsi identikliyin, yəni özünü müəyyən bir cinsə mənsubluğunu dərk etmək və hiss etmək məsələlərini, eyni zamanda onunla əlaqəli olan psixoseksual

oriyentasiya və sosioseksual oriyentasiyanı özündə əks etdirir. Sosial və pedaqoji nöqteyi-nəzərdən isə cins insanın biososial xüsusiyyətidir. Bioloq, həkim və psixoloqların ortaq fikirləri bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, “cins bioseksual anlayışdır”, yəni hər bir cins potensial olaraq özündə digər cinsin inkişafı imkanlarını birləşdirir. Cinsin özünügerçəkləşdirməsi mühitdən və genetik amillərdən asılıdır, ancaq cinsin inkişafı kifayət qədər mürəkkəb şəkildə irəliləyir.

Cins-rol sosializasiyası L.A.Arutyunovanın da qeyd etdiyi kimi ümumi sosializasiya prosesinin ayrılmaz hissəsidir və özündə üç komponenti birləşdirir: özü haqqında təsəvvürlərin inkişafı, cins-rol tələbatları və dəyərlər oriyentasiyasının yaranması və cinsə xas davranış forması. Cins-rol sosializasiyasının aparıcı mexanizmləri isə cinsi identifikasiya və cinsi diferensiasiyadır.

Cinsi identifikasiya özünü müəyyən cinsə aid edən və öz cinsinin roluna müvafiq tələblərə istiqamətlənmiş fərdin davranış və özünüdərkinin vəhdətində təzahür edən müəyyən cinsə xas olan nümayəndə kimi dərk etməkdir.

Cinsi diferensiasiya isə özünü genetik, morfoloji və fizioloji əlamətlərin məcmusu əsasında təzahür edən əks cinsin nümayəndəsindən ayırmaqda ehtiva olunan anlayışdır ki, bunun da əsasında qadın və kişi cinsini fərqləndirirlər.

Cinsi inkişafın başlanğıc mərhələlərində cinsi differensiasiya və identifikasiyanın üç prosesini ayırd edirlər:

1. Uşaq iki cinsin mövcud olduğunu öyrənir;
2. O özünü bu iki kateqoriyadan birinə aid edir;
3. Özünü cinsi dərketmənin əsasında öz cinsinə uyğun davranış normalarını seçməklə davranışına nəzarət edir.

V.E.Kaqanın tədqiqatlarında cinsi fərqlərin aşağıdakı qrupu fərqləndirilir:

1.Anadangəlmə
2.Bioloji-şərtlənmiş
3.Sosializasiya gedişatında formalaşan

Yuxarıda sadalanan cinsi fərqlər şəxsiyyətin inkişafının müxtəlif səviyyələrində təzahür edə bilər:

1.Biopsixi

2. Psixoloji

3. Sosial-psixoloji

4. Sosial

Kaqanın fikrincə, bəzi cinsi fərqlər sadəcə bir səviyyədə toplanmışdır, belə ki, səviyyə nə qədər yüksəkdirsə bu cür lokal eynisəviyyəli cinsi fərqlərin olması ehtimalı o qədər yüksəkdir.

Cinsi tərbiyənin metodologiyasının ümumelmi səviyyəsi özündə sistem-struktur, kompleks və fəaliyyət yanaşmalarının nəzəri əsaslarına istiqamətlənməni əks etdirir. Qeyd edək ki, metodologiyanın bu səviyyəsi məktəblilərin cinsi tərbiyəsi problemi zamanı onun prinsipial əsaslarının müəyyən edilməsində çox mühümdür.

Bəşər cəmiyyətinin tarixi dövründə qadın və kişinin cinsi sosial roluna qarşı cəmiyyətdə dominantlıq edən stereotiplər uşaqların ayrı-ayrılıqda tərbiyə edilməsi vacibliyini ortaya çıxardı. Ancaq onu da qeyd edək ki, müasir cəmiyyətimizdə cinsi sosializasiya prosesi bir qədər fərqli şərtlər daxilində baş verir. Bu problemin əsas aspektləri İ.E.Aleşina və A.S.Voloviçin tədqiqatlarında müəyyən edilmişdir. Bunlara aiddir:

1.Tərbiyənin feminizasiyası (evdə və uşaq bağçalarında uşaqların tərbiyəsi ilə əsasən qadınlar məşğul olur).

2. Ana ilə ilkin feministik identifikasiya (bu aspekt nəticəsində oğlan uşaqlarını anadan ayırmaq faktı ortaya çıxdı)

3.Uşaqda feministik baza oriyentasiyaları (asılılıq, tabeçilik, passivlik).

Cinsi tərbiyənin məzmununu isə uşağı əhatə edən həyat, müxtəlif cinslər arasında qarşılıqlı münasibətlər, bu qarşılıqlı münasibətlərin normaları, insanların ailədəki şəxsi həyatları və onların fəaliyyət sferası təşkil edir.

Sonda qeyd edək ki, cinsi tərbiyə problemi təlim-tərbiyə istiqamətində aparılan ən aktual məsələlərdən biridir. Bu səbəbdən də məktəblilərin cinsi tərbiyəsi zamanı psixoloq, pedaqoq və ailələrin vəhdətdə olması və xüsusən də bu prosesdə yüksək peşəkarlığa mənsub psixoloqların cəlb olunması mütləqdir.

## ƏDƏBİYYAT

1. Абраменкова В.В. Половая дифференциация и межличностные отношения в детской группе. «Вопросы психологии» № 5 , 1987.
2. Выготский Л.С. Собрание сочинений: В 6-ти томах – Москва, 1983
3. Исаев Д.Н., Каган В.Е., Половое воспитание и психогигиена пола у детей. Л., Медицина, 1979 г.
4. Каган В.Е. Воспитателю о сексологии. М.: Педагогика. 1991.
5. Каган В.Е. Система половых различий. Психика и пол детей в норме и патологии. Л., 1988.
6. Колесов В.Е. Беседы о половом воспитании. 2-е изд. Перераб. Дополн. М., Пед., 1988.
7. Кон И.С. Половые различия и дифференциация социальных ролей. М., 1975.
8. Коррекционная педагогика. / Под ред. Б.П. Пузанова. – М., 1998.
9. Леднёв В.С. Содержание образования. – Москва, 1989.

## QADINLARDA HÜQUQAZİDD DAVRANIŞIN PSİXOLOJİ MEXANİZMLƏRİ VƏ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

***Təhminə Yaqubova***
***BDU-nun II kurs magistrantı***
***tehmine.yagubova@gmail.com***

Bildiyimiz kimi, günahkarlıq hissi əxlaqi və hüquqi davranışın əsas tənzimləyicisi olub, ədaləti bərqərar etmə motivasiyasını, öz əməlinə görə şəxsi məsuliyyət hissinin təzahürünü stimullaşdırır. Günahkarlıq hissi cəmiyyətdə hakim olan əsas normalara riayət

edilməsi tələbatını formalaşdırır, törədilmiş neqativ əməli düzəltməyə yönəldir. Günahkarlıq hissinin yaşanılması digər neqativ emosiyalarla birlikdə təzahür edə bilər: kədər, alçaldılma hissi, ümidlərin boşa çıxması və digər başqa səbəblərdəb. Bu cür mənəvi əzablarla yanaşı, günahkarlıq hissi həm də bədəndə fiziki gərginliyə, tənəffüsdə çətinliyə və nə qədər qəribə olsa da qorxuya və insanın özü-özündən gizlənməsinə cəhd etməyinə səbəb olur və günahkarlığın yaşanılması digər emosiyalarla birlikdə təzahür etməsi bəzən onunla nəticələnə bilir ki, günahkarlıq hissi dərk olunmur. Buna səbəb isə digər emosiyalarla maskirovkaedilməsidir.

M.Hoffmana görə, günahkarlıq hissinin son 4 forması məhz yeniyetməlik dövrü üçün səciyyəvidir. 3 formanın ifadə olunma dərəcəsi yaş artdıqca zəifləyir. O böyüklər üçün daha travmatik olan günahkarlıq növünü – "sağ qalmış insanın günahkarlığını" fərqləndirirdi [48].

Günahkarlıq hissi göstərilən situasiyalarda təzahür edir:

- etməli olduğu işi edə bilmədikdə;
- keçmişdə nəyi isə edib və ya etməyib, indi isə buna görə təəssüflənir;
- "özünə borc bildiyi" bir işi görsə də qəlbinin dərinliyində buna görə təəssüflənir;
- etməli olmadığı bir hərəkəti icra edib, sonra isə həyəcan, stress və ya günahkarlıq hissi keçirir.

Qadın cinayətkarlarla aparılan sorğu zamanı onlar törətdikləri əməli ehtiyyatsızlıqdan baş verdiyini və bu səbəbdən günahkarlıq hissi duymadıqlarını da söyləyirlər. İnsan ölümü fizioloji və bioloji səbəblərdən baş verə bilər. Ürək fəaliyyətinin, tənəffüsün, mərkəzi sinir sisteminin, maddələr mübadiləsinin dayanması bioloji ülümün əlamətlərinə aid edilir.

Azərbaycan Respublikasının Cinayət məcəlləsinin 131-ci maddəsi ilə nəzərdə tutulmuş məsuliyyət sağlamlığa vurulan zərərin ağırlıq dərəcəsindən asılı olaraq differensiallaşdırılır. Mahiyyət etibarı ilə bu maddə iki müstəqil cinayət tərkibini nəzərdə tutur, belə ki, 131.1-ci maddə ehtiyyatsızlıqdan sağlamlığa ağır zərər vurmaya görə, 131.2-ci maddə ehtiyyatsızlıqdan sağlamlığa ağır zərər vurmağa görə cinayət məsuliyyətini müəyyən edir.

Ehtiyyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurmaq, qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurmağa nisbətən az təhlükəli əməl hesab olunur. Ehtiyyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurma cinayətinin obyekti dedikdə digər şəxsin sağlamlığı olduğundan və sağlamlıq anlayışının izahını vermək düzgün hesab olardı.

İqtisadi fəaliyyət sahəsi üzrə cinayət törətmiş kişi və qadınların göstəriciləri son 20 illin statistikasında da öz əksini tapmışdır. 1995 -ci ildə 92,9% kişilər, 7,1% qadınlar, 2000-ci ildə 91,6% kişilər, 8,4 % qadınlar, 2005- ci ildə 95.9% kişilər, 4,1% qadınlar, 2010- cu ildə 92,9% kişilər, 7,1% qadınlar, 2017- ci ildə isə 92,3% kişilər, 7,7% qadınlar iqtisadi fəaliyyət sahəsi üzrə cinayət törətmişdir.

Müasir dövrdə sosial-iqtisadi və psixoloji proseslərin, həyat şəraitinin, qadınlara olan təzyiqin, mental adətlərin təhlili göstərir ki, qadınlarda hüquqazidd davranışların baş verməsi bir sıra səbəblərlə sıx əlaqəlidir:

1. Cəmiyyətdə təzyiqin artması, qadın gücünün sıxışdırılması, qəbul edilməməsi
2. Qadınlar arasınd zərərli vərdişlərin, narkotik maddə, eləcə dı alkoqoldan istifadənin artması
3. İnsan alverinin geniş miqyas əhatə etməsi
4. Sosial istehsalatda qadın əməyinə aşağı qiymət verilməsi
5. Mental adət və ənənələr
6. Qadınların xəyanətə məruz qalması
7. Həyat şəraitinin çətinləşməsi
8. Ailə dəyərlərinin yetəri qədər aşılanmaması
9. Psixoloji yardım ala bilməmək
10. Gələcəklə bağlı qeyri-müəyyənlik, gələcək qorxusu
11. Cəmiyyətdəki üst təbəqə ilə ayaqlaşmağa çalışmaq
12. Siyasi və iqtisadi qeyri sabitlik
13. Etnik ziddiyyətlər

Araşdırmalar, bugünədək olan hüquqazidd davranışlara və onların motivlərinə istinadən qeyd edə bilərəm ki, qadınlarda

hüquqazidd davranış və ya fikirlərin yaranması orqanizmdə baş verən proseslərlə, dəyişikliklərkə sıx əlaqəlidir. Belə ki, aşağıda qeyd olunan fizioloji dəyişikliklərin hüquqazidd davranışların əmələ gəlməsində böyük təsiri var:

1. Endokrin sistemində olan dəyişikliklər
2. Menopauzal dönəm
3. 40 yaş sindromu nəticəsində yaranan yaşlanma qorxusu, depressiya, intihar düşüncəsi

Xüsusən menopauza dönəmi və depressiv fazalarda qadınların hüquqazidd davranış etməyə uyğun olduğu göstərilir.

Hüquqazidd davranış törətmiş qadın şəxsiyyətinin psixi keyfiyyətlərini, təfəkkür, temperament, xarakter, emosional durumunun ətraflı şəkildə öyrənmək zəruridir. Cinayət işinin tədqiqi zamanı hüquqazidd davranış göstərmiş şəxsi araşdırarkən müstəntiq təqsirləndirilən şəxsin davranışlarına, emosional halətinə, törətdiyi əməlin dərk edilib-edilməməsinə, bu durumu necə izah etməsinə xüsusi diqqət yetirməlidir.

Yeni sosial və iqtisadi həyat şəraitində qadınlar daha çətin vəziyyətdədir.Qadınlar tərəfindən törədilən cinayətlər həm alimlərin, həm də praktikantların diqqətini cəlb etmişdir. Onların hərtərəfli öyrənilməsi göstərir ki, qadın cinayətinin problemi ilk baxışdan göründüyü qədər sadə deyil. Müasir qadın cinayət davranışının xüsusilə təhlükəli tendensiyaları arasında ciddi cinayətlərin böyüməsi, təkrarlanan cinayətlərin mütənasib bir hissəsi, cinayətkarların yaşının azalması və eyni zamanda yaşlı və qoca qadınların sayının, həmçinin məhkumların sayı artmaqdadır.

## ƏDƏBİYYAT

1. Hoffman M.L. Development of prosocial motivation: Empathy and guilt./ In N. Eisenberg (Ed.), Development of Prosocial Behaviour. - New York, 2002, p. 281-313

2. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
3. Ильин Е.П. Психологиясовести. Вина, стыд, раскаяние. Питер, 2016, 370 стр.

## EMOSİONAL-İRADİ ÖZÜNÜTƏNZİMLƏMƏ

***Örbəyi Sait Çavşin oğlu***
***Bakı Slavyan Universitetinin doktorantı***
***orbaysait@gmail.com***

Emosional-iradi özünütənzimləmə mürəkkəb anlayışdır. Bu anlayış emosional tərkib hissənin aparıcı rolunu nəzərə alaraq, onu iradi tərkib hissə ilə bütövlüklə birləşdirir.

Emosional-iradi özünütənzimləmənın tərkib hissələrini nəzərdən keçirək:

1. İradi hərəkət – insan qarşısında qoyduğu məqsədi onun (iradi hərəkətin) vasitəsi ilə həyata keçirdiyi şüurlu məqsədyönlü hərəkətdir. Burda insan özünün impulslarını şüurlu nəzarətə tabe edir, arzularının qizlədir, özünü məhdudlaşdırmanı nəzərdə tutur.

2. İradi tənzimlənmə - İradi requlyasiyanın fəaliyyətin həyata keçirilməsinin başlanğıc anına daxil edilməsinin xüsusiyyəti ondan ibarətdir ki, uşaq şüurlu olaraq məqsədlərin və motivlərin bir qismindən imtina edərək, digərlərinə üstünlük verir və bir anlıq arzulara zidd olaraq onları həyata keçirir. Hər biri yeni zamanda müxtəlif hərəkətlərin yerinə yetirilməsini tələb edən çətin uyğunlaşan motivlərin mübarizəsi baş verir.Yaxşı bəs İradəni necə inkişaf etmək olar?

Davranışın iradi requlyasiyasının inkişafı bir neçə istiqamətlərdə baş verir:

Bir tərəfdən – bu qeyri-iradi psixi proseslərin iradi proseslərə çevrilməsidir, digər tərəfdən – insanın öz davranışına nəzarətin əldə olunması, üçüncü tərəfdən isə –

şəxsiyyətin iradi keyfiyyətlərinin yaradılmasıdır. İradi davranışın həyata keçirilməsində şəxsiyyətin mənəvi keyfiyyətləri böyük rol oynayırlar. Şəxsiyyətin mənəvi istiqaməti iradi davranışın həyata keçirilməsinə köməklik edir. İradənin və emosiyaların sıx əlagəsindən danışaraq emosional-iradi inkişafı özünütənzimləmənın vahid mexanizmi kimi nəzərdən keçirmək olar.

3. Özünütənzimləmə – diqqətli, planlaşdırılmış və şüurlu davranışın əsasını təşkil edən daxili mexanizmdir. Onun vasitəsi ilə fərd hər hansı məqsədə nail olmaq üçün hərəkətləri, fikirləri, emosiyaları izləyir və onlara nəzarət edir. Bu şəxsi davranışı idarə etmək, bir reaksiyanın qarşısını almaq, digərini isə aşkar etmək bacarığıdır (2, səh.169).

İradi özünütənzimləmə özünə qalib gəlməyə yönəlib. Bu insana şəxsi davranışı və motivasiyaları idarə etməyə imkan yaradan mexanizmlərdən biridir.

Özünütənzimləmə fəaliyətə onun həyata keçirilməsinin istənilən mərhələsində daxil ola bilər:

- Fəaliyyət görünüşü yaratmaq
- Onun həyata keçirilmə üsullarının və vasitələrinin seçimi
- Nəzərdə tutulmuş plana riayət etmək
- Plandan kənara çıxmaq
- İcraya nəzarət.

Emosional tənzimləmə – özünün emosiyalarını idarə etmək deməkdir.

Emosional sahəyə təsir üsulları öz emosiyalarının idarə olunmasında zəruri bacarıqların formalaşmasını nəzərdə tutur:

- Sərbəst davranış bacarıqlarının inkişafı
- Təşəbbüsün, öz imkanlarına əminliyin inkişafı
- İnadın, çətinliklərə qalib gəlmək, məqsədlərə nail olmaq bacarığının inkişafı
- Özünü idarə etməyin formalaşması

Emosional özünütənzimləmə bu bacarıqlarda ifadə olunur:

- Özünün emosional vəziyyətini ifadə etmək
- Özünün davranışını və emosiyalarına nəzarət etmək
- Öz imkanlarını qiymətləndirmək
- Böyük və həmyaşıdlarla ünsiyyət saxlamq
- Başqalarının vəziyyətini anlamaq
- Xahiş etmək, qəbul etmək,köməklik etmək
- Böhranlı vəziyyətlərdən çıxmaq
- Başqa insanları dinləmək
- Digər insanlara qarşı dözümlü və xeyirxah olmaq (3, səh.165)

Özünütənzimləmənın emosional-iradi üsullarına aiddir: Özünü təlqin etmə, özünə etiraf etmə, özünə əmr etmə, özünü inandırma:

Özünə təsir etmə - söz ilə və fikrən, sadəlik, lakoniklik, pozitivlik, optimistlik ilə səciyyələnirsə ən təsir edicidir*(Belə daha yaxşıdır).*

Özünə əmr etmək – düşünmək üçün vaxt məhdudiyyəti şəraitində qəti hərəkətlər nümaiş etdirməkdən ibarətdir*(Mən borçluyam).*

Özünü inandırma – şəxsi məqsədlərə şüurlu, tənqidi təsir. *(Belə daha düzgündür)*

Özünə etiraf etmək - əvvəllər baş vermiş səhflər, çətinliklər, səhf addımları, şəxsi həyacanları səmimi etiraf etmək. Bu üsul vasitəsi ilə fərd ziddiyətlərdən azad olur. (Mən səhv etmişəm) (4, səh.265).

Özünün təzahürünün yüksək səviyyələrində iradi özünütənzimləmə mənəvi məqsədlərə və əxlaqi dəyərlərə arxalanmağı nəzərdə tutur. Yuxarıda qeyd olunanlardan görünür ki, şəxsin emosional-iradi özünütənzimləməsı – daxili psixi yaranmadır. Onun barəsində dolaysı təzahürlər ilə bağlı fikir bildirmək olar, onun formalaşma məsələlərinin həlli isə kompleks yanaşma tələb edirlər.

FDMS –in tətbiq etmə şəraitində emosional-iradi özünütənzimləmənın inkişafı sərbəst şəkildə həyata keçirilə

bilməz. Bu inkişafı həyata keçirmək üçün ona məqsədyönlü təsir vacibdir.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Bakı-2003
2. Абраменко В.И. Взаимосвязь в коллективе и развитие волевых черт характера школьников -подростков. //Проблемы психологии воли. Материалы 4-й научной конференции.-Рязань: РГПИ, 1974.
3. Баканов Е.Н. Стадии развития волевых процессов // Вестник Моск. университета. Психология. - 1977, № 4.
4. Токарский А.А. Понятия воли и свободы воли. // О свободе воли. Труды Московского психологического общества. М., 1889, вып. 3. — с. 261-268.

## MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNÜN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Elmi rəhbər: dos. Mirələm Vəliyev***
***Əfsanə Rəhmanzadə***
***BDU-nun II kurs magistrantı***
***efsanerehmanzade6@gmail.com***

Məktəbəqədər yaş dövrü 3-6 yaş aralığını əhatə etməklə uşaqda müəyyən dəyişikliklərin, inkişaf xüsusiyyətlərinin müşahidə olunduğu mərhələdir. Bu dövr fiziki inkişafla yanaşı həm də idrak proseslərinin inkişaf xüsusiyyətləri ilə seçilir. Uşağın çəkisində, boyunda artım müşahidə olunur. Həmçinin bu dövr uşağın əhatəsinin genişlənməsi, ünsiyyət dairəsinin artmasıla seçilən yaş aralığıdır.

3-6 yaş aralığında uşaqlar:

- Obyektlər arasında münasibətləri anlaya bilir, uyğunlaşdıra bilirlər.

- Uzun-qısa anlayışlarını ayırmağı bacarırlar.
- Yaş artdıqca sayları vizual olaraq tanıyıb əzbərləyə bilirlər.
- 5-6 yaşda həftənin günlərini sıralaya bilirlər.
- Dinlədikləri hekayədə bir neçə əsas hissələri təkrarlaya bilirlər.
- Yaş artdıqca əsas rənglərə digər rəngləri də əlavə edirlər.
- 5-6 yaşda ev telefonu və ünvanını deyə bilirlər.
- 5-6 yaşa doğru diqqət müddəti də artır.
- Yaşına uyğun pazlları bacarırlar.

Məktəbəqədər yaş dövründə uşaqlar diqqətini uzun müddət hər hansı əşyaya və ya hadisəyə yönəldə bilmirlər. Bu dövrdə diqqətin yönəlməsi ətrafdakı obyektlərə və onlarla birlikdə edilən hərəkətlərə olan marağını əks etdirir, maraqları sönənə qədər öz diqqətini ona yönəldirlər. Yeni bir şeyin görünməsilə uşağın diqqət obyekti də dəyişmiş olur. Bu səbəbdən də nadir hallarda uzun müddət eyni şeyi edirlər. Kiçik məktəbəqədər yaşlılar 30-35 dəqiqə bir oyunda iştirak edirlərsə, böyük məktəbəqədər yaşlılar isə 1,5 saat oyun prosesində iştirak edə bilirlər. Uşaqlar şəkillərə baxmaqla, nağıl və hekayələrə qulaq asmaqla diqqətini inkişaf etdirirlər. 5-6 yaşlı uşaqların diqqətinin davamlılıq müddəti iki dəfə artmış olur.

Məktəbəqədər yaş dövründə qavrayışın ixtiyari növünün inkişafı üçün şərait yaranır. Uşaqlar cismin formasını, ölçüsünü, böyüklüyünü qavramağa çalışırlar. Eyni zamanda onlar üçün maraqlı olan obyektlərin xassələrini müəyyənləşdirmək, əşyalar arasındakı fərqli cəhətləri tapmaq bacarığı əldə edirlər. Bu dövrdə müşahidəçilik qabiliyyətinin inkişafı qavrayışın inkişafına da öz təsirini göstərir. Bu dövrdə uşaqlarda qavrayışın inkişafında rəsm, yapma, quraşdırma da mühüm rol oynayır. Uşaq nəyisə çəkmək, nəyinsə fiqurunu yapmaq üçün birinci növbədə onu diqqətlə müşahidə etməli,

onun konturunu, rəngini müəyyənləşdirməli olur. Bütün bunlar uşağı müşahidə etməyə təhrik edir, ixtiyari qavrayışın inkişafına təkan verir.

Məktəbəqədər dövrdə uşaq *təxəyyülü* özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Bu dövrün birinci yarısında uşaqlarda təxəyyül reproduktiv xarakter daşıyır. Uşaqların təxəyyül surətləri əldə etdikləri təəssüratların obrazlar şəklində mexaniki canlandırmaları şəklində özünü göstərir. Bu cür təxəyyül surətləri əqli deyil, emosional əsaslar, emosional təəssürat əsasında yaradılır. Təxəyyülün ayrı-ayrı xüsusiyyətləri böyük bağça yaşı dövründə daha səmərəli şəkildə inkişaf etməyə başlayır. Bağça yaşı dövründə bərpaedici təxəyyül surətləri inkişaf etmiş olsa da, solğun olur. Uşaq qarşıya qoyulmuş məqsədə uyğun, dəqiq surətlər yaratmaqda çətinlik çəkir. Bu da uşağın həyat təcrübəsinin azlığından, təəssüratlarının zəifliyindən, müvafiq biliklərin məhdudluğundan qaynaqlanır.Eyni zamanda bu yaş dövründə uşaqlarda yaradıcı təxəyyülün inkişafı da özünü göstərir. Onlar oyun zamanı, hər hansı bir nağılı və ya hekayəni söyləyərkən özlərinin müəyyən əlavələrini edirlər.

Məktəbəqədər yaş dövrü yaddaşın inkişafı üçün əlverişli yaşdır. Bu dövrdən əvvəl də, sonra da uşaq belə asanlıqla ən müxtəlif materialı xatırlamır. Bununla yanaşı olaraq bu yaş dövründə uşağın yaddaşı bir sıra spesifik xüsusiyyətlərə malikdir. Uşaq bir şeyi yadda saxlamağı və ya yada salmağı qarşısına məqsəd qoymur. Eyni zamanda yadda saxlamağın xüsusi üsullarına yollarına da sahib deyil. Onun üçün maraqlı olan hadisə, hərəkət və görüntülər asanlıqla yadda saxlanılır. Emosional təsir yaratdığı halda bu proses daha da möhkəmlənir. Xüsusi olaraq qafiyəli şeirləri tez xatırlayır, filmdəki nağıllar, hekayələr, dialoqlar uşaq qəhrəmanları ilə danışıq zamanı xatırlanır.

Bağça yaş dövründə uşaqlarda təfəkkürü əyani-əməli xarakter daşıyır. İlk ümumiləşdirmələri zahiri əlamətlərə əsasən edirlər. İlk vaxtlar təfəkkür ünsiyyət prosesində, sonra isə fəaliyyətlə bərabər

inkişaf edir. Məktəbəqədər yaş dövrünün əvvəlində uşaqlar hadisələrin mahiyyətini anlamadıqlarına görə qəribə, həqiqətə uyğun olmayan fikirlər söyləyə bilirlər. Bu dövrdə təfəkkürün inkişafı əyani-əməli, əyani-obrazlı və sözlü-məntiqi təfəkkürə əsaslanır.

Məktəbəqədər yaş dövründə nitqin inkişafında irəliləyiş yüksək formada özünü göstərir, daha fəal forma alır. Bu dövrdə uşaqlar əvvəlki yaş dövründən fərqli olaraq məhdud ailə münasibətləri çərçivəsindən kənara çıxmaq əsasında daha çox insanlarla, yaşlılarla və yaşıdlarıla fəal ünsiyyətə olurlar. Nitqin inkişafı məktəbəqədər yaş dövründə uşaqlarda digər psixi proseslərin, xüsusi olaraq da təfəkkürün inkişafı üçün əlverişli şərait yaradır.

## ƏDƏBİYYAT


1. VəliyevM.V., MustafayevA.M. İnkişaf və yaş psixologiyası. Bakı: 2013
2. Yavuzer, H., Çocuk Psikolojisi,İstanbul: 1984
3. Yörükoğlu, Prof. Dr. A., Çocuk Ruh Sağlığı, İstanbul: 1998
4. https://kayzen.az/blog/psixologiya/8180/bağça - yaşı - dövrünün-psixoloji-xüsusiyyətləri.html


## YENİYETMƏLƏRDƏ BÖHRAN HALLARINA DAİR PSİXOLOJİ YANAŞMALAR


***Mətanət Əliyeva***
***Bakı Dövlət Universitetinin doktorantı***
***alievametanet89@gmail.com***


Yeniyetməlik dövrü fərdin inkişaf pillələri içərisində önəmli bir dönüş nöqtəsidir. Şəxsiyyət inkişafının tamamlanması gözlənilən bu dövr bəzi fərdlər üçün olduqca fırtınalı keçir, bəzən də müəyyən bir həyat hadisəsinə bağlı olaraq böhrana səbəb ola bilər. Yeniyetməlik, şəxsin nə uşaq, nə dəyetkin olduğu, hələ ictimai vəzifələrinə sahib olmadığı, amma rolları kəşf edə biləcəyi, sınaya biləcəyi, cəhd edəbiləcəyi, bir aralıq mərhələ olaraq qəbul edilir. Bununla birlikdə zehni inkişafdan başlayaraq, cinsi yetkinləşmə və cinsi identifikasiyadan keçərək,

sosial şəxsiyətə çevrilənə qədər, yeniyetmələrin üzləşdikləri inkişaf dəyişikliyi nəzərə alındığı zaman, aralıq mərhələ anlayışı “xaotik dövr” anlayışı ilə rahatlıqla əvəz edilə bilər.

Yeniyetməlik dövrünü “fırtına və stresslər dövrü” kimi qiymətləndirən Xoll, bu dövrdə müşahidə olunan ziddiyətlərin gözlənti deyil, qanun olduğunu vurğulamışdır. Xolla görə, bütün insanlar içində inkişaf etdiklərisosial-mədəni kontekstən asılı olmayaraq eyni mərhələlərdən keçirlər. Bu mərhələlərdən biri olan yeniyetməlik gələcək həyatın gedişatını dəyişdirə biləcək çox vacib bir dövrdür (1, səh.256).

Xollun biogenetik yanaşmasından təsirlənən Gessell, 1950-ci illərin əvvəllərində normativ inkişaf nəzəriyyəsini, yəni həyatın bir ilindən digərinə keçiddə ümumi olaraq rast gəlinən inkişaf hadisələrinin müşahidəsinə əsaslanan normal bir təkamül modeli təklif etmişdir. Gessell, hər bir fərdin böyümə quruluşu baxımından unikal olduğunu, lakin xronoloji yaşlarla əlaqəli müəyyən inkişaf normaları olduğu fikrini irəli sürmüşdür. Gesselə görə, yeniyetmə üçün mütəqillik axtarmaq, yeni fiziki, cinsi, idrak və sosial bacarıqlarından yaralanmasını təmin edən rolları sınamaq tamamilə normaldır (2, səh.180).

Blos və A.Freyd bu nəzəriyyəyə paralel olaraq yeniyetməliyin emosional bir fırtına olduğunu və bu fırtınanın olmamasının onların ana və atadan ayrılmasının qarşısını ala biləcəyini irəli surmuşlər. Bunun müqabilində bəzi müəlliflər (Offer və Bandura) bu dövrün emosional dalğalanmaların olduğu bir dövr olmadığını və yeniyetmələrin böyük bir qismi üçün bu vəziyyətin etibarlı olmadığı fikrini irəli sürmüşlər. Berzonsky bu fikirləri də əhatə edən şəkildə bəzi yeniyetmələrin bu dövrü gərgin bir stress dövrü olaraq keçirdiyini,, bəzilərinin isə bu stressi çox az yaşadığını vurğulamışdır. Xüsusi olaraq bu iki qrup arasında qalan yeniyetmələrin də olduğunu qeyd etmişdir. Berzonsky klassik və empirik bu iki fikir arasındakı fərqliliyin iş həcmini əhatə edən fərqli yeniyetmə qrupları ilə əlaqəli olduğunu düşünür. Berzonskya görə klassik nəzəriyyəni müdafiə

edən şəxslə adətən çoxlu problemləri və pozuntuları olan yeniyetmələr ilə qarşılaşdıqları üçün yeniyetməlikdə yaşanan stressi şişirdilmiş olaraq dəyərləndirmiş ola bilərlər. Digər tərəfdən dəlil əsaslı nəzəriyyənin tərəfdarları da stress önəmsizləşdirmiş ola bilərlər.

Offer etdiyi eksperiment iki orta məktəbdən 326 oğlan şagirdə self-image anketini tətbiq etmişdir.Bu şagirdlər arasından ortalama (normal) özünü tanımasını göstərən və hər hansı bir diqqətə çarpan pozuntu müşahidə olunmayan 106 oğlan şagird seçilmişdir. Son olaraq bu 106 şagirdin 3% -də məktəbdə ciddi davranış problemi olduğu müşahidə edilmiş və bu şagirdlərdə ekspermentdən kənarlaşdırılmışlar. Bu qrup, Berzonskyin irəli sürdüyü fərziyyədəki alt qrupu yəni orta və yüngül səviyyədə stress yaşayan yeniyetmələri təmsil etməkdədir.

Offer 10 ölkədə keçirtdiyi eksperimentdə, yeniyetmələrdə ortaq xüsusiyyətlər olaraq ümumi olaraq həyatlarından məmnun olduğu, sosial olaraq insanlarla ünsiyyətdə olmağı üstünlük təşkil etməsi,başqalarının özləri haqqında düşüncələrini əhəmiyyət verdikləri, məktəbə və çalışmağa önəm verdikləri, cinsi yöndən özlərindən məmnun olduqları, ailələri üçün müsbət duyğular yaşadıqları, çətinlikləri dəf etmə mövzusunda özlərinə güvəndikləri bildirir. Bu yaş dövrünü “fırtına və stress” olaraq bir başqa deyimlə böhran olaraq yaşayan yeniyetmələr nisbətən daha az bir hissəni təşkil edir. Yeniyetmə bu çətin dövrü müəyyən müddətlərdə qayğılı şəkildə yaşasa da ümumilikdə gələcək yaşamı üçün təhlükə yaratmayacaq şəkildə keçirir.

Bir çox müəlliflər (Erikson, Offer, Galantin) böhran və qarşıdurmaların yeniyetmə inkişafın normal bir müddəti olduğu fikrini irəli sürür və bunu normativ böhran olaraq adlandırır. Bu normativ böhranlar bilindiyi kimi cinsi yetişmə, buna müşayiət edən fiziki dəyişmələr, müstəqillik və ana-atadan ayrılma müddəti ibtidai təhsildən sonra təhsil müddətində yenidən quruluş gözləməsi kimi ümumiləşdirmək olar. Yeniyetmənin

içində yaşadığı dünya ilə hazır olmadığını fərq etməsinin gətirdiyi müdaxilə də bir normativ böhran ola bilər.Bir başqa deyimlə fərd, inkişaf pillələri üzərində irəliləyərkən yeni dövr özündən əvvəl olan nizamı ya da tarazlığı təhdid edə bilər. Bu vəziyyətdə yeniyetmə inkişaf problemlərinin həlli ilə mübarizə aparmağa çalışarkən stress, təşviş, həyəcan pozuntusu və tarazlığında pozulmanın olduğu bir həyata girə bilər (3, səh.89).

Blossun fikrinə əsasən, zidiyyətlərin səbəb olduğu gərginlik və mübahisələr, böyümənin enerji mənbəyi olaraq görülür.Bu mübahisənin məmnuniyyətlə həll olunmaması halında inkişafın ləngiyə biləcəyi hətta bir psixopatologiyaya səbəb ola biləcəyi göstərilmişdir. İnkişaf dəyişiminin ən gərgin, ətraflı və qarma-qarışıq şəkildə yaşandığı yeniyetməlik dövründə stressli həyat hadisələrinə bağlı inkişaf edən böhran vəziyyətlərinin də eyni riski yaratdığını söyləmək şişirdilmiş olmayacaq. Stressli həyat hadisələri ilə əlaqəli olan böhranlar kəskin və müddəti məhdud olan fərdin davam edən tarazlıq (homeostazis) halının pozulmasına səbəb olur.Əslində böhran hadisənin ya da vəziyyətin özü deyil, fərdin hadisəyə ya da vəziyyətə göstərdiyi reaksiya olaraq izah olunur.

Davisin fikrinə görə, yeniyetməlik rollarda meydana gələn dəyişmələr və mübahisələr səbəbi ilə stress yaradan dövrdür. Bu dövrdə rast gəlinən böhranlar sosial xüsusiyyətlər ilə əlaqəli olaraq fərqlilik göstərir. Məsələn, uğura ehtiyac duyma sosial sinifin gözləntilərinə görə bir şəxsdən digərinə çox dəyişə bilər (4).

Ölkəmizdə universitet imtahanlarının yeniyetmənin gələcə-yini müəyyən etməsi və gələcək ilə bağlı qayğılar bu dövrdə böhranların artmasına səbəb olur. Böyük yeniyetməlik dövründə gənclər, imtahanda uğursuz olma qayğısından ailənin və sosial mühitin gözləntilərini yerinə yetirməmə, özü üçun edilən xərc və investisiyalara layiq olmadığı və hətta imtahandan keçə bilməzsə həyatda olmasının bir mənası olmayacağı fikrinə də gələ bilər. Yeniyetməlik dövründə böhrana səbəb olan və dövrə xas olan

xuüsusiyyətlər bir başqa vəziyyət kimi qarşı cinslə münasibətlərdə yaşanan problemlər, tərk edilmə, rədd edilmə və ayrılıq olaraq qiymətləndirilə bilər.

Bununla yanaşı olaraq ailələrin yeniyetmələrin sosial həyatlarını məhdudlaşdıran, maneə olan, müdaxilə edən münasibətləri şəxsiyyət inkişafına yönəlməsi lazım olan diqqəti ailə ilə mübahisəyə yönəltməkdə və bir çox problemlərə səbəb olmaqdadır.Həmçinin, hər fərd üçün böhran potensialını özündə ehtiva edən bəzi həyat hadisələri yeniyetməlik dövründə daha çox çətin olur. Məsələn, sevilən birinin ölümü hər yaşda fərd üçün çətin bir vəziyyətdir. Ancaq yeniyetməlik dövrundəki bir fərd üçün daha çox çətin bir vəziyyətdir.

Ailə üzvlərindən birinin xüsusilə ana ya da atanın ölümü itkinin verdiyi əzabın yanında bir çox həyati çətinlikləri də birlikdə gətirdiyindən onsuzda fırtınalar dövrü olaraq məlum olan yeniyetməlik dövrünün daha çox ağrılı keçməsinə, bəzən də ilişib qalmasına səbəb olur. Göründüyü kimi həyat boyu olacaq böhran vəziyyətləri arasında özünə məxsus yer alan bəzi həyat hadisələri xüsusilə yeniyetməlik dövründə daha çox çətin ola bilər. Bu dövrdə ailənin yeniyetməyə qarşı münasibətində çətinliklərin olması isə böhran vəziyyəti ilə öhdəsindən gəlməyə əngəl olan hətta başqa bir böhran vəziyyətinin də əmələ gəlməsinə səbəb olacaqdır.

Yeniyetməlik dövründə edilən böhrana müdaxilə gələcək dövrlərdən fərqli olarq sadəcə mövcud olan böhran vəziyyətini həllə çatmaqla əldə etmək olmaz. Eyni zamanda sağlıqlı bir şəxsiyyətin meydana gəlməsi və güclü bir şəxsin meydana gəlməsinə kömək edər. Beləliklə, yeniyetmə həyat boyu ola biləcək problemlərin öhdəsindən gəlmə mövzusunda daha bilikli hala gəlir. Bundan başqa yeniyetmənin böhranı ilə aşkar olunan ailə içi sağlam olmayan münasibətlərin dayandırılması yolu ilə sadəcə yeniyetmə deyil, ailə üçün ruhi sağlamlığını yaxşılaşdıran bir təsir yaradır.

## ƏDƏBİYYAT

1. Qədirov. Ə.Yaş psixologiyası. Bakı, Maarif, 2003
2. A. A. Реан. Психология подростка. Москва, 2004
3. Выготский Л.С.,Психология развития человека. М.: Изд-во Смысл; Эксмо, 2005.
4. http://www.psychologos.ru/articles/view/psihologicheskiy-krizis

## BÖYÜK MƏKTƏBLİLƏRİN PEŞƏ SEÇİMİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***dos. Elnarə Piriyeva***
***Fatimə Qəhrəmanova***
***BDU-nun II kurs magistrantı***

İnsanın cəmiyyətin bir üzvü kimi maraq və qabiliyyətlərinə, cəmiyyətin tələbatlarına uyğun peşə seçimi etməsi həm cəmiyyət, həm fərdin özü üçün mühüm məsələdir. İnsanın həyatının böyük bir qismini sərf etdiyi peşəsi onun həyatdan məmnunluğunun, xoşbəxtliyinin mənbəyi ola biləcəyi kimi, əksinə, özündən və cəmiyyətdən narazılığına səbəb ola bilər. Bu məsələ böyük məktəbli yaş dövründə daha aktual problemə çevrilir.

Düzgün peşə seçimi etmək üçün ilk növbədə bu seçimə təsir göstərə biləcək amilləri müəyyənləşdirmək lazımdır. Psixoloji ədəbiyyatlarda peşə seçiminə təsir göstərən bir çox amillərin olduğu qeyd edilir. Bu prosesdə cəmiyyət, dostlar, ailənin gözləntiləri, peşəyə verilən dəyər, işlə təmin olunma imkanları və fərdi xüsusiyyətlər mühüm rol oynayır. U.Bronfenbenner peşə seçimində ona təsir göstərən mikro sistem (fərdin özü), mezo sistem (ailə, həmyaşıdlar, sinif yoldaşları), eko sistem (ailənin yaxınları, qohumlar, qonşular), makro sistem (ideoloji və sosial qruplar) olmaqla dörd əsas

sistemin olduğunu qeyd etmişdir. Bu sistemlər zəncirvari şəklində bir-birilə əlaqəlidir. Peşə seçiminə təsir göstərən amilləri müxtəlif nəzəriyyələr fərqli formalarda izah etmişlər. Onlardan bir çoxu fərdi-psixoloji xüsusiyyətlərə diqqət çəkməklə yanaşı xarici amillərin də əhəmiyyətli olduğunu vurğulamışdır [1, s.33]. Bu baxımdan peşə seçiminə təsir göstərən bütün amilləri 2 əsas qrupa ayırmaq olar. Bunlardan birincisi xarici amillərdir. Müasir dövrün tələbləri, cəmiyyətin müxtəlif peşələrə verdiyi qiymət, sosial-iqtisadi şərait, ailədaxili münasibətlər, ailə daxilində fərdin tutduğu yer bu amillərə aiddir. Bu alt faktorları bilmədən fərdin peşə seçimini qabaqcadan proqnozlaşdırmaq mümkün deyil. Digər amillər isə fərdin özü ilə bağlıdır. Buraya xarakter, temperament, qabiliyyətlər, maraqlar və meyllər kimi alt faktorlar aiddir.

Peşə seçimi çoxsaylı dəyişkən amillərin təsiri ilə baş verən mürəkkəb prosesdir. Bu prosesi daha yaxşı başa düşmək üçün vahid bir nəzəriyyə tələb olunur. Lakin, onların sayı son 100 ildə get-gedə daha da artmışdır. Bu nəzəriyyələrin hər biri müəyyən bir dövrün sosial problemlərinə, tələbatlarına cavab olaraq yarandığından, onları yarandıqları dövrün zaman kontekstində nəzərdən keçirmək lazımdır.

Peşə seçimi ilə bağlı yanaşmalar insanlarda peşə təsəvvürlərinin necə formalaşması, peşənin necə seçildiyi, bu seçimə təsir göstərən amillərlə birlikdə bu prosesi aydınlaşdırmağa çalışan yanaşmalardır. Peşə rəhbərliyinin tətbiq olunmağa başladığı 1909-cu ildən indiyə qədər peşə seçimi prosesinin hər kəs tərəfindən qəbul ediləcək səviyyədə izah oluna bilməməsi bir-birindən az və ya çox dərəcədə fərqlənən nəzəriyyələrin yaranmasına səbəb olmuşdur ki, bu nəzəriyyələr indi də öz əhəmiyyətini qoruyur [4, s.236].

Peşə seçimi ilə bağlı xarici ölkələrin nəzəriyyələrini təhlil etdikdə, onları bu qruplara bölmək olar: 1) differensial-diaqnostik, 2) psixodinamik, 3) inkişaf, 4) tipoloji [5, s. 29]. Differensial-diaqnostik istiqamətin əsasını peşənin və fərdin

psixoloji xüsusiyyətlərini təhlil etmə və bu təhlil nəticəsində hər ikisini yüksək səviyyədə uyğunlaşdırma təşkil edir. Bu yanaşma Parsonsun gördüyü işlərlə, daha sonra, Patterson, Darley, Williamson və başqaları tərəfindən həyata keçirilən empirik tədqiqatların nəticəsində yaranmış və inkişaf etdirilmişdir. Psixodinamik yanaşmada isə, peşə seçimində xarici amillərin deyil, daxili amillərin təsir etməsi fikri müdafiə edilmiş, şəxsiyyət və onun strukturuna diqqət çəkilmişdir (Z.Freyd, E.S.Bordin, A.Roe, U.Moser). Bu yanaşmaya görə fərdlərin peşəkar inkişafı onların psixo-seksual inkişafı ilə əlaqəlidir. Peşə ilə bağlı olan davranışlar şüuraltı ehtiyacların qarşılanması ilə bağlıdır. İnkişaf yanaşmasının tərəfdarları olan Ginzberq, Super və b. isə, qeyd edirdi ki, peşə seçimi bir anlıq deyil, insan doğulduğu andan etibarən baş verən prosesdir. Bu baxımdan, onlar hər bir inkişaf dövrlərinə uyğun olara peşə seçimin xüsusiyyətlərini, ona təsir göstərən amilləri fərqləndirirdilər. Tipoloji yanaşmanın tərəfdarları (Holland və b.) isə, insanların xarakter və şəxsiyyət xüsusiyyətlərinə görə müxtəlif tiplərə aid olduğunu və buna uyğun olaraq, hər bir tip üçün peşə qruplarının fərqli olduğu fikrini irəli sürmüşdür [2, s.268].

## ƏDƏBİYYAT


1. Akkoç F. Lise Öğrencilerinin Mesleki Kararsızlıklarının Sosyo-Demografik Faktörlere Göre İncelenmesi, Mehmet Akif Ersoy Üniversitesi Eğitim Fakültesi Dergisi, Sayı 23, 2012
2. Tuzcuoğlu S. Meslek seçimi ve önemi. M.Ü.Atatürk Eğitim Fakültesi bilimleri dergisi. 1994
3. Vurucu F. Meslek lisesi öğrencilerinin meslek seçimi yeterliliği ve meslek seçimini etkileyen faktörler. İstanbul: 2010
4. Yeşilyaprak Binnur. Mesleki gelişim kuramları üzerine bir eleştirel değerlendirme. Psikolojik danışma ve rehberlik dergisi. 1995

5. Гостева П.А. Социально-психологические критерии выбора профессии старшеклассниками. Диссертация на соискание ученой степени к.псих.наук.- М.:МГГУ им. Шолохова, 2003

## AUTİZMLİ UŞAQLAR İLƏ APARILAN MÜDAXİLƏLƏRDƏ VALİDEYNLƏRİN İŞTİRAKI

***prof. prof. Elnarə Şəfiyeva***
***Zülfiyə Azayeva***
***BDU-nun II kurs magistrantı***

Autizmli uşağın doğulması bütün ailənin həyatını və onun cəmiyyətlə qarşılıqlı münasibətlər sistemini əhəmiyyətli dərəcədə dəyişdirən bir hadisədir, buna görə də aparılmış tədqiqatlar göstərir ki, autizmi olan uşağa psixoloji dəstəyin göstərilməsi prosesində uşağın yaşadığı, inkişaf etdiyi və dəstək aldığı ailə bütövlükdə nəzərə alınmalıdır. Bu ailələrlə qarşılıqlı münasibətlər, tibbi sığortaya hansı xidmətlərin daxil olması və hansı dəstəyin göstəriləcəyi ilə bağlı praktik tövsiyələr verən bir neçə yanaşma mövcuddur. İlk simptomların qeydə alınmasından, diaqnoz və müalicəyə qədər nəzərdə tutulmuş addımların ardıcıllığını əks etdirən qrip və tonzillit kimi xəstəliklərin müalicə və sağalmasını nəzərə alan ənənəvi yanaşma  autizmli uşaq olan ailələr üçün uyğun deyil. Buna görə, ailənin öz terapevti və ya köməkçisi olmasını nəzərdə tutan qeyri-ənənəvi yanaşma işlənilib hazırlanmışdır. Terapevt və ya köməkçi ailə üzvlərinın hər birinin öz inkişafını və ailədə rolunu nəzərə alaraq onların arasında vəzifələri bölüşdürməyə kömək etməlidir. Bu cür müdaxilələr məsələn, “Family system interventions for families of children with autism spectrum disorder” kimi tədqiqatlarda öyrənilmişdir.

Erkən uşaqlıq autizmi ilə mümkün qədər səmərəli işləmək üçün ailə daxilindəki münasibətləri yenidən nəzərdən

keçirmək, ailədaxili ziddiyyətləri həll etmək, yeni gerçəkliyi və inkişaf pozuntularının bu gün sağalmaz olduğunu qəbul etmək lazımdır. Bu cür vəzifələr ailə üçün çox çətindir. Ailə tərəfindən qurulan sistem, nəticədə yalnız autizmi olan uşağı deyil, digər ailə üzvlərini də dəstəkləyən daha böyük bir sistemin elementlərindən birinə çevrilməlidir. Tədqiqatçıların və təcrübəçilərin peşəkar birliyi autizmi olan uşağın vəziyyətinin normallaşmasına, habelə sağalmasına səbəb olacaq ümumi tövsiyələri verə bilmir. Buna görə, ailənin qarşısında mühüm bir vəzifə durur: inkişaf perspektivləri yalnız autizmi olan uşağa deyil, bütün ailə üzvlərinə də uyğun olacaq bir mühit yaratmaq üçün dəyişməyi öyrənməlidirlər. Bu şərt çox vacibdir, çünki əksər hallarda ailələrin bütün dəyərlər və maraqları yalnız erkən autizmi olan uşağın dəstəyinə yönəlir.

Ailənin dəyişdirilməsi prosesində müvəffəqiyyətin əsas komponentlərindən biri uşağa güclü və sabit bir bağlılıq qədər, əhəmiyyətli olan ailə üzvlərinin psixi və fiziki sağlamlığını nəzarətdə saxlayan, erkən uşaqlıq autizmi diaznozun qoyulması ilə əlaqəli yaranan maliyyə və təşkilati problemləri həll etməyə kömək edən mütəxəssislər ilə daim qarşılıqlı əlaqədə olmaq vacibdir. Bu sistemdə ailənin əsas məqsədi autizmi olan bir uşağın inkişafına müsbət təsir göstərəcək sağlam bir mühit yaratmaq olmalıdır.

Yuxarıda qeyd olunanları 2016-cı ildə aparılan “Do participation and self-efcacy of mothers to children with ASD predict their children’s participation” adlanan tədqiqat nəticəsində əldə olunan empirik nəticələr təsdiq edir. Bu tədqiqatda 30 normatipik uşağın və 30 autizmli uşağın valideynləri iştirak edib. Alimlər qarşılarına ananın özeffektivliyi və uşağın inkişafı arasında əlaqəni müəyyən etmək məqsədi qoymuşdular. Tədqiqat müəllifləri sağlam ailənin ayrılmaz atributu - ailənin inkişaf dinamikasını anlayan, özünü bu prosesdə təsirli hesab edən və autizmli uşağa dəstək

verən valideynlərin (və ya valideyn, çox vaxt ana) olmasını hesab edirdi. Bu əlaqə nəinki müsbət, həm də çox əhəmiyyətli oldu: ana özünü nə qədər təsirli qəbul edərsə, autizm məsələlərində daha maarifləndirilmiş və qarşıya qoyulan vəzifələrin həllində nə qədər praqmatik olarsa, uşağın nəticələri bir o qədər yaxşı olar.

59% halda valideynin müdaxilələrdə yalnız iştirak edəcəyi deyil, eyni zamanda müxtəlif müdaxilələri də aparacağı güman edilir. Bəzi yanaşmalar mütəxəssislərin uşaqla müəyyən saat işləməsini və valideynlərinə uşaqla işləmək üçün tapşırıqların verilməsini nəzərdə tutur. Empirik nəticələrin təhlili göstərir ki, valideynlərin uşaqlar ilə aparılan müdaxilələrdə birbaşa iştirakı müdaxilələrin effektivliyini artırır və eyni zamanda valideynlərin vəziyyətinin yaxşılaşmasına səbəb olur. Valideynlər üçün uşaq ilə aparılan korreksiya işində öz effektivliyini və ona kömək edə bilməsini başa düşmək stresin azaldılmasına kömək edən çox vacib vasitədir. Autizmi olan bir uşaq ilə səmərəli işləmək üçün, bütün ailəsini müdaxiləyə daxil etmək lazımdır. Bu özü güclü bir terapevtik vasitə ola bilər.

## ƏDƏBİYYAT

1. Giovagnoli G., Postorino V., Fatta L.M., Sanges V., De Peppo L., Vassena L. et al. Behavioral and Emotional Profile and Parental Stress in Preschool Children With Autism Spectrum Disorder. Research in Developmental Disabilities, 2015.
2. Goepfert E., Mulé C., von Hahn E., Visco Z., Siegel M. Family system interventions for families of children with autism spectrum disorder. Child and adolescent psychiatric clinics of North America, 2015.

# MÜASİR DÖVRDƏ İNTERNETİN GENİŞ İSTİFADƏ YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA SOSİAL ŞƏBƏKƏLƏRİN ROLU

*dos. Piriyeva Elnarə*
*Nərmin Əhmədova*
*BDU-nun II kurs magistrantı*

Müasir dövrdə internetin geniş istifadə imkanları və diqqətçəkənliyi insanlar arasında internetə bağlılıq yaranmasına səbəb olmuşdur. Bu təsirə ən çox məruz qalanlar isə yeniyetmələrdir.Yeniyetmələr fiziolojik ve zehni inkişaflarını tamamlanmadığı üçün, normadan artıq internetden istifadə edən digər yaş qruplarına nəzərən daha çox həssas-dırlar. Bu bağlılıq isə öz növbəsində onların davranışlarında dəyişikliklər əmələ gəlməsinə gətirib çıxarmışdır.Belə ki, son illərdə internet asılılığı kimi bir fenomen yaranmışdır. Internet asılılığına internetdən həddindən artıq, yaxud internetdən düzgün olmayan və ya patoloji xarakter kəsb edən bir formada istifadə edilməsi kimi tərif verilir [1]. Digər adla desək bunlara internet asılılığı patologiyaları və ya virtual asılılıq da deyilir. İnternet və təbii ki sosial şəbəkələr insanlar arasında məsafələri qısaltmaq və münasibətləri genişləndirməyin müjdəçisi olmuşdur. Müasir dünyanın hansı nöqtəsində olmasından asılı olmayaraq fərdlərin eyni zamanda və sonsuz əlaqələrinə imkan yaradan müasir kommunikasiya texnologiyaları "Virtual reallıq" (Virtual World) kimi tanınan yeni dünyanın yaranması üçün mühüm faktor olmuşdur. Virtual reallıq gerçək dünyanın tam əksi olaraq, əlçatanlığın asanlığı, 24 saat fəal olması, işin sadəliyi, xərclərin aşağı olması, istifadəçilərin orada tanınmaz qalması kimi saysız imkanlara malikdir. Bu ikinci dünya vasitəsilə ticarətlə məşğul olmaq, alış-veriş etmək, öyrənmək, geniş informasiya mənbələrini əldə etmək, ən yeni xəbərləri öyrənmək, əylənmək, asanlıqla və bir neçə dəqiqənin ərzində

başqa bir qitədə olan ölkə ilə əlaqə qurmaq, yeni bir kimlik qazanmaq və son olaraq da yeni bir həyata və yaşayışa başlamaq mümkündür. Virtual internet məkanında olmaq istifəçilərə sonsuz imkanlar verir. İnternetdən istifadənin imkanları və sevinclərinin ölçüləri nə qədər çox artarsa, daha çox istifadəçi bu yeni fenomenə cəlb olunacaqdır[2].Əslində internet öz özlüyündə zərəsiz və faydalı bir vasitədir.Lakin ondan həddən artıq və düzgün olmayan istifadə öz arxasınca internet asılılığı təhlükəsini gətirir və beləlik də bu fenomen cəmiyyətin psixi sağlamlığına mühüm problem yaradır.Internet bağlılığına danışıq otaqları, pornoqrafiyaya baxmaq, qumar oynamaq və onlayn oyunlar daxildir ki, bunlarda fərdlərin sağlam münasibətlərinin, hisslərinin və son olaraq da psixologiyasının pozulması üçün zəmin yarada bilər [3].

İnternetə alışqanlıq "qumar, yeyimcillik və televizora baxmaq kimi davranış alışqanlıqları" olaraq nəzərdə tutulur. İnternetdən istifadə etmək vaxt bölgüsündə problem yaradır. Belə ki, fərd üçün peşə, dərs problemləri, ictimai, ailə, iş və maddi problemlər, eləcə də psixoloji və fizioloji problemler yarada bilər. Bundan başqa, gözəçarpacaq xarakter və emosional dəyişikliklərin yaranmasına səbəb ola bilər [4 ]. Orzak (1999) internet alışqanlığını iki qrup simptom və əlamətləri olan psixoloji problem kimi xarakterizə edir.

a) Psixoloji əlamət və simptomlar;

b) Fiziki əlamət və simptomlar.

İnternet asılılığı müasir dövrdə demək olarki,yeniyetmə yaş qrupunun hamısında rast gəlinir.Lakin aparılan tədqiqatlara görə internet asılılığı yeniyetmələrə 4 sahədə təsir göstərir. Bunlar aşağıdakılardır. Fiziolojik sağlamlıq, psixososial inkişaf, akademik göstərici və ailə münasibətləri. İnternet asılılığının yeniyetmə şəxsiyyətinin inkişafında çox menfi təsirləri mövcuddur. İnternet asılılığı əsasən sosial şəbəkələrin normadan artıq istifadəsində özünü göstərir. Bu hal xüsusən

sosial münasibətlərin formalaşmasında çətinliklərin yaranmasına səbəb olur [5].

Sosial şəbəkələrin istifadəsinin yeniyetmələr üzərindəki ən önəmli faktorlarından biri ailə münasibətləridir.Ailələrin müsbət rol model olması yeniyetmələrin internet və sosial şəbəkələrin bağlısına çevrilməsindən qoruyur.Eyni zamanda ailələr yeniyetmələr üçün internet və sosial şəbəkənin istifadəsində müəyyən qədər sərhəd qoymalıdırlar. Yeniyetmələrdə ünsiyyət və özünütəsdiq tələbatı güclüdür. Buna görə də məktəb və ailə onları birgə tədbirlərə, ictimai-faydalı işlərə, əmək və ünsiyyətə geniş cəlb etməklə bu əsas tələbatın ödənməsinə şərait yaratmalıdır.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp, Poliqraf korporasiysı, 2003, 365s.
2. Bayramov Ə.S., Əlizadə Ə. Ə., Psixologiya. Bakı: 2003, 540 .s
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 282 s.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 368 s.
5. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 386 s


## TƏNHALIQ HALƏTİNİN TƏZAHÜRÜVƏ FƏSADLARI


***Fatih Aşan***
***Bakı Slavyan Universitetinin doktorantı***
***fatihasan4153@gmail.com***


Tənhalıq problemi olduqca mürəkkəb, çoxcəhətli və ümumbəşəri bir problemdir. İnsan yalnız maddi və ya üzvi tələbatlarını ödəməklə kifayətlənmir, o, həm də özünün bir sosial varlıq kimi mövcudluğunu, öz mahiyyətini dərk etmək, öz ictimai həyatını qoruyub saxlamaq üçün mənəvi tələbatlarını da

təmin etməlidir. Belə mənəvi tələbatlardan insan üçün ən vacibi, başqa adamlarla ünsiyyət saxlamaq, onlarla yaxşı münasibətdə olmaq, onlardan özünə qarşı diqqət, qayğı, müsahibini başa düşmək, onu düzgün anlamaq istəyi görməkdir (1,s.159).

Bu günə qədər psixologiya elmində bu mövzuda kifayət qədər ciddi,nəzəri-empirik araşdırma ilə yanaşı qeyd etmək lazımdır ki tənhalığın mahiyyəti və təzahürləri haqqında vahid bir anlayış yoxdur.

Nəzəri fəlsəfi təhlil (S. Kierkegaard, G.D. Toro, G.V.F. Hegel, K. Marx, F. Nietzsche, D. Rismen, K. Jaspers, J.-P. Sartre, M. Heidegger, A) Camus, V.S.Soloviev, N.F.Fedorov, N.A. Berdyaev, S.L. Frank) və psixoloji (Z. Freud, E. Fromm, K. Horney, C. Jung, R. Weiss, V. J. Derlega, S.T. Margulis, L.E. Peplo, D. Perlman, C. Rogers, K. Mustakas, V. Frankl, I. Yalom) konsepsiyaya əsasən tənhalıq anlayışını fərqləndirməyə və onun əsas cəhətlərini (obyektiv və subyektiv, müsbət və mənfi), eləcə də subyektiv tənhalığın tərifini ifadə etməyə icazə verdi. Tənhalığın obyektiv tərəfi müəyyən şərtlərdə deformasiya olunmuş bir xarakter (anomiya, yadlaşma, təcridetmə) qəbul edən ictimai münasibətlər və faktlardır. Başqa sözlə, tənhalığın obyektiv tərəfi təkliyə "üstünlük verən" və onun üçün "əlverişli mühit" yaradan şərtlərdir. Tənhalığın subyektiv tərəfi (və ya əslində təkliyin özü), obyektiv şərtlərə nisbətən müstəqil, həm müsbət, həm də mənfi potensiala malik olan, reallığın müxtəlif cəhətləri ilə əlaqələrinin deformasiyasına görə şəxsiyyətin təcrübəsidir (3, s.125).

Tənhalığın müsbət mənası (*mənbə kimi tənhalıq*) insanın fərdiliyinin və ümumiyyətlə ictimailəşmə prosesinin ayrılmaz hissəsidir. Tənhalığın müsbət potensialı aşağıdakı funksiyalarda həyata keçirilir: özünü tanıma funksiyası; özünü tənzimləmə funksiyası; yaradıcılıq və özünü inkişaf etdirmə funksiyası; psixofizik vəziyyətin sabitləşməsi funksiyası; bir insanın "mən" ini dağıdıcı xarici təsirlərdən qorumaq funksiyası.

Tənhalığın mənfi xüsusiyyəti (*problem kimi tənhalıq*) aşağıdakı kimi özünü göstərir: tənhalığın digər zehni prosesləri və şərtləri özünə tabe etmək qabiliyyəti var; tənhalıq şəxsiyyətin daxili bütövlüyünü pozur; tənhalıq psixoloji müdafiə mexanizmi ola bilər; tənhalıq yüksək gözləntilərin meydana gəlməsinə və başqa bir insanın öz inkişafına verdiyi töhfələrin yenidən qiymətləndirilməsinə səbəb olur. Tənhalığın mənfi və müsbət tərəfləri arasındakı əlaqənin dialektik anlaşılması müəyyən şərtlərdə (*tənhalıq şüuru, ona qarşı fəal münasibət, çətinliklərin öhdəsindən gəlmək təcrübəsi, tənhalığın motivasiyası*), onun mənfi təzahürlərinin müsbət xarakter əldə edə biləcəyini göstərir.

Subyektiv tənhalığın tipologiyası üçün əsaslar bunlardır: tənhalıq hissinin xüsusiyyətləri və ona münasibət (mənfi və müsbət); tənhalığın səbəbləri (xarici amillər və şərtlər, şəxsi seçim).

Bu əsaslara uyğun olaraq, Tənhalığın aşağıdakı növləri elmi ədəbiyyatda müəyyənləşdirilib, təsvir edildi :

- subyektiv mənfi, fərdi seçim səbəbindən (**daxili mənfi**);
- subyektiv mənfi, xarici amillər (**xarici mənfi**) səbəbindən;
- subyektiv müsbət, xarici amillər (**xarici müsbət**) səbəbindən;
- subyektiv müsbət, fərdi seçim səbəbiylə (**daxili müsbət**) *(Şəkil 1).*

*Xarici amillər*

Bu tipologiya tənhalığı problem və şəxsi inkişaf mənbəyi kimi qiymətləndirməyə və tənhalığın müsbət potensialını reallaşdırmaqda şəxsə psixoloji yardım strategiyasını izah etməyə imkan verdi. Şəxsiyyətin inkişafında psixoloji və pedaqoji yardımın ümumi strategiyası şəxsiyyətin daxili mənfi tənhalıqdən daxili müsbətə doğru hərəkətini təşkil etməkdir.

***Şəxsi seçim***

| | |
|---|---|
| Subyektivlik<br>Mənfi tənhalıq<br>Daxili seçim səbəbindən<br>**(daxili mənfi )** | Subyektivlik<br>Müsbət tənhalıq<br>Daxili seçim səbəbindən<br>**(daxili müsbət )** |

| *mənfi tənhalığı qəbullanma* | *mənfi tənhalığı qəbullanma* |
|---|---|
| Subyektivlik<br>Mənfi tənhalıq<br>Xarici görünüşünə görə<br>**(xarici mənfi)** | Subyektivlik<br>Müsbət tənhalıq<br>Xarici görünüşünə görə<br>**(xarici müsbət )** |

***Xarici amillər***

**Şəkil 1 :**Tənhalığın növləri (5,s.12)

İnkişaf etdirilmiş tənhalığın tipologiyasına əsasən gənclik tənhalığı potensial daxili müsbət tənhalıq olaraq müəyyən edilir (bir gənc, bir yeniyetmədən fərqli olaraq, şəxsiyyətinin formalaşmasında tənhalığın əhəmiyyətli müsbət rolunu başa düşməyə başlayır və ya intuitiv şəkildə təxmin edir ki, yalnızlığı şüurlu şəkildə seçə bilər). Gəncliyin tənhalıqlə əlaqəli fəaliyyəti konstruktivdir, dərin motivasiya elemntlərini özündə ehtiva edir. Belə bir seçim yeniyetməlik dövrünə xas olan maraqlara, üstünlüklərə və ehtiyaclara malikdir: özünü bilmək və özünü öyrənmə ehtiyacı, öz müqəddəratını təyinetmə və s. Lakin gənc bir insanın tənhalığın müsbət potensialından tam istifadə etmək üçün daxili imkanları ola bilər və onun seçiminin səbəbləri səhv ola bilər. Bu baxımdan, tənhalığın müsbət potensialını reallaşdırmaqda peşəkar psixoloji və pedaqoji yardıma ehtiyacı var(4, s.115).

Yeniyetməlikdə tənhalıq özünü dərk etməyin əsas prosesləri və hadisələri ilə əlaqələndirilir, özünə münasibət (tənhalığın emosional təzahürləri), özünü haqqında düşüncələri (tənhalığın idrak təzahürləri), xarakteroloji xüsusiyyətləri və davranış seçimi (tənhalığın davranış təzahürləri) təsir göstərir. Tənhalıq bir insanın əsas həyat hadisələri (bioloji ailəsindən ayrılması, sosial münasibətlərin kontekstini genişləndirmək, gələcəyini

planlaşdırmaq, intim fərdi münasibətlər qurmaq) və yetkinlikdə şəxsiyyətin inkişafı vəzifələri ilə əlaqələndirilir.

Göründüyü kimi, tənhalıq mürəkkəb struktura malikdir və ayrı-ayrı yaş dövürlərində və müxtəlif şərtlər altında həm struktiv, həm də destruktiv xarakter daşıya bilər

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Cabbarova L.M. Tənhalıq probleminin qoyuluşu və psixoloji mahiyyəti haqqında. «Dil və ədəbiyyat» nəzəri, elmi, metodik jurnal, №2, Bakı, 1999, s.159-165

2. Bayramov Ə.S. «Yadlaşma sindromu» və onu şərtləndirən sosial-psixoloji amillər haqqında. M.Ə.Rəsulzadə adına BDU-nun 80 illiyinə həsr olunmuş elmi konfransın materialları, Bakı, BDU nəşriyyatı, 1999, s.460-461.

3. Кон И.С. Психология ранней юности. М., Просвещение, 2000. 256с.

4. Кyzнецов О. Н., Лебедев В. И. Психология и психопатология одиночества. М., 2002. 336

5. Fromm-Reichmann F. Loneliness. Psychiatry, 22, 1-15. 2001.

6. Loucks S. Loneliness, affect and self-concept: Construct validity of the Bradley Loneliness Scale. Journal of Personality Assessment, 44(2), 142-147. 1980.


## TƏLİM PROSSESİNDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN ROLU


***Murat Kurhan***
***Bakı Slavyan Universitetinin doktorantı***
***kurhanmurat72@gmail.com***


Müəllim şəxsiyyətinin fərdi xüsusiyyətlərinin çoxcəhətliliyi müəllimlərin əməyinin, davranış və rəftarının fərdi üslubunun çoxcəhətli olmasını göstərir. V.N.Soroka-Rosinski müəllimləri dörd əsas növə ayırır: nəzəriyyəçi müəllim, realist müəllim, utilitarist müəllim (utilitarist: mənfəətpərəst), artist müəllim, (başqa sözlə, intuitivist: *həqiqi idrakın yalnız*

*intuitsiya əsasında mümkün olduğunu iddia edən mürtəce idealist nəzəriyyəsi olan intuitivizmin tərəfdarı*).

Soroka-Rosinskinin qənaətincə, birincilərdə real aləmin və təcrübənin zərərinə olaraq, nəzəriyyə, ideya həmişə üstünlük təşkil edir.İkincilər, əksinə, nəzəriyyədə zəifdirlər, təhsil alanların əhvalını məharətlə, ustalıqla hiss edirlər.Utilitaristlər öz ümprizmləri ilə realistlərə bənzəyirlər, lakin onların şüarı belədir: keçilən materialın möhkəmləndirilməsi üzrə ardıcıl məşq aparmalı. Onlar üçün bütün aləm – yalnız material və təhsil almaqdır, yalnız təlimin obyektidir, təlimdə yetirmək və intizamdır. Artist müəllimlər emosianallıqlarına,intuisiya və ilhama əsasən çalışırlar.İlhama gəldikdə, dərslərdə xarüqələr yaradırlar. Yaradıcılığa görə, fikirlərindəki müstəqilliyi, hisslərindəki səmimiliyə görə fərqlənir və təhsil alanlarda güclü təsir oyadırlar. Lakin əhval-ruhiyyələrindən asılı olaraq, bəzən maraqsız dərslər aparır, bəzən də dərslərə pis hazırlaşırlar (5, səh.115).

E.Q.Kostyaşkin aşağıdakı dörd psixoloji-pedaqoji müəllim tipinə diqqəti yönəldir: intellektual, iradi, emosional və təşkilati tip.Adlandırmanın özündən qeyd olunan bu və ya digər tipin əsasında hər hansı psixi prosesin, yaxud onların quruluşunun hansı üstünlüyə malik olduğu görünür.

Yeni pedaqoji təfəkkürə görə, müəllim tələbələri maraqlandırmağı və heyrətləndirməyi bacarmalıdır. Azərbaycanın klassik filosofu Bəhmənyar demişkən, "Təfəkkür heyrətdən başlanır. Maraqlanmayan, heyrətlənməyən təhsil alanın təfəkkürü inkişaf etməz". Həmin sözlərdə dərin həqiqət vardır.Tələbələri ali məktəblərdə tədris olunan fənlər, həmin fənlər üzrə mövzular və tədrisi həyata küçirən müəllimlər maraqlandırmalı,heyrətləndirməlidirlər.

Hər bir müəllimin pedaqoji tərcümeyi-halı fərqlidir. Heç də hər müəllim və heç də dərhal tez bir zamanda ustad müəllim olmur.Bunun üçün müəyyən (bəziləri üçün hətta xeyli) vaxt lazımdır. Ustad, yaradıcı müəllim olmaqdan ötrü müəllim

pedaqoji prosesin qanunauyğunluqlarına və mexanizminə bələd olmalı və onlara yiyələnməlidir. Bu, pedaqoji təfəkkürə sahib olmaqda və fəaliyyət göstərməkdə müəllimə kömək göstərir. Nəticədə müəllimdə pedaqoji cisim və hadisələri, təzahürləri müstəqil şəkildə təhlil etmək. Onların mühüm əlamətlərini qruplaşdırmaq, sistemləşdirmək, ümumiləşdirmək və nəticəyə gəlmək bacarığı formalaşır. Bundan savayı, pedaqoji ustalığa yiyələnmiş müəllim təlim və tərbiyənin nəzəriyyəsində nəzərdənkeçirilən pedaqoji təzahülərin adekvat məntiqində ideyaları, nəticələri, prinsipləri müəyyənləşriməyə, cisim və hadisləri düzgün diaqnozlaşdırmağa, psixoloji-pedaqoji anlayışların hansı kateqoriyasına aid olduğunu təyin etməyə, əsas pedaqoji vəzifələri (problemləri) və onun optimal həlli üsullarını müəyyənləşdirməyə imkan verir. Müəllim öz fəaliyyətində elmi nəzəriyyəyə və qabaqcıl pedaqoji təcrübəyə əsaslandıqda ustalıq bitkin olur. A.S.Makarenkonun fikrincə, şagirdlər öz müəllimlərinin həm ciddiliyini, həm quruluğunu və hətta yersiz irad tutmasını bağışlayırlar, lakin onların öz işini pis bilmələrini ona bağışlamırlar (4, səh.122).

Böyük pedaqoq pedaqoji ustalıqdan danışarkən yazırdı: "Mən təcrübədən belə bir əminlik hasil etdim ki, biliyə, ixtisasa əsaslanan ustalıq məsələni həll edir.V.Slastenin, İ.İsayev və b. "Pedaqoqika" dərsliyində müəllim ustalığına aşağıdakı tərifi verirlər: "Pedaqoji ustalıq pedaqoji fəaliyyətin inkişafının yüksək səviyyəsini, pedaqoji texnologiyaya yiyələnməni ifadə edərək, eyni zamanda bütövlükdə müəllimin şəxsiyyətini, təcrübəsini, vətəndaşlıq və peşə mövqeyini əks etdirir. Müəllimin ustalığı pedaqoji prosesin yüksək səmərəliyini müəyyən edən şəxsiyyət işgüzar keyfiyyətlərinin sintezidir".

Müəllimin pedaqoji peşəkarlığının və ustalığının səviyyə pedaqoji vəzifələrin yerinə yetirilməsi üsulları ilə və daha çox bu üsulların tətbiqi zamanı nəzəri məsələlərdən hansı səviyyədə faydalanması ilə müəyyən olunur. Müəllim peşə vəzifələrinin öhdəsindən o zaman yaxşı gəlir ki, o öz

şəxsiyyətinin güclü tərəflərinə, o cümlədən təfəkkürünə əsaslansın.

Müəllimin pedaqoji təfəkkürü, hər şeydən öncə vəzifələrin yerinə yetirilməsinə, başqa sözlə bu məsələnin həllinin şərtləri, vasitələri və üsullarına aid olan informasiyanı təhlil etmə bacarığında özünü göstərir.

Sokrat məntiqi cəhətdən düşünməyi, düşünərək həqiqəti axtarmaqğı öz şagirdlərinə öyrədirdi. Ona görə də bu metod Sokrat müsahibəsi, evrestik müsahibə adlanır. Müsahibənin gedişində problemli suallar irəli sürmək və müsahibi müəyyən çətinliyə salmaq Sokrat üçün səciyyəvi idi. Bu xüsusda böyük filoso deyərdi: "Fikir özü sənin beynində doğmalıdır. Mən ancaq sənin müstəqil fikrinin doğulmasına kömək edə bilərəm". J.J.Russo öz şagirdləri üçün onları idrakı axtarışa sövq edən xüsusi situasiyalar yaradırdı. Pestalotsi və Disterveq buna nail olmağa çalışırdılar ki, şagird nəinki biliyi ala, habelə onu axtara bilsin. Beləliklə, adları qeyd olunan pedaqoqlar, eyni zamanda Y.A.Komenski, K.D.Uşinski və b. təhsil alanların müstəqil təfəkkür fəaliyyətini inkişaf etdirmək ideyasını irəli sürürdülər. Azərbaycan Respublikasının ali məktəblərində çalışan qabaqcıl, təcrübəli və pedaqoji ustalığa malik müəllimlər, təbii ki, bu cəhəti nəzərə alır, tələbələri axtarıcılıq və tədqiqatçılıq fəaliyyətinə qoşurlar (1, səh.25).

Təlimin səmərəliyini yüksəltmək üçün bilik, bacarıq və vərdişlərin tələbələr tərəfindən onların maksimum imkanları səviyyəsində mənimsənilməsinə nail olmaq, təlimin tərbiyəvi və inkişafetdirici təsirini təmin etmək lazımdır. Bu vəzifələri yerinə yetirmək üçün təlim – tərbiyə prosesində formalizmi, tələbələrin biliklərinin qiymətləndirilməsində yol verilən qeyri-obyektivliyi aradan qaldırmaq vacibdir.

Pedaqoji ustalığa malik müəllim təlim prosesini təkmilləşdirmək üçün zəruri tədbirlər görməli, təlimdə yetirməmək hallarının qarşısını almalı, yaxud bu kimi halları aradan qaldırmalıdır. Bütün bunlar tədris məşğələlərinin

məzmununun və təşkilinin keyfiyyətini yaxşılaşdırır, həm müəllimin, həm də tələbələrin öz əməklərinə görə məsuliyyətini artırır. Tələbələrin təlim müvəffəqiyyətini obyektiv qiymətləndirən, təlimdə geridəqalma hallarının qarşısını alan, təlim prosesini fəal surətdə təkmilləşdirən müəllimlər rəğbətlə qarşılanmağa layiqdirlər. A.Distverq təhsil alanların məntiqi təfəkkür fəaliyyətini təşkil etməkdə, onların idrakını inkişaf etdirməkdə müəllimin roluna son dərəcə böyük əhəmiyyət verirdi. Alman pedaqoqu bu barədə yazırdı: "Pis müəllim həqiqəti təqdim edir, yaxşı müəllim isı onu tapmağı öyrədir".

K.D.Uşinskinin fikirləri də maraqlıdır: O, "Hafizə təhlilinin pedaqoji tətbiq" əsərində bu xüsusda aşağıdakı məsələləri diqqətə çatdırırdı: "Müəllim öz sualı ilə şagirdin diqqətini onun başında olan, lakin heç bir zaman birləşməyən təsəvvürlərin oxşar və fərqli cəhətlərinə cəlb edir...qaranlıq başqa suallara işıq salaraq, bu başın zülmətində mühafizə olan bütün materialı tədricən şüur üçün aydın olan düşüncə sisteminə salır və bununla da hafizənin… qırıq-qırıq topladıqı materialı ağlın ixtiyarına verir" (3, səh.32).

Təlimin səmərəli variantını seçmək üçün didaktikanın qanunauyğunluqlarına və prinsiplərinə bələd olmaq lazım gəlir. Bildiyimiz kimi, bu qanunauyğunluq bu və ya digər hadisə və proseslər arasında sabit, zəruri, əhəmiyyətli əlaqəlidir.

Tədris prosesinin, hər şeydən əvvəl cəmiyyətin tələbatlarının baş verdiyi ictimai şəraitlərdə qanunauyğun əlaqələr mövcuddur.

## ƏDƏBİYYAT

1. Məmmədzadə "Müəllimin peşə etikası". Maarif Bakı 1992. S- 24-35

2. Ş.Babayev – Müəllim-şagird münasibətlərinin psixoloji məsələləri. Azərbaycan SSRİ Maarif Nazirliyi, Azərbaycan

Mərkəzi Müəllimləri təkmilləşdirmə inistitutu. Bakı, 1958. 21 səh.
3. Şagird şəxsiyyətinin formalaşmasında müəllimin rolu. Bakı, Azərbaycan məktəbi № 5,2011, s. 32-37
4. Aslanargun, E. Okul Aile İş Birliği ve Öğrenci Başarısı Üzerine Bir Tarama Çalışma, Sosyal Bilimler Dergisi, 2007, 8, 119-135.
5. Педагогические технологии: что это такое и как их использовать в школе / Под ред. Т.Н. Шамовой, П.И. Третьякова. – М., 1994.
6. Bowen, H. R. Investment in learning. 1980, San Francisco: Jossey Bass Publishers.

## SEKSUAL POZUNTUSU OLAN ŞƏXSLƏRİN İDRAK PROSESİNİN XÜSUSİYYƏTLƏRİ

***dos. Sevinc Allahyarova***
***Nuranə Salmanlı***
***BDU-nun II kurs magistrantı***
***slmnuny@mail.ru***

Homoseksuallıq termini, ən təməl mənada həmcinsinə emosional və cinsi cəhətdən maraq duyan kişi və qadınları müəyyən etmək üçün istifadə olunur. Homoseksuallıq, heteroseksuallıq və biseksuallığı ilə birlikdə təyin olunan üç cinsi oriyentasiyadan biridir. Cinsi oriyentasiya, cinsəllyi təşkil edən dörd ünsürdən biridir. Digər elementlər, bioloji cins, kişi və ya qadını bir birindən ayıran toplumsal cinsiyyət və ya cinsi kimlik, gender rolu. Cinsi oriyentasiya duyğuları və özünü anlayışını əhatə etdiyindən cinsi davranış formalarından fərqlidir. Buna görə hər bir homoseksual yönümlü şəxs öz həmcinsinə qarşı davam edən duyğusal və cinsi istəyi praktikaya çevirməz çox vaxt Burada vurğulanmalı olan məsələ buradadır ki, cinsi oriyentasiya "seçim", deyil, cinsi

davranış isə seçimdir. Homoseksuallıq və homoseksuallardan qorxmanın təməlində bu əlaqənin təbii və normal olmadığına dair kultural və dini inanclara əsaslanır. Dini təlimlər də bu mədəni inancları dəstəkləyir və bir çox hallarda bu stiqmatizasiyaya gətirir. İnancların yaratdığı xurafat və stereotiplər bu insanlar üçün müxtə məzmunda güclü təsir edir. Bir çox hallarda onların həyatı şiddət dolu keçir.

Homoseksuallara qarşı yaradılan nifrət cinayətlərinin sayını artırır. Beləliklə homofobiyanı anlamaq üçün xurafat və önmühakimə anlayışlarına baxmaq lazımdır. Nəticədə, homofobiya homoseksual fərdlərin narahatlığı, özünə hörmət və özgüvənin aşağı olmasına, zorakılığa məruz qalma qorxusu və varlıqlarını gizlətmək və özünə zərər verməyə qədər müxtəlif şeyləri səbəb olur. Sırf çoxluğun və cəmiyyətin olmadığı “bir şeydir" olduqları üçün hər zaman ayrı seçkilik və damğalanmaya məruz qalır və imkanlardan bərabər şəkildə istifadə edə bilmirlər. Homoseksuallıq hərəkətinin son iyirmi ili göstərdiyi inkişafa baxmayaraq, bu gün az adam hələ də cinsi oriyentasiyasını açıq şəkildə ifadə etmək və bərabər hüquqlar tələb etmək cəsarəti göstərə bilmirlər. Digər tərəfdən homoseksuallıq halları artdıqca, qarşılaşdıqları ayrıseçkilik və zorakılıq da artır.

## ƏDƏBİYYAT


1. 39-45 Archives of Neuropsychiatry 2011; 48 Supplement 1: 39-45 Kaynaklar 1. Zucker JK. The politics and science of “reparative therapy”. Arch Sex Behav 2003; 32:399-402. [Abstract] / [PDF]

2. Yıldırım EA, Hacıoğlu M. Psikopatolojinin-Psikoterapinin Sınırları ve Eflcinsel Deneyimi Olan Ergenler. Nöropsikiyatri Arflivi 2010; 47:83-4. [Full Text] / [PDF]

# GENDER ROLLARI ANLAYIŞININ BƏZİ KONSEPTUAL MƏSƏLƏLƏRİ

***Gülnarə Həsənova***
***BDU- nun II kurs magistrantı***
***Elmi rəhbər: dos. Lalə Cabbarova***

Uzun tarixi inkişaf prosesində cins və gender anlayışları eyni mənanı ifadə edən iki anlayış kimi qəbul olunurdu. Lakin müasir dövrün tələblərində bu iki anlayış arasında kəskin fərqlərin olduğu aşkarlanmışdır.

Bu iki anlayış arasında fərqlər isə aşağıdakılardan ibarətdir [3, s.178]:

- Cins dedikdə kişi ilə qadın arasında bioloji fərqi bildirən anlayış başa düşülür.
- Gender isə qadın və kişinin cəmiyyətdəki rolu (gender rolları) və eləcə də fərdlərin özlərini qəbul etmə (gender identikliyi) anlayışları əsasında müəyyən olunur.

Belə ki, gender anlayışı qadın və kişilərin cəmiyyətdə həyata keçirdikləri funksiyalar əsasında müəyyən olunduğundan cəmiyyətdə baş verən bütün proseslər gender rollarının da formalaşmasına öz təsirini göstərmişdir.

XX əsrin sonunda "Gender" (ingilis dilində - `cins`) anlayışı formalaşmışdır ki, bunu da "sosial cins" kimi xarakterizə etmək olar. Qeyd edək ki, “sosial cins- gender” və “bioloji cins- seks” anlayışları, hər biri ayrı- ayrı mənalar kəsb etsə də bir- birini tamamlayır. Gender- bioloji cinsindən asılı olaraq, insanlara cəmiyyət tərəfindən təlqin olunmuş sosial və mədəni normaların məcmusunu ifadə edir. Qadın və kişilərin psixoloji xüsusiyyətlərini, davranış modellərini, peşə və fəaliyyətinin növlərini müəyyən edən sosial- mədəni qaydalardır. Cəmiyyətdə yalnız kişi və qadın olmaq anatomik xüsusiyyətlərə sahib olmaq demək deyil, həm də cəmiyyət

tərəfindən müəyyən edilmiş gender rolunu icra etmək deməkdir [1, s.105].

Sosiallaşma cəmiyyəti təşkil edən insanların müəyyən rollara yiyələnməsini təmin edir. Bu sosial rollar isə insanlarda müəyyən davranış normalarının formalaşdırılmasını tələb edir. «Qadınvə sosial siyasət» adlı məqalələr külliyyatında gender terminin tətbiqi bir sıra strateji tapşırıqları həllinə yardım göstərməli idi [2, s. 302]:

✓ kişilərin və qadınların həyatında sosial – mədəni fərqlərin və sosial münasibətlərin təhlilinin yeni elmi paradiqmasının formalaşmasına;

✓ sosial transformasiya şəraitində sosial cinsi münasibətlərinin dəyişilməsinə diqqət cəlb edilməsinə;

✓ ictimai həyatda gender assimetriyasının aşkar olunmasına yönəlmiş elmi

✓ tədqiqatların həyata keçirilməsinin stimullaşdırılmasına.

İngilis sosioloqu R. Brennon «kişinin rolunun» dörd əsas komponentlərini qısaca şəkildə ifadəetmişdir [7, s. 31]:

✓ qadınlardan fərqlənmək zərurəti;

✓ başqalarından fərqli olaraq daha yaxşı olmaq zərurəti;

✓ müstəqil və özünü təmin etmək iqtidarında olmaq zərurəti;

✓ başqaları üzərində hökmranlıq etmək zərurəti.

Feminizasiya və maskulinizasiya halları cəmiyyətdə hələ qədim dövrlərdən özünü göstərsə də bir elmi fakt kimi əsasən XIX yüzilliyin sonlarından araşdırılmağa başlanmışdır. Hələ qədim zamanlardan cinsi tərbiyə cəmiyyətin tələblərindən asılı olaraq formalaşmışdır. Ailədəki cinsi tərbiyə həm ailənin, həm də cəmiyyətin tələblərinə uyğunlaşdırılmışdır. Pedoqoji fikir tarixində də bu fikirə bir mənalı münasibət olmamışdır [5, s. 125].

Alimlər arasında bu problemlər ətrafında daimi fikir ayrılığı mövcud olmuşdur. Bu fikir ayrılığını başlıca olaraq iki qrupa ayırmaq olar. Birinci qruptərəfdarları cinsi tərbiyəyə o

qədərdə əhəmiyyət verməməyi, cinslər arası fərqləri o qədərdə şişirtməməyi tövsiyyə edir və bildirirlər ki, qadın və kişilər arasında fəaliyyət sahəsində fərq qoymaq düzgün deyil. Fəaliyyət sahələrinində cinsi fərqlər baxımından bölünməsi dügün deyil. Yeniyetmə oğlan özünə qulluq etməyi, paltarının səliqəyə salmağı, özünə yemək hazırlamağı, qopmuş düyməni, paltarının sökülmüş yerini tikməyi bacarmalıdır. Qızlar xarab olmuş ütünü təmir etməyi, divara mıxvurmağı və s. kimi işləri bacarmalıdır. Deməli fəaliyyət sahəsində kəskin cinsi fərqlərin qoyulması zərərlidir. İkinci qrup nümayəndələri isə cəmiyyətdə feminizasiyalaşma getdiyini göstərir, fəaliyyət sahəsinə kəskin fərqlər qoyulmasını düzgün hesab edirlər. Oğlanlar sırf kişi, qızlar isəsırf qadın işlərini öyrənməlidirlər. Oğlanlar kişi kimi cəngavər təbiətli, zəiflərəkömək etməyi, özünü və başqalarını qorumağı bacarmalıdır. Qızlar isə zərif, qayğıkeş olmalı, başqalarının qulluğunda durmağı bacarmalıdırlar [4, s. 198].

İnsanların bir- birini qavraması müxtəlif amillərlə şərtlənir: fərdi həyat təcrübəsi, yaş, cins, peşə, təhsil, milliyyət və s. sosial persepsiyaya mühüm təsir göstərir. Bu prosesdə sosial stereotiplərin (yunanca stereos- möhkəm, turos- ad deməkdir) böyük rolu vardır. Stereotiplər müəyyən bir irqə, millətə, peşəyə mənsub olan insanlar, qruplar haqqında adi şüur üçün səciyyəvi olan təsəvvürlər kimi meydana çıxır. Stereotiplər insanların şəxsi təcrübəsinin ümumiləşdirilməsi əsasında formalaşır. Kütləvi informasiya vasitələrindən- kitablardan, kinofilmlərdən, televiziya və mediadan alınmış məlumatlar və s. adətən bu stereotiplərin möhkəmlənməsi üçün şərait yaradır. Onlar çox vaxt insanların bir- birini düzgün dərk etməsinə mane olur.

Platonun əsərlərində qadınların kişilərdən fərqləndirilməsi aşağıdakı kimi müəyyənləşdirilmişdir. "Öz təbiətinə görə həm qadın, həm də kişi istənilən işdəiştirak edə bilər, lakin qadınlar hər cəhətdən kişilərdən zəifdilər. Aristotelin təsvirlərində güc, aktivlik, hərəkət kişi təbiətindən törəyirdi. Qadın isə passivlik

əks etdirirdi. Hippokrat bu doktrinanı dəstəkləyərək zəif (qadın) və güclü (kişi) mənbələri ayırırdı. Hegel də hesab edirdi ki, iki cins müxtəlif olmalıdır. Biri aktiv digəri passiv. Onun fikrincə passivlik qadınların payına düşür [6, s. 134].

Gender rolları dövlətlərdən və onların quruluş formasından asılı olaraq dəyişir. Belə ki, patriarxal dövlətlərdə gender rolları demokratik şəraitdə inkişaf etmiş dövlətlərlə müqayisədə daha sərtdir [8]. Buna misal olaraq, İran, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və digər bu kimi ölkələri göstərə bilərik. Bu tipli ölkələrdə qadının gender rolu yalnız bir neçə funksiya ilə məhdudlaşır ki, bunlara da evdar qadın olmaq və kişinin qulluğunda dayanmaq kimi çox bəsit və qəddar rolları aid etmək olar. Bu tipli ölkələrdə qadınlar demək olar ki, fundamental azadlıqlardan məhrum vəziyyətdə yaşayırlar. Bəzi dövlətlərdə isə gender rolları qadınların uşaq baxçalarında işləməsi və daha az maaşlı işlərə cəlb edilməsi ilə məhdudlaşır. Lakin nəzərə alsaq ki, bəşər cəmiyyəti daim inkişaf edir, belə olan halda gender rollarının dəyişdirilməsi imkanlarının olması da mümkündür.

## ƏDƏBİYYAT

1. Abbasov Ə., Mirzəzadə R. Genderə giriş: Cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibət problemləri. Bakı, 2004, 120 səh.
2. Ağayeva K. Azərbaycanda Gender Məsələləri.Bakı: Qərb Universiteti, 2014. 416s.
3. Əfəndiyeva Ü., Əsrin gender konsepsiyası, dərs vəsaiti, Bakı 2017, 288 səh.
4. Dökmen Z. Toplumsal Cinsiyyet: sosyal psikoloji açıklamalar. Istanbul: Remzi Kitabevi, 2011, 244 s.
5. İmançer D., Yeni düşünceler dergisi, Stereotipleri anlamak, Sayı- 3, 2008, 166 s.

6. Günay G., Bener Ö. Kadınların toplumsal cinsiyet rolleri çerçevesinde aile içi yaşamı alqılama biçimleri, Sayı- 3, 2015, 171 s.
7. Vatandaş C. Toplumsalcinsiyetvecinsiyetrollerininalqılanışı, Sayı – 5, 2011, 62 s.
8. https://m.bianet.org/biamag/diger/155048-toplumsal-cinsiyet-rolleri-neden-degismeli

## NAĞIL TERAPİYASININ XÜSUSİYYƏTLƏRİ VƏ TƏTBİQ EDİLMƏ SAHƏSİ

***Firuzə Əliyeva***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: dos. Elmina Kazımzadə***
***eliyeva-firuze@inbox.ru***

Nağıl terapiyası Həll mərkəzli terapiya kimi postmodernist və sosial konstruktiv anlayışa əsaslanan terapiya metodlarından biridir. Nağıl terapiyasının qurucularından olan Uayite və Epstona görə insanlar yaratdıqları hekayələrə görə həyatlarını yaşayırlar, bunu edərkən də qaçınılmaz şəkildə ya öz həyatlarının qurtarıcısı olurlar, ya da problem çıxaran və problemdən qaynaqlanan davranış sərgiləyirlər. Bu məzmunda terapiya müddətinin əsas məqsədi pasiyentin problemlə dolu olan hekayəsini ümid dolu və güclü tərəflərinin vurğulandığı müsbət hekayələrə çevrilməsinəköməklik göstərməkdir. Nağıl terapiyasında psixoloq mütəxəssis rolunda deyil, əksinə, bu müddəti asanlaşdırıcı rolundadır. Nağıl terapevtlərinə görə pasiyentlər öz hekayələrinin mütəxəsissidirlər. Corey bu haqda yazır: "Terapiya müddətində psixoloqun əsas vəzifəsi seçilən hekayəni yaratması üçün pasiyentə kömək etməkdir" (1, s. 561).

Nağıl terapiyası ilk olaraq ailə terapiyasının sahəsində ortaya çıxmışdır. Günümüzdə isə ailə terapiyası ilə eyni zamanda uşaq, yeniyetmə və yetişkin qruplarında, hətta, bəzi xüsusi məqsədli istifadə edilən qruplarda da istifadə edilə bilən terapiya kimi qarşımıza çıxır. Nağıl terapiyası travmatik sahələr, ruhi xəstəliklər və inkişaf pozuntuları kimi bir çox kliniki vəziyyətlərdə, stres, cinsi oriyentasiya, sosial bərabərsizlik və digər müxtəlif mövzularda fərdi qrup və ailə terapiyası formasında tətbiq edilə bilər.

Nağıl terapiyasının təkcə ailə terapiyası daxilində deyil, digər sahələrdə də istifadə oluna biləcəyinə dair tədqiqatlar vardır. Alghamdi Hunt və Thomas Posttravmatik stress pozun-tusunda, Butera və digərləri travmatik beyin zədələnməsində, Cashin autizmli uşaq və yeniyetmələrdə, Asperger sindiromlu gənclərdə, Hedke ölümün izah edilməsində, Saltzburg Homoseksual və biseksual uşaqları olan ailələrdə, Petersen fiziki xəstəliyin yaratdığı streslə mübarizədə, Vromans Major depresiya olan hallarda, Miller və Hardin Cinsi istismar hallarında, Ricks, Kitchens və Hancock fərdi və qrup psixo-terapiyasında, Freeman və Epston uşaqlıq yaşı depresyalarında, təlimdə çətinlik, boşanma və valideyinlərin imtinası hallarında nağıl terapiyasının faydalı olacağını bildirən tədqiqatlar aparmışlar (3).

Nağıl terapiyasına dair tənqidlərdən ən çox sosial konstruktivizm ilə yaxından əlaqəlidir və pasiyentlərin prob-lemlərinin əslində öz daxili aləmlərində yer aldığı anlayışına yönəlikdir. Nağıl terapiyasında pasiyent məntiqindən, keçmiş təcrübələrindən və digər sosial qaydalardan istifadə edərək öz problemini anlamağa çalışır. Bu yanaşma pasiyentin prob-lemlərinə onun baxış tərzindən baxdığı üçün pasiyentin xarici mühitdə qarşılaşdığı qınaq və ayrı seçkilik kimi reallıqları göz ardı edə bilər.

Bəzi mütəxəsislərə görə nağıl terapiyası metodu həddindən artıq yüksək intellektual hazırlıq tələb edir. Bu səbəbdən də

pedaqoji səviyyədə aşağı və zehni problemlər yaşayanlarda təsiredici olmayacağı qənaətindədirlər. Buna əlavə olaraq bu sahədə araşdırmaların az olması da tənqidə məruz qalan nöqtədir. Belə ki psixoloq pasiyent münasibəti və dil üzərindəki vurğuya dair araşdırmalara ehtiyac duyulmaqdadır.

## ƏDƏBİYYAT


1. Corey, 2108. Psikolojik Danışma ve Psikoterapi Kuramları, Ankara: Özyurt Matbaacılık.
2. Understanding narrative therapy: a guidebook for social worker. New York: Springer Publishing Company
3. Psikoterapide Yeni Soluk: Öyküsel Terapi, Kafkas Üniversitesi,Kafkas Egitim Araştırmaları Dergisi, 4(1), Nisan 2017
4. The use of storytelling in therapy with children (2013). Masters Thesis, Smith College, Northampton, MA. https://scholarworks.smith.edu/theses/936


## ГЕНДЕРНЫЕ РАЗЛИЧИЯ САМООЦЕНКИ У ДЕТЕЙ


***Лала Талибова***
***Магистр II-го курса БГУ***
***talibova_995@mail.ru***


В настоящее время исследования самооценки человека в процессе его жизнедеятельности имеют большое значение в психологической теории и практике. Одной из актуальных тем в психологии является формирование самооценки личности. Наиболее явно самосознание проявляется в самооценке, в том, как ребенок оценивает свои достижения и неудачи, свои качества и возможности. На важность и сложность стадии, связанной с адаптацией ребенка в школе, указывают исследования которые свидетельствуют о том

что, именно в процессе обучения в начальной школе у ребёнка активизируются системы взаимоотношений с миром, со сверстниками, взрослыми, то есть те базовые учебные установки, которые в дальнейшем определят успешность его школьного обучения и возможность личностной самореализации в школьном окружении. У детей младшего школьного возраста наблюдаются все виды самооценок: адекватная устойчивая, завышенная устойчивая, неустойчивая в сторону неадекватного завышения или занижения - от класса к классу растет умение правильной оценки себя, своих возможностей и снижается возможность переоценивания себя.

Самооценка у девочек и мальчиков может различаться. Отношение к себе как представителю определенного пола влияет и на формирование оценки себя как личности в целом. Изучение гендерных различий самооценки детей является важным как социально-психологической, так и с позиции возрастной психологии. Отношение к себе и к другим людям опирается на гендерные стереотипы, под которыми понимаются традиционные и устойчивые роли и образы, типичные характеристики, приписываемые мужчинам и женщинам. Воздействие этих штампов на индивидуальное сознание личности велико. Заниженная самооценка свидетельствует о том, что у ребенка существует внутриличностный конфликт между Я-идеальным и Я-реальным. Гендерная социализация транслируется на всех уровнях, различными методами.

Это сказывается в тех личных сценариях, которые имеют место в представлениях детей о своем будущем. Стереотипы, прививаемые детям родителями и обществом, в котором они живут, помогают выстроить представление о поведении и действиях. Отношение к себе как к представителю определенного пола влияет на личность в целом и формирование самооценки. Самооценка имеет

несколько аспектов: отношение к себе, оценка себя, которые могут касаться разных сторон личности и поведения. Самооценка девочек и мальчиков различается не только по количественным (у кого-то выше, у кого ниже), но и по качественным показателям. Представление о себе и самооценка у детей меняются под влиянием родителей и окружающих людей. Существует четыре фактора, которые влияют на половые различия по устойчивости самооценки:

1) степень открытости во взаимоотношениях;
2) реакция на обратную связь;
3) стресс, связанный с отношениями с близкими людьми;
4) эмоции.

Заниженная самооценка девочек обусловлена переживаниями, возникающими из-за ухудшения взаимоотношений с близкими людьми, например, когда близкие или друзья не прощают обид, – у мужчин это событие не оказывает влияния на самооценку. Происходит это потому, что для девочек очень значимы взаимоотношения с близкими, и опять можно проследить гендерные стереотипы – это общество приписывает девочке именно такое поведение и такие переживания.

Было проведено исследование самооценки гендерных различий самооценки детей. Цель эмпирического исследования – изучить гендерные различия самооценки у детей. Гипотеза исследования: самооценка у девочек и мальчиков существенно различается, существует взаимосвязь самооценки и уровня гендерной идентичности у детей.

Исследование поло-ролевой идентификации было выполнено с помощью методики Н. Л. Белопольской. Процентное соотношение дошкольников с разным уровнем поло-ролевой идентификации: Подавляющее большинство мальчиков исследуемой группы (92%) и все девочки (100%) исследуемой группы сделали адекватный выбор поло-ролевой идентификации, выбрав картинку с изображением

ребенка соответствующего пола с портфелем (младшего школьника). Смена социальной ситуации развития чрезвычайно волнует выпускников дошкольного образовательного учреждения, что и отражается в их ответах.

Однако 8% мальчиков сделали неправильный выбор, выбрав изображение молодого человека (юноши). Дети сделали это сознательно, после того как «опознали» на картинке фигурку, отражающую их истинный возраст. Это свидетельствует о том, что их поло-ролевая идентификация проходит успешно, но с явной тенденцией к преувеличению своего возраста и социального статуса.

Процентное соотношение дошкольников с разным уровнем самооценки методики «Лесенка»: В исследуемых группах присутствуют дети с разным уровнем самооценки. Только 48% мальчиков и 40% девочек обладают адекватной самооценкой. Адекватная самооценка свидетельствует об адекватном оценивании ребенком своих способностей, достижений, своей ценности. Заниженная самооценка выявлена у 24% мальчиков и у 12% девочек. Заниженная самооценка свидетельствует о том, что у ребенка существует внутри личностный конфликт между Я-идеальным и Я-реальным. Дошкольники переживают свою несостоятельность; хотя эти переживания еще плохо осознаются и дифференцируются, тем не менее в качестве негативных эмоций они уже присутствуют в психической реальности детей.

Показатели завышенной самооценки в группе девочек гораздо выше, чем в группе мальчиков (28% в группе мальчиков и 48% в группе девочек). Следовательно, самооценка девочек действительно выше, чем самооценка мальчиков. Итак, с помощью методики «Лесенка» было установлено, что мальчики и девочки имеют примерно одинаковую самооценку. Как и по результатам использования предыдущей методики, было выявлено, что

дети имеют разный уровень самооценки. Адекватная самооценка была выявлена у большинства детей исследуемых групп (60% мальчиков и 6% девочек). Завышенная самооценка была обнаружена у 20% мальчиков и 28% девочек. Заниженная самооценка была выявлена у 20% мальчиков и 12% девочек. Показатели самооценки по разным методикам также взаимосвязаны между собой, но их анализ подчеркивает согласованность диагностических методик.

## ЛИТЕРАТУРА


1. В.С. Мухина. Детская психология. 1999 г.
2. Ш.Берн. Гендерная психология. 2002 г.
3. Т.В.Бендас. Гендерная психология. 2005 г.
4. О.А.Карабанова. Возрастная психология. 2005 г.


# YENİYETMƏLƏRİN ANTİSOSİAL DAVRANIŞININ QARŞISIN ALINMASINDA İDRAK FƏALİYYƏTİNİN ROLU


***Vüsalə Yusifli***
***BDU-nun II kurs magistrantı***
***vusale.yusifli.95@mail.ru***


Yeniyetmə sözü latın ədəbiyyatındakı "adolescent" sözünün qarşılığı olaraq dilimizdə istifadə edilir. Latıncadan bu söz "böyümək", "yetkinləşmək" mənasında istifadə olunur. Yeniyetməlik dövrü bioloji, psixoloji, zehni və sosial istiqamətli inkişafın olduğu uşaqlıqdan yetkinliyə keçid dövrüdür. UNESCO yeniyetməlik dövrünü 15-25 yaş aralığı olaraq göstərmişir.

Arnold Gesell yeniyetməlik dönəmindəki inkişafı dəqiqliklə öyrənməyə çalışmışdır. Gesellə görə fərddəki ən diqqətə çarpan

fərqliliklər yeniyetməliyin ortalarına doğru görülməyə başlayır. O, 14-15-16 yaşlarında bu inkişaf xüsusiyyətlərini aşağıdakı kimi sıralayır :

1. On dört yaş - bu yaşda duyğusal sferada fərqiliklər nəzərə çarpır. On üç yaşına qədər mövcud olan ürkəklik artıq yerini ekstravertliklə əvəz edir. Bədənindəki gözə çarpan bioloji dəyişikliklər və daha çox enerji hiss etməsinə qarşılıq olaraq özünə güvəni artar. Bu yaşda onun ailə bağları daha da güclənir. Valideynlərlə gənc arasında qarşılıqlı olaraq sevgi və hörmət əlaqələri başlayır. Gənclər başqalarının duyğularını daha yaxşı anlama və özlərini onların yerinə qoyaraq düşünməyə başlayırlar.

2. On beş yaş - bu yaşda gənc valideynləri, eləcə də müəllimləri üçün bir tapmaca halını alr. Buna baxmayaraq, onun da ən böyük istəyi özünü izah etmək və başqalarının onu anlamasından ibarətdir. Aradan bir il keçməsinə baxmayaraq, onda müəyyən dəyişikliklər özünü göstərir. Belə ki, 14 yaşında enerji və güvən dolu olan fərd, on beş yaşında bunun əksi olaraq ətrafa qarşı diqqətsiz olmağa başlayır. Bu yaşın ən önəmli xüsusiyyətlərindən biri onun duyğularının getdikcə həssaslaşmasıdır. On beş yaşındakı gəncin duyğularında baş verən dəyişikliklər onun küsəyənləşməsinə, bir çox söhbətlərdə narahatçılıq yaşamasına, bəzi şeylərə müqavimət göstərməsinə və bəzilərindən qorxmasına səbəb olur.

3. On altı yaş - bu yaşdakı yeniyetmə böyüklər üzərində yetişkin bir insan təsiri buraxır. On altı yaşın ən böyük özəlliklərindən biri özünü idarə etməyi bacarmaq və özgüvənin daha da artmasıdır. On beş yaşında gəncdə sadəcə müstəqillik arzusu olduğu halda, on altı yaşında isə müstəqil yaşama istəyi gözləmlənir. Özgüvən o qədər artır ki, müstəqil bir fərd olduğunu ailəsinə də qəbul etdirməyə çalışır. On beş yaşında ailəsinə bir çox məsələlərdə qarşı çıxan gənc, on altı yaşında artıq valideynlərinin ona ayaq uydurmasını gözləyir.

Mənlik axtarışı - Eriksona görə yeniyetməlik dövrünün ən vacib özəlliklərindən biri mənlik axtarışıdır. Erikson psixoanalistlərdən fərqli olaraq, kimlik axtarışında yalnızca içsəl reflekslərə əsaslanmır. Onun baxışında "yeniyetmənin şəxsiyyətinin formalaşmasında çevrəsi ilə olan işbirliyinə baxılır" fikri əsas götürülür. Onun çevrəsi ilə olan işbirliyi isə uşaqlıq dövründə formalaşır. Fiziki dəyişikliklər, valideynlərdən qopma, müstəqillik duyğusu, sosial münasibətlərin artması və s. - bütün bu dəyişimlərin öhdəsindən gəlmək üçün mübarizə apardığı bu dövrdə yeniyetmə, yavaş - yavaş bir dünyagörüşü formalaşdırmaq məcburiyyətində olur.

Emosional inkişaf - yeniyetməlik dövrü inkişaf etməkdə olan bir uşaq üçün çətin mərhələdir. Yeniyetməlik dövründə apardığı çalışmaları ilə məşhurlaşan Stanley Hall daha gözəçarpan dəyişikliklərin bu dövrdə baş verdiyi, uşağın tamamilə fərqli bir şəxsiyyəti büründüyünü qeyd edir. Hallun fikrincə bu dəyişikliklər bioloji inkişafdan qaynaqlanır. O, bu dövrü "fırtına və gərginlik dönəmi" olaraq tanımlamışdır. Bu mərhələdə yeniyetmənin dünyasında ziddiyətlər baş qaldırmağa başlayır. Onlar həm yalnızlığa can atır, həm də bir qrupa aid olmağa ehtiyac duyurlar. Yeniyetmənin emosional reaksiyalarına təsir edən başlıca faktorlar arasında onun sağlıq vəziyyəti, intellektual səviyyəsi, cinsiyyəti, nə dərəcə sosial olmasıdır. Bu mərhələdə yeniyetmə istədiyi kimi davrana bilmədiyinə və duyğularını gizlətdiyinə görə içə qapanır.

Antisosial davranış cəmiyyətdə mövcud olan qaydanı pozma və ya ona qarşı çıxma formasında ifadə olunur. Yeniyetmələrin antisosial davranışı xüsusən də inkişaf etməkdə olan ölkələrdə güncəl bir problem olaraq son zamanlarda xüsusi diqqət çəkməkdədir. Statistikalara əsasən, son zamanlarda qərb bölgələrində bu cür davranışlarda xüsusi artım görülməkdədir. Hər saat başı ən az dörd hüquqazidd davranış qeyd olunur.

Uşaqların hüquqazidd davranışları daha dərin araşdırıldığında altda yatan səbəbin daha çox psixoloji, pedoqoji və sosial bir hal olduğu görülmüşdür.

Antisosial davranışlar, yeniyetmənin inkişaf dövrlərini rahatlıqla keçməsinə, ondan gözlənilən sosial rolları yerinə yetirməsinə, onun müvəffəqiyyətli olduğunu hiss etməsinə əngəl olan davranışlarıdır.

Palmer və Gough (2007) tərəfində edilən araşdırmalarda hüquqazidd davranış sərgiləyən və sərgiləməyən olmaqla müəyyənləşmiş iki qrup arasında onların uşaqlıqda valideynlərini necə qavradıqları incələnmişdir və onları bu hərəkətə itələyən səbəbin nə olduğunu müəyyən edilməyə çalışılmışdır. Analizlərin nəticəsində isə müəyyən olunmuşdur ki, antisosial davranış göstərməyən gənclər valideynlərini daha isti münasibətdə və qoruyucu olaraq qavramışlar.

Bruce (2006), təcavüzkar uşaqların davranışları və demoqrafik xüsusiyyətləri bir - birinə bənzəsə də əslində eyni qrup olmadıqlarını, bəzilərinin xronik olaraq belə davranışlar nümayiş etdirməyə meyilli olduqlarını önə sürmüşdür.

## ƏDƏBİYYAT

1. Bram O., Veerman, J.W., Koops, W., Bosch, J.D. & Monshouwer, H.J., (2003) Hostile attribution of intent and aggressive behavior: A meta-analysis, Child Development, 73 (3), 916-934.
2. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
3. Andrew & Bonta (2003) Psychology of Criminal Conduct, Cincinnati, OH: Anderson Publishing.

# TOLERANTLIQ VƏ ONUN TƏZAHÜRÜ XÜSUSİYYƏTLƏRİ

*dos.İranə Məmmədli*
*Aytəkin İskəndərova*
*BDU-nun II kurs magistrantı*
*aytekiniskenderova97@gmail.com*

Mədəniyyətin mühüm elementi olan tolerantlıq bu gün müxtəlif inanc,mədəni ənənə, siyasi məslək daşıyıcısı olan insanların vəhdətləşməsinin zəruri şərti kimi qəbul olunur. Tolerantlıq eyni zamanda vətəndaş cəmiyyətinin əsas əxlaq prinsiplərindən biridir.

Tolerantlıq nədir? Latın sözü olan "tolerancia"nın hərfi mənası "dözümlülük" deməkdir. Fərqli izahların olmasına baxmayaraq,hər kəsin qəbul etdiyi bir həqiqət var. "Tolerantlıq" müxtəlifliyin mövcudluğuna təminat verən hüquqi borc və mənəvi təlabatdır.

Dözümlülükbağışlamaq,başqasınınçatışmazlıqlarına dözümlü olmaqdır.

Məşhur Oxford lüğətində dözümlülük sözünün 3 mənası verilmişdir:

1.Ehtiyac və ya ağrıya dözmə hərəkəti və ya təcrübəsi;nəyəsə dözmə qabiliyyəti və ya gücü;

2.Nəyəsə icazə vermə hərəkəti;

3.Başqalarının fikirlərinə qarşı liberal mövqe tutma və ya bir şeyi etiraz etmədən qəbul etmə,təmkinlik.

Etnik ensiklopediyada Susan Mendus göstərmişdir ki, "Dözümlülük beynəlxalq səviyyədə bir şəxsin xoşlamadığı və ya əxlaqi cəhətdən yalnış saydığı hərəkətə icazə verməsi və ya bu hərərkətin qarşısını almamağıdır",buna əlavə olaraq o qeyd edirdi ki, "Dözümlülük tolerant şəxsin müdaxilə etmə gücü olmasını,yalnız onun bu gücdən istifadə etməkdən imtinasını tələb edir.

B.E.Riendron isə dözümlülüyün mahiyyətini “başqalarının hüquqlarına hörmət etmək”, onlara zərər verməmək kimi müəyyən etmişdir.

Dözümlülüyün müxtəlif formaları var.

-dini dözümlülük;

-etnik dözümlülük;

-siyasi dözümlülük:

Dözümlülük vətəndaş cəmiyyətinin normal fəaliyyət göstərməsinin vacib şərtidir. Məhz bu baxımdan gənc nəslin tolerant olma qabiliyyətinə ehtiyac yaranır.

Dözümlülük problemini təhsil problemlərinə aid etmək olar.Hal-hazırda müəllimlərin qarşısında bir sual var. Multikultural təhsil prosesində tələbə şəxsiyyətinim tolerant keyfiyyətlərinin formalaşmasını necə təmin etmək olar? Mövcud sosial-mədəni şəraitdə məktəb millətlərarası ünsiyyət üçün əlverişli şəraitin yaradıldığı bir yerə çevrilməlidir. Tələbə şəxsiyyətinin tolerant keyfiyyətlərinin formalaşması məktəbin ailə ilə, sosial mühitlə qarşılıqlı əlaqəsini tələb edir.

Valideynlər uşaqların ilk və əsas tərbiyəçiləridir .Bu problemin həllində müəllimlərin müttəfiqi olmadıqlarıtəqdirdə uşaq da digər keyfiyyətlər kimi tolerantlıq da yaratmaq mümkün deyil. Dözümlü davranış təcrübəsini mənimsəməkdə valideynlərin və qohumların fərdi nümünəsi böyük əhəmiyyətə malikdir. Ailə məktəbə çox kömək edə bilər. Bu baxımdan şagirdlərin valideynləriilədiqqətli iş aparılmalıdır.

Dözümlü davranışın formalaşması bilavasitə məktəbdəki atmosferdən, müəllimlər və şagirdlər arasındakı demokratiya və hörmətli münasibətlərdən, uşaqların bir-biri ilə münasibətlərini müəyyən edən dəyərlərdən asılıdır.

Beləliklə,tolerantlıq anlayışı çoxsahəlidir və insanlararası münasibətlərin ən müxtəlif cəhətlərini özündə cəmləşdirir.Gənc nəsil arasında tolerant şüurun formalaşması istiqamətində işlər çoxşaxəli və çoxyönlü olmalıdır.

## ƏDƏBİYYAT

1. Hüseynov Sakit "Azərbaycanda dini tolerantlıq mədəniyyəti; Tarix və müasirlik", Bakı "Təknur" 2012
2. İsmayılov Gündüz "Tolerantlıq: Bildiklərimizvə bilmədiklərimiz",Bakı-2014
3. Кукушкин, В.С. "Воспитание толерантности личности в поликултурном социуме" [Текст] /В.С.Кукушин. Растов-на-Дону.2002.
4. Риедрон.Б.Э.Толерантность-Дорога к миру.М.2001.
5. https://az.m.wikipedia.org/wiki/Tolerant%C4%B1q
6. http://pedsovet.su/publ/28-1-0-1013

## AUTİZMLİ UŞAQLARDA YADDAŞIN XÜSUSİYYƏTLƏRİ

***dos. Sevinc Quliyeva***
***Elmin İsayev***
***BDU-nun II kurs magistrantı***

Autizm - erkən yaş dövründə başlayan, sosial münasibətlər və ünsiyyət sferasında problemlərin olması ilə özünü göstərən ümumi inkişaf problemidir. Autizm əlamətləri əsasən iki yaşından etibarən özünü göstərməyə başlayır [1].

Autizm - özünə qapanma, real həyatdan uzaqlaşma kimi təzahür edir. Autizm kifayət qədər geniş yayılmış haldır, belə ki, min uşaqdan beş nəfərində müşahidə olur. Hal-hazırda autizmin yaranmasının dəqiq səbəbləri məlum deyil. Lakin autizmin nədən yaranmasına fikir bildirən mütəxəssislər belə hesab edirlər ki, autizmin yaranması hən irsi, həm də doğuşdan əvvəlki, doğuş zamanı və sonradan qazanılmış bir sıra imkişafa təsiredici faktorlarla, hamiləlik zamanı baş verən narahatlıqlar, eləcə də uşaqlıqda edilən peyvəndlərlə əlaqədar ola bilər. Autizmin spektr pozuntuları bunlardır: autizm, asperger

sindromu, rett sindromu, uşaqlıq dezinteqrativ pozuntusu, atipik autizm [2].

Autizmin təzahür spektri çox geniş olmasa da, əsas simptomlan ümumi xarakter daşıyır [3]:

- Sosial münasibətlərdə pozuntular;
- Nitq və ünsiyyətdə pozuntular;
- Təxəyyüldə pozuntular.

Autizmdə yaddaş funksiyasının xüsusiyyətləri on illərdir tədqiq edilmişdir.Yaddaş, autizmin klinik təzahürlərinə cavabdeh olan əsas koqnitiv funksiya hesab edilirdi,və ya psixi proseslərin icra olunan hissəsinin pozulması kimi, ümumi koqnitiv çatışmazlığı səbəbindən ikinci dəfə əziyyət çəkən bir funksiya. 1970-80-ci illərdə autizmin ilk nörobehavioral modellərindən biri olan amneziya nəzəriyyəsinə əsaslanaraqyaddaş pozğunluğu autizmdə sosial, dil və davranış pozğunluqları üçün əsasdır(Boucher & Warrington, 1976).Ancaq sonrakı araşdırmalarda amneziya nəzəriyyəsi rədd edildi (Minshew & Goldstein, 1993; Rumsey & Hamburger, 1988).

Daha müasir modellər yaddaş çatışmazlığının, koqnitiv funksiyaların icra hissəsində ümumi bir çatışmazlığı əks etdirdiyinivə ya mürəkkəb məlumatların işlənməsində əsas çətinlikləri göstərir. Autizm sindromunun inkişafında yaddaş fəaliyyətinin rolu barədə razılaşma mövcud deyildi və autizmdə yaddaş xüsusiyyətlərinin xarakteristikası adekvat sayılmir. Məlumatların uyğunsuzluğu həmişə autizm tədqiqatlarında problem olmuşdur. Bu problem,koqnitiv funksiyalarındakı fərqliyin olmaması,autistik xəstə əhalinin yüksək heterojenliyi ilə əlaqələndirilir.Ancaq fərqli araşdırmalarda bir sıra nəticələr təkrarlanır və belə nəticələr verilən populyasiyada yaddaş funksiyasını xarakterizə edir.

Autizmli uşaqlar yaddaş strategiyası və ya kontekstdən istifadə etmirlər.Məsələn, təsadüfi olaraq təşkil edilmiş sözləri nəzarət qrupundakı zehni qüsurlu uşaqlar ilə eyni şəkildə

xatırlayırlar, lakin semantik və ya sintaktik təşkilatda gözlənilən faydaları nümayiş etdirmirlər (Frith, 1970a, 1970b; Fyffe & Prior, 1978; Hermelin & O'Connor, 1970). Digər tədqiqatlar göstərir ki, autizmli uşaqlar bir sözün mənasını kodlaşdırır və xarici işarələrə etibar edirlər,ancaq məlumatların seslendirməsini asanlaşdırmaq üçün öz-özünə semantik, sintaktik və ya müvəqqəti əlaqələrə etibar etmirlər (Tager-Flusberg, 1991). Bu müxtəlif araşdırmalarda qeyd olunan yaddaş çatışmazlığı dil çatışmazlığının nəticəsi deyildir,çünki qruplardil bilmə səviyyəsinə görə uyğun idilər.

Xatırlanacaq materialın mürəkkəbliyi, autizmli uşaqlarda yaddaşın fəaliyyətinə təsir göstərən vacib amildir. Fein et al. görə (1996), autizmdə yaddaşın funksiyası aşağı səviyyə strukturlu materialın üzərində qorunmuş yaddaşınvə daha mürəkkəb bir quruluşa sahib olan material üçün pozulmuş yaddaşın arasındadissosiasiya iləxarakterizə olunur[4], [1], [5].

Bəzi material növləri üçün vizual yaddaşautizm üçün daha yaxşı inkişaf etmiş bir sahə olduğu ortaya çıxdı, amma o da eyni zamanda materialın mürəkkəbliyindən də asılıdır. Autizmi olan uşaqlar və eyni yaşda sağlam uşaqlar kimi görüntünü ayırmaq tapşırığını yerinə yetirirlər (Prior & Chen, 1976),bir görüntü ilə bir obyektin təxirə salınmış əlaqəsi (Barth, Fein, & Waterhouse, 1995) və gündəlik mənzərələri təsvir edən piktoqramları xatırlatmaq tapşırığı (de Gelder, Vroomen və van der Heide, 1991) [6].

Yaddaş uşağın intellektual və fərdi inkişafını təmin edir. Onun inkişafının uğuru bir sıra amillərdən asılıdır [1]:

- əzbərləmə tədbirlərinin tamamlanma dərəcəsi
- şəxsiyyətin maraqları və meylləri
- fərdin müəyyən bir fəaliyyətlə əlaqəsi
- şəxsiyyətin emosional əhval-ruhiyyəsi
- şəxsiyyətin iradə komponentlərinin inkişaf xüsusiyyətləri.

Yaddaş proseslərini şəxsiyyətin xüsusiyyətlərindən və xassələrindən təcrid etmək olmaz. Çoxsaylı tədqiqatlardan göründüyü kimi, mnemonic proseslərin effektivliyi, ilk növbədə şəxsiyyətin istiqamətləndirilməsi, motivasiya sahəsinin inkişafı ilə əlaqələndirilir. Yaddaşın inkişaf səviyyəsi əsasən insanın yaşından, onun emosional və könüllü sferanın ümumi vəziyyətindən asılıdır [2].

İlk dəfə L. Kanner, autistik uşaqlarda yaddaş inkişafının xüsusiyyətlərinə diqqət yetirdi.Müəllif onların mexaniki yaddaşının yüksək inkişaf səviyyəsini vurğulamışdır. Autizmli uşaqlarda yaddaş xüsusiyyətlərinin tədqiqat nəticələri bir qədər mübahisəlidir. Əksər müəlliflər, autizmli uşaqlarda yaddaş inkişafının yüksək səviyyəsinə diqqət çəkirlər. Autizmli uşaqlar bütün kitabları, çox sayda şeir, mahnı, qəzet məqalələrini və s. əzbərləyə bilər. Bu vaxt bəzi müəlliflər yaddaşının inkişafında seçicilik qeyd edirlər,yalnız təsirli əhəmiyyətli hadisələri və obyektləri xatırlamaq meyli [3], [4].

***Misal:*** *M. anasının ona oxuduğu bütün nağılları əzbər bilirdi və tanış kitabların səhifələrini çevirərək uğurla təkrarlayırdı.Qızın valideynləri onun oxuya biləcəyinəəmin idilər. Psixoloqun otağında qızdan tanımadığı bir kitab oxumağı xahiş edildi. Eksperimental psixoloji tədqiqat uşaqda eşitmə-nitq yaddaşının inkişafının kifayət qədər yüksək səviyyədə olduğunu göstərdi.On kəlmə təqdim etdikdən sonra uşaq ikinci təqdimatdan sonra və eyni ardıcıllıqla sözləri tamamilə təkrarladı.*

Autizmli uşaqlarda mexaniki yaddaşın yüksək dərəcələri ən çox iki amilə bağlıdır.Birinci səbəb fərdi zehni funksiyaların avtonom inkişafında özünü büruzə verən qarşılıqlı əlaqələrin pozulmasıdır. İkincisi, autizmli uşaqlarda söz semantik sahənin xaricindədir və müəyyən bir mövzu ilə əlaqələndirilmir [5].

***Misal:*** *Təqdim olunan on iki sözlə, M, mənası baxımından yalnız səkkiz şəkil seçdi, lakin bütün sözləri düzgün xatırladı. Ыəma sözünə görə atın şəklini seçdi, baxmayaraq ki, məsələn,*

*şar, təyyarə, uzay gəmisi mənaları ilə şəkillər seçmək mümkün oldu. hər bir uşaq yadda qalan bir sözü bir məna ilə bir cəhətlə əlaqələndirir.*

Sağlam uşaqlarda belə xüsusiyyətlər müşahidə edilmir: hər bir uşaq.əzbərlənmiş sözü məna daxilində obyekt ilə əlaqələndirir [5].

J. Boucher (1981), autizmli uşaq və yeniyetmələrdə yaddaş pozğunluğunun bir neçə fərqli səbəbini ön plana çəkir. Bir tərəfdən bu ümumiləşdirmələrin inkişaf etməməsidir, digər tərəfdən uşağın məhdud sosial təcrübəsi. Zehni fəaliyyətdəki mənfi çatışmazlıq autizmli uşaqlarda yaddaşın inkişafına da mənfi təsir göstərir, bu da mnemonic proseslərin dinamikasının pozulmasında özünü göstərir [7].

Bəzi müəlliflər, autizmli uşaqların üz yaddaşının zəif olduğunu qeyd edirlər, bu da əslində tamamilə səhvdir. Autizmli uşaqlar əvvəllər tanış insanların üzlərini yaxşı xatırlayırlar, xüsusən də onlar üçün emosional cəhətdən əhəmiyyətlidirlərsə. Bir çox müəllif autizmli uşaqlarda rəqəmlərə qarşı yüksək səviyyədə yaddaşın olduğunu qeyd edir. Sağlam bir şagird orta hesabla təxminən yeddi rəqəmi təkrarlaya bilirsə, nisbətən normal nitq inkişafı olan autistik uşaqlar ardıcıl olaraq ondan çox rəqəmi xatırlaya bilər [3], [5].

B. Hermelin və N. O'Connor (1970) araşdırmalarında autizmli yeniyetmələrin ondan çox əlaqəli olmayan sözləri xatırladıqlarını göstərdilər.Müəlliflər, sağlam yeniyetmələrin siyahının əvvəlindən sözləri, autizmli uşaqları isə siyahının sonundan sözləri daha yaxşı canlandırdıqlarına diqqət çəkdilər. Sözləri əvvəldən xatırlamaq daha yaxşıdır tendensiyanı müəlliflər yeniliyin təsiri ilə əlaqələndirir, və sonundan - ilkin təsiri ilə. Sözləri adlandırarkən eksperimentator aralarında 30 saniyə və ya daha çox fasilə verərsə, autizmli yeniyetmələrdə təkrarlanan sözlərin həcmi azalırdı. Müəlliflər, eyni zamanda, autizmli yeniyetmələrin səsləri sözlərdən daha yaxşı səsləndirmələrinə diqqət çəkiblər. Məsələn, eksperimentator

onlardan 11 sözlü bir cümləni xatırlamağı xahiş etdikdə, autizmi olan yeniyetmələrdə səsləndirmə sağlam olanlara nisbətən daha aşağı idi [4], [7].

Beləliklə, autizmli uşaqlarda mexaniki yaddaşın inkişafının kifayət qədər yüksək səviyyəsi müşahidə olunur, lakin mnemonic proseslərin dinamikasında pozğunluqlar və məntiqi yaddaşın inkişafının olmaması qeyd olunur [3].

## ƏDƏBİYYAT


1. Xüsusi psixofiziki unkişafa malik uşaqların tərbiyə və təlimi. Bakı, “Tuncay 12” MMC, 2016,400 səh.
2. Baltaxe C.A.; Simmons J.Q (1985) Prosodic development in normal and autistic children in E Shopler; GB Mesibov (eds) Communication problems in autism. pp 95-118
3. Appelbaum, E., Egel, A.L., Koegel R.L., & ImboffB. (1979) Measuring musical abilities of autistic children.J. of autism and developmental disorders, 9, 279-285.
4. Akshoomoff, N. (2005) The neuropsychology of autistic spectrum disorders. Developmental neuropsychology 27 (3) pp. 307-10.
5. Barnea – Goraly N., Kwon H., Menon V.et al. (2007) White matter structure in autism: preliminary evidence from diffusion tensor imaging / Biol. Psychiatry, 2004, 323-6
6. Autism, Nature, Diagnosis. Treatment. /Ed. by G.Dawson. - N.Y.- L.: The Guilford press, 1989. – 417 p.
7. Autism Genome Project Consortium. Mapping autism risk loci using genetic and chromosomal rearrangements // Natural Genetic, 2007, 39, 319-328

# MÜASİR ELMDƏ "NƏSİL" ANLAYIŞI VƏ ONUN TƏSNİFATI MƏSƏLƏSİ

***Afət Cəlilova***
***BDU-nun II kurs magistrantı***
***celilova.afet.96@gmail.com***

Eyni tarixi prosesdə dünyaya gələn, inkişaf dövrlərində oxşar ictimai, iqtisadi, siyasi və texnoloji prosesləri təcrübədən keçirən və bu təcrübələr nəticəsində bənzər dəyərlərə malik olan yaş qrupları nəsil kimi xarakterizə olunur. Sosial, iqtisadi, siyasi və texnoloji inkişaf cəmiyyətlərin malik olduğu mövcud strukturu dəyişikliyə uğratmışdır. Sözügedən amillərdən ötrü müxtəlif zaman kəsiklərində doğulan nəsillərin davranışlarında dəyişikliklər ortaya çıxmışdır. Nəsillərin zaman içərisində fərqlənən xüsusiyyətləri həyatın bütün aspektlərində özünü göstərir. Nəsillərarası fərqlər, insanların bir-birini anlamasını və hadisələrə müxtəlif perspektivlərdən baxmaqlarını gündəmə gətirir. Həmin fərqlənən davranışlar istənilən sahədə əks olunduqda ayrı-ayrı şəxslərin fəaliyyətinə, həyat tərzinə, nailiyyət qazanmasına mane olur. Nəsillərarası fərqlərin göstəricilərindən biri də, inkişaf tərzləri və içində olduqları mühit dəyişiklikləri səbəbindən nəsillərin qavrayış, gözlənti səviyyələri, həyata baxışı və davranışlarıdır.

Nə üçün nəsillər arası fərqlər yaranır? Bu fərqlər hansılardır? Bu suallara cavab vermək üçün əvvəlcə nəsilləri tanımaq lazımdır. Bir-birindən fərqli nəsillərin, əslində bir-birinə verəcəyi bir çox təcrübə və bilik vardır. Müasir dövrdə dünya miqyasında nəsillər X, Y, Z nəsillərinə bölünür. Eyni zamanda "Beybi bumer" (Baby boomer) və "Səssiz" nəsli də bura aid edirlər (4). Nəsillər bir-birindən təcrid olunmuş şəkildə deyil, əksinə iç-içə keçmişdir və ayrı-ayrı nəsillər günümüzdə bərabər yaşayır. Müxtəlif nəsillərin bir-birini anlaması, müəyyən məqamlarda birləşməsi bəşəriyyətin harmoniya içərisində

yaşaması üçün zəruri amillərdən biridir. Əgər hər bir nəsil bir-birinin xüsusiyyətlərini bilir və buna anlayış göstərirsə o zaman nəsillərarası harmoniyanı balansda saxlamaq mümkündür. Nəsillərin qısa xarakteristikasına nəzər salaq.

Baby Boomer, 1946-1964-cü illər arasında, II Dünya müharibəsinin sonlarında başlayıb, 60-cı illərin əvvəllərinə qədər davam etmişdir. Bu nəsil adını, illik doğum tempində böyük artım mənasına gələn "baby boomer" ifadəsindən götürmüşdür. Hazırda nəslin ən yaşlısı təxminən 72, ən cavanı isə 54 yaşındadır. O zamanlar texnologiya yaxşı inkişaf etmədiyi və geniş yayılmadığı üçün, çox zaman öz işlərini özləri etmək məcburiyyətində qalmış, istehsalla məşğul olmuşlar. Bu nəsil texnologiyadan uzaqdır, başqa sözlə, texnologiyanı qəbul etməmişdir. Bunun əvəzində işə sədaqətləri yüksəkdir. Baby boomer nəsli üçün "İşləmək üçün yaşayıblar" demək məqsədəuyğundur.

X nəsli, nümayəndələri 1965-1979-cu illər arasında dünyaya göz açanlara deyilir. Nəslin ən yaşlısı 55, ən gənci 41 yaşındadır. Qaydalara uyğun mənsubluq hissi güclü, nüfuza hörmət edən, sadiq, işgüzarlığa önəm verən bir nəsil kimi tanınır. İş həyatlarında motivasiyaları yüksəkdir. Yaxşı çalışsalar iş həyatında yüksələ biləcəklərinə inanırlar və səbirlidirlər. Bundan başqa, bu nəsil bir sıra ixtiralara, kəşflərə şahidlik etmişdir. Pərli paltaryuyan maşın, tranzistorlu radio, maqnitafon və s. bu cür kəşflərə misal ola bilər (3). Texnologiya baxımından yanaşsaq X nəsli kompüter sistemlərinin transformasiyasına və bununla bağlı olaraq dəyişən iş prinsiplərinə adaptasiya olmağa çalışmışlar.

Y nəsli, 1980-1999-cu illər arasında dünyaya gələnlərdir. Y nəslinin ən yaşlısı 40, ən cavanı 21 yaşındadır . Nəsillər arası fərq ən çox bu nəsildə hiss edilir. Çünki onlar müstəqil olmağı sevirlər, azadlıqlarına düşkündürlər və iş həyatlarında da fərqlənirlər. Təyin olunan iş saatları arasında işləməyi sevmirlər. Y nəslinin xüsusiyyətlərindən biri də, çox iş dəyişmələridir (2). Bu nəslin özündən fərqli düşünənləri amansızlıqla tənqid yağışına

tutduğu da bir həqiqətdir. Y nəsli ifrat fərdiyyətçidir, nüfuz və qayda tanımır.

Z nəslinə, 2000-ci il və daha sonra dünyaya gələnlər aid edilir. Bu nəslə həmçinin, "minillik nəsli" də deyilir. Ən böyük nümayəndəsi 20 yaşındadır. İnternet və mobil texnologiyaları istifadə etməyi sevirlər. Günümüzdə məşhur olan mobil telefonlar və planşetlər ilə hər sahədə aktivdirlər. Xüsusilə internet vasitəsilə sosiallaşmağa üstünlük verirlər. Digər nəsillərdən fərqli olaraq internet və texnologiya ilə doğulduqları deyilir. Oyuncaqlar yerinə planşetlərlə oynayır, texnologiya ilə birgə böyüyürlər. Ancaq internetlə çox maraqlandıqları üçün eyni anda birdən çox məsələ haqqında maraqlana biləcəkləri təxmin edilir. Sözügedən bu qabiliyyət Z nəslində geniş şəkildə görünür və bu onlar üçün tək bir məsələyə diqqər yetirməkdən daha asan gəlir. Konfrans zamanı və ya kinoteatrda film izlərkən çoxunun eyni zamanda sosial mediada konfrans və ya filmlə bağlı fikirlər yazmaları, səhnənin şəkilini çəkib sosial mediada paylaşmaları buna ən yaxşı nümunədir. Əlbəttə bunlarla məşğul olarkən danışığa da qulaq asırlar. Əl yazısından daha çox karikatura yazısını üstün tutan bir nəsildir (1). Bu nəslin nümayəndələri kitablara toxunmadan kitab oxuyan insanlardır.

## ƏDƏBİYYAT

1. McCrindle M., Wolfinger E., The ABC of XYZ: Understanding the Global Generations [Electronic resource]
2. Strauss W., Hove N. Millennials Rising: The next great generation, NY, 2009.
3. Солдатова Г.В. Цифровое поколение как вызов образованию в сетевом столетии [Электронный ресурс]
4. https://fpp.spb.ru/sites/fpp.spb.ru/files/pokoleniya_xyz.pdf

# İNKLÜZİV TƏHSİL VƏ ONUN PSİXOLOJİ MAHİYYƏTİ

***dos. İranə Məmmədli***
***Reyhan Rüstəmova***
***BDU-nun ll kurs magistrantı***
***rustemovareyhan98@gmail.com***

Bu gün təhsil sahəsində əsas olan anlayışlardan biri də "İnklüziya" terminidir. İnklüziya (inclusion-daxiletmə)-bütün vətəndaşların, ilk növbədə, sağlamlıq imkanları məhdud olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir.

Təhsil sahəsi istisnasız olaraq bütün uşaqların və böyüklərin akademik və ictimai həyatda bərabərhüquqlu iştirakını təmin etməlidir. "İnklüziv təhsil" anlayışının geniş çərçivədə izah edilməsinə ehtiyac o səbəbdən yaranmışdır ki, təhsil işçiləri, idarəedici və digər orqanlar, təhsil siyasətini hazırlayan şəxslər qarşılıqlı əməkdaşlıq və dialoq üçün ümumi diskursiv sahəyə (diskursiv sahə intellektual və sosial sahələrin qarışığıdır ki, burada sosial əlaqələr müəyyən bir təcrübəyə çevrilir) malik olsunlar.

Beynəlxalq ictimaiyyət "inklüziya" terminini ictimai həyata aktiv qatılma kimi izah edir. Təhsil mühitinə inklüziv yanaşma zamanı ümumilikdə məktəbin şagirdləri və onların valideynləri sağlamlıq imkanları məhdud uşaqları cəmiyyətin üzvü kimi qəbul etməyə başlayırlar.SİM insanların baxışları da ətraf mühit üçün əhəmiyyət kəsb etməyə başlayır, hər şeydən öncə isə, onlar artıq korreksiyaedici xüsusi məktəblərdə olduğu kimi, evdən təcrid olunaraq yaşamırlar.

İnklüziv təhsil uşaqyönümlü metodologiyanı inkişaf etdirməyi hədəf götürür və bütün uşaqların, fərdlərin təhsildə müxtəlif ehtiyaclara malik olduqlarını qəbul edir. İnklüziv təhsil uşaqların fənlər üzrə müxtəlif təlim ehtiyaclarının təmin edilməsi

üçün daha səmərəli olan yanaşmaları işləyib hazırlamağa cəhd edir.

İnklüziv təhsilin əsasında aşağıdakı istiqamətləri əsas götürən ideologiya durur:

-Bütün insanlara eyni münasibət təmin edərək hər cür diskriminasiyadan uzaq durmaq;

-Xüsusi təlim ehtiyacları olan uşaqlar üçün ümumtəhsil müəssisələrində şərait yaratmaq.

İnklüziv təhsilin bir sıra komponentləri vardır:

-İnklüziv təhsillə əməkdaşlıq;

-Qiymətləndirmə;

-Fərdi tədris proqramı;

-İnklüziv təhsildə reablitasiya xidmətinin təşkili;

-İnklüziv təhsildə pedaqoq və psixoloqların rolu;

-İnklüziv təhsildə digər xidmətlərin təşkili;

-İnklüziv təhsildə valideynlərlə işin təşkili və s.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdları ilə təhsilə birgə hazırlanması üzrə məsuliyyət mahiyyət etibarı ilə daha çox psixoloq və tərbiyəçilərin üzərinə düşür. Ümumiyyətlə, korreksiyaedici xidmət dedikdə, öncə onların təhsilə daha tez uyğunlaşması, uşaqlarla effektiv ünsiyyət qura bilməsi nəzərdə tutulur. Məsələn, uşaq bağçalarında, yaxud məktəbəqədər hazırlıq müəssisələrində tərbiyəçilərin əsas rolu aşağıdakı funksiyaların həyata keçirilməsindən ibarətdir: uşaqlarda kollektivçilik, əmək vərdişləri, davranış, etik və əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi, dünya haqqında ilkin təsəvvürlərin yaradılması və s. Bir sözlə, məktəbə hazırlıq prosesində pedaqoq uşağı fiziki və mənəvi cəhətdən tərbiyə edir, cəmiyyət tərəfindən müəyyən edilmiş vəzifələrə uyğun şüurlu fəaliyyətə hazırlayır.

E. Karvardin bildirib: “Əgər biz diqqətimizi yalnız uşağın əlillik halına yox, həm də onun bacarıq və potensialına cəmləsək, o zaman uşağa yaşadığı cəmiyyətə həm bu gün, həm də gələcək üçün mənalı və dəyərli töhfə verməkdə köməklik edərik. Məktəblərə, müəllimlər və məktəb rəhbərliklərinin

təliminə və daha yaxşı kurikuluma sərmaye qoymaqla və əlilliyi olan uşaqlara qarşı ictimai münasibətləri dəyişməklə biz həmin uşaqlara dəyərli bacarıqlar və layiqli iş tapmaq, və beləliklə dövlətdən asılılığı azaltmaq imkanı veririk- bunlar birlikdə bizim bütün millətin gələcəyinə sərmaye qoymağımız deməkdir".

## ƏDƏBİYYAT


1. "İnklüziv təhsil" Dərs vəsaiti Bakı-2014
2. Qasımov S.Ə, Kərimova E.M, Sultanova İ, Ağayeva T.H. – "İnklüziv təhsil", Bakı-2006
3.Hüseynova N.T., Rüstəmova L.H. –"Xüsusi pedaqogika" Bakı-2007
4. Актуальные проблемы специальной психологии и коррекционной педагогики. Выпуск 2.
5. Шевченко С.Г. – Коррекционно-развивающее обучение: организационно-педагогические аспекты -М.,1999
6. Culham A. Nind M. Deconstructing Normalisation: Cleraing the Way for Inclusion // Journal of Intellectual and Developmental Disability 2003.


## "MƏN" KONSEPSİYASI İLƏ BAĞLI NƏZƏRİ FİKİRLƏR


***p.ü.f.d.Müşfiq Mustafayev***
***Nayim Səmədzadə***
***BDU-nun II kurs magistrantı***
*naim.semedzade@icloud.com*


"Mən" konsepsiyası ilə sistemli bir şəkildə maraqlanan ilk psixoloq Ceymsdir. Psixologiya elmi içərisində "Mən" anlayışının tədqiq olunması Uilyam Ceymsin "The Principles of Psychology" (1952/1891) adlı əsəri ilə başlayır. Ceyms bu əsərində, "Mən"in"bilən mən" (self as knower) və "bilinən

mən" (self as known) olaraq iki formada düşünülməli olduğunu, elmin mövzusunun isə "bilinən mən" olmasının məcburi olduğunu qeyd etmişdir. Çünki *bilən mən*subyekt, *bilinən mən* isə obyektdir. Onun fikrinə görə "Mən", fiziki mən, sosial mən, ideal mən və real məndən formalaşmaqdadır. Ceyms "Mən"i, ən geniş mənası ilə şəxsin özünə deyə biləcəyi hər şeyin ümumi məcmusu olaraq ifadə etmişdir [1].

Ceymsdən sonra "Mən" anlayışını tədqiq edən Kuli isə, "Mən"ə daha çox sosioloji perspektivdən yanaşmış və şəxsin qarşılıqlı təsirdə olduğu digər insanların,özünün necə qavrandığını və necə qiymətləndirildiklərini əks etdirən bir konseptualizasiya olaraq ifadə etmiş, buna da "ayna mən" adını vermişdir [2].

Psixologiya da "Mən" anlayışının əhəmiyyət qazanmasında Freydin liderlik etdiyi psixoanaliz cərəyanının böyük rolu olmuşdur. Şüur-şüuraltı-şüursuz sinifləndirməsiylə insan davranışının psixodinamikasına işıq tutaraq psixologiyada novator olan Freyd, "Mən" anlayışında psixi aparatı id-eqo-supereqo şəklində struktur olaraq sinifləndirmişdir. Eqo şəxsiyyətin böyük ölçüdə şüurlu tərəfidir və insanın "Mən"i haqqındakı şüurlu informasiyası mənasındadır. Psixoanaliz ədəbiyyatında "Mən" yerinə eqonun ələ alındığı görülür [3]. Freydin psixoanalitik nəzəriyyəsində eqo, id və supereqonu ehtiva edən və id ilə supereqo arasında balansı qoruyan bir strukturdur [4].

Adler, "yaradıcı mən" anlayışını irəli sürmüşdür. Adlerə görə "Mən",qərar vermə qabiliyyətinə sahib və fərdə yönəlmiş bir həyat təmin etməyə çalışan bir sistemdir. Adlerin nəzəriyyəsində fərdin "Mən" anlayışına mənfi istiqamətdə təsir göstərə bilən zəiflik və qeyri-adekvatlıq hissləri vurğulanır. Hər insan həyata, güclü qeyri-adekvatlıq hissi ilə başlayır. Uşaq özündən güclü və qabiliyyətli olan yetkinlər qarşısında zəiflik hissi yaşayır. Uşağın yaşadığı intensiv zəiflik hissi həyatı boyunca özündən üstün olan insanlar və təbii güclər üzərində

üstünlük yaratma cəhdinə səbəb olur. Həyatın əsas məqsədi; nöqsanları aradan qaldırmaq, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq davranışları göstərərək, “Mən”i ən mükəmməl səviyyəyə gətirmək və dəyərsizlik hissindən xilas etməkdir[5].

Horni isə, sağlam “Mən”in inkişafında dəstəkləyici və anlayışlı valideyn münasibətlərinin əhəmyyəti üzərində dayanmışdır. Sağlam “Mən”in inkişafı üçün uyğun mühitin təmin edilmədiyi ailələrdə böyüyən uşaqların intensiv həyəcan hissləri yaşadığını müdafiə etmiş, uşağın “Mən”ini qoruya bilmək üçün həyəcan ilə mübarizə aparmaq istiqamətindəki cəhdlərinin tabe olma, aqressivlik və introversiyon şəklində baş göstərən nevrotik əlaqələrlə özünü göstərdiyini ifadə etmişdir. İnsanlara yönəlmə, insanlardan uzaqlaşma və insanlara qarşı olmağa söykənən bu münasibətlər fərdin “Mən”inə yadlaşmasına səbəb olur [6].

Sullivanın şəxsiyyətlərarası münasibətlər nəzəriyyəsində “Mən”in inkişafı, şəxsiyyətlərarası sosial əlaqələrə əsaslanır. Nəzəriyyəyə görə fərd, özü və digər insanlar haqqında müxtəlif mental obrazlar yaradır. Bu mental obrazlar, təcəssümlər olaraq adlandırılır. Uşaqlar mənlikləri ilə əlaqəli olaraq üç fərqli təcəssüm yaradır:

**1) Pozitiv Mən:** Ana ilə olan, mükafat gətirən, yaxşı qarşılanan münasibətlər nəticəsində yaranır. Uşaq özünə qarşı müsbət hisslər yaradır və özünəhörmətini artırır.

**2) Neqativ Mən:** Ananın xoş qarşılamadığı vəziyyətlər nəticəsində formalaşır. Neqativ“Mən” narahatlıq içərisindədir. Ancaq bu narahatlıq ifrat dərəcədə deyildir. İstənməyən davranışın əngəllənməsində fərdə yardımçı olur. Ancaq neqativ“Mən”də fərd özünə qarşı mənfi hisslər yaradır. Bu hisslər fərdin anti-sosial davranışlara daxil olmasına avtomatik olaraq mane olur, şüurun inkişafına da kömək edir.

**3) Mən və Qeyri-mən:** Yaradıcı bir funksiyası yoxdur.“Mən”in bu hissəsi ananın uşağa qarşı ifrat dərəcədə bir narazılıq göstərib, uşaqda qüvvətli bir narahatlığa səbəb olması

ilə yaranır. Fərdin digər “Mən”i ilə olan əlaqəsini qoparır, idarə edilə bilməz hala gəlir. “Mən”in bu hissəsi şüuraltı səviyyədə qalır və fərd bundan yaranan hadisələrlə qarşılaşanda ifrat dərəcədə həyəcan hiss edir [7].

Rocersin şəxsiyyət nəzəriyyəsində “Mən” anlayışı əhəmiyyətli bir yer tutur. “Mən” şəxsin fenomoloji və ya qavrama sahəsinin bir hissəsidir. “Mən” haqqındakı şüurlu anlayışları ehtiva edir. “Mən” anlayışı şəxsin özü haqqında sahib olduğu bir imicdir. Xüsusi ilə “mən nəyəm?” kimi varlığının fərqində olma və “mən nə edə bilərəm?” şəklində, funksiyalarının fərqində olmağı ehtiva edir. “Mən” anlayışı şəxsin nə olduğu haqqındakı fikirlərinin yanında nə olmalı olduğu və nə olmaq istədiyi mövzusundakı fikirlərini də əks etdirir. Şəxsin nə olmaq istədiyi mövzusundakı fikirləri “ideal məni” formalaşdırır. Bu termin fərdin çatmaq istədiyi və sahib olduğu təqdirdə özünü çox dəyərli tapacağı “Mən” anlayışını müəyyən edir. Əslində Rocersə görə “Mən” anlayışı şəxsin özü haqqında doğru ya da yanlış olan bir sıra fərziyyələridir [8].

Rosenberqə görə, “Mən”anlayışı və eqo sıxlıqla bir-birilərinin yerinə işlədilən iki anlayışdır. Eqo anlayışı; fərdin reallığa tab gətirməsinə imkan verən bir sıra intellektual və idrak proseslərini ehtiva edir və “Mən” anlayışından fərqli olaraq, “Mən”i qorumaq və inkişaf etdirmək vəzifəsi daşıyır. Dilimizdəki istifadəsinə nəzər yetirdikdə, “Mən” anlayışının eqo mənasında da istifadə olunduğu diqqəti çəkir. “Eqo” mənliyin psixoloji proseslərlə əlaqəli hissəsi; “Mənlik” isə anadangəlmə olan potensial, quruluş və yaradılış mahiyyətidir. “Mən”, fərdin dünyaya gəlməsi ilə birlikdə özü və ətrafı ilə qarşılıqlı təsir nəticəsində əldə etdiyi təcrübələri ilə formalaşan, özü ilə əlaqəli olan fikir formasıdır [9].

Fərqli yollarla izah olunmağa çalışılan və şəxsiyyətin subyektiv tərəfi olan “Mən”, əsasını şəxsin özü haqqındakı müsbət və mənfi təcrübələrindən götürür. “Mən” anlayışı,

fərdin özünəməxsus və başqalarından ayrı fərd olma halı olub, eyni zamanda öz varlığının fərqində olması mənasını daşıyır.

## ƏDƏBİYYAT

1. William James, Dover Publications; Reprint edition, PDF, (1950); ISBN-10: 0486203816; The Principles of Psychology, Vol. 1&2;
2. Kula, N. İstanbul: Ayışığı Yayınları, 1. B, (2001), ISBN-10: 9757321184; Kimlik ve Din; 197 Pages.
3. Bacanlı, H. Ankara: Nobel Akademik Yayıncılık. 10.B (2002); ISBN-10: 9755911693; Gelişim ve Öğrenme;258 Pages.
4. Geçtan, E. İstanbul: Metis Yayınları. 12. B.; (2005); ISBN-13: 978-975-342-463-9; Psikanaliz ve Sonrası.
5. Asıcı, E. (2013). Öğretmen Adaylarının Affetme Özelliklerinin Öz-Duyarlılık ve Benlik Saygısı Açısından İncelenmesi. *Yayınlanmamış Yüksek Lisans Tezi*. İzmir: Dokuz Eylül Üniversitesi, Eğitim Bilimleri Enstitüsü.
6. Karen Horney, M.D. W.W.Norton & Company; 2nd edition, (1991); ISBN-10: 0393307751; Neurosis and Human Growth: The Struggle Towards Self-Realization; 370 Pages.
7. H.S.Sullivan, Routledge; 1st ed. (1996); İSBN-10: 0415119731, Interpersonal Theory and Psychotherapy (Makers of Modern Psychotherapy); 256 Pages
8. Yanbastı, G. İzmir: Ege Üniversitesi Basımevi. (1996), ISBN-10: 9754830649; Kişilik Kuramları.
9. Rosenberg, M. (1965). Society And The Adolescent Self-Mage, NJ: Princeton University Pres, Princeton.

# REKLAM ŞƏXSİYYƏTİN DAVRANIŞININ TƏNZİMİNDƏ ƏSAS TƏSİR VASİTƏSİ KİMİ

***Gülər Dadaşova***
***BDU-nun II kurs magistrantı***
***gulerdadashova@yandex.com***

Müasir dövrdə reklam satın alma davranışını formalaşdıran ən vacib marketinq vasitəsidir. Öz yaradıcı strategiyaları ilə kütləvi təsir göstərmə potensialına sahib olan reklam müxtəlif medya məcralarında yer alır. Reklamlar məhsulun və ya xidmətin xüsusiyyətlərini təsvir etməklə bərabər, istehlakçının və məhsulun ortaq nöqtəsini tapmağı və məhsulu əvəzedilməz hala gətirməyi hədəfləyir. Reklamın əsas məqsədi məhsul və ya xidmətə simvolik bir məna yükləyərək istehlakçını onu almağa sövq etməkdir.

Bu gün istehlakçılar ehtiyac duyduğu məhsul və ya xidmətə sahib olmaq üçün bir çox alternativ arasından seçim edə bilərlər. İstehlakçıların satın almanı bu qədər asan həyata keçirməsi firmaların öz məhsullarını tanıtmaq üçün xüsusi bir səy göstərməsinə səbəb olur. Firmalar öz məhsul və xidmətlərini üstün xüsusiyyətləri və uyğun qiymətləri ilə bazara təqdim etməli, istehlakçılara məhsulu almaları üçün inandırıcı təsir göstərməlidirlər. Reklam fəaliyyəti, markanın məhsul və xidmətlərini tanıtmaq və insanların marka haqqında məlumat əldə etməsi üçün planlaşdırılmış bir fəaliyyət növüdür. Markanın tanıdılması qədər vacib olan reklamın başqa bir missiyası, istehlakçılara psixoloji təsir göstərərək məhsulu satın almağa sövq etməkdir.

Reklam, istehlakçının rəftar və davranışına təsir edərək müəyyən bir məhsulu almağa sövq etmək məqsədi daşıyır. Reklamın öz məqsədinə çatması üçün, mesajları istehlakçıya təsirli şəkildə çatdırmağı vacibdir. Reklam, markaya aid olan məhsullar barədə məlumat vermək və məhsulun xüsusiyyətləri

barədə istehlakçını məlumatlandırmağa və onu satın almağa yönəltməyə borcludur.

Reklamlar sayəsində istehlakçıların satınalma tələbatı aktivləşir. Məhz bu tələbat istehlakçılarda satınalma davranışına səbəb olur. Reklamlar hazırlanarkən istehlakçıların hansı tələbatına xitab edilməsi barədə düzgün qərar qəbul edilməlidir. Məsələn; sevilmək, bəyənilmək, müəyyən bir qrupa mənsub olmaq və hər kəs tərəfindən qəbul edilmək kimi tələbatları olan istehlakçılar üçün hazırlanacaq olan reklamlar da bu ehtiyacları qarşılayacaq olan motivlər və məhsul arasında əlaqə qurulur. Əgər güc və müvəffəqiyyətə ehtiyacı olan istehlakçılar üçün reklam hazırlanırsa ,məhsula sahib olmanın qazandırdığı fərqlilik ,uğur qazanma hissi ön plana çıxarılır.

Son dövrlərdə reklamların sürətlə artması səbəbilə istehlakçıların reklama olan maraqları azalır və bu da onların reklamı qavramasını çətinləşdirir. İstehlakçının reklama maraq göstərməsini təmin etmək üçün həddindən artıq təkrardan qaçmaq və istehlakçının diqqətini cəlb edə biləcək, qeyri-adi, yaradıcı reklamlar ərsəyə gətirmək lazımdır. Məlumatlandırma istehlakçıların davranışını reklamlar vasitəs ilə istiqamətləndirmək üçün vacib bir meyardır. Məhsul və ya xidmət haqqında heç bir məlumatı olmayan istehlakçı da reklam sayəsində satın alma davranışına yönələ bilər. Lakin istehlakçı reklam vasitəsilə məlumatı olduğu məhsullar arasından seçim edərək müvafiq məhsul və ya xidmətdən istifadə edir və əldə etdiyi təcrübələrə əsaslanaraq onda markaya müəyyən münasibət formalaşır.

## ƏDƏBİYYAT

1.Лебедев.А-Любимов. Психология рекламы. Санкт-Петербург, 2002

**2.**Atıf.A, Suher.K , Reklam teorileri. The kitap, 2017

3.https://www.nickkolenda.com/advertising-psychology/

# EMOSİONAL İNTELLEKTİN CİNSLƏR ARASI FƏRQLİ XÜSUSİYYƏTƏRİ

***İlahə Abasova***
***BDU-nun ll kurs magistrantı***
***Elmi rəhbər: dos. Səxavət Əliyeva***
***emilahe2610@gmail.com***

Cinslər arasında emosional müxtəlifliyə dair araşdırmalar nitq qabiliyyətinin oğlanlara nisbətən qızlarda daha tez inkişaf etdiyini və bunun sayəsində qızların öz hisslərini ifadə etməkdə oğlanlardan daha təcrübəli olduğunu, həmçinin dava-dalaş kimi emosional reaksiyaları aydınlaşdırmaqda və bu reaksiyaların əvəzinə sözlərdən istifadə etməkdə daha usta olduğunu irəli sürür. Tədqiqatçılar belə hesab edir ki, qızlardan fərqli olaraq, "duyğularını sözlərlə ifadə etməyə o qədər də əhəmiyyət verməyən oğlanlar həm özlərinin, həm də başqalarının emosional vəziyyətini dərk edə bilmirlər".

Qeyd etmək lazımdır ki, oğlanlara və qızlara emosiyaları idarə etmək mövzusunda çox fərqli dərslər verilir. Valideynlər, - qəzəb istisna olmaqla, digər duyğular haqqında oğulları ilə deyil, qızları ilə daha çox söhbət edirlər. Qızlara duyğular haqqında oğlanlara nisbətən daha çox məlumat verilir: valideynlər məktəbəqədər yaş dövründə olan uşaqlarına nağıllar söylədikdə, oğullarından çox qızlanyla danışarkən emosional ifadələr işlədirlər; analar körpələri ilə oynayarkən, oğullarından çox qızlarına qarşı daha geniş emosiyalar spektrindən istifadə edirlər; və yenə analar duyğular haqqında danışarkən, emosional hallar barədə oğullarına deyil, qızlarma daha ətraflı məlumat verirlər; oğullarıyla isə adətən ibrət götürmələri üçün daha çox qəzəb kimi duyğuların səbəb və nəticələri barədə ətraflı söhbət edirlər.

Məktəb illərində uşaqların emosiyaları arasındakı bu ziddiyyətlər çox fərqlibacarıqların formalaşmasına yol açır,

yəni qızlar “həm verbal, həm də qeyri-verbal emosional siqnalları oxumaqda, öz hisslərini ifadə etmək və keçirməkdə ustalaşır”, oğlanlar isə “kövrəklik, günahkarlıq, qorxu və əzabla bağlı duyğularını minimuma endirməkdə” təcrübə qazanırlar. Elmi ədəbiyyatda bu fərqli mövqelərin xeyrinə çox qüvvətli dəlillər var. Məsələn, yüzlərlə araşdırmada, ən azından, hər hansı bir nəfərin sözlərlə ifadə etmədiyi hisslərini üz ifadəsindən, səs tonundan və digər qeyri-verbal əlamətlərdən oxuma qabiliyyəti ilə ölçülən empatiya baxımından qadınların kişilərdən adətən daha həssas olduğu aşkar edilib.

Analoji olaraq, kişilərə nisbətən qadınların hisslərini üzündən oxumaq daha asandır; çox kiçik oğlan və qız uşaqlarının üzündəki ifadələrdə heç bir fərq olmadığı halda, ibtidai təhsil illərində oğlanlarda özünüifadə qabiliyyəti getdikcə zəifləyir, qızlarda isə əksinə daha da güclənir. Bu, bəlkə, qismən də olsa, başqa bir mühüm fərqliliyi əks etdirir: ümumən qadınlar kişilərə nisbətən emosional rəngarəngliyi daha kəskin və canlı şəkildə yaşayır; bu mənada, qadınlar kişilərdən daha “emosionaldır”.

## ƏDƏBİYYAT

1. Daniel Goleman- “Emosional Zəka”, Bakı, Qanun nəşriyyatı, 2019
2. John. D. Mayer, Peter Salovey, Marc A. Brackett- “Emotional İntelligence”, 2004
3. https://www.psychologytoday.com/us/blog/the-brain-and-emotional-intelligence/201104/are-women-more-emotionally-intelligent-men
4. https://www.gracepointwellness.org/474-emotional-intelligence/article/16150-big-boys-do-cry
5. https://journals.sagepub.com/doi/full/10.1177/2158244017725796

# УСПЕВАЕМОСТЬ ШКОЛЬНИКА, КАК РЕЗУЛЬТАТ ВЛИЯНИЯ СО СТОРОНЫ РОДИТЕЛЕЙ

***Эмиль Ибрагимов***
***Магистрант 2-курса БГУ***
***emil.ibrahimov97@mail.ru***

Семья является одним из фундаментальных институтов общества, который обеспечивает его стабильность и упорядоченность, закладывая в каждое новое поколение важнейшие ценности и нормы. На протяжении всей жизни человек может состоять в различных социальных группах, таких как школа, институт, рабочий коллектив или коллектив по интересам, однако только семья является постоянной общностью, сопровождающей человека с первых дней его рождения [1]. Говоря об институте семьи, мы подразумеваем также институты брака и родства, материнства и отцовства, социальной защиты детства и опеки, входящие в институт семьи, как комплексной и многогранной структуры.Семья – это один из древнейших социальных институтов, возникший раньше религии, политики, государства, образования.

Известно, что привлечение родителей к обучению своих детей, особенно дома, имеет реальное значение и потенциально оказывает гораздо большее влияние на успехи ребенка в школе, чем что-либо еще.Каждый ученик имеет неограниченный потенциал. Но есть способствующие факторы, которые могут повлиять на то, соответствуют ли они в конечном итоге этому потенциалу. Роль родителей в жизни ребенка имеет далеко идущие последствия. Участие родителей чрезвычайно важно для ребенка, чтобы преуспеть в школе.

Родители являются первыми учителями своих детей - изучают природу, читают, готовят и считают вместе. Когда ребенок начинает ходить в официальную школу, работа родителей заключается в том, чтобы продемонстрировать, как школа может продлить обучение, начатое дома, и насколько увлекательным и значимым может быть это обучение [2]. Поскольку дошкольники вырастают в детей школьного возраста, родители становятся обучающими тренерами своих детей. Посредством руководства и напоминаний родители помогают своим детям организовывать свое время и поддерживают их желание изучать новые вещи в школе и вне ее. Отсутствие родительского руководства может сделать ученика склонным к плохому поведению; пренебрежение ими может привести к отказу и стрессу, что негативно скажется на их успеваемости в школе.

Воспитание и образование детей является сложной деятельностью, которой занимаются все родители без каких-либо эмпирических знаний. Считается, что родители оказывают большее влияние на развитие ребенка как личности, чем вся остальная окружающая среда [3].

Если родители пользуются у детей авторитетом, показывают им пример нравственной культуры и постоянной работы над собой, в таких случаях их слова и дела имеют большой вес и побуждают учащихся к добросовестному выполнению своих школьных обязанностей. Те же школьники, в семьях которых нет согласия между родителями и царит обстановка недоброжелательности и нервозности, часто приходят в школу с плохим настроением, с трудом сосредоточиваются на восприятии изучаемого материала, не имеют нормальных условий для домашней учебы.

Задача родителей — развивать у учащихся здоровые духовные потребности и интересы [4] В этом смысле

большое значение имеет нравственная атмосфера, которая складывается в семье. Если у родителей превалируют "вещные интересы" и заботы о поисках материальных выгод, если личный расчет заслоняет гражданский долг и чувства, это весьма отрицательно сказывается на воспитании детей.Дети, родители, учителя — члены одного коллектива. Их объединяют общие заботы, проблемы, результат решения которых существенным образом зависит от характера взаимодействия.

## ЛИТЕРАТУРА


1. Семенова А.И. - Семья как социальный институт
2. Lydia Atieno - Why a parent's role is essential to student success. August 22, 2018
3. Никифорова Эмилия Акимовна-Роль родителей в воспитании и образовании детей. 02.06.2014
4. Взаимодействие семьи и школы в педагогическом процессе


## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ QORXU HİSSİNİN YARANMASININ PSİXOLOJİ SƏBƏBLƏRİ


***p.ü.f.d. Kamilə Kazımova***
***Karadeniz Mizgin***
***BDU-nun II kurs magistrantı***
***mizginkaradeniz7676@gmail.com***


Məlumdur ki, hər kəs həyatda qorxu hissini yaşamışdır. Uşaqlar üçün də qorxu inkişafın normal bir hissəsi hesab olunur. Bir uşağın nə vaxt və nədən qorxacağını müəyyən etmək olduqca çətindir. Çünki qorxunun meydana gəlməsində ətraf mühit, keçmiş hadisələr və o andakı psixofizioloji

vəziyyət rol oynayır. Qorxular əsasən yaşa paralel olaraq dəyişə bilir.

Kiçik yaş məktəb dövrü 6-10 yaşı əhatə edir. Kiçik yaşlı məktəblilərdə qorxuların yaranma səbəbləri müxtəlif ola bilər: Uşağın həqiqətən başına gəlmiş müəyyən bir ekstremal hadisə; Qorxuların yaranmasına yol açan xarakter xüsusiyyətləri (narahatlıq, pessimizm, özünəinamsızlıq, başqalarından hədsiz dərəcədə asılılıq, qeyri-müstəqillik, fiziki və psixi cəhətdən qeyri-yetkinlik, uşağın ümumi somatik zəifliyi və hansısa xəstəliyi); Uşağın səbəbini aydınlaşdıra bilmədiyi hadisələrdən qorxması ətraf aləmdən təəcüblənmə. Kiçik yaşlı məktəblilərdə ən çox qaranlıq qorxusu, ruhlar, yaralanma, heyvanlar, fırtına, valideynlərin ayrılması, qeyri-real varlıqlar, xəstəliklər, atılmaq qorxusu, qəza, ölüm, tibbi əməliyyatlar , diş həkimi, məktəb problemləri, ətraf mühit tərəfindən qəbul edilməmək kimi qorxular daha çox özünü göstərir. Bəzən isə qorxu ciddi pozuntuların əlaməti ola bilər (1, s.256). Məsələn, şizofreniya xəstəsi olan uşaq 7 yaşını qeyd edərkən ölümə bir addım da yaxınlaşdığını düşünərək qorxur. Hər yaş dövrü üçün spesifik olan qorxular uşağın fiziki və mənəvi inkişafı ilə bağlıdır.

Qorxular uşağın fiziki və mənəvi inkişafı ilə bilavasitə əlaqədardır. Bəzən valideynlər uşaqlarını bir şeydən çəkindirmək üçün onları qorxduqları şeylərlə hədələyirlər. Amma bu düzgün hal deyil, hədə qısa müddətə valideynlərin işinə yarasa da, bu uşağın psixologiyasına mənfi təsir göstərir: “Qorxduqları şeylərlə hədələndikdə onlar bu qorxunun təsirindən qurtula bilmirlər. Həmin səbəbdən də normal fizioloji qorxuların getdikcə fobiyaya çevrilməsi təhlükəsi artır”. Məsələn, qaranlıqdan qorxan uşağı qaranlıqda qalmağa məcbur etmək onun qaranlıqla bağlı qorxusunun daha da artmasına səbəb olar.

Kiçik məktəb yaşları dövründə uşaqlar heyvanlardan, hələ məktəbəqədər dövürdə uşaqlar nağıllardakı qeyri-adi varlıqlardan qorxurlar. Bu qorxular həmin yaş dövrü üçün

normal haldır. Valideynlər bu yaşda uşaqlarda qorxu hissinin dəf olması üçün uşaqla onun qorxuları haqqında söhbətlər etməli və yuxuya gedənədək gözləməlidirlər.

5-6 yaşından etibarən ölümün mahiyyətini anlamağa başlayan uşaqlarda xəstəlik və valideynlərini itirmək qorxusu yarana bilər. Adətən, bu vaxt uşağı bağrına basaraq ona ölümün təbiətin qanunu olduğunu və gec-tez hər kəsin öləcəyini başa salmaq kifayət edir. Ola bilər ki, qorxu bu cür təlqindən sonra da bir müddət davam etsin, amma uşaq əvvəlki kimi ciddi narahatlıq hiss etməyəcək və içindəki qorxuyla bərabər, normal yaşamağa alışacaq. Sevdiklərinin başına bir hadisə gələcəyindən qorxmaq hər bir normal insana xas bir xüsusiyyətdi, bununla belə, özünə təsəlli verməyi də bacarmaq lazımdır. Uşaqlar məktəb həyatına başladığı ilk vaxtlarda müəllimin ona hirslənəcəyindən, dərslərini yaxşı bilməyəcəklərindən qorxa bilərlər. Ümumilikdə, belə qorxular müvəqqəti hiss olduğundan, uşağın həyat ritmini poza biləcək qədər güclü faktor deyil (4) .

Uşaq böyüdükcə təmkini də artır və hadisələrə normal yanaşmağa başlayır. Yəni bu qəbil fikirlər uşağın inkişaf prosesində öz-özünə aradan qalxır və buna görə də, valideynlərin ciddi narahatçılığına bir o qədər ehtiyac duyulmur. Uşaqların qorxduqları şeylərdən biri də heyvanlardır. Qorxuya üstün gəlmək üçün öncə uşaqlar heyvanları uzaqdan izləməli, sonra isə valideynlərinin onlardan çəkinmədiklərini görməlidirlər. Əgər ana və ya ata özü heyvandan qorxursa, ona örnək olmadığından uşağın qorxusunu dəf etmək çox çətin olacaq. Ən çox yayılmış qorxulardan biri də həkim qorxusudurki, bunlardan da xüsusilə də diş həkimi qorxusunu qeyd etmək lazımdır.

Uşaqların ağrı hiss etdiyi zaman onlara ağrımayacaq demək düzgün deyil. Uşaqlara bu zaman söylənisləcək sözlərin seçimi çox önəmlidir. Belə ki, bu sözlər ya onları sakitləşdirər, ya da qorxusunu artırar.

Peyvənd, iynə demək yerinə həkim indi səni bir ağcaqanad dişləyəcək deyə bilər. Diş həkimi dişi keyləşdirəcək yerinə dişi yuxuya aparacaq deyə bilər. Uşaqda qorxu ilə yanaşı digər davranış pozuntuları aqressivlik, yuxu pozuntusu, durğunluq da müşahidə olunursa,bunları nevrozun əlamətləri hesab etmək olar.

Uşağın qorxuları qeyri-adidirsə, əgər uşaq onu hədələyən səslər eşidirsə, digər ailə üzvlərinin görmədiyi yerdə nəsə görürsə, belə qorxular ağır psixi xəstəliyin – şizofreniyanın göstəriciləri ola bilər. Uşaqların belə qorxularını dəf etmək üçün onların qorxularını dinləmək, onları anlayışla qəbul etmek lazımdır. Onları anladığınızı bildirən mesajlar vermək lazimdir. Uşaqların yaşadıqları onlar üçün gerçəkdir. Bu səbəbdən lağ etmək, mühakimə etmək olmaz. Bir çox nağıl və uşaq kitabı qorxu və qorxuya qalib gəlmə məsələsini işləyir. Nağıllardan istifadə etmək əlaqəni asanlaşdırar (2, səh. 112).

Valideynlər uşağın keçirdiyi bütün hisslərə ciddi yanaşmalı, onun qorxularını gülüş obyektinə çevirməmə-lidirlər. Uşağın yanında onun qorxuları barədə yad adama danışmaq düzgün deyil. Hər hansı bir iş görərkən sözarası uşağın qorxuları barədə danışmaq da olmaz. Valideynlər uşağın məhz nədən və kimdən qorxduğunu aydınlaşdırmalıdırlar. Qorxular bilgi əksikliyindən qaynaqlanır. Çox vaxt uşağa ehtiyac duyduğu biliyi verdikdən sonra çox qısa zamanda bu qorxulardan qurtulduğunu görmək olar.Uşağınöz qorxusu haqqında danışmasına şərait yaratmaq lazımdır. Onların hər zaman valideyn qayğısına və dəstəyinə ehtiyacları var (3, səh.96).

Uşaqların duyğularını haqlı hesab edin. Uşaq itdən qorxduğunu söyədikdə heç itdən qorxulur mu demək yerinə, haqlısan səni dişləyə bilər demək daha doğrudur. Onları ürəkləndirmək lazımdır. Qaranlıqdan qorxursa otağına gecə lampası qoymaq, otağın qapısını açıq qoymaq daha məqsədə-uyğundur. Uşağın qorxulu filmlərə baxmasına və qorxulu

kitablar oxumasına yol vermək olmaz. Əgər uşaq uzun müddət hansısa xəstəlik səbəbindən xəstəxanada qalıbsa, bununla bağlı ağır zərbə alıbsa və bundan sonra qorxular yaranıbsa, bir müddət diqqət və qayğını artırmaq daha məqsədəuyğundur. Yaranmış vəziyyətin öhdəsindən gələ bilmədikdə, valideyn mütləq gecikmədən, mütəxəssislə - uşaq psixoloqu ilə əlaqə yaratmalıdır.

## ƏDƏBİYYAT


1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiya məsələləri. Bakı.2003s.456
2. Айхорн, А. Трудный подросток /А.Айхорн, М.: ЭКСМО - Пресс, 2001, 304с. (серия "Как статьпсихологом").
3. Jan-Uwe Rogge , Çocukların Korkuları Vardır, İstanbul – 2013
4. https://www.egitimpedia.com/cocuklar-hangi-yasta-hangi-korkulari-ve-kaygilari-yasar/


## TELEVİZİYANIN UŞAQLARIN PSİXİ İNKİŞAFINA TƏSİRİ


***Ülfət Abbaszadə***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: dos Cabbarova Lalə***


Müasir dövrdə bütün dünyada aktual məsələlərdən biri də televiziyanın məktəbəqədər yaşlı uşaqlara mənfi təsiridir. Axı azyaşlı uşaqlar təkcə valideynləri ilə deyil, həm də televizorla da ünsiyyətdə olurlar.

Əksər mütəxəssislərin fikrincə, elmi xarakter daşımayan və yalnız əyləncə məzmunlu verlişlər zehni inkişafı zəiflədir. Bundan başqa, televiziya uşaqların dünyagörüşünün formalaş-masına səbəb olan mütaliə, idman, müxtəlif oyunların qarşısını

alır. Televiziyanın uşaqlara təsiri haqqında məşhur sosioloq V.B.Berner belə yazır: “Televiziya bir cadugər qarı kimi öz tilsimini hər tərəfə yayır, söhbətləşməyi və fəaliyyəti dayandırır. Tilsim öz qüvvəsini itirmədikcə (yəni TV izlədikcə) tamaşaçının həyatına sükut çökür” [3, s.89].

Məktəbəqədər yaşlı uşaqlar bir çox şeyi müzakirə edərək öyrənir. Onlar valideynləri, həmyaşıdları ilə onların marağını cəlb edən mövzuları müzakirə etməyi, sorğulamağı xoşlayırlar. Bu tip qarşılıqlı ünsiyyət onların həm dünyagörüşünü, həm də ünsiyyət bacarıqlarını inkişaf etdirir və onların formalaşmasına səbəb olur. Uşaq televizor izləməyə alüdə olduğu andan uşağın formalaşma prosesi ləngiyir.

Los – Anceles Universitetinin müəllimi, professor Vaksmen yazır: “Heç bir şübhə yoxdur ki, televizor ekranlarından yayılan elektromaqnit dalğaları insan orqanizminə ciddi sürətdə mənfi təsir göstərir. Bu qısa dalğalar televizor, radioqəbuledici və digər elektrik avadanlıqları vasitəsilə yayılır. Bunun ilk təsirləri kimi baş ağrısı, baş gicəllənməsini göstərmək olar. Bu, tədricən məktəbəqədər yaşlı uşaqlarda təfəkkür qüvvəsinin zəifləməsinə, qan təzyiqinin, əsəb sisteminin pozulmasına və müxtəlif xəstəliklərin yaranmasına səbəb oldu [2, s.79].

Bir çox hallarda televiziya uşaqlar üçün effektiv ola bilər, xüsusilə də təbiət proqramları uşaqların dünyagörüşünün formalaşdırılmasına kömək edir.

Bundan başqa, təbiət, ətraf mühit, bitkilər, heyvanlar barəsində olan verlişlər və sənədli filmlərin izlənməsi məktəbəqədər yaşlı uşaqların yaradıcı təfəkkürünün inkişafında mühüm rol oynadığı barədə amerikalı pedaqoqlarının çox maraqlı fikirləri var [6].

Amma istər cizgi filmi, sənədli film və ya uşaq verilişi olsun hər bir sahədə valideyn uşağa nəzarət etməlidir. Görkəmli rus alimi, bioloq Kara Murza televiziyanın məktəbəqədər yaşlı uşaqlara təsiri ilə bağlı bir məqaləsində dünyanın müxtəlif ölkələrindən faktlar gətirir ki, uşaqlar televiziyada gördüklərini

həyatda təkrarlayaraq bəzi vaxtlar ölümlə nəticələnən faciə törədirlər. Yəni televizorda gördüklərindən asılı vəziyyətə düşərək özlərinə virtual dünya yaradıb orada yaşayırlar, gerçək həyata adaptasiya ola bilmirlər. Onlara ilk növbədə valideyn tərəfindən nəzarət mexanizmi olmalıdıır" [4, s.50].

Uşağın düzgün tərbiyəsi təkcə bir ailənin deyil, bütün cəmiyyətin önəm verdiyi əsas məsələdir. Məhz buna görə də məşhur pedaqoqlar və psixoloqlar bu barədə araşdırmalar aparmış, kitablar yazmışlar. Uşağın düzgün tərbiyəsi gələcəkdə onun hərtərəfli formalaşması deməkdir [1, s.41].

Televiziyada bu yaş uşaqlar üçün hazırlanan verlişlərin də öz məsuliyyəti var.

Sirr deyil ki, bu gün milli televiziyamızda keyfiyyətli uşaq verilişlərinin hazırlanmasına böyük ehtiyac var. Əks halda valideyn hər hansı bir milli kanalda yayımlanan uşaq verilişlərinə etibar etməsə, övladının da bu kanalı izləməsini əngəlləyəcək. Bu gün məktəbəqədər yaşlı uşaqlara həsr olunan verilişləri barmaqla saymaq olar. Məsələn, AzTV kanalında yayımlanan "Şirin yuxular" verilişi və ATV kanalında yayımlanan "Dəcəl balam" verilişi [5].

Bundan başqa, yerli cizgi filmləri istehsal olunmadığı üçün telekanallarımızda uşaqlara mənfi təsir göstərən xarici cizgi filmləri nümayiş olunur. Bu da uşaqların psixoloji inkişafına mənfi təsir göstərir.

Dünyanın bir sıra dövlətlərində məktəbəqədər yaşlı uşaqlar özlərinə məxsus televiziya kanalları var. Bu kanallarda azyaşlı uşaqlar üçün seriallar və cizgi filmləri yer alır. Məs., ABŞ – da elə televiziya kompaniyaları var ki, onlar yalnız uşaqlar üçün çalışır. (ABCKids, Discoverykids və s.)

ABŞ – da bir çox uşaq kanallarında ancaq balacalar üçün əyləncəli uşaq proqramları mövcuddur. (Nickelodeen, Cartoon Network)

Azərbaycanda uşaqlar üçün ayrıca bir telekanalın olması çox məqsədəuyğundur. Amma istənilən halda valideyn uşağı

televiziya ilə baş – başa buraxmamalıdır. Məs., elə verilişlər var ki, 5 yaşına kimi uşaqlar onlara baxmamalıdır.

Bizim telekanallarda yayımlanan uşaq verilişləri çox keyfiyyətsizdir və uşaqların zövqünü korlayır [1,26]. Uşaqlar daha çox imitator kimi böyüyürlər. Bu gün bir çox uşaqdan kimə bənzəmək istədiyini soruşsaq, cavabında ya cizgi filmlərinin qəhrəmanlarının adı çəkiləcək, ya da müğənnilərin. Axı uşaq verilişlərinə daha çox müğənnilər dəvət olunur. Buna görə də uşaq verilişləri hazırlanarkən uşaq mütəxəssislərinin iştirakı mütləqdir.

Uşaq verilişləri hazırlanarkən bir şey nəzərə alınmalıdır ki, bugünkü uşaqlar 20 – 30 il əvvəlki uşaqlar deyil. Onları "Keçəl", "Kosa" oyunları ilə aldatmaq olmur. Bugünkü uşaqlar daha intellektual, daha sərbəstdirlər. Ona görə hazırlanan uşaq verilişlərində balacaların maraqları tam şəkildə əks olunmalıdır [5].

Qonşu ölkələrin televiziyalarında izlənən uşaq verilişləri o qədər maraqlıdır ki, hətta o verilişləri izləyən böyüklər özlərini uşaq kimi hiss edir. Belə verilişlər Türkiyədə, Rusiyada yayımlanmaqdadır.

Cizgi filmləri məktəbəqədər yaşlı uşaqların psixologiyasına mənfi təsir etməməli, əksinə, daha çox maarifləndirici xarakter daşımalıdır. Sevindirici haldır ki, uşaqların dünya görüşünü artıran, onlarda mərhəmət, xeyirxahlıq hisslərini aşılayan cizgi filmləri də nümayiş olunur. Valideynlər də məhz belə cizgi filmləriini övladlarına göstərməlidirlər [2,119].

Əksər hallarda valideynlər bunu etmir, və uşaqlar şiddət, aqressiya, qorxu hisslərini aşılıyan cizgi filmlərini izləyirlər.

## ƏDƏBİYYAT

1. Əliyeva, Ş. Məktəbəqədər pedagogika. Bakı, 2010, 86s.
2. Эстетическое воспитание и развитие детей дошкольного возраста: учебное пособие/ Под ред.

Е.А.Дубровской, С.А.Козловой. – М.: Академия, 2002, 256с.
3. Глушкова Е. Телевидение и здоровье детей. // Дошкольное воспитание, 1989, №4, с.88-91
4. Гундарева И.О. О последствиях восприятия телевизионной информации.// Дошкольное воспитание, 2005, №9, с.45-54
5. www.gencaile.az
6. https://onlinelibrary.wiley.com/doi/abs/10.1002/cii.333

## QADIN VƏ KİŞİLƏRDƏ STRESƏ VƏ HƏYƏCANA DAVAMLILIQ XÜSUSİYYƏTLƏRİ

***Şəfa Nəsibova***
***BDU-nun doktornatı***
***shefa-mesimova@mail.ru***

***Açar sözlər:*** şəxsiyyət stresə qarşı davamlılığı, reaktiv təşviş, fərdi təşviş, təşviş, stresə dözümlülük anketi Subbotin, Ç.D. Spielberger - Y.L. Hanina
***Ключевые слова:*** стрессоустойчивость личности, реактивная тревожность, личностная тре-вожность, тревога, опросник стрессоустойчивости С.В. Субботина, шкала тревожности Ч.Д. Спилбергера - Ю.Л. Ханина
***Keywords:*** stress tolerance of a person, reactive anxiety, personal anxiety, anxiety, stress tolerance questionnaire Subbotin, Ch.D. Spielberger - Y.L. Hanina

Müasir həyat tempinin artırmaq və alınan informasiyaların miqdarı, rəqabət və peşə fəaliyyətinə olan tələblərin artması, iqtisadi böhran, dünyadakı siyasi vəziyyətin qeyri-sabitliyi, cəmiyyətin virtualizasiyası,ictimai həyatdakı dəyişikliklər,ətraf mühitin pozulması/pisləşməsi, təbii və texnogen fəlakətlər/ kataklizmlər – bütün bunlar müasir insanın sinir sisteminə və

pisoxoloji vəziyyətinə təsirləri günbəgün artır,bunun nəticəsində, emosional stresssin meydana gəlməsinə, mənfi hisslərin toplanmasına, uyğunlaşma qabiliyyətinin, eləcə də stressə müqavimət qabiliyyətinin azalmasına səbəb olur. Bu baxımdan müasir insanın stressə davamlılığını alimlər tərəfindən nəzəri və praktiki təcrübələrin hazırlanması vacib bir sosial vəzifədir [3, s.16].

Bir çox araşdırmalar nəticəsində uzun müddət əvvəl düşünülmüşdür ki, stressə davamlılıq bir insanın fəaliyyətinin emosional, koqnitiv, motivasiya və davranış sahələrində ifadə olunur. Tədqiqatçılar, inteqrativ bir şəxsiyyət əlaməti olaraqstress müqavimətinin müəyyən bir quruluşa sahib olduğunu qeyd edirlər.

Biz işimizdə aşağıdakı komponentlərin birləşməsindən ibarət olan, stessə davamlılığı insanın şəxsi keyfiyyəti hesab edən N.İ. Berjnoyun yanaşmasına əməl edirik:

- psixofizioloji (sinir sisteminin növü, xassələri, temperament);

- motivasiyaedici / həvəsləndirici;

-ekstremal vəziyyətlərin mənfi təsirlərini dəf etmək prosesində qazanılan insanın emosional təcrübəsi;

-hərəkətlərin şüurlu öz-özünə tənzimlənməsi ilə ifadə olunankönüllü, onları vəziyyətin tələblərinə uyğun olaraq;

-peşəkar hazırlıq, bir fərdin müəyyən vəzifələri yerinə yetirməyə hazırlığı və məlumatlılığı ;

-intellektual - vəziyyətin tələblərinin qiymətləndirilməsi, onun dəyişməsinin mümkünlüyü ilə proqnozu, fəaliyyət metodları ilə bağlı qərar qəbul edilməsi.

Gördüyümüz kimi, stress müqaviməti müxtəlif şəxsiyyət və fərdilik xüsusiyyətləri ilə formalaşır. Stresss müqavimətini təyin edən ən əhəmiyyətli amillər arasında həyəcanlılıq göstəriciləri bir çox tədqiqatçı tərəfindən vurğulanır.

A.A. Andreeva stressə dözümlülüyün aşağıdakı komponentlərini sadalayır: aşağı həyəcanlılıq (şəxsi və situasiya),

aşağı neyro-psixi gərginlik, yüksək emosional sabitlik, adekvat özünüqiymətləndirmə, yüksək iş qabiliyyəti səviyyəsi [1].

Eyni zamanda, "həyəcan" və "həyəcanlılıq" bəzən sinonim kimi istifadə olunur və bəzənisə fərdi anlayışlar kimi fərqləndirilir: həyəcanlılıq adı altında – həyat boyu nisbətən sabit, nisbətən dəyişməyən bir şəxsiyyət xüsusiyyəti kimi, həyəcan adı altında isə - neyro-psixi fəaliyyətində dəyişikliklə əlaqəli mənfi emosional,nisbətən uzun vəziyyət kimi başa düşülür

V.A. Ganzenanın fikrinə görə, uzun müddət mövcud bir həyəcanlılıq vəziyyəti, həyəcanlılıq kateqoriyasına keçərək fərdin əmlakına çevrilə bilər.

Bir çox yerli müəlliflər bu hadisənin hər iki tərəfini (vəziyyət və şəxsiyyət əlamətləri) nəzərə alırlar, lakin rahatlıq üçün "reaktiv" və "şəxsiyyət" şəklində düzəldilmiş terminləri tək bir "həyəcanlılıq" termini kimi qəbul edirlər [2, s.155].

Həyəcanlılıq vəstressə davamlılığın bir-biri ilə əlaqəli olduğu ehtimalını yoxlamaq üçün 149 kişi və 142 qadının iştirak etdiyi bir empirik bir araşdırma edildi. TədqiqatdaS.V. Subbotin stressdavamlılığn diaqnozu üçün anketdən və Həyəcanlılıq Ölçüsü şkalasından istifadə edildi.

B.Spielberger - Y. Hanina Yüksək şəxsihəyəcanlılıq, vəziyyətlərin geniş təhlükəni təhdid kimi qəbul etmək və bu kimi vəziyyətlərə həyəcanlı reaksiya vermək üçün davamlı bir myelin olmasını səciyyələdirmişlər [4, s.125].Yüksək reaktiv həyəcanlılıq gərginlik, narahatlılıq, əsəbilik ilə xarakterizə olunur, diqqətin pozulmasına səbəb olur. Çox yüksək şəxsi həyəcanlılıq birbaşa nevrotik bir qarşıdurmanın olması, emosional və nevrotik pozuntular və psixosomatik xəstəliklər ilə əlaqələndirilə bilər. Aşağıolan bir nəticə isə, yaxşı bir səbəb olmadan həyəcanlılıq və narahatlılıq hiss etmək meylinin olmamasını göstərir. Statistik məlumatların işlənməsi üçün Spirmanın dərəcə nisbəti təhlili və Tələbə t-meyarları üzərində test aparıldı.

Keyfiyyət təhlili respondentlərin üç qrup üzrə stressə qarşı müqavimətin təzahür səviyyəsini fərqləndirməyə imkan verdi: sözü gedən keyfiyyətin yüksək, orta və aşağı səviyyəsi ilə. Nəzərə alsaq ki, orta dərəcədə stressdavamlılığına cüzi sayda respondent var, gedişatda mövcud təcrübə analizlərdən xaric edildi. Stressdayanıqlığı yüksək olan kişilərdə reaktiv həyəcanlılıq göstəricilərinin orta dəyərləri aşağı səviyyədədir-fərdi həyəcanlılıq isə orta səviyyədədir.

Bu o deməkdir ki, təcrübə iştirakçıları kifayət qədər əsas olmadan həyəcanlılıq və narahatlılıq hissi keçirərək, stresli və ya zahirən stressogen vəziyyətləri təhlükəli və ya təhdid kimi qəbul edərək, narahatlılıq, gərginlik, həyəcanlılıqla cavab vermək üçün aşağı meyl göstərdilər. Test zamanı respondentlər nisbətən sakit bir emosional vəziyyətdə idilər. Ancaq ümumiyyətlə, müxtəlif stress oyadıcılarına qarşı həssaslığın orta həddi və müxtəlif streslərin təsirinə qarşı orta həssaslıq həddi mövcuddur.

Stress müqaviməti az olan kişilərin alt qrupunda reaktiv həyəcanlılıq göstəricilərinin orta dəyərləri orta və yüksək səviyyələr arasındakı sərhəddədir, fərdi həyəcanlılıq göstəricilərinin orta dəyərləri yüksəkdir. Əldə edilmiş nəticələr göstərir ki, subyektlər geniş bir sıra halları təhdid kimi qəbul edərək və bu vəziyyətlərə həyəcan hissi ilə reaksiya verərək, sınaq zamanı müəyyən gərginlik, həyəcanlılıq və əsəbilik hiss edirlər.

Yüksək stress müqaviməti olan kişilərin göstəriciləri stress dayanılqılığı fərdi həyəcanlılıq şkalasında olduğu kimi, reaktiv həyəcanlılıq şkalasındada aşağıdır ($p < 0.05$). Stresssə davamlı kişilər stressli və ya zahirən stressligörünən vəziyyətləri təhlükəli və ya təhdid kimi qəbul edir və həyəcanlılıq hissi keçirir (yəni reaktiv narahatlığın artması). Ümumiyyətlə müxtəlif stresslərin təsirinə daha az həssasdırlar.

Stress dayanıqlılığı yüksək olan qadınların alt qruplarında reaktiv və fərdi həyəcanlılıq göstəricilərinin orta dəyərləri orta

səviyyədədir. Bu o deməkdir ki, bu alt qrupdan olan qadınlar olduqca balanslıdırlar və müxtəlif stress agentlərinə qarşı həssaslığın orta həddi var. Mövzular, kifayət qədər əsaslandırılmadan həyəcan və həyəcanlılıq hissi keçirmək, stressli və ya zahirən stressli vəziyyətləri təhlükəli və ya təhdid kimi qəbul etmək və həyəcanlılıq vəziyyəti ilə onlara cavab verməyən, müxtəlif stresslərin təsirinə qarşı orta həssaslıq, stressli bir vəziyyətə emosional reaksiya üçün orta meyl, həyəcanlılıq və əsəbilik kimi bir meyl göstərmədi. Test zamanı onlar nisbətən sakit bir emosional vəziyyətdə idilər.

Stresss dayanıqlığı az olan qadınların alt qrupunda reaktiv və fərdi həyəcanlılıq göstəricilərinin orta dəyəri yüksəkdir. Nəticələr subyektlərin müxtəlif stresslərə qarşı həssas olduqlarını göstərir, tez-tez təhdid kimi bir çox vəziyyətləri əsassız olaraq qəbul etməyə və həyəcanlılıq hissi ilə bu cür vəziyyətlərə reaksiya verməyə meyllidirlər və sınaq zamanı stress, həyəcanlılıq və əsəb keçirirlər.

Yüksək stress müqaviməti olan qadınların göstəriciləri həm reaktiv həyəcanlılıq miqyasında, həm də fərdi həyəcanlılıq miqyasında aşağı stress müqaviməti olan qadınların göstəricilərindən azdır ($p < 0.05$). Stresli və ya zahirən stresli görünən vəziyyətləri təhlükəli və ya təhdid kimi qəbul etmək ehtimalı azdır və həyəcanlılıq hissi keçirərkən onlara cavab verirlər. Ümumiyyətlə, onlar müxtəlif stresslərə qarşı daha az həssasdırlar.

Mövzuların bütün alt qruplarında stressə qarşı müqavimətin statistik cəhətdən əhəmiyyətli bir səviyyədə ($p < 0.05$) reaktiv və fərdi həyəcanlılıqla əlaqəli olduğu aşkar edilmişdir. Buradan belə nəticə çıxır ki, respondentlərin stress müqavimətləri nə qədər qabarıq olursa, bir o qədər narahat olurlar. Beləliklə, stressə davamlı mövzularda yaxşı bir səbəb olmadan həyəcan və eləcə dəhəyəcanlılıq yaşamağa meyl yoxdur. Öz növbəsində, aşağı stres dayanaqlılığı olan respondentlər əsassız həyəcan və həyəcanlılıq hisslərinə meyllidirlər.

Duyğusal sabitliyə və məyusluğa dözümlülükləri azdır və stressli bir vəziyyətdə sakitliyini və təskinliklərini itirirlər.

Beləliklə, kişilər və qadınlarda stresssə dözümlülük və həyəcanlılıq nisbətinin xüsusiyyətləri müəyyən edilmişdir. Respondentlərin dörd alt qrupu nəzərdən keçirildi: yüksək stresss tolerantlığı olan kişilər, aşağı stress tolerantlığı olan kişilər, yüksək stresss tolerantlığı olan qadınlar və aşağı stresss tolerantlığı olan qadınlar. Alt qrupların hər birində reaktiv və fərdi həyəcanlılıq göstəriciləri və həyəcanlılıq göstəricilərinin stress müqavimət göstəriciləri ilə əlaqəsi təhlil edilmişdir. Məlum oldu ki, kişi və qadınılarda stress və həyəcanlılığa qarşı davamlılıq fərqli xarakter daşıyır.

## ƏDƏBİYYAT


1. Андреева А.А. Стрессоустойчивость как фактор развития позитивного отношения к учеб-ной деятельности у студентов: дисс. … канд. психол. наук. Тамбов, 2009. 219 с.
2. Бодров В.А. Психологический стресс: развитие и преодоление. М., 2006. 528 с.
3. Буланкина *Н.Е.* Актуализация традиций психологического равновесия в современном поликуль-турном образовании // Психология образования в поликультурном простран-стве. 2015. № 30 (2). С. 6—11
4. Спилбергер Ч.Д., адаптация Ханин Ю.Л. Исследование тревожности // Диагностика эмо-ционально-нравственного развития. СПб., 2002. С. 124—126

# QADIN MƏHKUMLARI PSİXOLOJİ PROBLEMLƏRİ VƏ ONLARIN PSİXOKORREKSİYASI

***Əminə Məcidli***
***BDU-nun II kurs magistrantı***
***amajidli98@bk.ru***

Azadlıqdan məhrumetmə müəsisələrində sosial mühitin xüsusiyyəti aşağıdakı amillərin təsiri ilə müəyyən edilir: fərdlərin cəmiyyətdən təcrid edilməsi; həyat fəaliyyətinin bütün sahələrində davranışın sərt reqlamentləşdirilməsi; bircinsli sosial qruplara məcburi daxil edilməsi. Məlumdur ki, islah müəssisələrində cəza çəkən şəxslərin dəyərlərinə törədilmiş cinayətin xarakteri, cinayət əməllərinin sayı, rejimin növü və cəza müddəti təsir edir. Məhkumların dəyərlərinin xarakteri yalnız intensivliyi və təsir dərəcəsinə görə deyil, həm də məzmuna, daxili strukturuna görə də fərqlənir. Məhkumlar üçün aşağıdakı dəyərlər daha çox əhəmiyyətlidir:

– azadlıq;
– sağlamlıq;
– yaxınlar və tanılarla ünsiyyət;
– psixi yüklənməyə ehtiyyac;
– ruhən (mənəvi) dəstək;
– əməyə maraq (1).

Onların dəyər iyerarxiyasında birinci yeri azadlıq dəyəri tutur. Demək olar ki, bütün məhbuslar hesab edirlər ki, azadlığın olmaması (onlarhəqiqətən azadlıqdan məhrumetmə müəssisələrində olduğundan) onların xarakterinə mənfi təsir göstərir, bu müəssisələr üçün (ilk növbədə müdiriyyət üçün) səciyyəvi olan sosial mühitlə münaqişəyə girərək, özlərini rəsmi rejimin tələblərindən "azad" və "asılı" olmadıqlarını göstərmək istəyirlər.

Məhkumluğun birinci ilində dəyərlər iyerarxiyası aşağıdakı kimi bölüşdürülür:

1 yer - ailə və azadlıq;

2 yer – dostlar və sağlamlıq;

3 yer – sevgi;

4 yer – pulvəəmək;

5 yer -şərəf, müvəffəqiyyət, təhsilvəmaddirifah.

Təcriddəbirildənartıqolmuşməhkumlardadəyərləriyerarxiya sıdeməkolarki, eynidir:

1 yer – azadlıqvəailə;

2 yer – sağlamlıqvəpul;

3 yer – maddirifah;

4 yer – uğur, müstəqillik, sevgi;

5 yer-kollektivizm, özünüreallaşdırma.

Birinci il məhbuslarının 80% - i həyat planları barədə suala bu barədə düşünmək tezdir deyərək cavabverib; 1 ildən artıq həbsdə olan şəxslərdən 40% - i də belə hesab edir, 40% - i isə planlar müəyyənləşdirilib, lakin onların bu planları hələ də necə həyata keçirəcəklərini bilmir, qalan 20% isə vəziyyətdən asılı olaraq öz planlarını dəyişəcəklərini deyir. Həmçinin qeyd etmək lazımdır ki, resosializasiya zamanı məhkumların sosial dəyərləri çox vaxt müəyyən dərəcədə asosiallıq dərəcəsi ilə səciyyələnən məzmun kəsb edir. Məsələn, "ailə" nindəyəri, ilk növbədə, evin psixoloji obrazına çevrilir, "Azadlıq" dəyəri çox vaxt özbaşınalıq kimi şərh edilir.

Təxminən iki ildən sonra məhkumlarda psixi vəziyyətin və azadlıqdan məhrumolma faktına şəxsi reaksiyaların nizamlanması dövrü başlayır. Davamlı "azadlıqdan məhrum edilmiş sindrom"u yaranır. Adaptasiya dövründə həbs, məhkəmə, hökmün oxunması və azadlıqdan məhrumetmə müəsəsinə məhkumun təhkim edilməsi faktının özü psixoloji yenidən təhlilə məruz qalır və məhkum keçmişini və bu gününü uzlaşdırmağa çalışır, uyğunlaşmadan sonra o, perespektivsiz olsa da gələcəyə inamla yaşamağa başlayır. "Hər şey dəyişəcək" deyə işə yenidən baxılmağa, amnistiyaya, əfv edilməyə xəyali ümid yaranır.

Məhkumun psixoloji vəziyyətində 5-6 il həbsdən sonra "gözləmə sindromu" şiddətlənir, bu sindroma aşağıdakı hallar aiddir:

- məhkumu maraqlandıran hadisələr haqqında məlumatın çatışmazlığı və ya qeyri-müəyyənliyi ilə nəticələnən narahatlıq;
- məhkumun uzun müddət ümid etdiyi hadisənin «birdən həqiqətən gerçəkləşəcək" qorxu.

5-7 il azadlıqdan məhrumedildikdən sonra uzunmüddət təcrid olunmuş insanın psixikasında dönməz dəyişikliklər baş verir: həyat planlarının son dəfə "sınması" və yenidən ümidsizlik, müdafiəsizlik, çarəsizlik, məhkumluq hisslərinin təzahür etdiyi "frustrasiya sindrom"u. Bu vəziyyətdə, ev, qohumlar, dostlar, və əvvəlki, çox vaxt ideallaşdırılmış həyat tərzi üçün darıxmaq hissinin güclənməsi səciyyəvidir. "Həsrət sindromu" artan həyəcan, qıcıqlanma, kədər və diskomfort hissləri ilə birləşərək, perseversiyaya – dəfələrlə eyni yaddaş və təxəyyül obrazlarının, "həlak olmuş insan" ın spesifik yerişinin təkrarlamasına səbəb olur. Xüsusilə də, ailə bayramları ərəfəsində, evdən gözlənilməz məktub aldıqdan sonra, görüşlərin sonunda kədərin təzahürü baş verir.

Həbs müddətinin çox hissəsi bitəndən sonra öz günahsızlığına yalançı inam artır və özlərini "günahsız zərərçəkmiş sindromu"nda göstərirlər. Həyacan, asteno-depressiv vəziyyət, təsir edici amillərdən asılılıq artır. Bu dövrün əsas təzahürü tez-tez baş verən ciddi yuxu pozulmalarıdır: yuxu pozğunluğu, erkən oyanma, anı yuxu, yuxusuzluq, yuxuda kabus gürmə. ev, yaxınları, tanışları haqqında təkrar-təkrar fikirlər yuxuya getməyə mane olur. Səthi, anı yuxu həm xarici amillərdən, həm də bəzən paranoid xarakterli, digər şəxslərin yuxu dövründə ondan qisas alması qorxusu kimi şəxsiyyətin daxili həyacanlarından çox asılıdır.

Uzun müddətli yuxu pozuntuları insanı psixoloji və fiziki cəhətdən yorur, baş ağrılarına səbəb olur, onu qıcıqlandırır, qapalı, qəzəbli edir. Yuxugörmə tez-tez narahat, həyacan xarak-

terli olur. Xüsusilə digər şəxslər tərəfindən zorakılığa məruz qalmış məhkumların bir qismi qorxu, öz acizliyini hissetmə, coşqun vegetativ-damar təzahürləri ilə müşayiət olunan dəhşətli yuxular görürlər. Sonrakı dəyişikliklər dalğavari axınla xarakterizə olunur, həyatda baş verən hər hansı bir dəyişikliyə dezadaptasiyanı gücləndirir, monoton həyat və yaşla bağlı apatiya, deqradasiya, psixi pozulmaları artırır. Əgər belə bir insanı azadlığa buraxsaq, çox güman ki, o, yenidən "həbsxanaya can atacaq".

## ƏDƏBİYYAT


1. Захарова А. В российских колониях закончилась перепись отбывающих наказание [Электронный ресурс]/ И.Бакланов. Россия. 2009. 26 нояб.
2. Ильин Е.П. Психология совести. Вина, стыд, раскаяние [Текст]/ Е.П.Ильин. СПб: Питер. 2016. - 288с.


## ПОНЯТИЕ ДЕТСКО-РОДИТЕЛЬСКИХ ОТНОШЕНИЙ И ЕГО ТИПЫ.


***Эмиль Ибрагимов***
***Магистрант 2-курса БГУ***
***emil.ibrahimov97@mail.ru***


Отношения между родителем и ребенком являются одними из самых значительных в жизни человека. Как одна из самых ранних связей, которую имеет ребенок, родительские отношения устанавливают планку для всех после видов связей этого. Положительные связи между родителями и детьми способствуют развитию самостоятельности, любознательности, самооценки и совершенствования навыков принятия решений.

Отношения родитель-ребенок состоят из комбинации поведения, чувств и ожиданий, которые являются уникальными для конкретного родителя и конкретного ребенка. Отношения вовлекают полную степень развития ребенка.Из множества различных отношений, которые люди формируют в течение жизни, отношения между родителем и ребенком являются одними из самых важных. На качество отношений между родителями и ребенком влияют возраст, опыт и уверенность родителей; стабильность брака родителей; и уникальные характеристики ребенка по сравнению с характеристиками родителя [1].

Что касается воспитания, то воспитание детей имеет четыре основных стиля: авторитарный, авторитарный, разрешительный (снисходительный) и независимый. Хотя ни один из родителей не является последовательным во всех ситуациях, родители следуют некоторым общим тенденциям в своем подходе к воспитанию детей, и отношения родителей и детей можно описать с помощью преобладающего стиля воспитания. Эти описания предоставляют руководящие указания для специалистов и родителей, заинтересованных в понимании того, как различия в отношениях между родителями и ребенком влияют на развитие ребенка.

Стиль воспитания определяется историей развития, образованием и личностью родителя; поведение ребенка; и непосредственный и более широкий контекст жизни родителя. Кроме того, на поведение родителей влияют его работа, брак родителей, семейные финансы и другие условия, которые могут повлиять на поведение и психологическое благополучие родителей [2]. Кроме того, родители в разных культурах, из разных социальных слоев и из разных этнических групп по-разному воспитывают своих детей. В любом случае поведение детей и их

психологическое развитие связаны со стилем воспитания, с которым они воспитываются.

Иногда родители не вписываются только в одну категорию, поэтому им не стоит отчаиваться, если есть моменты или области, в которых они склонны проявлять терпимость, и другие моменты, когда они более авторитетны.

Однако исследования показывают, что авторитетное воспитание детей является лучшим стилем воспитания [3] Но даже если родители склонны больше отождествлять себя с другими стилями воспитания, есть шаги, которые они могут предпринять, чтобы стать более авторитетными родителями.

## ЛИТЕРАТУРА

1. Aliene S. Linwood - Parent-child relationships
2. Tasha Rube - How to Develop a Good Parent and Child Relationship April 16, 2020
3. Amy Morin. «4 Types of Parenting Styles and Their Effects on Kids». March 25, 2019. https://www.verywellfamily.com/types-of-parenting-styles-1095045.

# YENİYETMƏLİK DÖVRÜNDƏ PSİXOLİJİ DƏYƏRLƏNDİRMƏNİN KOMPONETLƏRİ

***Ağabalayeva Mehriban***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər Rövşən Cavadov***
***magabalayeva@gmail.com***

18 yaşına qədər olan şəxsləin uşaq və yeniyetmə ruh sağlamlığı tərəfindən dəyərləndirilir. Həyatın 18 ili kimi görünməklə yanaşı uşaqlıq mərhələsində başlayan psixoloji problemlər yeniyetməlik dövründə məhdud qalmayıb yetişkinlik dövründədə özünün təsirlərini göstrərir. Belkeliklə, uşaq və yeniyetmə psixi tətqiqini get-gedə artdığını demək olar. Ən az yetişkinlər qədər uşaq və yeniyetmələrdə psxioloji yardımdan yararlanmaqdadır.Bu səbəblə

poliklinakalara uşaq və yeniyetmə psixoloji pozuntular səbəbindən müraciət etməkdədirlər (1).

Yeniyetməliyi də içinə alan, uşaqlıq mərhələsi boyunca psixoloji dəyərləndirmə üçün müraciət edən yeniyetmə ümumilikdə bir problemlə üz üzə gəlir. Bu baxımdan psixoloji dəyərləndirmənin əsas məqsədi psixopatolojinin təsvir edilməsi deyə bilərik. Bəzi araşdırmalar buna əlavə olaraq sübuta- əsaslı dəyərləndirmə yaxınlaşmasının önə qoyaraq və şəxsi formula etmədə, risk altındakı uşaqlarrınmüəyyən olunmasında, psixopatoloji irəliləyişinin izlənməsində, müalicənin planlamasında, terapiyanın vaxtının və terapiya təsirinin dəyərləndirməsində istifadə edə biləcəyini məsləhət verə bilməkdədir (2).

Yeniyetmələrin dəyərləndirməsinin əsasını gəncin içində olduğu inkişaf dönəminin xüsusiyyətlərini yaradır. Bu səbəblə, dəyərləndirmənin başında, yeniyetmənin davranışlarının inkişafının xüsusiyyətləri ilə uyğunluğu araşdırmalıdır. Yeniyetməlik mərhələsində normal inkişaf xüsusiyyətləri ilə psixoloji simptomların bir birindən ayrılması çətinləşməkdə və nəticə olaraq dəyərləndirmədə müxtəlif çətinliklər yaşana bilməkdədir. Uşaqlıq mərhələsində olan psixoloji problemlərin yeniyetməlik mərhəlisindədə özünə məxsus təsirlərini göstərməkdədir. Buna əlavə olaraq,yetişkin şəxslərdə görünən bəzi psixoloji pozuntuların da yeniyetməlik mərhələsində başladığına dair çalışmalar vardır. Hansı dəyərləndirmə vasitələrinin istifadə edilməsi əsas məsələ olduğunda dainkişaf xüsusiyyət-lərinin bilinməsi vaciblidir. Məsələn, MMPI kimi bir dəyərlən-dirmə vasitəsinin başındakı uşaqlara tətbiq etmək mümkün deyildir. Bu səbəblə, yeniyetməlik dövründə normal psixoloji inkişaf və bu inkişafla yanaşı gətirdiyi inkişafda olan çətinliklərin və bu mərhələdə psixoloji çətinliklərin bacarıqlı və fərqlənən qayğı göstərilməlidir.

Bir psixoloji problemi ya da psixopatoloji tək bir xüsusiyyətlə aşıqlamaq əsasən mümkün deyildir. Məsələn; depresiya sadəcə şəxsin özünü şiddətli bir formada bədbin hiss

etməsi ilə qoymaq olmaz. Depresiya sosial münasibətlərin pozulması, koqnitiv dəyərləndirmələrin mümkünsüz məzmunlara sahib olması, akedemik nəaliyətin aşağı düşməsi kimi bir çox fərqli sahələri əhatə edir. Bu səbəblə yeniyetmənin daha geniş bir tərəfdən və bağlı əsaslara konseptuallaşdırmaq vacibdir. Bu sistem yeniyetmənin ana atası ilə olan münasibətini, ailənin ümumi dinamiklərini, ətraf münasibətlərini, məkətb və akedemik məşğulluğunu, fizioloji sağlamlığını və mədəni–cəmiyyət komponetlərinin hamısını birdən ehtiva etməkdədir (3 ).

Psixoloji dəyərləndirmə, yeniyetmənin spesifik psixopatolojinin araşdırılmasına əlavə olaraq, bu psixopatolojinin yeniyetmənin inkişaf mərhələsi ilə göstərdiyi uyğunlaşma və psixoloji əlamətləri təsir etməsi mümkün müxtəlif sosial və ətraf mühit amillər daxil etməlidir. Əsas məsələ Göstərilən komponentlərin çoxluğunun psixoloji qiymətləndirmənin etibarlılığını və etibarlılığını artıracağını söyləmək olar. Digər bir məsələ, hansı vasitələrdən və məlumat mənbələrindən istifadə ediləcəyidir (4, 5).

## ƏDƏBİYYAT

1. Achenbach, TM. Advancing assessment of children and adolescents: Commentary on evidence-based assessment of child and adolescent disorders. J Clin Child Adolesc Psychol 2005;34(3):541-7
2. Mash EJ, Hunsley J. Evidence-based assessment of child and adolescent disorders: Issues and challenges. J Clin Child Adolesc Psychol 2005;34(3):362-79
3. Akdemir D, Çetin FÇ. Çocuk ve ergen psikiyatrisi bölümüne başvuran ergenlerin klinik özellikleri. Çocuk ve Gençlik Ruh Sağlığı Dergisi 2008;15(1):5-13.
4. Pihlakoski L, Sourander A, Aromaa M, Rautava P, Helenius H, Sillanpaa M. The continuity of psychopathology from early

childhood to preadolescence: a prospective cohort study of 3-12-year-old children. Eur Child Adolesc Psychiatry 2006;15(7):409- 17.
5. Kim-Cohen J, Caspi A, Moffitt TE, Harrington H, Milne BJ, Poulton R. Prior juvenile diagnoses in adults with mental disorder: developmental follow-back of a prospectivelongitudinal cohort. Arch Gen Psychiatry 2003;60:709-17.

## E. FROMM AİLƏ PSİXOLOGİYASI BARƏDƏ

***Toğrul Qasımzadə***
***ADMİU-nun I kurs magistrantı***
***digital1st@mail.ru***

Ailənin mənəvi funksiyasının sosial – psixoloji təhlilini aparanlardan biri də E.From (1900-1980) olmuşdur. O ömrü boyu dünyanın totalitarizm kabusundan azad olunması uğrunda mübarizə aparıb, yalançı ideologiyaları ifşa edib, ümumbəşəri dəyərlərin əbədiliyini, dönməzliyini sübut etməyə çalışmışdır. From sülh və məhəbbət uğrunda, düşmənçilik və aqressiv nadanlığa qarşı çıxış edirdi.

Sosial psixologiya, psixoanalitika sahəsində qazandığı geniş təcrübə E.Froma insan psixikasının formalaşmasında bioloji və sosial başlanğıcların nisbətinə yeni baxış yaratmağa imkan verdi. 1956-cı ildə dərc etdiyi "Sevmək sənəti" əsərində o, öz başlıca mövzularından birinə texniki sivilizasiyanın neqativ aspektləri, təbii sərvətləri tənzimləyən istehlakı probleminə müraciət edərək, insan psixikasının formalaşmasında sosial amillərin rolunu neofreydizm mövqeyindən qiymətləndirməyə cəhd edir.

O göstərirdi ki, insan öz həyatında müəyyən seçim qarşısında qalır: aqressivlik və yaxud tabeçilik? Yalnız ağıl zorakılığa, sonu olmayan, düşüncəsiz dağıdıcı fəaliyyətə son qoya bilər. "Sevmək sənəti" - E.Formun ən çox oxunan

kitabıdır. Froma görə nə qədər ki, “sağlam cəmiyyət” qurulmayıb, nə qədər ki, tənhalıq, real problemlərdən illüziyalı, narkotik, alkoqol dünyasına qaçmaq cəhdləri vardır, bir o qədər də məhəbbət, sevmək eşqi möcüzələr yaratmağa qadirdir, çünki bu hiss qorxu, inamsızlıq ilə mübarizə apara bilər. Həkim – psixoanaltik E.From qeyd edirdi ki, sevmək- həm sevilmək, həm də sevməyi bacarmaq deməkdir.

Sevilmək üçün kişilər adətən çalışırlar ki, işləri uğurlu olsun, güclü, dövlətli olsunlar. Qadınlar isə çalışırlar ki, xarici görnüşü, paltarı, fiqurası gözəl olsun: həm kişi, həm də qadın ədəb ərkanı öyrənir, maraqlı söhbət aparmağa çalışır, kömək etməyə can atırlar, təvazökar olurlar və s. insanlar düşünürlər ki sevmək asandır, sevgi obyektini tapmaq çətindir. From isə göstərirdi ki, sevmək bacarıqdır, məhəbbət gərək kor olmasın.

Xoşuna gəlmək hələ daimi sevmək demək deyildir. Sevmək sənətinin nəzəriyyəsi və paktikası vardır. Hər ikisini tədqiq etmək olar; lakin üçüncü tərəf də nəzərə alınmasa sevmək sənətinə yiyələnmək mümkün deyildir. Bu insanın gecə-gündüz özünü, öz qüvvə və bacarığını sevgiyə həsr etməsidir. İnsan sevilmək və sevmək ehtiyacı duyur, lakin onun üçün daha vacib prestij, hakimiyyət, pul, şan–şöhrət olur, bütün enerjisini bu sahələrə sərf edir, çünki buradan fayda götürə bilir, məhəbbət isə yalnız mənəviyyata və qəlbə lazımdır.

From hesab edirdi ki, məhəbbət insan mövcudluğu probleminə olan bir cavabdır. İnsan tənhalıq zindanından uzaqlaşmağın yeganə yolunu sevmək və sevilməkdə görür. Fərdlərarası ünsiyyət yaratmaq insanlarda olan ən böyük tələbat, ən böyük qüvvədir. From insanların birləşmək ehtiyacının ödənilməsinin bir neçə formasını göstərir: yetkin, həqiqi məhəbbət və yetkin olmayan formalar –(ittifaqlar): bunun da passiv forması bir tərəfin digərinə tam tabe olmasıdır (mazoxizm), aktiv forması isə sadizm şəklində tənhalıqdan qaçmaq, gördüyü əməllərdən özündə qüvvə toplamaqdır.

Bunlardan fərqli olraq, sevgi hər iki tərəfin fərdi xüsusiyyətlərinin saxlanılması şərti ilə onları tənhalıq, izolyasiyası hissindən qurtarmaq deməkdir. From başa düşür ki, həqiqi məhəbbət çox nadir hadisədir. Ailə gəlib birdən-birə bugünki səviyyəyə çatmamışdır. O öz inkişafında bir neçə tarixi mərhələdən keçmişdir.

## ƏDƏBİYYAT

1. Erix Fromm // http://dushunce.az/
2. "Mədəniyyət böhranının öhdəsindən gəlmək haqqında" // https://taediumvitaeblog.wordpress.com/
3. Erix Fromm – "Kişi və qadın"(1949) // https://rezonanss.com/
4. Erich Fromm. Sağlam cəmiyyət. Bakı: 368 s.

## TƏLİMDƏ GERİQALMA PROBLEMİ VƏ ONUN SƏBƏBLƏRİ

***Laləzar Cəfərova***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: psixol.e.d. Rəşid Cabbarov***
***lale_psixoloqmail.ru***

Şagirdin təlim fəaliyyətini nəzərdən keçirərkən- ən vacib və daimi olan problemi təlimdə geriqalma məsələsinə xüsusi ilə diqqət yetirmək lazımdır. Təlimdə geriqalma təlim nəticələrinin məktəbin tədris və didaktik tələblərinə cavab vermədiyi bir vəziyyərdir. Yəni təlimdə geriqalma dedikdə şagirdin hazırlığı tədris prosesinin əhəmiyyətli bir dövrü-kursun bir hissəsi, tədris rübü, yarım il, il, bitdikdən sonra qeyd olunan tədris məzmunu tələbləri ilə uyğunsuzluq başa düşülür. Məktəbdəki uğursuzluq fenomeninin meydana gəlməsi - uşağın ağır şəxsi dezadaptasiyasına aparan yoldur. Buna görə bu hadisənin səthi

izahatları yolverilməzdir ("tənbəldir", "bacarıqsızdır", "heç bir şey etmək istəmir" və s.) ancaq bu fenomenin baş verməsi səbəblərini hərtərəfli təhlil etmək lazımdır.

Heç bir uşaq pis oxumaq arzusu ilə məktəbə getmir. Təlim fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi, uşağın ən vacib ehtiyacıdır, məmnuniyyəti adekvat özünüdərk inkişafına, optimal sosial vəziyyətin yaranmasına kömək edir. Bəs niyə bəzi uşaqlar təlimdə geriqalırlar və davamlı bir çatışmazlıq kompleksi əldə edirlər?

Məktəb uğursuzluğunun səbəbləri ən qeyri-müəyyən, çox səviyyəlidir. Onlardan bəzilərini nəzərdən keçirək:1) psixoloji səbəblər; 2) biopssixoloji səbəblər;3) pedaqoji səbəblər; 4) sosial səbəblər.

1. Psixoloji səbəblər. Bunlara daxildir - təlim motivasiyasının inkişafındaki çatışmazlıqlar,idrak, emosional zehni proseslərin və xüsusiyyətlərin qeyri-kafi inkişaf səviyyəsi,təlim fəaliyyəti mexanizmlərinin tətbiq olunmaması; məktəblilər özlərinin fərdi tipoloji xüsusiyyətlərindən məlumatsızlıq və onlardan qeyri-adekvat istifadə;zəruri ümumi və xüsusi xüsusiyyətlərin inkişaf səviyyəsinin olmaması hansı ki, müxtəlif fənlərdəki uğur əldə etmək üçün vacib bir şərtdir; psixi inkişafda ləngimə və s.

2. Biopsixi səbəblər. Bu qrupa irsi, anadangəlmə ontogenezdə sonradan qazanılmış fiziki inkişaf çatışmazlıqları: orqanizmin ümumi zəifliyi; görmənin, eşitmənin, nitqin pozulması; fiziki inkişafın yaş normalarından geri qalma; tez-tez baş verən xroniki xəstəliklər;aşağı iş qabiliyyəti və tez yorğunluq; fiziki hiperaktivlik və diqqət çatışmazlığı pozğunluğu;ağıl zəifliyi (oliqofrenlik elementləri); xarakter cizgilərinin aksenturasiyası; kəskin ruhi xəstəliklər; biopsik bağımlılıklar; autizm dahildir.

3.Pedaqoji səbəblər təhsil sistemini keyfiyyəti,dövlət təhsil standartları, pedaqoji prosesin təşkili, tədris metodları, pedaqoji texnologiyalar, müəllimin şəxsiyyəti və pedaqoji bacarığı, müəllim və tələbə münasibətlərinin xarakteri ilə bağlıdır.

Təhsil sisteminin yuxarıda sadalanan komponentlərində çatışmazlıqların, mənfi tərəflərin olması, təlim prosesinin subyektlərində və pedaqoji prosesdə uğursuzluqlara çatışmazlıqlara səbəb olur. Bu kimi səbəblər çoxdur, amma daha tez-tez ümumi mənfi nəticələr pedaqoji prinsiplərin pozulması ilə əlaqədardır təhsil prosesinin təşkili, şagirdlərin həddən artıq yüklənməsi, şagirdlərə ayrı-ayrılıqda yanaşmanın olmaması, şagirdlərin biliklərində boşluqların yaranması,yeni materialın mənimsənilməsində çətinliklərin qarşısını almaq və aradan qaldırmaq, keçənlərin təkrarlanmaması, dərsin metodik metodik cəhətdən düzgün qurulmaması,tədris işinin zəif olması. Müəllimlik peşəsinin nüfuzunun düşməsi müasir cəmiyyətdə müəllimlərlə qarşıdurmalar, müəllimlərin peşəkar tükənməsi və s

4.Təlimdə geriqalmanın sosial səbəbləri şagirdin ailəsi ilə, sosial mikromühüti ilə və bütövlüklə cəmiyyətlə əlaqəli olan, həmçinin kütləvi informasiya vasitələrinin və müasir mədəniyyətin təsiri ilə, cəmiyyətin mənəvi iqlimi və gənc nəslin həyat dəyərləri ilə bağlı olan mənfi amillər əsasında yarana bilər. Yaxşı oxumaq istəyinin olmaması yahudda ümumilikdə oxumaq istəyinin olmaması və bundan başqa şagirdlərin təlimdə geriqalan şagirdlərin sırasına dahil edən səbəblərə daxildir: ailənin maddi vəziyyətinin aşağı olması, valideyinlərin pis vərdişləri,sevgi və qayğının olmaması, valideynlərin pedaqoji savadsızlığı, əxlaqsız davranışlar, sapma hərəkətlər, ailədaxili münaqişələr və s. Nəticədə sosial baxımsız uşaqların sayı artır.

Təlimdə geriqalmanın aradan qaldırılması və profilaktikası haqqında mütəxəssislərin ümumi rəyi ondan ibarətdir ki, bu problemi yaradan səbəblərin meydana gəlməsinin qarşısını almaq lazımdır. Səbəblər mənşəyi və mahiyyəti etibarı ilə fərqli olduğundan onların aradan qaldırılması eyni profilli mütəxəssislərin vəzifəsi və işi ola bilməz. Əksinə, bu işdə uğur qazanmaq üçün psixoloqlar, müəllimlər, həkimlər və məktəblilərin valideynləri və təbii ki, şagirdləin özləri iştirak etməlidirlər.

Yuxarıdakı subyektlərin birgə fəaliyyət istiqamətləri məlumdur. Bu diaqnostika, konsultasiya, profilaktika, terapiya (korreksiya), təhsi və inkişafdır- onların hamsını birgə təhsil prosesinin tibbi və psixoloji və pedaqoji dəstəyi adlandırıla bilərik.

Təlimdə geriqalma sahəsində aparılan tədqiqatlar qədim tarixə malikdir. Lakin həm qədim zamanlarda həmdə müasir dövürdə aparılan tədqiqatlar göstərir ki, təlim prosesdə müxtəlif təlim müvəffəqiyyətlinə sahib olan məktəblilər var və təlmdə geriqalma problemi hələdə öz mövcudluğunu müasir təhsil prosesində də qoruyub saxlmaqdadır. Təlimdə geriqalmanın bütün məlum növləri və səbəbləri müəyyən edildi. Müəyənləşdirmə prosesi hərtərəfli sistemli xarakter daşıyır. Təlim uğursuzluqlarının xarici və daxili üstünlüyü dəyişkəndir: bəzi hallarda "bəla", "problem" məktəblilərin özlərindədir, digər hallarda isə müəllimlərin öz fəalliyətində çatışmalıqlar, mənfi sosial-iqtisadi amillərin mənfi təsiri, tətbiq olunan didaktik sistem və texnologiyaların keyfiyyətinin aşağı olması əsnasında baş verir.

## ƏDƏBİYYAT

1. Бабанский, Ю. К. Об изучении причин неуспеваемости школьников / Ю. К. Бабанский. –М.: Академия, 2012. – 290 s.

2. Божович, Л. И. Личность и ее формирование в детском возрасте / Л. И. Божович. – М.: Дрофа, 2010. – 300 s.

3. Мурачковский, Н. И. Как предупредить неуспеваемость у школьников /Н. И. Мурачковский. – Минск, 2003. – 164 s.

4. Реализация стандартов второго поколения в школе: проблемы и перспективы / под ред. Е. В. Карповой. – Ярославль : Изд-во ЯГПУ, 2014. –192 s.

5.Славина,Л.С. Индивидуальный подход к неуспевающим и недисциплинированным ученикам Л. С. Славина. – М.: Академия, 2008. – 367 s.
6. Цетлин, В. С. Неуспеваемость школьников и ее предупреждение / В. С. Цетлин. – М.: Педагогика, 2006. – 243 s.

## AİLƏ STURUKTURUN SOSİAL – PSİXOLOJİ TƏHLİLİ

***Aydan Osmanlı***
***BDU-nun II kurs magistrantı***
***aydan.osmanli.97@mail.ru***

Ailə sözünün mənbəyi ərəbcədən gələn أسرة (=A’ilə) sözündəndir. Bu söz ərəbcədən dayanmaq mənasında olan اهل (avl) kökündəndir. Ailə-nigah və ya qan qohumluğuna əsaslanan , məişət ümumiliyi və qarşılıqlı mənəvi məsuliyyətlə bağlı olan kiçik sosial birlikdir.

Ailə insanların bir – biri ilə qurduğu münasibətlərin ən qədim və unikal formalarından biridir. Ailənin unikallığı və özəlliyi ondan ibarətdir ki, bir neçe insan on illərlə olçülən uzun zaman öz ömürlərinin böyük hissəsini bir – biri ilə qarşılıqlı münasibətdə keçirirlər.

Ailə mövzusu ümumiyyətlə bütün dövrlərin və bütün cəmiyyətlərin aktual problemi hesab olunur. Ailə ən vacib sosial dəyərdir. Cəmiyyətin hər bir üzvü, sosial statusundan, etnik mənsubiyyətindən, əmlakından və maddi vəziyyətindən əlavə, doğulduğu andan həyatın sonuna qədər ailə və ailə vəziyyəti kimi bir xüsusiyyətə malikdir.İstənilən ailənin əsasını müəyyən bir nikah cütlüyü, obrazlı şəkildə deyilsə, bir kişi ilə bir qadın arasında özünəməxsus şəkildə yaranan ittifaq təşkil edir. Mütəfəkkirlər cəmiyyəti insanların qarşılıqlı təsirinin məhsulu hesab edərək göstərirdilər ki, cəmiyyət yalnız fərdlərdən ibarət deyil, bu fərdlərin arasında mövcud olan əlaqə və münasibətlərin

məcmusunu ifadə edir. Ailə də belədir. Onun mahiyyəti ailə münasibətləri ilə ölçülür. Lakin ailə münasibətlərini yalnız ər - arvad münasibəti kimi başa düşmək olmaz. Ərlə-arvad arasına münasibətlər ailə münasibətlərinin ancaq bir tərəfini ifadə edir. Ailənin çox mühüm sahəsi valideynlərlə övlad arasındakı münasibətlərlə bağlıdır. Mütəfəkkirlərə görə ailədaxili münasibətlər ər-arvad, valideynlər və uşaqlar arasındakı münasibətdən ibarətdir.

Ailə sistemi 3 tərəfdən – struktur, funksional, və onun inkişafı nöqteyi – nəzərindən öyrənilə bilər. Struktur baxımından ailə sistemini diadlardan (ər – arvad, qardaş – bacı, valideyn – uşaq), eləcə də triadlardan (nənə-ana-qız, baba-oğul-qız) ibarət alt sistemlər şəkilində öyrənmək olar. Göründüyü kimi, ailənin strukturu ailə rollarının məcmusundan diad və triad təşkil edən alt sistemlərdən, ailə iyerarxiyasından, daxili və xarici sərhədlərdən ibarətdir.

Ailənin strukturu ailə üzvlərindən və ailə bütövlüyünü şərtləndirən münasibətlərdən ibarətdir. Ailə strukturunun formalaşma prosesinə onun tipi və funksiyalarının (ailənin funksiyası dedikdə, ailə üzvlərinin hər hansı təlabatının təmin edilmə istiqamətindəki fəaliyyəti, vəzifəsi başa düşülür) icra mexanizmi təsir göstərir (1, s.45).

Ailənin sturukturu onun üzvlərinin sayı, tərkibi, həmçinin onlar arasındakı qarşılıqlı münasibətlərin məcmusudur. Ailənin sturukturu habelə bir sosial institut kimi onun mövcudluğu və vahidliyinin təmin olunmasını şərtləndirən amillərin məcmusunu əsk etdirir. Ailənin struktururun təhlili onun funksiyalarının həyata keçirilməsi ilə əlaqədar ailəyə kimin rəhbərlik etməsi, kimin icraçı olması, ailə üzvləri arasında hüquq və vəzifələrin necə bölünməsi və s. kimi suallara cavab tapmaq imkanı verir.

Ailə sisteminin sturktura nəzər saldıqda görünür ki, ər – arvad altsistemi ailənin əsasını təşkil edir. Bu altsistemdə baş verənlər bütün ailə həyatında əsk olunur. Ər – arvad altsistemi uşağa yaxınlarla qarşılıqlı münasibətlərin təbiətini öyrədir, kişi

ilə qadın arasında münasibətlər modelini nümayiş etdirir. Validеyn altsistеminin də özünəməxsus funksiyaları vardır. Bu altsistеm fiziki qulluq, psixoloji müşahidə və nəzarət funksiyasını yеrinə yеtirir.Validеyn altsistеmi özündə yalnız valideynləri dеyil, həm də baba və nənəni, yaxud böyük qardaş və bacılarıda özündə ehtiva еdə bilər.

Ailənin sadə və mürəkkəb olmaqla iki başlıca tipi vardır. Dеmoqrafların qənaətincə, hazırda ən gеniş yayılmış ailə tipi nuklеar ailə sayılır.

Nuklеar ailə - sadə ailə tipidir.O, iki nəsildən ata – ana və uşaqlardan ibarət olur. Uşaqlardan hər hansı biri еvlənirsə (ərə gеdirsə) və validеynləri ilə birlikdə yaşayırsa, ailənin tipi dəyişir, nuklеar ailə mürəkkəb ailə ilə əvəz olunur.

Nuklеar ailə əsas ailə tipidir. Nuklеar sözü də həmin mənanı ifadə еdir. Nuklеar latınca nuslеus sözündən götürülmüşdür, mənası nüvə dеməkdir.Bütün ailələr nuklеar ailə əsasında təşəkkül tapır.

Uşaqların sayına görə nuklеar ailənin 3 tipini qеyd еdirlər:

- Çox uşaqlı ailə (5və daha artıq)
- Orta uşaqlı ailə ( 4 – 3 uşaq)
- Az uşaqlı ailə (2 – 1)

Nəzəri baxımından nuklеar ailədə 6 tip iеrarxiya mövcuddur:

- Ata - ana – uşaq
- Ata – uşaq – ana
- Ana – ata - uşaq
- Ana – uşaq – ata
- Uşaq – ata – ana
- Uşaq – ana – ata

Mürəkkəb ailə üç və ya daha çox nəsildən – baba – nənə, ata – ana və uşaqlardan ibarət olur. İki və daha çox nuklеar ailə birlikdə ( bir mənzildə, bir еvdə ) yaşayır, təsərrüfatı birgə aparırsa o da mürəkkəb ailə sayılır.

Azərbaycanda bir zamanlar mürəkkəb ailəyə daha çox rast gəlmək mümkün idi. Kеçmişlərdə bu ailələri patriarxal, yaxud

ənənəvi ailələr adlandırırdılar. Həmin ailələr tərkibinə görə mürəkkəb səciyyəyə malik idi.

Ailə digər sosial institutlar kimi səlahiyyət sistemi ilə möhkəmlənir. 3 tip səlahiyyət strukturu fərqləndirilir:

Patriaxal ailə - ailədə səlahiyyət kişiyə məxsusdur. Azərbaycanda əhalinin sosial – demoqrafik strukturundakı dəyişikliklərə baxmayaraq, bu ailə tipi öz mövcudluğunu qoruyub saxlamışdır. Azərbaycan ailələri arasında patriaxal ailələr daha çoxdur. Bu ailə tipinin əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar özündə ən az 3 nəslin xüsusiyyətini birləşdirir.

Matriaxal ailə - ailədə səlahiyyət qadına məxsusdur.Patriaxal ailə kimi matriaxal ailə bütün xalqlar arasında mövcud deyildi. Ancaq bir çox xalqlar hesab edir ki, ailəni ana idarə etməlidir.Hər zaman ana ailə münasibətlərinin qorunmasında müstəsna rol oynayıb.Kişinin rəsmi rəhbərliyi olan fərdi ailələrdə, əslində, hakim mövqeyi bir qadın tutur.

Eqalitar ailə - ailədə səlahiyyət kişi və qadın arasında bərabər bölünür. Ər və arvad problemin həllində bir – birinə yaxından kömək göstərir, ailə və həyat problemləri ilə bağlı qərarı birlikdə qəbul edirlər.

Bütün bunlardan əlavə ailənin digər növlərini də fərqləndirirlər. Bunlar aşağdakılardır:

Real ailə - sosial qrup kimi tədqiqat obyekti olan konkret ailə

Tipik ailə - hal – hazırda cəmiyyətdə geniş yayılmış ailə modeli

İdeal ailə - cəmiyyət tərəfindən qəbul olunmuş, kollektiv təsəvvürlərdə və ictimai mədəniyyətdə, ilk növbədə dində mövcud olan ailənin normativ modeli.

Elementar ailə - üç üzvdən ibarət olan ailə: ər, arvad və uşaq (3, s.112).

Ailənin tərkibi və ya strukturu ilə əlaqədar sosial psixologiyada müxtəlif təsnifatlar təsnifatlar mövcuddur.

“Doldurulmuş ailə” – öz tərkibinə görə genişlənmiş ittifaq, ər – arvad cütlüyü və onların uşaqları, onlarla birgə və ya sıx əlaqədə yaşayan və ailənin strukturunu təşkil edən başqa nəsildən olan valideynlər və qohumlar (məsələn, baba, nənə, dayı, xala, bibi).

“Qarışıq ailə” – yeni nikah və boşanma nəticəsində yenidən təşkil olunmuş ailədir. Qarışıq ailə öz tərkibində doğma olmayan valideynləri və əvvəlki nikahdan olan ögey uşaqları da birləşdirir.

“Valideyn ailə - tənhalıq” – belə ailələrdə boşanma, ailəni tərketmə, cütlüklərdən birinin ölümü və ya rəsmi nikahin bağlanması səbəbindən uşaqlar valideynlərdən biri ilə yaşayırlar.

Rus sosioloqları A.İ.Antonov və V.M.Medkov tərkibinə görə ailənin aşağıdakı tiplərini fərqləndirirlər:

Nuklear ailə - müasir dövrdə ən geniş yayılmış, valideynlərdən və onların uşaqlarından, yəni iki nəsildən ibarət olan ailədir. Belə ailələrdən ən çoxu üç nuklear mövqe mövcud olur: ata - ər, ana – arvad, oğul – qardaş, qız – bacı. “Natamam ailə xalis demoqrafik hadisədir. Demoqrafik ölçülərə görə ailənin nüvəsini ər –arvad təşkil edir. Obrazlı dilə desək, ailənin bu qoşa qanadlarından biri qırılanda ailə tam ailədən natamam ailəyə çevrilir” ( 2,s.16).

Genişlənmiş ailə - öz tərkibində ümumi ev təsərrüfatına daxil olan üç və ya daha artıq nəslin təmsil olunduğu iki və daha çox nuklear ailələri birləşdirir: babalar, nənələr, ata – ana və uşaqlar (nəvələr).

Təkrar ailələrə - ər – arvad cütlüyü ilə yanaşı, onların hansısa birinin əvvəlki nikahdan olan və yeni ailəyə gətirilmiş uşaqlarıda daxildir.

## ƏDƏBİYYAT

1. Əlizadə H.Ə.Sosial pedaqogikanın aktual problemləri. Bakı:Səda, 1998,342 s

2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1993, 230 s.
3. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı, Mütərcim, 2015, 422 s.
4. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı: Bilik, 2012, 232 s

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ YARADICI TƏFƏKKÜRÜN TƏDQİQİ İSTİQAMƏTLƏRİ

***dos. Elnarə Piriyeva***
***Şəlalə Babayeva***
***BDU-nun II kurs magistrantı***

Müasir cəmiyyətdə baş verən dəyişikliklər təhsil sahəsinin sürətlə təkmilləşdirilməsini, dövlət, sosial-iqtisadi və şəxsi maraqları nəzərə alan yeni təhsil hədəflərinin müəyyənləşdirilməsini tələb edir. Bununla əlaqədar olaraq, prioritet istiqamət yeni təhsil standartlarının inkişafetdirici potensial ilə təmin edilməsidir. Buna görə də müəllimin əməyi bu gün bir qədər şəklini dəyişir və öz metodikasına görə ənənəvi təhsil və tərbiyə formalarından fəqrlənir. Bunun üçün dərs metodikası elə qurulmalıdır ki, yeni biliklərin mənimsənilməsi və onları praktikada uğurlu tətbiq etmək üçün kiçik yaşlı məktəbliləri sərbəst yaradıcılıq fəaliyyətinə cəlb etmək mümkün olsun.

Kiçik yaşlı məktəblilərin həyata, əməyə hazır olmalarını, onlarda yaradıcı təfəkkürün təməli ümumtəhsil məktəblərdə qoyulur. Yaradıcı təfəkkürə, yüksək elm qabiliyyətlərinə bu yaş məktəblilərin formalaşdırılması müasir təhsil sisteminin əsas strateji məqsədidir. Aydındır ki, bu məqsədə ənənəvi təhsil üsulları ilə nail olmaq mümkün deyil. Şagirdlərin intellektual bacarıqlarının inkişaf etdirilməsi üçün yeni yanaşmalar, yeni semantik tapşırıqlar lazımdır. Bu, nəticə etibarilə təhsil üsulunun dəyişdirilməsi, yəni biliklərin verilməsindən həmin

biliklərin şagirdlərin özləri tərəfindən əldə edilməsinə keçid deməkdir.

Müəllimin burada rolu isə kiçik yaşlı məktəblilərdə keyfiyyətcə yeni biliklərə aparıb çıxaran, onların yaradıcı təfəkkürünün və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi üçün düşündürücü fəaliyyəti təşkil etməkdən ibarətdir. Yaradıcı təfəkkürün formalaşması isə məktəblinin idrak fəaliyyəti ilə əlaqədar olan, onu ətraf aləmi daha dərindən və ətraflı dərk etməyə yönəldən mürəkkəb prosesdir. Belə təfəkkür təlim prosesində, elmi axtarışlar və tədqiqatçılıq fəaliyyəti zamanı meydana çıxır. Belə ki, kiçik yaşlı məktəblilər daim təbiətin, cəmiyyətin sirlərinə malik olmağa çalışır, bilik əldə etmək cəhdi onlarda müxtəlif hisslər doğurur.

Təfəkkür proseslərinin başlanğıc məqamı, adətən, problem situasiya ilə bağlıdır. Məktəbli nəyi isə anlayanda fikirləşməyə başlayır. Təfəkkür adətən sual, problemdə əkslik və təəccübdən başlanır. Bu problem-situasiya şəxsiyyətin fikri proseslərə cəlb edilməsi ilə müəyyənləşir, hər hansı nəzəri və praktiki məsələnin həlli ilə əlaqədar olur. Qədim yunan filosofları Platon və Aristotelin fikrincə, hər cür yeniliyin başlanğıcı təəccübdür. Onların bu sözünün nə qədər böyük idraki əhəmiyyəti vardır. Belə ki, insan təəccübləndikcə onu ciddi axtarışa təhrik edən, ona motivasiya verən mühüm zehni işə tələbat yaranır. Bunları tətbiq edərək, müasir təlimi kiçik yaşlı məktəbliləri yaradıcı, məntiqi təfəkkürünün inkişafına, müstəqil düşüncə, təhliletmə və əqli nəticə çıxarma qabiliyyətlərinin təşəkkülünə yönəltmək olduqca önəmlidir [2, səh.29].

Müasir dərs ənənəvidən məhz məqsədləri, məzmunu, təşkilati-metodiki tərəfi, kiçik yaşlı məktəblilərin yaradıcı fəaliyyətinin fəallıq səviyyəsi, strukturu və tempi ilə fərqlənir. Belə məsələlərin reallaşdırılması üçün müasir müəllim praktikaya qeyri-ənənəvi dərs növlərini daxil etməlidir. Bunlar dərs-layihə, tədqiqat tipli dərs, dərs-ekskursiya, dərs-seminar, biliklərin təkmilləşdirilməsi dərsi, birləşdirilmiş və binar

dərslər, dərs-oyun, dərs-səyahət, nitq inkişaf dərsi və s. ola bilər. Çox vaxt özünü pedaqoji təcrübə ilə doğrultmuş oyun tərkibli dərslər keçirilir. Müşahidələr sübut edir ki, kiçik yaşlı məktəblilər əqli oyunlara, məsələlərə və bilməcələrə daha həvəslə və maraqla müraciət edirlər. Onlar oyunlu dərslərdə sevinərək iştirak edirlər. Əvvəlcə məktəbli yalnız oyuna, daha sonra oyunu mümkün edən tədris materialına həvəs göstərir. Bu da əksər hallarda motivasiyaya uyğun olaraq məktəbliləri düşünməyə yönəldir.

Layihələr metodu pedaqogikada prinsipial olaraq yeni deyil, lakin müasir mərhələdə, onu sürətlə dəyişən dünyaya uyğunlaşmağa kömək edən metod kimi, XXI əsrin pedaqoji texnologiyalarına aid edirlər. Bu metod XIX əsrin ikinci yarısında ABŞ-da, öz nəzəriyyəsinin konseptual əsasnamələrini yaratmış, filosof və pedaqoq C.Düyi tərəfindən elmi cəhətdən əsaslandırılmışdır: praktika nəticəsində əldə edilən həqiqi və qiymətlidir; uşaq ontogenezdə ətraf mühiti dərk edərkən bəşəri yolu təkrarlayır; biliklərin mənimsənilməsi - təbii prosesdir; uşaq yalnız biliyə ehtiyac yarandığı zaman informasiyanı mənimsəyə bilir, o, öz təhsilinin aktiv subyektidir [3, səh.31].

Layihələr metodunun əsas məqsədi yaş imkanlarına uyğun olaraq, işin gedişatında öz bilik və bacarıqlarını artırmağa kömək edən sərbəst yaradıcı tamamlanmış işdir. Belə fikir var ki, layihə - "fikrin gələcəyə sıçrayışıdır". Başqa sözlə, bu, fəaliyyətin son nəticəsinin mükəmməl təsviridir - nail olunacaq, yaradılacaq "fikirdəki son nəticə"dir (latınca projectus - irəli atılmış fikir, layihə deməkdir). Bu prosesdə müəllimin mövqeyi - fasilitator mövqeyidir. O, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, kiçik yaşlı məktəblilər arasında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir. Nəticədə kiçik yaşlı məktəblilərdə yaradıcı təfəkkürünün inkişafına, müstəqil düşüncə, təhliletmə və əqli nəticə çıxarma qabiliyyətlərinin təşəkkülünə zəmin yaranır.

Təfəkkür prosesində məktəblilər öz biliklərini təcrübədə tətbiq edərək, tədqiqatçılıq fəaliyyəti ilə məşğul olur, nəticə etibarilə qabiliyyətlərinin daha dərin qatlarına nüfuz edə bilirlər. Vaxtilə təfəkkürün təbiətini açan A.N.Leontyev qeyd edirdi ki, təfəkkürün quruluşu praktik fəaliyyətin quruluşuna yaxınlığı ilə prinsipial xarakter daşıyır. Belə ki, təfəkkür vasitəsi ilə məktəblilər dünyanı dərk edirlər. Ən əsası, yaradıcı təfəkkür məktəblilərin təlim, əmək, oyun fəaliyyətində tədqiqatçılıq qabiliyyətlərinin inkişafı ilə şəxsiyyətə çevrilməsində xüsusi rol oynayır [4, səh.27].

Layihəli tədris fəaliyyəti kiçik yaşlı məktəblilərin yaradıcı təfəkkürünün inkişafı üçün daha böyük imkanlar yaratdığına görə təcrübəli müəllimlər ondan dərslərində yararlanmağa çalışırlar. Onlar dərslərdə vaxtaşırı layihəli fəaliyyət metodunu tətbiq edərək, kiçik yaşlı məktəblilərin diferensiyaya uyğun sərbəst işləməsini təşkil edirlər.

Bu metodun əsas üstünlüyü ondadır ki, bu zaman təlim məktəblilərin yaddaşının təkcə yeni elmi biliklərlə, informasiya ilə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi yolu ilə daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərinin qazanılmasına yönəlir.

## ƏDƏBİYYAT


1. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. – Bakı, 1991
2. Əlizadə Ə.Ə. Məktəbə psixoloji xidmət: problemlər, düşüncələr// Azərbaycan məktəbi, 1993
3. Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. – Bakı, 2004
4. Məmmədov İ.Ə. Azərbaycan məktəblərində psixoloji xidmətin təşkili təcrübəsi və elmimetodik problemləri. – Bakı, 1996

# САМООЦЕНКА И ЭФФЕКТИВНОСТЬ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ

***Гусейнова Эльнура***
***Магистр II-го курса БГУ***
***huseynovaelya@gmail.com***

На протяжении долгого времени в психологической практике изучается вопрос самооценки личности, которая имеет большое значение и затрагивается во многих аспектах психологии. Отечественные и зарубежные ученые, изучающие самооценку, дают ей разные определения. В общем понимании самооценка – это оценивание самой личностью самой себя, своих качеств, возможностей, достижений, физических характеристик, нравственных качеств, поступков и места среди других людей. Не всегда самооценка бывает «правильной». Самооценка выступает как одна из важнейших, если не ключевых составляющих внутреннего мира человека – его «Я».

Главная функция самооценки состоит в регуляции поведения субъекта. (О.Н. Молчанова, 2010, с.14) Она выполняет регуляторную и защитную функции, влияя на поведение, деятельность и развитие личности, ее взаимоотношения с другими людьми. Отражая степень удовлетворенности или неудовлетворенности собой, уровень самоуважения, самооценка создает основу для восприятия собственного успеха и неуспеха, постановки целей определенного уровня, то есть уровня притязаний личности. Защитная функция самооценки, обеспечивая относительную стабильность и автономность (независимость) личности, может вести к искажению данных опыта и тем самым оказывать отрицательное влияние на развитие.

Подростковый возраст – это самый важный и трудный этап в жизни каждого человека. Во многих источниках данный период охватывает возраст 12-14 лет. Данный период жизни во многом определяет всю последующую судьбу. Он знаменует собой переход от детства к взрослой жизни. В этом возрасте формируется мировоззрение, происходит переосмысление ценностей, идеалов, жизненных перспектив. Исследователи отмечают, что в этом возрасте усиливается склонность к самонаблюдению, застенчивости, эгоцентризму, снижается устойчивость образов "Я", общее самоуважение и существенным образом изменяется самооценка. Для данного периода характерно становление сознания и самосознания личности, а поведение человека регулируется его самооценкой, которая представляет собой центральное образование личности. В словаре по социальной психологии самооценка определяется, как оценка личностью самой себя, своих возможностей, качеств и места среди других людей. От нее зависят взаимоотношения человека с окружающими, его критичность, требовательность к себе, отношение к успехам и неудачам.

Самооценка личности может изменяться с возрастом, в зависимости от жизненных ситуаций и положений. В соответствии с данными самооценка имеет три уровня:

Завышенная самооценка

Адекватная самооценка

Заниженная самооценка

Каждый из этих уровней имеет свою характеристику и ряд особенностей. Изучение мотивов и механизмов самооценки представляет актуальное поле исследования, является чрезвычайно важным и перспективным, так как именно процессуальная сторона самооценки в наибольшей

степени определяет как сам результат – самооценку, ее вид и форму, – так и в целом процесс саморегулирования.

Традиционно выделяют три основных формальных параметра самооценки: высоту, устойчивость и адекватность. Целью работы В.Ф. Сафина (1975) является уже не исследование причин неустойчивости, а проблема поддержания стабильной СО. Устойчивость самооценки предполагает собой постоянство, стабильность по различным ситуативным показателям.

В традиционной педагогике, которой присущ знание-ориентированный подход, содержание образования – совокупность систематизированных знаний, умений и навыков, определенный (вполне выяснимый) уровень развития познавательных сил, достигнутый в результате учебно-воспитательной работы. (Мандель, 2012). На учебную мотивацию школьников влияет множество психологических и социальных факторов, в числе которых самооценка подрастающего поколения. (Андрюшкова Н.П. 2012). Умственное развитие (УР) мы рассматриваем как сложную динамическую систему количественных и качественных изменений, которые происходят в мыслительной деятельности человека в связи с его возрастом и обогащением его жизненного опыта, в соответствии с общественно-историческими условиями, в которых он живёт, и индивидуальными особенностями его мышления. Самооценка является одной из главных составляющих личности, она регулирует ее поведение. От самооценки зависят взаимоотношения человека с окружающими, его критичность, требовательность к себе, отношение к успехам и неудачам. Является компонентом самосознания, имеет рефлексивную природу, включает в себя такие элементы как: образ "Я - реального", "Я - идеального", результат сопоставления этих образов и самоотношение к результату сопоставления. Чёткая

дифференцированная самооценка предполагает сравнительно чёткое осознание и выделение тех областей, в которых могут быть достигнуты высокие результаты, и тех, в которых человек не может претендовать на высокие результаты, чёткое выделение своих сильных и слабых сторон.

В процессе работы над теоретическим и практическим исследованием влияния уровня самооценки на успешность учебной деятельности подростков, анализируя различные источники информации, мы пришли к выводу, что самооценка оказывает непосредственное влияние на успешность учебной деятельности.

При средней адекватной либо высокой адекватной самооценке учебная деятельность будет успешна. У учащихся с высокой адекватной и средней адекватной самооценкой учебная деятельность является успешной (69,7 %). У учащихся с неадекватной самооценкой учебная деятельность удовлетворительна (30.3 %).

От степени адекватности самооценки зависит правильность постановки целей, выбор их трудности, составления программ действий.

## ЛИТЕРАТУРА


1. Андрюшкова Н.П. Взаимосвязь самооценки и школьной успеваемости на разных возрастных этапах. 2012
2. Мандель Б.Р. Педагогическая психология: учебное пособие. 2012
3. Молчанова О.Н. Самооценка. Теоритические и эмпирические исследования. 2010
4. Сафина В.Ф. Устойчивость самооценки и механизм ее сохранения. 1975

# CİNAYƏTKARLARIN YENİDƏN İCTİMAİLƏŞMƏSİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***İlahə Dadaşova***
***BDU-nun II kurs magistrantı***
***ms.dadasova@bk.ru***

Resosializasiyanın daha qısa və daha əhatəli tərifindən istifadə edilə bilər: əvvəllər ictimailəşmiş bir şəxsin dəyişdirilməsi prosesidir. Qeyd etmək lazımdır ki, psixologiya nöqteyi-nəzərindən, yenidən yaşamaq hər zaman desosializasiya, yəni sosiallaşmanın pozulması ilə əlaqələndirilir və bunun da nəticəsi ola bilər.

Başqa sözlə, psixologiyada yaşayış yeri əvvəllər baş vermiş desosializasiya və ya sosializasiya prosesləri zamanı pozulmuş şəxsin mədəni və sosial münasibətlərinin müəyyən pozuntularının kifayət qədər məqsədyönlü “təmir” edilməsidir. Qeyd etmək lazımdır ki, gənc yaşda müxtəlif sosial və mədəniəlaqələrin o qədər möhkəm qurulmadığı, buna görə onları bərpa etmək üçün işlər o qədər də həcmli olmamasına əsaslanaraq, yenidən yaşayış yerləri proseslərinə daha asanlıqla cavab verirlər.

Bu cür işlərdə daha çox problem yaradan tərəf, cəmiyyətdən uzun müddət təcrid olunmuş məhkumlar, narkomanlar, qumar oynamağa vərdiş edən və bundan əziyyət çəkən insanlar, alkoqoliklər, habelə ağır fəlakət və stres yaşamış xəstələrdir.

Resocialization və desocialization həqiqətən bir-biri ilə sıx bağlıdır və hətta yeganə proses ola bilər. Bu fərdin həyatı boyu, müəyyən dövrlərdə, özünə müəyyən bir sosial rol götürdüyü zaman baş verir. Həyatda bu cür dəyişikliklər baş verdikdə, mövzu təkcə yeni həyata və yeni sosial şəraitə uyğunlaşmaqla

yenidən yaşayış yerini yaşamır, eyni zamanda desosializasiya da baş verir - əvvəllər tanış olan münasibət

və davranışların rədd edilməsi indi mümkünsüz olur.

Tədqiqatçıların fikrincə, islah müəssisəsinin işçilərinin məhkumların şəxsiyyəti barədə demək olar ki, məlumatı yoxdur. Bu məlumatları almağa və təhlil etməyə səy göstərilmir. Üstəlik, məhkumla etibarlı münasibətdən çəkinirlər.

Belə "döyüş" şəraitində əksər yerlərdə və insanlar arasında heç kim cinayətkarları yaxşılaşdırmaq niyyətində deyil. Əksinə, hər kəs onlara qarşı kobud, qəddar və döyüşə hazır şəkildə durmağa çalışır. Keçmiş bir həyatın emosional dramlarına və faciələrinə gəlincə, onları azdırmaq, özünü doğrultmaq və unutmaq daha yaxşıdır.

Beləliklə, cinayətkarın şəxsiyyətinə xas olan bütün psixoloji strukturlar sabit, qorunub saxlanılır. Üstəlik, şəxsiyyət daha da kriminallaşdırılır. Bu, isə insanlar arasındakı əsas paradoksdur. Müasir həbsxanaların məhkumların yenidən ictimailəşməsi üçün qurum olaraq özləri yenidən ictimailəşdirilməlidirlər. Onların əsaslı yenidən qurulması, psixoloji və pedaqoji cəhətdən bacarıqlı kadrların toplanması zəruridir.

Cinayətkarların yenidən yerləşmə fəaliyyətinin ümumi istiqamətləri olaraq aşağıdakıları qeyd etmək olar:

- hər bir cinayətkarın şəxsiyyət xüsusiyyətlərinin psixoloji diaqnozu;
- onun ümumi sosiallaşmasının, hüquqi sosiallaşmasının, zehni özünü tənzimləmə qüsurlarının müəyyən edilməsi;
- fərdi-şəxsiyyət psixoloji və pedaqoji düzəlişin uzunmüddətli proqramının işlənməsi, mərhələli şəkildə həyata keçirilməsi;
- psixoterapiyanın zəruri tədbirlərini həyata keçirmək, fərdi vurğuların rahatlaşdırılması, psixopatiyalar;
- şəxsiyyətin pozulmuş sosial əlaqələrinin hərtərəfli bərpası, onun sosial pozitiv zehni fəaliyyətinin səfərbər edilməsi, sosial müsbət dəyər istiqamətlərinin bərpasına əsaslanaraq cari

və gələcək hədəf qoyuluşunun sosial müsbət sferasının formalaşdırılması;

- Rejimin yeni prinsiplərinin işlənməsi və həyata keçirilməsi, onun fundamental

humanistləşdirilməsi;

- müsbət yaradıcı maraqlara əsaslanan sosial müsbət mikro mühitin təşkili, qrupdaxili qruplararası münasibətlərdə insanın mənəvi özünü ifadə etməsi üçün şəraitin yaradılması;

- sosial uyğunlaşmış davranışı təşviq etmə metodundan geniş istifadə.

Cinayətkarların şəxsiyyətinin yenidən məskunlaşması ilk növbədə dəyərin yenidən yönəldilməsi,

sosial pozitiv məqsəd qoyulması mexanizminin formalaşması, sosial pozitiv davranışın güclü stereotiplərinin sabitliyinin inkişafı ilə əlaqələndirilir. Cəmiyyətə uyğunlaşdırılmış şəxsiyyət davranışının formalaşması üçün şərait yaratmaq islah müəssisələrinin əsas vəzifəsidir.

Düzəltmə psixologiyası bir cəza çəkən şəxsin həyat tərzini və xüsusiyyətlərini, bir insanın fərdi özünü həyata keçirməsi üçün sosial təcrid şəraitinin müsbət və mənfi amillərini araşdırır. Düzəltmə müəssisələrinin işçiləri məhkumların şəxsiyyət qüsurlarının diaqnozu və bu qüsurları düzəltmək üçün ənənəvi olaraq insanın kriminallaşmasına səbəb olan bir çox mənfi təsirin qarşısını almaq üçün ən çətin vəzifə ilə üzləşirlər.

Məhkumların müəyyən kateqoriyalarının psixodiaqnostikası və psixokorreksiyasının mürəkkəb problemlərinin həlli yalnız yaşayış yerini dəyişən psixologiya sahəsinin müvafiq mütəxəssisləri üçün mümkün olan bir vəzifədir.

Məhkumlar (cinayətkarlar) arasında insanlar, itkilər və dəyər istiqamətləri var, onlardan çoxu autizmdən (ağrılı sosial kənarlaşma), müxtəlif psixi anormallıqlardan - psixopat, neyrotika, həddən artıq dərəcədə zehni özünütənzimləmədən əziy-

yət çəkir. Bu şəxslər təcili tibbi reabilitasiya və psixoterapevtik rejimə ehtiyac duyurlar.

Əsas "günah həbsxanası ", insanın sosial qucağından ayrılması, fərdin sosial əlaqələrinin məhv edilməsi, sərbəst hədəflər qoymaq bacarığı, insanın özünü həyata keçirmə ehtimalının məhv olmasıdır. Cinayət cəzasının icrası zamanı davranışını necə planlaşdırmağı unutmuş insan əqli cəhətdən əlildir.

Hal hazırda ölkəmizdəki penitensiar sistem beynəlxalq standartlara uyğun olmalıdır. Bütün bu problemlərin həllində elmi və praktik yönümlü müasir penitensiar psixologiya - fərdin özünü daxili təşkil etmə, zehni mexanizmi elmi cəhətdən çox vacibdir.

## ƏDƏBİYYAT

1. Hoffman M.L. Development of prosocial motivation: Empathy and guilt./ In N. Eisenberg (Ed), Development of Prosocial Behavior. - New York, 2002, p/ 281-313

2 Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.

3. Ильин Е.П. Психология совести. Вина, стыд, раскаяние. Питер, 2016, 370 с.

# POSTTRAVMATİK STRESS HAQQINDAN OLAN BAŞLICA KONSEPSIYALAR

***Xavərxanım Bakıxanova***
***SDU- nun II kurs magistrantı***
***xaverxanim1997@mail.ru***

Posttravmatik stressin inkişaf etiologiyasını, mexanizmlərini izah edə bilən vahid universal qəbul edilmiş nəzəri konsepsiya yoxdur. Lakin buna baxmayaraq bir neçə nəzəri model

hazırlanmışdır: psixodinamik, koqnitiv, psixososial və psixo-bioloji yanaşmalar.

Posttravmatik stressin izahında, aradan qaldırılmasında Z.Freydin psixodinamik nəzəriyyəsi ilklərdən hesab olunsa belə bu yanaşma travmatik situasiyanın bütün göstəricilərini izah etməkdə və travmatik situasiyanın yaratdığı təsirin aradan qaldırılmasında effektiv üsul hesab edilmir. Psixodinamik yanaşmaya görə, travmatik situasiya zərərçəkən şəxslərdə simvolizasiya prosesinin pozulması ilə nəticələnir. Z.Freyd travmatik nevrozu narsist münaqişə kimi qiymətləndirir. Müasir və klassik psixodinamik modelə görə travmanın nəticələrinə bunlar daxildir: oral inkişaf mərhələsinə reqres-siya, libidonun obyektdən "Mən"ə köçməsi, sadomazoxist infantil implusların remobilizasiyası,ibtidai müdafiə mexa-nizmləri, "Mən"in avtomatlaşdırılması, təcavüzkarla eyniləş-dirmə,"Super-Mən"in arxaik formalarına geri çəkilmə, "Mən" in dağıdıcı dəyişiklikləri.

Posttravmatik stressə digər yanaşmalardan biri də koqnitiv yanaşmadır. Travmatik situasiya yaşamış şəxslərdə pozuntu-ların müşahidə olunmasının əsas səbəblərindən biri mövcud situasiya haqqında informasiyanı düzgün qiymətləndirə bilmə-məkləri ilə əlaqədardır. Bununla əlaqədar olaraq, idrakın psixo-terapevtik modellərində travmatik təcrübənin yenidən qiymət-ləndirilməsi aspektindən mövcud problemə yanaşılır. Post-travmatik stressdən əziyyət çəkən şəxslərin şüurundakı travma səbəbi insanın fərdi xüsusiyyətlərindən kənarda qalarsa nəticələrin aradan qaldırılması bir o qədər asan olacaq. Bu zaman zərərçəkən şəxsin dünyanın mövcud rasionallığı və vəziyyəti üzərində öz nəzarətini qorumaq bacarığına inamı qorunur və artırılır. Posttravmatik stressdən əziyyət çəkən şəxslərdə ədalət, özünə dəyər və xeyirxahlıq hisslərinin tədqiq olunması məqsədəuyğundur. Çünki məhz bu hisslər posttrav-matik stressdən əziyyət çəkən şəxslərdə təhrif olunur (2).

Psixofizioloji model isə travmatik situasiyanın təsirinə uzunmüddət məruz qalmış şəxslərdə psixoloji təsirlər nəticəsində fizioloji durumlarında baş verən dəyişiklikləri tədqiq edir. Bu modelin mənfi cəhəti ondadır ki, tədqiqatlar əsasən heyvanlar üzərində laboratoriyalarda aparılır.

M.J.Horowitz 1998-cı ildə koqnitiv, psixoanalitik və psixofizioloji modelləri sintez etmək cəhdi göstərdi. M.J.Horowitz belə düşünür ki, travmatik situasiyanın təsirinə məruz qalmış şəxsin əsas meyli ağrının qarşısını almaqdır və orqanizm də buna uyğun reaksiyalar göstərir. Stress daxili və xarici informasiyanın məcmusudur. İnformasiyanın həddindən artıq toplanması nəticəsində əsassız məlumatlar şüurdan şüursuzluğa ötürülərək aktiv formada saxlanılır. Travmatik situasiya yaşamış şəxsin prinsipi ağrının qarşısını almaq olduğu üçün informasiyanı şüursuz bir şəkildə saxlamağa çalışır. Lakin tamamlanma meyli ilə əlaqədar olaraq bəzən şüurlu formada da saxlanılır. İnformasiyanın düzgün təhlilindən sonra təcrübə ilə birləşdirilir və nəticədə zədə artıq aktiv vəziyyətdə saxlanılmır. Buraya həm bioloji, həm də psixoloji nüanslar daxil edilmişdir. Bu modelin mənfi cəhəti ondan ibarətdir ki, fərdi fərqlərin nəzərə alınması vacib hesab olunmur (4).

Təbii ki, nəzərdən yayınmamalıdır ki, posttravmatik stressin aradan qaldırılması üçün sosial dəstəyin olması məqsədəuyğundur. Psixososial model mövzuya məhz bu aspektdən yanaşır. Psixososial yanaşma M.J.Horowitz modelinə əsaslansa da burada sosial dəstək amilləri, stiqma və ya damğalanma, demoqrafik amillər, mədəni xüsusiyyətlər, əlavə stresslərin vacibliyi vurğulanır. M.J.Horowitzin yanaşmasında məlumatlar əsas götürüldüyü halda fərdi fərqlər nəzərə alınmırdı. Psixososial modeldə isə informasiya baxımından müəyyən çatışmazlıqlar mövcud olsa da fərdi fərqləri nəzərə almağa, müəyyən etməyə imkan verir.

Fizioloji fəsad müşahidə olunmayan travmatik situasiya qurbanlarının cəmiyyətə adaptasiyasında travmanın fiziki

nəticələrinin olmaması, maddi nüanslar, əvvəlki sosial statusun qorunması, cəmiyyət tərəfindən sosial dəstəyin olması xüsusilə də yaxın insanlarla əhatə olunma əsas sosial amillər hesab olunur.

Posttravmatik stressə psixososial yanaşma tərəfdarları qeyd edir ki, posttravmatik stressin aradan qaldırılmasında zərərçəkənin ətrafında olan şəxslərin sosial dəstəyi, sağlam sosial mühitin yaradılması vacib amildir. Creen (1990) və John Wilson (1993) psixososial yanaşmanın tərəfdarları olaraq ətraf mühit amillərini nəzərə almağın vacibliyini qeyd edir və bu cür təsnifatlaşdırırlar. Sosial dəstək amilləri, mədəni amillər, demoqrafik nüanslar, dini inanclar, əlavə stress yarada biləcək amillərin olub olmaması və s. Bu yanaşma tərəfdarları qeyd edir ki, hər bir amilin intensivliyi ayrı-ayrılıqda nəzərə alınmalıdır.

Posttravmatik stress ilə bağlı İrvin David Yalomun nəzəriyyəsi də geniş yayılmışdır. İ.D.Yalom nəzəriyyəsində ölüm, təcrid olunma, mənasızlıq və azadlıq aspektindən posttravmatik stressə yanaşmışdır. Onun izahına nəzər yetirək. İnsan başqasının xüsusilə də sevdiklərinin ölümünə şahid olması nəticəsində öz ölümünün mümkünlüyü haqqında da fikirlərin formalaşmasına səbəb olur. Ölüm qorxusu insanlarda 3 yaşından müşahidə olunmağa başlayır. Bu zaman uşaqlar tək yatmaqdan qorxmağa və ətrafındakılara ölümlə bağlı suallar verməyə başlayırlar. İ.D.Yalomun təsnifatı ilə bu zaman uşaqlarda 3 cür müdafiə mexanizmi işə düşür: öz ölümü ilə bağlı illuziyalar, ədalətlik illuziyaları və dünyanın yaranmasının sadəliyi illuziyaları (1, s. 97).

Öz ölümü ilə bağlı illuziyalarda uşaqlar düşünürlər ki, "Hər kəs öləcək, amma mənim hələ vaxtım var. Ölümsüzlük içkisi ilə və ya başqa yollarla mən xilas olacam." Lakin uşaqların qəfil, gözlənilmədən travmatik situasiya ilə qarşılaşması onları ilk dəfə ölümün mümkün ola biləcəyinə inandırır

və belə bir fikir formalaşır ki, dünya heç də təhlükəsiz bir ərazi deyil.

Ədalət illuziyasını isə İ.D.Yalom belə izah edir ki, uşaqlar belə düşünürlər ki, valideynlərimin bütün dediklərinə əməl etsəm heç bir bədbəxt hadisə baş verməyəcək. Ən çox təsadüf olunan illuziyalardan biri hesab olunur. Təbii ki, travmatik situasiya xüsusilə uşaqlarda ədalətlilik hissini tamamilə məhv edir. Uşaqların yaşadığı ən böyük stresslərdən hesab olunur. Buna səbəb əgər qiymətləndirilməyəcəksə yaxşı oxumağa, gözəl insan olmağa çalışmağın nə əhəmiyyəti var.

Digər illuziya isə dünyanın yaranmasının sadəliyi ilə əlaqədar nüanslardır. Xüsusilə azyaşlılar belə düşünür ki, dünya xeyir və şərdən, ağ və qaradan ibarətdir. Travmatik situasiyanın baş verməsi isə vəziyyəti daha da mürəkkəbləşdirir.

İ.D.Yalomun azadlıq aspektindən posttravmatik stress mövzusuna yanaşması bu tərzdədir ki, hər bir insana görə azadlıq anlayışı fərqlidir. Xarici səbəblər insanların özlərini azad hiss edə bilməsi üçün həlledici rol oynamır. İnsan özünü cəzaçəkmə müəssisəsində də azad hiss edə bilər. Bu mövzuya zidd olaraq sərbəst hərəkət edə biləcəyi halda isə özünü azad hiss etməyə bilər. İ.D.Yalom belə düşünür ki, ən effektiv azadlığımızı məhdudlaşdıracaq hiss günahkarlıq hissidir. Eyni zamanda günahkarlıq hissindən yaranan borc hissi, öhdəçiliklər və s.

Günahkarlıq hissi ən faydasız hiss hesab olunur. Bu hissi yaşayan şəxslərdə inkişaf nadir hallarda müşahidə olunur. Keçmişlə yaşayırlar. Psixoloji travma yaşamış insanlarda günahkarlıq hissinin təzahürü 3 formada təsnif olunur:

1.Travma yaşamış şəxs günahkarlıq hissini xəyali yaradır və özünü günahlandırmağa mütləq səbəb tapmağı bacarır.

2.Travma yaşamış şəxs travmatik situasiya zamanı və ya onun gedişində edə biləcəkləri haqqında analizlər aparır. Bunun nəticəsində günahkarlıq hissi təbii ki, qeyri-sağlam

formada inkişaf edir. Ən ağırı isə posttravmatik stressdən əziyyət çəkən şəxsin həqiqətən də günahkar olmasıdır.

3.Son təsnifata isə "sağ qalma günahı" adlandırılır. Posttravmatik stressdən əziyyət çəkən şəxs sağ qaldığına görə özünü günahkar hiss edir. Sanki həm özünün, həm də travmatik situasiyada həlak olanların yerinə yaşayırmış kimi sağlam olmayan məsuliyyət, borc, öhdəçilik və digər hislərlə müşayiət olunur.

İ.D.Yalomun posttravmatik stressə "özünü təcridetmə" aspektindən yanaşmasının səbəbi budur ki, travmatik situasiyanı yaşamış şəxslər belə düşünürlər ki, onları yalnız özləri kimi ağır həyat yaşamış şəxslər başa düşə bilər. Cəmiyyətdə də ağır həyat yaşamış, travmatik situasiyaların qurbanı olmuş şəxslərlə insanlar ünsiyyətdən qaçır, sanki bu situasiyaların keçici olduğunu düşü-nürlər. Posttravmatik stressdən əziyyət çəkən şəxslərdə özünə qapana, ətrafla ünsiyyətdən çəkinmə, bacardıqları qədər insanlarla aralarına sərhəd qoyma müşahidə olunur. Ətrafdakı insanlarla ünsiyyət onlar üçün maraqsız, darıxdıcı hesab olunur.

Təbii ki, travmatik situasiyanın ağırlıq dərəcəsi, intensivliyi, zərəçəkənlərin fərdi psixoloji xüsusiyyətləri, sinir sisteminin quruluşu, psixoloji yaş göstəriciləri, İQ səviyyələri və digər nüanslar nəticəsində hər kəsdə sadalanan göstəricilər eyni ağırlıq dərəcəsində müşahidə olunmur.

İ.D.Yalomun "mənasızlıq" anlayışı ilə konsepsiyasını irəli sürən zaman Viktor Franklın həyatın mənası haqqında olan ideyalarından bəhrələnmişdir. V.Frankl qeyd edir ki, insanlar məna tapa bildikləri istənilən situasiyaya davam gətirə bilərlər. Travmatik situasiya isə gözlənilmədən, qəflətən baş verdiyi üçün insanlar məna, səbəb axtarışlarına cavab tapa bilməkdə əziyyət çəkirlər və zamanla orqanizmin mövcud situasiyaya qarşı mübarizə aparmaq qabiliyyəti zəifləyir. Müalicə olunmassa isə geridönüşü olmayan hadisələr baş verə bilər (1, s. 128).

## ƏDƏBİYYAT

1. Cavadov R.Ə.,Tağıyeva G.B. Eksterimal şəraitdə psixoloji xidmət. Bakı: ADPU, 2010, 231 s.
2. Clark D.A.,Beck A.T. Scientific foundations of cognitive theory and therapy of depression. New YorkNY: Wiley,1999
3. ClarkD.A., Beck A.T.Cognitive therapy of anxiety disorders: Science and practice. New York NY: Guilford Press, 2010
4. ТарабринаН.В. Практикум по психологии посттравматического стресса, СПб: Питер, 2001

## ZORAKILIĞA MƏRUZ QALMIŞ QADINLARIN ŞƏXSİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Dosent əvəzi Yamən Vəliyeva***
***Aişə Musayeva***
***BDU – nun II kurs magistrantı***

Zərərçəkmiş qadınların şəxsiyyətinin psixoloji analizi zamanı onu nəzərə almaq lazımdır ki, şəxsiyyətə qarşı törədimiş zorakılıqların 80%-i o şəxslər tərəfindən törədilir ki, onlar zərərçəkmişlə qohum, intim və digər yaxın münasibətlərlə bağlı olmuş olsun. Bu cinayətlər həmin münasibətlərin yaratdığı konfiliktlərin sonuncu mərhələsi nəticəsində baş verir.

Uzun müddət zorakılığa məruz qalan qadınlarda bir sıra xüsusiyyətlər özünü biruzə verir:

1.Zorakılığa məruz qalan qadınlar başqaları ilə ünsiyyət qurarkən adətən göz kontaktı qurmağa çəkinirlər.

2.Qeyri-iradi olaraq zorakılığa məruz qalan insanların qoruyucu jestləri var, həmsöhbətin səsinin yüksəlməsi və ya gözlənilməz jesti zamanı əllərini qaldırılıb üzlərini örtürlər.

3.Emosional reaksiyalara nəzarət zəifləyir, kiçik səbəblərə görə göz yaşı tökürlər.
4.Özlərini zəif, itaətkar bir varlıq kimi qiymətləndirir, kifayət qədər ağıllı və güclü hesab olmadıqlarının düşünürlər.
5.Başqalarının xoşuna gəlmək üçün şəxsi inanclarına uyğun gəlməyən şeyləri etməyə hazırdırlar.
6.Özlərinin həyat yoldaşlarında asılı hesab edirlər. Nə maddi, nə mənəvi, nə də psixoloji cəhətdən ərsiz yaşamaq iqtidarında deyillər.
7.İnkişaf etməmiş fərdi keyfiyyətlərə malik olurlar. Özlərinin şəxsiyyətini, istəklərini, maraqlarını, dünyagörüşünü qoruya bilməyirlər.
8.Ənənəvi tərbiyəyə malik olurlar. Qadınlıq, zəriflik, dözümlülük, fədakarlığa hazır, ərinə və uşaqlarına sadiqlik kimi stereotiplər həyatlarının əsas şüarlarıdır.
9.Gündəlik yüngül problemlərini həll etmək üçün kənardan köməyə ehtiyacları olur.
10. Özlərini bədbəxt, ikinci dərəcəli insan kimi dəyərləndirirlər.
11. Qətiyyətsiz olurlar, sərbəst qərar qəbul etməkdən çəkinirlər.
12. Güc və hakimiyyəyə itaətə meyillilik və s.

Davranış səviyyəsində; alkoqoldan və ya narkotikdən zərərli şəkildə istifadə, qidalanma problemi (bulimiya və ya anoreksiya), suisidal cəhdlər və ya fikirlər, ətrakdakılarla qarşılıqlı münasibətin pozulması, cəmiyyətdən qaçma, şübhəlilik, səmimi münasibətə qarşı inamsızlıq, bəzən uşaqlara, valideynlərə və ya digər zəif insanlara zorakı davranış göstərirlər.

Psixoloji səviyyədə; yuxu pozuntusu, xatirələri canlandıran, təkrarlayan kabuslar, diqqətin mərkəzləşməsində çətinlik, qıcıqlanmanın yüksək səviyyəsi, cəmiyyətin düşmən-çilik mövqeyinin hiss olunması, depressiv vəziyyət, qıcıqlandırmanın və hətta aqressiyanın qəfl qığılcımı. Fizioloji səviyyədə;

Hava çatışmazlığı hissi, mədədə diskomfortluq, daxili spazmalar, baş ağrıları, seksual aktivliyin aşağı enməsi, laqeydlik hissi.

Seksual zorakılıqdan əziyyət çəkən qadınlar kompleks güclü həyəcan keçirirlər: günahkarlıq hissi, utanc, çarəsizlik, hadisəni idarəetmə və qiymətləndirə bilməmə, hərkəsin "öyrənəcəyindən" qorxurlar, öz bədənlərindən iyrənirlər. Zorakılıq edənin kim olmasından asılı olaraq (tanış və ya yad) psixoloji vəziyyət müxtəlif cür dərk olunur. Əgər zorakı yad bir insan olarsa, o zaman qurban əksər hallarda baş verənlərin səbəbini xarici aləmdə görür (qaranlığın düşməsi, yollarda insanların olmaması və s.). Əgər günahkar – tanış adamdırsa, o zaman insan səbəbi daxilində axtarır (xarakter və s.). Tanışı tərəfindən zorakılığa məruz qalan qurbanın stress reaksiyası daha az olur, lakin uzun sürür. Könüllü olaraq, eyni cinsdən zorakılığa məruz qalan insanlar yardım edə bilər.

Ona görə də zorakılığa məruz qalmış qadınların psixofizioloji xüsusiyyətlərinin öyrənilməsi (iradəsi, əsəb proseslərinin çevikliyi, əsəb fəaliyyətinin tipi, temperament tipi) zərərçəkmiş qadının zorakılıq zaman necə hərəkət etmə-sini, bütövlükdə hadisənin düzgün portretini yaratmaq imkanı-nı müəyyən etməyə kömək edir. Bu keyfiyyətləri həmin qadın-larla ünsiyyətin yaradılması zamanı nəzərə almaq lazımdır.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s
2. Аминов И.И. Юридическая психология. – М.: Юнити, 2007. – 415с.
3. Волков Б.С. Мотивы преступлений (уголовно- правовое и социально психологическое исследование). Казань. 1982.

4. Еникеев М.И. Юридическая психология. - СПб.: Питер, 2004.
5. Криминальная мотивация. Под ред. В.Н.Кудрявцева. М.1986.

## UŞAQLARDA NİTQİN İNKİŞAFI

***Emre Aykan***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: dos.Təranə Babayeva***
***aykanemre35@gmail.com***

Nitq – bəşəri mövcudluğun ən fundamental atributudur; o insana məxsus olan, onun mahiyyətilə əlaqədar olan məsələdir. Ona görə də, antropoloqlar insanın öyrənilməsi üçün nitqin müstəsna rolunu qeyd edirlər. Deli X.Xaym «Nitqin etnoqrafiyası» əsərində yazır: «Nitqin öyrənilməsi insan haqqında elm üçün həlledici mənaya malikdir», hətta «dil etnoloji obyekt kimi baxıla bilər»; təsadüfi deyildir ki, bəzi antropoloqlar «dilə, və deməli, linqvistikaya insan haqqında elmin əsası kimi baxılmışdır» Nitq dilin reallığı, onun mövcudluq üsuludur. O yalnız bəşəriyyətin təşəkkül və inkişafıüçün vasitə deyil, həm də təşəkkületmə və inkişaf prosesinin hərəkətverici qüvvələrindən biridir. «Nitq ruhi yaradıcılıqdır», deyə Fossler yazırdı(3, səh.113).

Nitq – konkret ünsiyyət prosesində fəaliyyət göstərən dildir. Nitq insan fəaliyyətinin bir növüdür. Fəaliyyət - canlı sistemlərin aktivliyinin ali forması, insanların sosial gerçəkliyinin mövcudluq üsuludur. Fəaliyyət həyatın özü qədər mürəkkəb və rəngarəngdir; rəftar, davranış, düşüncə, əlaqə və münasibət, ətraf aləm, predmet vəəşyalarla rəftar, ünsiyyət və s. insan fəaliyyətinin fomalarının kiçik bir sferasınıəhatə edir. Nitq fəaliyyəti insanların real həyatınını müəyyən sferasını təşkil edir; həyatın özü, ictimai münasibətlər və mübadilə

fəaliyyətlər sistemindən başqa bir şeyd deyildir. Fəaliyyət müstəsna dərəcədə geniş və mürəkkəb anlayışdır.

Nitq – situativ fəaliyyətdir, o insanın rəftar modeli, həm də bəşəri keyfiyyətdir. Nitq mürəkkəb mexanizmə malik olan fizioloji prosesdir. Onun artikulyasiyası bütöv bir mədəni və sosial kompleksə malikdir ki, onu danışan istədiyi vaxtda deyil, situasiyanın, xarici aləmin, insanlararası münasibətlərin məntiqinin tələb etdiyi zaman reallaşdırır. Nitqi fəaliyyət prsoesində danışanın çıxardığı səslər dalğalara çevrilərək ətrafa yayılır ki, bu da reaksiyaların əmələ gəlməsinə səbəb olur. Nitqin səs tembri elə olmalıdır ki, normal eşitmə orqanına təsir edə bilsin. Nitq relevant (fərqləndirici) olmalıdır ki, dinləyici onu anlaya bilsin, yəni səslərin aydınlığı, ton, tembr və s. nitq-dil (nizamlı, düzənli) olmalıdır. Nitqin bu cəhətlərilə fonoloji və morfoloji analiz məşğul olur (4, səh.33).

Nitq də nitq fəaliyyəti kimi fəaliyyət növüdür. Onlar arasındakı fərq ondadır ki, nitq fəaliyyəti həm sosial, həm də fərdidir, halbuki nitq – xalis fərdi-psixi fəaliyyətdir. Dil və nitqin münasibətinə gəldikdə isə Sössür dili və nitqi bəzən dil və dil qabiliyyəti kimi təfsir edirdi. Onda nitq dilin manifestasiyası, gerçəkləşməsi, reallaşma üsulu kimi təqdim edilir; bəzi hallarda da nitq onun üçün fikir və anlayışların gerçəkləşmə məkanı hesab edilir.

Nitq də dil kimi universallığa iddialı bir anlayış hesab edilə bilər. Məsələ bundadır ki, nitq prosesində istifadə olunan hər səs müəyyən mənanın daşıyıcısı kimi çıxış edir. Təsadüfi deyil ki, səs dəyişikliyi məna dəyişikliyinə, ən yaxşı halda onun təhrif edilməsinə gətirib çıxarır (1, səh.514).

Nitq biz insanlara anadangəlmə verilən bir bacarıq deyil, doğulub müəyyən sağlam inkişaf mərhələsini keçdikdən sonra ətrafmızdakı insanların səlist nitqi əsasında formalaşan bir qabiliyyətdir. Məhz buna görə də uşaqlarla danışarkən hətta 0-1 yaş arası müddətində belə onları səlist nitqlə,heç bir sözün əsl adını başqa sözlə əvəz etməyərək (məs:su-büvə,ayaqqabı-

aqqaş,yemək-appa və s.) danışdırmaq lazımdır. Çünki uşaq hansı sözü necə eşidirsə,o cür də beynində və dilində avtomatlaşdıracaq və gələcəkdə nitqi ilə bağlı problemlər üzə çıxacaq. Uşaqların nitq inkişafı onların psixi inkişafının ən önəmli hissəsidir. Nitqin olmaması, nitq qüsurunun olması, söz ehtiyatının azlığı uşaq psixikasına mənfi təsir edir. Bütün bu nitq pozuntuları uşaqlarda ilk olaraq aqressivlik, qavrayışın ləngiməsi, təfəkkürün geriliyi və bu kimi digər psixoloji narahatlıqlara gətirib çıxarır. Buna görə də uşaqların nitq inkişafına xüsusi diqqət yetirmək lazımdır. Uşaqlarda nitqin inkişafı mərhələ ilə inkişaf edir.

Nitqin əsas inkişaf dövrü 2-5 yaş arası hesab olunur və aşağıdakı mərhələlərdə gedir:

1. Ünsiyyətə girmə
2. Siqnallar və jestlər
3. İlk sözlər
4. Sözlər və söz birləşmələri.
5. Sadə cümlələr
6. Mürəkkəb cümlələr
7. Sərbəst fikir söyləmə mövzu üzrə danışmaq və söhbət aparmaq bacarığı.

Nitqlə bağlı problemləri bu yaşlarda aşkarlayıb korreksiyasına başlamaq ən doğrusudur. Çünki başqa problemlərdə olduğu kimi nitqlə bağlı qüsurların da aradan qaldırılmasına nə qədər erkən başlanılsa, o qədər də yaxşı nəticələr əldə etmək olar. Belə ki, nitq müəyyən inkişaf mərhələsi keçir və qiymətləndirmə zamanı 0-1 yaş arası dövrü nitqə ilkin hazırlıq mərhələsi hesab olunur (2, səh.125).

Belə ki,uşağın doğulan zaman ağlaması,doğuş zamanı hər hansı bir travma alıb almaması, qidalanması (əmmə prosesinin normal olub olmaması ,hansı ki bu sonradan bizə artikulyasiyanın vəziyyəti haqqında məlumat verir) adına reaksiyanın vaxtında olması, ata anasını evdə yaxınlarını tanıması, acdıqda və ya bir yeri ağrıyarkən bunu ağlamaqla

bildirməsi, vaxtında oturması, iməkləməsi, yeriməsi və s. bütün bu inkişaf mərhələlərini normal keçməlidir ki, artıq 7-8 aylığında eyni hecaları təkrarlasın və 1 yaşında artıq sözlər yaransın. Uşaq 1 yaşında 10-12 söz 18 aylığında 40-60 söz deməli 2-3 yaşında 2-3 sözlü cümlələri səlist qurmalı 3-4 yaşlı uşağın nitqi isə nəinki ailə üzvləri, həmçimin ətrafdakılar tərəfindən də anlaşılan olmalıdır.

Beləliklə, kiçik yaşlı uşaqlarda nitiqin inkişafının ailə tərəfindən izlənilməsi və inkişafının dəstəklənməsi çox əhəmiyyətlidir. Bununla yanaşı məktəbəqədər dövrdə bağçaların da üzərinə böyük məsuliyyət düşür. Belə ki, məktə-bəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi üzrə bütün işlər onların hərtərəfli inkişafına, məktəbdə müvəffəqiyyətlə oxumalarını təmin etmək imkanı verir. Uşaq bağçalarında nitq inkişafı üzrə iş apararkən diqqət hər şeydən əvvəl, uşağın lüğət ehtiyatının zənginləşməsinə, nitqin səs mədəniyyətinin tərbiyə edilməsinə, nitqin qrammatik quruluşunun formalaşdırılmasına yönəldilməlidir.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə., Psixologiya, Bakı 2002, səh. 513-515
2. Həmzəyev M.Ə. Yaş və pedoqoji psixologiyanın əsasları, Bakı 2003
3. Новое в зарубежной лингвистике, Вып. VII, Прогресс, М., 1975.
4. В.А.Звенгинцев. История языкознания. Ч.II, с.33

# PEŞƏYÖNÜMÜNƏ YANAŞMALARIN PSİXOLOJİ TƏHLİLİ

***Çinarə Hüseynli***
***BDU-nun dissertantı***
*chinara.huseynli@mail.ru*

Şəxsiyyətin peşə özünütəyinetməsi sosial prosesdir, onun əsas məzmunu insanın öz peşəsini seçməsi ilə bağlıdır. Seçim şəxsiyyətin özünütəyinetməsinin vacib mərhələsi olub psixoloji planda fərdin peşənin tələblərini "yoxlaması", fəaliyyətin konkret növlərinin həyata keçirilməsində özünün obyektiv imkanların qiymətləndirilməsi və şəxsiyyətin dəyər – motivasiya sahəsinin sosial mühitin tələblərinə uyğun olub-olmamasını bildirir.

Peşəyönümü və peşə seçimi həmişə insan həyatında, ilk növbədə, fərd və cəmiyyət üçün arzu edilən və zəruri olan bütöv bir ziddiyyətlər kompleksinin həllini tələb edən həlledici məqamdır. Seçim situasiyasında peşənin nüfuzu və cəlbediciliyi subyektin davranışını şərtləndirən amillərdən biridir. Bu eyni zamanda şəxsiyyətin peşə səyyarlığının tənzimlənməsinin sosial mexanizmləridir.

Qeyd edək ki, peşənin cəlbediciliyi və nüfuzu oxşar cəhətlərə malik olsada lakin məzmun baxımından müxtəlif xüsusiyyətlərə malikdir. Əgər peşənin cəlbediciliyinin qiymətləndirilməsi həmişə subyektiv xarakter daşıyırsa və daha çox şəxsiyyətin maraqlarını, dəyərlərini, münasibətlərini ifadə edirsə, peşənin nüfuzu isən onun şüurunda müsbət ictimai qiymətləndirmənin əksi kimi özünü göstərir

Məlumdur ki, "peşəyönümü" termini ilk dəfə ABŞ-da hələ ötən əsrin əvvəllərində məişətə daxil olmuşdur. Sonrakı illər ərzində peşəyönümü müxtəlif tədqiqatçlar tərəfindən inkişaf etdirilmiş və öyrənilmişdir. Müasir dövrdə insanlar arasında düzgün təşkil edilmiş peşəyönümü işi dövlətin uğurlu kadr

siyasətinin rəhni olduğundan onun öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Qeyd etmək lazımdır ki, peşəyönümü probleminin öyrənilməsinə coxsaylı tədqiqat işləri həsr olunsada, bu sahədə əldə edilmiş nəticələr kifayət qədər sistemləşdirilməmişdir.

Peşəyönümünə elmi yanaşmaların təhlilinə bilavasitə keçməzdən əvvəl, elmi ədəbiyyatda mövcud olan peşəyönümünə verilən tərifləri nəzərdən keçirmək lazımdır.

S.N.Çistyakova görə peşəyönümünü“şagirdlərin azad, şüurlu şəkildə peşə seçiminə hazırlığının elmi –təcrübi sistemi” kimi nəzərdən keçirmək olar. Digər tədqiqatçı S.Y.Batışevə görə peşəyönümü böyüməkdə olan nəslin şəxsi qabiliyyətlərinə, cəmiyyətin tələblərinə və bu və ya digər peşəyə yararlı olmasına müvafiq olaraq peşə maraqlarının və meyllərinin formalaşması ilə bağlı olan məqsədyönlü fəaliyyətdir.

Psixologiyada peşəyönümü iki qarşılıqlı psixoloji proses kimi təhlil olunur: insan tərəfindən öz peşə seçimi haqqında qərarın qəbul edilməsi və onda peşə niyyətlərinin formalaşdırılması məqsədilə insanın psixikasına təsiri. Sosioloji və iqtisadi istiqamətdə aparılan tədqiqatlarda isə “peşəyönümü cəmiyyət və onun üzvləri arasında sosial təlabatları nəzərə almaqla ixtisaslaşdırılmış işçi qüvvəsinin formalaşması məsələsi üzrə sosial – iqtisadi münasibətlərin məcmusu kimi nəzərdən keçirilir [4, s. 62].

Görkəmli tədqiqatçı V.D. Simonenko peşəyönümü ilə bağlı belə müxtəlifliyin və rənagarəngliyin olmasını onunla izah edir ki, peşəyönümü iş metodlarına görə pedaqoji, məzmununa görə sosial, nəticələrinə görə iqtisadi və təşkilinə görə dövlət işidir”.

Bu istiqamətdə tədqiqat aparan T. E. Dus peşəyönümünün öyrənilməsinə elmi yanaşmaların aşağıdakı təsnifatını irəli sürmüşdür: pedaqoji, psixoloji, sosioloji, iqtisadi, tibbi – bioloji, idarəetmə - təşkilati və peşəyönümünün hüquqi tənzimlənməsi ilə bağlı yanaşmalar. Qeyd etdiyimiz yanaşmaları təhlil etməyə çalışaq.

Bu yanaşmalar arasında pedaqoj yanaşma yaranma tarixinə görə daha erkən yanaşma hesab olunur. Bu yanaşma çərçivəsində peşəyönümü istiqamətli təlim və tərbiyə işinin müxtəlif formaları və metodları öyrənilir. Şagirdlərin ictimai – faydalı əməyə, tədris və tədrisdənkənar işdə əsas peşə qrupları ilə tanış olması məsələləri nəzərdən keçirilir. Zəhmətsevərliyin, peşə əməyinə hörmətlə münasibətin, habelə şəxsiyyətin peşəkar formalaşmasının tərbiyə edilməsi böyük əhəmiyyət kəsb edir. Bu yanaşmanı təcrübədən keçirən əsas sosial peşə yönümü institutu, şübhəsiz ki, orta təhsil müəssisələri hesab olunur. Qeyd edək ki, peşəyönümünün öyrənilməsinə pedaqoji yanaşma *psixoloji yanaşma* ilə sıx bağlıdır [4, s. 51]. Peşəyönümünün psixoloji aspekti daha çox peşə seçiminə təsir edən daxili və xarici psixoloji amillərin öyrənilməsinə həsr olunmuşdur. Buraya əmək fəaliyyətinə psixoloji hazırlıq məsələləri, şəxsiyyətin psixoloji xüsusiyyətləri (maraqlar, meyllər, qabiliyyətlər, tələbatlar, tələblər və s.), peşə istiqamətinin formalaşmasına kömək edən dəyər istiqamətləri və motivasiya məsələlərini aid etmək mümkündür. Əslində söhbət peşəyönümündən gedərkən bu prosesin psixoloji tərəfini aydınlaşdırmadan anlayışın məzmununu açmaq mümkün deyil.

Cəmiyyətdə gedən bütün proseslər şagirdlərin peşə özünütəyinə birbaşa və ya dolayı şəkildə təsir edir. Peşə özünütəyini şəxsiyyətin sosiallaşması prosesinin ayrılmaz tərkib hissələrindən biridir. Sosioloji yanaşma çərçivəsində peşənin seçiminə təsir edən sosial amillər, kadrlara ictimai tələbat, əmək bazarı tədqiq edilir.

Peşəyönümü fəaliyyətinin öyrənilməsinin *iqtisadi* tərəfi sosioloji yanaşmaya kifayət qədər yaxındır. Bu yanaşmanın vəzifələri sənayenin müxtəlif sahələri, kənd təsərrüfatı, xidmət sahələri və s. üçün ixtisaslı kadrların hazırlığı probleminin həllindən ibarətdir. İstehsalatın müxtəlif sahələrinin tələblərinə xüsusi diqqət verilir. Peşəyönümü fəaliyyəti çərçivəsində sosial – iqtisadi yanaşma peşəyönümündə nisbətən yeni istiqamət

olan, gələcək peşə fəaliyyəti ilə bağlı olan real əmək şəraitinin və ya həyat situasiyalarının modelləşdirilməsindən ibarət olan peşə adaptasyası da əsas yerlərdən birini tutur. Sosioloji və iqtisadi yanaşmalar çərçivəsində əsas sosial peşəyönümü institutu əhalinin məşğulluq mərkəzləridir.

Peşəyönümünə digər bir yanaşma tibbi – bioloji yanaşmadır. Bu yanaşmanın tərəfdarları bu və ya digər peşənin seçimi zamanı tibbi əks göstərişlərin və peşəkar əməyin uğurluluğunun fizioloji zəminlərinin nəzərə alınmasına xüsusi diqqət yetirirlər. Qeyd edilir, həkimin peşə bağlı verdiyi məsləhət bütün digər məsləhətlərdən əvvəl həyata keçirilməlidir. Bu zaman sosial peşəyönümü institutu kimi, ilk növbədə, tibbi – sosial ekspertiza və reabilitasiya mərkəzlərinin işi xüsusi əhəmiyyət kəsb edir.

Peşəyönümünə idarəetmə - təşkilati yanaşma onun inzibati idarə edilməsinin təşkili problemlərinin öyrənilməsi ilə bağlıdır. Bu yanaşma çərçivəsində peşəyönümü işinin əsas qaydaları, məqsədləri, tələbləri və aparılma qaydası nəzərdən keçirilir. Peşəyönümünün elmi baxımdan idarə edilməsi məlumatın toplanmasını və emal edilməsinin, hərəkətlər proqramının hazırlanması, nəzarət, tövsiyələr məcmusunu özündə əks etdirir. İdarəetmə - təşkilati yanaşmaya peşəyönümü işinin təşkilinin hüquqi məsələlərini nəzərdən keçirən və sosial – iqtisadi münasibətlərin hüquqi nizamlanmasına yönəlmiş, peşəyönümündə müasir istiqamətləri müəyyən edən peşəyönümünün *hüquqi idarə edilməsi* yaxındır. Görünür ki, idarəetmə - təşkilati fəaliyyətlə və peşəyönümününhüquqi idarə edilməsi ilə dövlət siyasətini və peşəyönümü fəaliyyətinin inkişaf strategiyasını müəyyən edən dövlət məşğul olur [3, s.34].

## ƏDƏBİYYAT

1.Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.

2. Выготский Л.С. Психология. М.: АПРЕЛ-ПРЕСС, 2002, 1008 с.
3. Едалина Н.Б. Самоопределение лчности как путь себя. Екатирнабург: 2003, 160 с.
4.Климов Е.А.Психология профессионального самоопределения. М.: Академия, 2010, 304 с.
5. Онипко А.А. Самоопределение старшеклассников при выборе професии // // Известия Уральского государственного университета, 2011, № 3 (92), с. 191-200.
6. Пряжников Н.С. Профориентация в школе: игры, упражнения, опросники.М.: ВАКО, 2005, 288 с.

## ДОМАШНЯЯ РАБОТА КАК СРЕДСТВО АКТИВИЗАЦИИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ МЛАДШИХ ШКОЛЬНИКОВ

***Доц. Ирана Мамедли***
***Периханым Магеррамова***
***Магистрант 2-ого курса БГУ***
***peri.magerramova88@gmail.com***

Задача современного учителя научить ученика учиться, то есть мотивировать его на самообразование. Процесс этот длительный, кропотливый и целенаправленный. Устойчивый интерес к учебной деятельности у младших школьников на уроке формируется разными приёмами: привлечением сказочных персонажей, через игровую и проектную деятельность, использованием творческих заданий и т.п. Своевременное чередование и оптимальное применение их на разных этапах урока формирует учебную мотивацию, укрепляет желание детей овладевать знаниями, развивает навыки самостоятельности. Но урок заканчивается, и что дальше? Как помочь

малышу продолжить процесс образования вне стен школы?

Домашнее задание является самостоятельным видом деятельности. Оно углубляет знания и умения, полученные на уроках, помогает предотвратить их забывание, развивает индивидуальные склонности, дарования и способности учеников. Любое домашнее задание, на мой взгляд, влияет и на становление таких сторон личности, как самодисциплина, чувство долга, сила воли и ответственность. При правильном подходе к домашнему заданию оно может оказаться действенным инструментом повышения учебной мотивации учащихся.

Практика показывает, что приобретенные на уроке знания, которые не повторяются дома, забываются быстрее. Отказ от домашней самостоятельной работы обязательно влечет за собой снижение качества обучения. Учителя, работающие в первом классе, отмечают сложности в формировании навыков чтения, письма и счёта у своих воспитанников после отмены домашних заданий на первом году обучения. Да и родители жалуются, что сложнее усадить малышей потренироваться писать буквы и читать слова, когда нет обязательных упражнений, заданных в школе на дом.

## ЛИТЕРАТУРА

1. Бухаркина К.Л., Полат Е.С. Новые педагогические и информационные технологии в системе образования. – М.: Академия, 2001. – 582 с.
2. Затраты времени на выполнение домашних заданий // Образование в современной школе. – 2003. – № 8. – С.18
3. Как педагоги могут помочь родителям работать с детьми над домашними заданиями // Образование в современной школе. – 2002. – № 5. – С. 50

# PEDAQOGİKA BÖLMƏSİ

***Bölmə rəhbəri – prof.L.N.Qasımova***

## ALİ TƏHSİL SİSTEMİNDƏ KEYFİYYƏTƏ NƏZARƏT MEXANİZMİ

***Səma Abbasova***
***BDU-nun II kurs magistrantı***
***semaabbasova94@gmail.com***

Təhsil tarixinə nəzər saldıqda bəşəriyyətin qədim zamanlardan bəri davamlı keyfiyyət axtarışında olduğunu görmək mümkündür. Bu gün dünyanın bir çox yerində təhsilin müasir və qabaqcıl səviyyələrə çatmasında düzgün həyata keçirilən təhsil siyasəti və idarəetmə mexanizmləri sayəsində həmin təhsil müəssisələrinin davamlı inkişaf və irəliləyişi yolunda müsbət nəticələr əldə edilmişdir.

Elmin, texnikanın və cəmiyyətin tələbatının yüksək səviyyədə ödənilməsi məqsədi ilə fərqli fəaliyyət sahələrində keyfiyyət anlayışına müxtəlif izahlar verilmişdir.Keyfiyyət fəlsəfi kateqoriyadır. Əşyaların, sistemlərin, hadisələrin, proseslərin, münasibətlərin bütövlük baxımından xarakteristikası, onların özünəməxsusluğu, bir-birindən fərqi keyfiyyət ilə ifadə olunur. Təhsil sistemində isə keyfiyyət dedikdə, təhsilin cəmiyyətin, dövlətin və təhsil alanların dövlət standartlarına və tələbata uyğunluğunu ifadə edir.

Keyfiyyət anlayışına alman alimi Hegel(1770-1831) tərəfindən verilmiş fəlsəfi tərifi vardır: "Keyfiyyət ilk növbədə gerçəklik kimi ehtiva olunan müəyyənlikdir, çünki keyfiyyətini itirən hər bir şey öz mövcudluğunu itirmiş olur". Bu kateqoriya hələ antik fəlsəfədə formalaşsa da, Hegel tərəfindən kateqoriyalar sistemində müstəqil yer tutması üçün nəzəri cəhətdən əsaslandırıldı.Hegel keyfiyyətlə kəmiyyət arasında qarşılıqlı

əlaqənin olduğunu sübut etmişdir. Həmin vaxtdan başlayaraq fəlsəfədə obyektiv dünyanın keyfiyyətə kəmiyyət müəyyənliyi kimi danışmağa başlamışdılar. Hegel tərəfindən müəyyən edilmişdir ki, hər bir real obyekt öz keyfiyyətə kəmiyyət müəyyənliyi ilə "keyfiyyət ölçüsünə", öz hüdudlarına malikdir. Bu hüdudların kəmiyyət həddlərindən kənarda obyektin keyfiyyəti dəyişir. Bu fikirlər fəlsəfə qanununa görə kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi haqqında mülahizə irəli sürür.

Keyfiyyət anlayışı Fransız dilindəki "qualite" sözündən meydana gəlmiş vəbir şeyin yaxşı, ya pis olması xüsusiyyətini göstərir. Keyfiyyətlə əlaqədar ədəbiyyatı araşdırarkən onun çoxlu sayda müxtəlif təriflərinə rast gəlmək olar. Keyfiyyət və onun idarəedilməsi sahəsində dünyada tanınmış təşkilat vəmüəssisələrin keyfiyyətə verdikləri təriflər müxtəlifdir:

1) keyfiyyət, bir məhsul və xidmətin müəyyənləşdirilmiş və ya gələcəkdə ortaya çıxa biləcək ehtiyacları qarşılayan xüsusiyyətlərinin məcmusudur. (İSO ─ 8402);

2) keyfiyyət istifadəyə uyğunluqdur (Y. Juran);

3) keyfiyyət mal və ya xidmətin müəyyən edilmiş tələbləri qarşılaya bilmə xassələrinin cəmidir (Amerika Keyfiyyətə Nəzarət Cəmiyyəti ─ASQS);

4) keyfiyyət məhsulun göndərilməsindən sonra cəmiyyətdə səbəb olduğu ənaz zərərdir (G. Taguchi);

5) keyfiyyət bir mal və ya xidmətin istehlakçı istəklərinəuyğunluq dərəcəsidir (Avropa Keyfiyyətə Nəzarət Cəmiyyəti ─ EOQS) və s.

Ali təhsil müəssisələri ümumi rəqabət və bazar münasibətləri şəraitində yüksək ixtisaslı kadrların hazırlanması və cəmiyyətin sosial-ictimai və siyasi- iqtisadi həyatın modernləşdirilməsi sahəsində mühüm rol oynayır. Bu rəqabət mühitində universitetlər keyfiyyətli təhsili innovasiya ilə birləşdirərək daha çox baza-bilik toplamağa və keyfiyyətli insan kapitalı yetişdirməyə çalışmaqdadır. Bütün dünya

ölkələrində ali təhsil müəssisələri müəyyən keyfiyyət standartlarına nail olmaq əsas vəzifə kimi durur. Keyfiyətin ali təhsildə nəyi ifadə etdiyi məsələsində müəyyən fikir ayrılıqları olsa da, bir müəssisədə baş verən hadisə və proseslərin sistematik və müntəzəm qiymətləndirilməsi və monitorinqi keyfiyyətə nəzarət olaraq adlandırılmaqdadır.

Keyfiyyətə nəzarət anlayışı adı altında məhsulun və ya prosesin xassələrinin kəmiyyət və keyfiyyət xarakteristikalarının texniki tələblərəuyğunluğunun yoxlanılması başa düşülür. Keyfiyyətə nəzarətin təşkili isə normativ-texniki sənədlərin tələblərinə tam uyğun olan təhsil sisteminin təmin olmasına yönəlmiş inzibati tədbirlər sistemidir.Təhsil eksperti Təranə Hacıyevanın fikrincə, müasir dövrümüzdə təhsil sisteminin monitorinqini təhsil keyfiyyətinə nəzarəti təmin edən ən vacib mexanizm hesab etmək olar.

Təhsil sahəsində tətbiq olunan yeniliklərin səmərəliliyini və effektivliyini artırmaq əldə olunan nəticələrin izlənilməsi proqnozlaşdırılması diaqnostika və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədilə monitorinq təhsil sistemində də geniş istifadə olunmaqdadır. Təhsildə monitorinq prosesin inkişaf dinamikasının fasiləsiz izlənilməsi baş verən nöqsanları proses davam edərkən düzəldilməsinə xidmət edir.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunun 9-cu maddəsində təhsilin keyfiyyət səviyyələri aşağıdakı kimi öz əksini tapır:

- Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil *və peşə* standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir.

- Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir.

- Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir və akkreditasiya xidməti tərəfindən müvafiq qaydada qiymətləndirilir [1, s. 5].

Tətbiqi elm istiqamətində təhsil sahəsində keyfiyyət idarəetmə 20-ci əsrin əvvəlindən formalaşmağa başlamışdır və bu gün təhsilin keyfiyyətini təmin etmək (bütünlüklə) bütün ölkələrin təhsil islahatlarının mərkəzləşdirilmiş yerlərindən birini təşkil edir, eyni zamanda onların həyata keçirilməsinin məqsədi və qəbul edilmiş tədbirlərin uğurlu olmağın ən mühüm meyarıdır. Keyfiyyətin idarəedicilərinin inkişafı yoxlama, monitorinq və qiymətləndirmə keyfiyyətin idarə edilməsi kimi təyin oluna bilər. Müasir şəraitdə təhsil keyfiyyətinin qiymətləndirilməsinin, tələbələrin əldə etdiyi nailiyyətləri izləmək üçün məlumatların öyrənilməsinə nəzarət etməklə və nəhayət, diaqnostika, bilik ölçmə kimi təhsil nailiyyətləri yeni pedaqoji anlayışlar vasitəsilə həyata keçirilir və bunlar ümumilikdə keyfiyyətə nəzarət məfhumunu özündə ehtiva edir:

• Lisenziya, sertifikatlaşdırma və akkreditasiya prosedurlarında qiymətləndirmə metodologiyası;

• Təhsilin keyfiyyətinin standartlaşdırılması;

• Təhsil prosesinin normativ bazası kimi dövlət təhsil standartlarını da daxil olmaqla keyfiyyət standartlarını təmin etmək;

• Təhsil sistemlərinin, təhsilin məzmununun, təhsil və təhsil proseslərinin, tələbələrin biliklərinin, kadr potensialının təsnifatı;

• Təhsildə testlərin qurulması nəzəriyyəsinin və təcrübəsinin inkişaf etdirilməsi;

• Yeni qiymətləndirmə modellərinin və qiymətləndirmə texnologiyalarının inkişaf etdirilməsi;

• Pedaqoji ölçmələrin, monitorinqin və digər sahələrin nəticələrinin toplanması və təhlil üsullarının kompüterləşdirilməsi [2, s.120].

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu. Bakı, 2012, -64 s.
2. Nəzərov. M. H. Təhsilin keyfiyyətinin idarə edilməsinin sosiomədəni aspektləri. Rating Academy, 2019.
3. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu, 2003,-416 s.
4. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: " Müəllim", 2010,-170 s.
5. https://edu.gov.az.


# ALİ TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU


***Mətanət Səmədli***
***BDU-nun II kurs magistrantı***
***samedli.2016@mail.ru***


Təhsil sahəsində keyfiyyətinin dəyərləndirilməsinə aid ilkin addımlar indiki dövrdə təhsil sisteminin mövcud vəziyyətinin təhlilini təmin edir. Bu sahədə əsas inkişaf istiqamətləri barədə proqnozların hazırlanması, keyfiyyətin yüksəldilməsi ilə bağlı konkret tədbirlərin müəyyənləşdirilməsi məqsədilə təhsil keyfiyyətinin göstəriciləri sisteminin formalaşdırılması zəruridir. Bununla əlaqədar təhsilin keyfiyyətinin dəyərləndirilməsi sahəsində ölkədə mövcud olan təcrübə və həmin

məlumatların beynəlxalq təcrübədə istifadə olunan vasitələrlə qarşılıqlı inteqrasiyası (məlumatların toplanması və təhlili metodları, nəzarət-ölçü vasitələri, göstəricilər sistemi, meyar-lar, normalar və s.) ilkin fəaliyyət istiqamətləri kimi xüsusi əhəmiyyət kəsb edir.

Təhsildə keyfiyyətinin yüksəldilməsi üçün müəyyən sisteminin qurulması aşağıdakı əsas məqsədlərin həyata keçirilməsini zəruri edir:

1. Respublikada təhsilin keyfiyyətinin dəyərləndirilməsi, onun inkişafının əsas istiqamətləri barədə proqnozların hazırlanması, keyfiyyətin yüksəldilməsi istiqamətində əsas fəaliyyətlərin müəyyənləşdirilməsi məqsədilə göstəricilər (indikatorlar) sisteminin formalaşdırılması;

2. Təhsilin keyfiyyətinin vahid mövqedən dəyərləndirilməsi üçün mövcud təcrübənin təkmilləşdiril-məsinin əsas istiqamətlərinin təyin edilməsi, bu sahədə yeni təşkilati struktur və mexanizmlərin yaradılması və onların funksiyalarının müəyyənləşdirilməsi, təhsilin keyfiyyətinin təmin olunması məqsədilə müxtəlif idarəetmə strukturlarının və maraqlı tərəflərin fəaliyyətlərinin koordinasiyası;

3. "Keyfiyyətə nəzarət" modelindən "keyfiyyətin təmin olunması" modelinə keçidə imkan verən nəzarət-ölçü vasitələrinin (sorğu kitabçaları, testlər, kompüter proqramları və s.) yaradılması.

Göstərilən zəruri fəaliyyətlərin həyata keçirilməsi üçün ilkin addımlar:

1. Nəticəyönümlü yeni kurikulum proqramı çərçivəsində yeni təhsil standartlarının, onlara nail olmanı və pedaqoji ölçmə nəzəriyyəsinin müasir vəziyyətini əks etdirən göstəricilərin hazırlanması.

2. Təhsil İslahatı Proqramının əsas istiqamətlərindən biri kimi təhsilin keyfiyyətinin dəyərləndirilməsi üçün böyük əhəmiyyət kəsb edən Milli və Beynəlxalq qiymətləndirmə sistemlərinin tətbiq edilməsi.

3. Təhsilin keyfiyyətinin dəyərləndirilməsi sisteminin qurulması və ondan təlimin və tədrisin ehtiyaclarını ödəmək məqsədilə istifadə edilməsi üçün standart qiymətləndirmə prinsiplərinin müəyyənləşdirilməsi.

İnkişaf etmiş ölkələrdə aşağıdakı Standart prinsiplər qəbul edilmişdir:

*Nəzərdə tutulmuş məqsədlərlə dəyərləndirilmə arasında uzlaşmanın təmin olunması.

*"Nailiyyətlərin" və "Təhsil imkanlarının" qarşılıqlı qiymətləndirilməsi.

*Toplanmış məlumatların keyfiyyətcə müvafiqliyinin təmin olunması (validlik).

*Qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq.

*Tədris-təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Hazırki vəziyyətin təhlili göstərir ki, təhsilin keyfiyyətinin dəyərləndirilməsi sahəsində qarşıya qoyulmuş məqsədlərin gözlənilməsi, ölkədə təhsil sisteminin əhatə etməsi və effektivliyi ilə bağlı məlumatların təhsil siyasətini müəyyənləşdirən maraqlı tərəflərə çatdırılması vacibdir. Qeyd edilən funksiyaların yerinə yetirilməsi həmçinin göstərilən struktur bölmələrin, xüsusilə də Monitorinq və qiymətləndirmə, Təhsilin idarəolunmasının məlumat sistemləri, Strateji təhlil və planlaşdırma şöbələrinin birgə fəaliyyətini zəruriləşdirir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // Azərbaycan məktəbi, 2013, № 5.

2.Kərimov Y. Təlim metodları. Bakı, 2007.

3.Mərdanov M. Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr. Bakı, 2001.

4. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlimtərbiyə işinin təkmilləşdirilməsi yolları. Bakı, 1983.

5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.

6. "Təhsildə Qloballaşma və İKT" mövzusunda konfrans materialları.Bakı 2008

7. " Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. // Kurikulum, 2009, №2.

## СЛОВА ГЕЙДАРА АЛИЕВА ОБ БАКИНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ

***Нармин Рамазанова***
***магистрант II курса БГУ***
***nermin.ramazanova.2014@mail.ru***

Национальная идентичность каждой нации обусловлена развитием ее культуры, науки и образования. Чистота, которая прошла такой славный путь, как восхождение на высший уровень человеческой цивилизации, прежде всего обязана развитию науки и культуры (5).

Речь идет о величии и бессловесности успокоения Гейдара Алиева. Идентичность недостаточно обеспечивается людьми, которые не могут быть установлены путем задержки истории. Однако величие личности Гейдара Алиева и бесконечность его преданности Багамам, людям, стоящим на особой высоте, иногда можно встретить. Величие Гейдара Алиева связано с его сильной любовью к Родине. Эта великая личность достигает недостижимой высоты, неистощимая любовь к Родине создает его чудодейственную силу, знает ее границы и неисчерпаема.Слова «Бакинский государственный универ-

ситет - национальная гордость азербайджанского народа» происходят из сердца Гейдара Алиева (1).

Гейдар Алиев - величайший человек Бакинского государственного университета. Невозможно представить что-либо более высокое, чем чувство удовлетворения и гордости за то, что его слава поднялась до высочайших высот, которые слава может постичь умом. Азербайджанский народ, который долгое время терял свою независимость и государственность из-за исторической несправедливости, также был лишен возможности создания национальной системы образования и форм цивилизованного духовного образования, которые выступают в качестве мощного фактора национального единства.

Азербайджанский народ, который долгое время терял свою независимость и государственность из-за исторической несправедливости, также был лишен возможности создания национальной системы образования и форм цивилизованного духовного образования, которые выступают в качестве мощного фактора национального единства (3).

В 1930 году на базе университета были созданы Педагогический институт Азербайджанского института, а затем Институт народного хозяйства.Бакинский государственный университет дал толчок национально-освободительному движению в Азербайджане с его неоценимыми услугами по укреплению чувства национальной идентичности и развитию национального духа. Даже в один из самых трудных лет, когда национальный дух был задушен жестокостью национального самосознания, ведущие интеллектуалы университета не стеснялись говорить правду свободолюбивым ученым (2).

Одним из важных показателей заботы и внимания Гейдара Алиева к Бакинскому государственному универ-

ситету является празднование его юбилея. Его неоценимые заслуги в развитии культуры образования азербайджанской науки всегда были признаны всеми руководителями.

Гейдар Алиев отметил: «Я счастлив, что принял участие в 60-летии Бакинского Государственного Университета, и теперь я являюсь участником 75-летия университета»

Гейдар Алиев В целях оживления деятельности Бакинского государственного университета в новых условиях и повышения качества образования и обучения разработаны концертные произведения, основными элементами которых являются:

1) предотвращение обрушения материальной базы университета и принятие мер по укреплению

2) ускорить реализацию реформы образования и направить ее в реальное русло

3) повысить заботу работников о социальных проблемах

4) повысить образовательную репутацию университета (4).

## ЛИТЕРАТУРА


1. А. М. Атакишиева - История Азербайджанского Государственного Университета
2. А. Магеррамов – История Бакинского Государственного Университета.
3. Бакинский Государственый Университет – Абель Магеррамов 1950 г.
4. Гейдар Алиев – Бакинский Государственный Университет
5. Зияд Амрахов – История Бакинского Государственного Университета 1980 г.

# TƏLİM PROSESİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN HƏYATA KEÇİRİLMƏSİNİN İMKAN VƏ YOLLARI

***Aygün Abuzərli***
***BDU-nun II kursmagistrantı***
***aygun.abuzerli96@gmail.com***

Monitorinq hazırki vəziyyətin öyrənilməsidir. Təhsildə monitorinq isə təhsilalanların öyrənmə səviyyəsinin diaqnostikası mənasını verir.Monitorinqdə məqsəd təlim prosesinin nəticələrini üzə çıxarmaq, təhlil etmək və qiymətləndirməkdir. O, təhsil prosesində əldə olunan nəticələri, həmin nəticələrin, uğurların formalaşma dinamikasını üzə çıxarır. Bunu təmin etmək məqsədilə tələbələrin mənimsəmə keyfiyyətinin hazırda mövcud olan nəzarət sistemini daha da təkmilləşdirmək tələb olunur. Nəzarətin proqressiv və perspektiv metodlarından biri də bacarıq və vərdişlərin reytinq sistemi ilə qiymətləndirilməsidir [1,14].

Reytinq- təlim prosesini təşkil edən və onun effektivliyini təmin edən sistemdir. Reytinq sistemi mühüm pedaqoji innovasiyalardan biri olub bilik və bacarıq mənimsənilməsi səviyyəsinin qiymətləndirilməsi ilə yanaşı, tədris fənninin sistemli öyrənilməsinə də mənimsənilməsini, ali təhsil müəssisəsində tələbənin müstəqil fəaliyyətinin reallaşdırılmasını təmin edir. Ali məktəblərdə tələbələrin biliyi ənənənvi kurs imtahanları, seminar, fərdi iş, kollokvumlar, məqbullar həm də çoxballı sistem əsasında qiymətləndirilir. Belə ki, ali məktəbdə tələbənin biliyinin yoxlanması və qiymətləndirilməsi təlim prosesində mühüm yer tutur və bu prosesin vacib bir ünsürü kimi özünü göstərir [2, 144].

Tələbənin bilik və bacarığının qiymətləndirilməsi həm də öyrənmə prosesində, seminar məşğələsi, kollokviumlar, fərdi iş, praktik iş, labarator məşğələlər, kurs işləri, buraxılış işləri

vasitəsilə, həm də hər semestrin axırında imtahan formasında həyata keçirilir. İmtahanlar şifahi, yazılı, testlə və ya praktik ola bilər. Bu formaların seçilməsini öyrədən müəssisələr müstəqildirlər. Ali məktəbdə seminar məşğələləri praktik məşğələlərin əsas və geniş yayılmış formasıdır. Seminar məşğələləsinin sonunda əsas diqqət təlim müvəffəqiyyətə nəzarət və qiymətləndirməyə verilir. Seminar məşğələlərində müxtəlif tipli formalardan istifadə olunur: seminar sorğu, seminar-disput, referativ seminarlar, problematik seminarlar, proseminarlar, seminar-işgüzar oyunlar, dəyirmi masa, seminar yoxlama işi və s. [3, 12].

Tələbələrin müstəqil iş növlərindən biri də laborator məşğələlər vasitəsilə də qiymətləndirmə aparılır. Bu zaman müəllim tələbənin işgüzarlıq səviyyəsini, potensial imkanlarını, intelektual qabiliyyətlərini üzə çıxarır və onu qiymətləndirir. Təhsil sistemində monitorinq və qiymətləndirməni tətbiq edərkən onun istifadə yollarını, əhatə dairəsini əvvəlcədən planlaşdırmaq əsasdır [4, 231].

## ƏDƏBİYYAT


1. Антинова В. Богомолова Г. Система школьного педагогического мониторига. Инновационная щкола, М, 1997, N2
2. Handbook on planning,monitoring and evaluating for development results.A.K.Office Supplies (NY), 2009
3. Məmmədzadə R.M. Təhsildə keyfiyyət aparıcı istiqamətlərindən biri kimi.Bakı, Müəllim, 2010.
4. Orucov V.Ö. Təhsilin keyfiyyətinin yüksəldilməsi amilləri. Azərbaycan məktəbi .Bakı,2006, N6

# İDARƏETMƏ PROSESINDƏ MƏQSƏD QOYULUŞU VƏ PLANLAŞDIRMA

***Lalə Yusifova***
***BDU-nun II kurs magistrantı***
***yusifova835@gmail.com***

İdarəetmə - təşkilatın məqsədini müəyyənləşdirib, bu məqsədə çatmaq üçün planlaşdırma, təşkiletmə, motivləşdirmə və nəzarət prosesləridir. İdarəetmənin başlıca məqsədi – təlim prosesinin səmərəli təşkili yolu ilə yüksək nəticə əldə etməkdən ibarətdir.İdarəetmə fasiləsiz və dinamik bir prosesdir. Bu prosesin düzgün təşkili və həlli, son nəticə əldə edilməsi istiqamətində görülən bütün işlərin ayrı-ayrı funksiyalar şəklində təşkili və icra edilməsini tələb edir.

İdarəetmə funksiyaları müəssisədə idarəetmə quruluşunun yaradılması, təsərrüfatçılıq fəaliyyətinin məzmunu baxımından çox mürəkkəb münasibətlər sistemi hesab olunur. İdarəetmənin funksiyası – əmək bölgüsündən irəli gələn, idarəetmənin obyektiv məqsəd və vəzifələrinin ümumiliyi ilə xarakterizə edilən, müəssisə və onun idarə edilməsində şəxslərə məqsədyönlü təsir göstərmək üçün tətbiq edilən xüsusi fəaliyyət növüdür. Başqa sözlə desək, idarəetmənin funksiyaları idarəetmə fəaliyyətinin xüsusi növü olmaqla, əmək bölgüsünün təzahür forması kimi qəbul edilə bilər.

İdarəetmənin əsas funksiyaları aşağıdakılardır:

* Təhlil və proqnozlaşdırma
* Məqsəd qoyuluşu və planlaşdırma
* Təşkiletmə
* Tənzimləmə
* Motivləşdirmə
* Nəzarət
* Uçot.

Məqsəd hər bir fəaliyyətin əsasını təşkil edir. Məqsədin düzgün və aydın qoyuluşu idarəetmə fəaliyyətinin səmərəli təşkilinə imkan yaradır.

Planlaşdırma müəssisənin qarşıya qoyduğu məqsədə çatmaq yollarını və mərhələlərini özündə birləşdirir. Plan– qarşıya qoyulan məqsədləri, onların məzmununu, ardıcıllığını, müəyyən müddət ərzində onlara nail olunması yollarına dair fikirləri və ideyaları özündə əks etdirir. Planlaşdırma prosesi planların tərtib edilməsi ilə əlaqədar bir prosesdir. Planlaşdırma prosesi qərarların qəbul edilməsi və reallaşdırılması ilə əlaqədar təsəvvürlərin sistemləşdirilməsi mexanizmdir.

Planlaşdırma təhsil müəssisənin məqsədinin seçilməsini və son nəticəyə nail olmaq üçün nələr edilməli olduğunu özündə birləşdirir. O, demək olar ki, bütün idarəetmə qərarlarının əsasını təşkil edir. Planlaşdırma məqsədin uzunmüddətli həllini nəzərdə tutur. O məqsədə çatmaq üçün təyin olunmuş xüsusi strategiyanın hazırlanmasına doğru aparan, rəhbərlik tərəfindən əvvəlcədən qəbul edilən qərar və ideyaların məcmusudur. Planlaşdırma idarəetmə qərarlarının qəbul edilməsində istiqamətverici komponentdir. Onun əsas vəzifəsi –təhsil müəssisəsində yenilikləri və dəyişiklikləri lazımı səviyyədə təmin etməkdir. Strateji planlaşdırma idarəetmənin təşkili və planlaşdırılmasının əsasıdır.

Planlaşdırma prosesinin mərhələləri aşağıdakılardır:

1. Məqsədin müəyyən olunması;
2. Bilik səviyyəsininmonitorinq və qiymətləndirilməsi;
3. Zəif və güclü amillərin tədqiqi;
4. Yeni strategiyanın seçilməsi;
5. Strategiyanın həyata keçirilməsi;
6. Strategiyanın qiymətləndirilməsi.

Planlaşdırma idarəetmənin təşkiletmə və tənzimləmə funksiyaları ilə birbaşa əlaqəlidir.

Effektiv idarəetməyə nail olmaq üçün bu funksiyalar vəhdət halında tətbiq olunmalıdır.

## ƏDƏBİYYAT

1. İsmixanov M.A, Bəxtiyarova R.Ə. Ali məktəb pedaqogikası B., 2010
2. Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarəolunmasınınəsasları B., 2010
3. İ.B. Əmirov, Z.E. Hacıyeva.Menecment Bakı – 2015

## ПОНЯТИЕ И ОБЩАЯ ХАРАКТЕРИСТИКА ИНФОРМАЦИОННО КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАНИИ

***Алсу Велизаде***
***магистрант II-го курса БГУ***
*alsu-davlyatshina@mail.ru*

Фокус образовательной парадигмы в XXI веке сместился с преподавателя и процесса преподавания на учащегося и процесс обучения. Перед педагогами сегодня стоит задача максимально эффективного использования ИКТ для поддержки преподавания и процесса обучения.

Задача накопления, обработки и обмена информацией стояла перед человечеством на всех этапах его развития и во всех сферах деятельности, в частности, в процессе обучения. Естественно, что в связи с этим создается информационное обеспечение процесса обучения — система форм и методов его отображения на каком-то носителе информации. Достаточно долго основным носителем этого обеспечения и основным инструментом для решения задач накопления, обработки и распространения полученной информации были мозг, язык и слух человека.

Положение в корне изменилось с появлением компьютеров. Правда, сначала они использовались в

основном как большие автоматические арифмометры. Принципиально новый шаг был сделан, когда от применения компьютеров для решения отдельных задач перешли к использованию их для системной автоматизации тех или иных законченных участков деятельности человека по переработке информации. Решающее значение для эффективности систем подобного рода имеет то обстоятельство, что они опираются на автоматизированные информационные базы. Это означает, что в памяти компьютера постоянно сохраняется информация нужная для решения тех задач, на которые рассчитана система.

Информатизация сегодня рассматривается как один из основных путей модернизации системы образования. Это связано не только с развитием техники и технологий, но и, прежде всего, с переменами, которые вызваны развитием информационного общества, в котором основной ценностью становится информация и умение работать с ней. Соответственно, одной из главных задач современной системы образования является разработка проектов и программ, способствующих формированию человека современного общества.

Основной целью педагогических коллективов является создание условий для выявления и развития способностей каждого ребенка, формирования личности, имеющей прочные базовые знания и способной адаптироваться к условиям современной жизни. Информатизацию образования следует рассматривать как одно из важных средств достижения поставленной цели. При этом имеется в виду решение ряда последовательных задач: техническое оснащение, создание дидактических средств, разработка новых технологий обучения и т.д., определяющих этапы процесса модернизации. Развитие информационных технологий и средств телекоммуникаций создает основу для

осуществления научных и образовательных и научных программ на качественно новом уровне.

Создание скоростных телекоммуникаций и разработка технологий реального времени дает возможность реализации моделей распределенной образовательной среды, построенной на технологиях удаленного доступа к информационным ресурсам и компьютерных средствах общения. Несмотря на дефицит телекоммуникационных ресурсов, уже сейчас эти технологии прочно вошли в практику образовательных учреждений. Электронную почту, которая десять лет назад казалась значительным прогрессом в развитии коммуникационных технологий, сменили онлайн технологии. А уникальные лабораторные экспериментальные и вычислительные комплексы стали доступны благодаря средствам автоматизации и компьютерным технологиям дистанционного управления.

Преимущества таких технологий очевидны. Они позволяют объединять материальные и вычислительные ресурсы образовательных и научных центров для решения сложных задач, привлекать ведущих специалистов и создавать распределенные научные лаборатории, организовывать оперативный доступ к ресурсам коллективного пользования и совместное проведение вычислительных и лабораторных экспериментов, осуществлять совместные научные проекты и образовательные программы. Важным качеством современных информационно-коммуникационных технологий (ИКТ) является их универсальность, они могут быть основой в организации любой деятельности, связанной с информационным обменом, основой в создании общего информационного пространства.

Учитывая требования современного образования, будущему учителю необходимо научиться ориентироваться в широком спектре современных инновационных технологий, идей, школ, направлений и не тратить время

на открытие уже известного. Анализ литературных источников показал, что в настоящее время достаточно полно разработаны теоретические основы информатизации образования. Педагогический опыт подтверждает наличие условий для внедрения этих инноваций, то есть оснащение кабинетов учебных заведений дидактической техникой, что позволяет в полной мере использовать информационно коммуникативные технологии в образовательном процессе.

## ПЕРЕДОВОЙ ХАРАКТЕР ИДЕЙ ЯНА АМОСА КОМЕНСКОГО

***Фазлуллах Меликов***
***Магистрант II курс БГУ***
***meljkovfazli@gmail.com***

В отслеживании современных образовательных концепций и идей назад к их происхождению, можно обнаружить, что их большое количество получены из прогрессивных тенденций прошлого. Одним из таких источников является Ян Амос Коменский, который сформулировал многие аспекты сегодняшней практики в образовании. Коменский представил и отстаивал многие концепцииобразования, что мы принимаем как должное сегодня. Он установил жизненный цикл обучения, начиная с дородового ухода будущей мамы и продолжая через образование в высшей школе; выступает за дошкольное образование, женское образование и прежде всего за всеобщее образование.

Общий вопрос заключается в том, может ли какое-либо историческое развитие науки, например образовательная реформа Ян Амос Коменского, быть полезным для современных или текущих стратегий решения образова-

тельных проблем? Здесь следует упомянуть немецкого педагога Фридриха А. Дистервега (1790-1866) и американского философа Джорджа Сантаяна (1863-1952). Дистервег был убежден, что любой, кто не знает историю своего предмета, никогда не поймет связи целого, движущей силы работы момента (Diesterweg, 1956, 205). И предупреждение Сантаяны гласит: «Те, кто не может вспомнить прошлое, обречены повторять его». (Сантаяна, 1905, 284). То есть: решение текущих проблем начинается «с размышлений о вкладе тех, кто заложил основу для нынешней теории и практики», и, таким образом, для того, чтобы думать дальше, как исторически, в настоящее время и в будущем.

Общие принципы педагогики, определенные Коменским, являются основой современной педагогической науки. Его классификация системы образования на материнскую школу (государственную), латинскую (гимназия) и академию - сегодня единственное различие заключается в продолжительности обучения, предметах и содержании, которые они охватывают. Материнская школа не была реализована в духе и идеях Коменского, но содержание, принципы работы были переданы социальным учреждениям для дошкольного образования. Ян Амос Коменский стал одним из основных факторов, влияющих на современное образовательное мышление, благодаря своей индивидуальности, философскому и образовательному письму. Мы должны попытаться представить современную точку зрения, которая может складываться в такую систему, как система Коменского.

Педагогика Коменского в целом и особенно его мирное воспитание были направлены на то, чтобы научить всех людей всему комплексно («omnesomniaomnino»). Каждый может учиться, и не только в школе. Образование должно приносить пользу «всем» людям: молодым и

старым, богатым и бедным, благородным и простым, мужчинам и женщинам, всем возрастам, всем классам, обществам, культурам и народам. Преподавать или изучать «все» относится ко всему, что делает человеческую природу действительно совершенной.

«Всеохватывающий» означает уместность и тщательность преподавания и обучения. Эти аспекты его концепции обучения, включая его идею построения мира, не были ограничены школой. Его «Пампедия» также считается основой обучения на протяжении всей жизни и дисциплиной образования взрослых. Мирное образование касается всей жизни, которая сама по себе является образовательным учреждением, начиная со «школы дородового становления», заканчивая «школой раннего детства», «школой детства», «школой зрелости», « школа юношества »,« школа мужественности », « школа старости »и« школа смерти »

Великий педагог хотел, чтобы люди заново стремились понять цели, средства и формы своих и чужих действий, отделить существенное от несущественного, осознать отклонение от собственных и чужих мыслей, слов и поступков и исправить их. Во все времена, и особенно в наше время, было и остается его кредо вечной значимости: сделать войну и насилие ненужными, развивать педагогику, ориентированную на ненасилие и диалог, воспитание в духе мира, глубоко понимать межкультурные, межрелигиозные и еретические аспекты и проблемы и тем самым способствуют жизни человека в этом мире. Соответствующие задачи относятся к педагогам, теологам, историкам, философам, лингвистам и культурологам, естествоиспытателям, политологам, писателям, учителям музыки, театральным учёным и т. д. Все они могут получить пользу от работы Коменского и его ценных предложений по своим дисциплинам.

## ЛИТЕРАТУРА

1.См. подр.: Сорина Г.В., Меськов В.С. Вперёд к Коменскому (Глобальный характер проекта Коменского в современных условиях) // Ценности и смыслы. 2012. №4. С.4-18.
2.Я. А. Коменский, Д. Локк, Ж.-Ж. Руссо, И. Г. Песталоцци. Педагогическое наследие.М.: Педагогика, 1989.
3. https://cyberleninka.ru/article/n/yan-amos-komenskiy-i-istoricheskaya-epistema-protestantskoy-uchenosti

# ÇƏTİN YENİYETMƏLƏRİN XÜSUSİYYƏTLƏRİ

***Suqra Rzayeva***
***BDU-nun II kurs magistrantı***
***rsuqra@gmail.com***

Müəllimlər və tərbiyəçilər tərəfindən "çətin” uşaqlar anlayışına tez-tez rast gəlirik. Bunun səbəbi bir çox amillərlə izah olunur.

“Çətin” uşaqlar dedikdə, çox vaxt sözə baxmayan, cəmiyyət tərəfindən qəbul edilmiş normalara uymayan uşaqlar nəzərdə tutulur. Pedaqoji ədəbiyyatda “çətin” uşaqların təhlilini belə verirlər:

- davranışında, hərəkətlərində çətinlik dərəcəsi müəyyənləşdirilən uşaqlar;
- baxımsızlıq səbəbindən əxlaqında, dünyagörünüşündə, əqidəsində yaranan çətinlik dərəcəsi olan uşaqlar;
- əlverişsiz, çətin şəraitdə tərbiyə olunan uşaqlarda özünü göstərən çətinlik dərəcəsi olan uşaqlar;
- düzgün qurulmayan münasibətlər əsasında yaranan çətin uşaqlar.

Məşhur rus psixoloqu L.D.Stolyarenko “çətin”uşaqları üç qrupa bölür:

- Təcavüzkar uşaqlar- bütün uşaqlar həyatlarında təcavüzkar hərəkət edirlər. Bu onların yaş və ya rastlaşdıqları sosial şəraitlə bağlı ola bilər. Amma belə uşaqları təcavüzkar kimi adlandırmaq olmaz. Çünki, belə uşaqlarda təcavüzkarlıq bəzən şəraitlə əlaqədar olaraq yaranmır. Bu onların xarakterik əlamətlərinə çevrilir və həmişə də özünü göstərir.

- Yüksək, idarə olunmayan səviyyəyə çatan emosionallığa malik olan uşaqlar - belə uşaqların hər hərəkəti yüksək həyəcanla qarşılanır və bunu ətrafındakılara da keçirir. Onlar kədərlənəndə də, sevinəndə də bunu yüksək həyəcanla qarşılayır. Yəni, diqqəti cəlb etməyi sevirlər.

- Hədsiz dərəcədə utancaq, həssas, küsəyən, qorxaq, həyəcanlı uşaqlar - belə uşaqlar diqqət cəlb etməyi sevmirlər. Utandıqları üçün problemlərini gizlədir və heç kimə demirlər.

“Çətin” uşaqların pedaqoji təhlilini verərkən müxtəlif səbəblərə toxunurlar. Yəni, belə uşaqların yaranma səbəbi müxtəlifdir. Bunlaradan ən başlıcası və birincisi ailə tərbiyəsində yol verilən nöqsanlarla bağlıdır. Buna səbəb yarımçıq ailənin olması, ailədə valideynlərin əxlaq tərbiyəsinin normal səviyyədə olmaması, ailədə uşağın inkişafı üçün normal şəraitin olmaması, valideynlər arasında yaranan söz-söhbət və s. Ailədə olan hər bir hərəkət və deyilən hər bir söz uşaq psixologiyasına təsir edir. Bu, uşağın sonrakı inkişafında, onun məktəb həyatında, sinif yoldaşları ilə münasibətində özünü göstərir, amma bütöv ailədə, uşağın rəyi nəzərə alınan və onunla düzgün münasibətdə olan ailələrin uşaqlarında təcavüzkarlıq az olur.

Şagirdlərdə yaranan qüsurları aradan qaldırmaq üçün bu istiqamətlərdən istifadə etmək olar:

- müəllim məktəb həyatına yenicə qədəm qoyan hər bir şagirdin psixoloji xarakteristikası ilə tanış olması və orada göstərilən çətinlikləri özü üçün ayırd etməsi;

- belə şagirdlərin davranış və rəftarında yaranan çətinliklərlə əlaqədar sosial pedaqoqların və psixoloqların onlara verdikləri məsləhətləri nəzərə almaq;

- bu cür uşaqlarla işləməyin yollarını axtarmaq, bu işdə hamılıqla əlbir olub yaranan çətin vəziyyəti aradan qaldırmaq və belə şagirdləri sinif yoldaşlarına qarşı düzgün ünsiyyət qurmaqda kömək etməklə normal münasibətlər formalaşdırmaq.

Bu prosesdə məktəb kollektivi, uşaqların valideynləri, sosial pedaqoq və məktəb psixoloqu birgə iş aparmalıdır.

## ƏDƏBİYYAT

1.Dadaşova T.Y.Pedaqoji-psixoloji düşüncələr. B.,2006
2.Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. B., 2003.
3.Hüseynzadə R., İbrahimov F. Pedaqogika. 2 c . B., 2013
4.Məmmədov F., İmamverdiyeva N. Pedaqogika. 2 c., B., 2015

# SOSİOLOGİYA VƏ SOSİAL İŞ BÖLMƏSİ

***Bölmə rəhbəri – dos.Tahir Ağayev***

# ZORAKILIQ VƏ SÜLH ŞƏRAİTİNDƏ KEÇİRİLƏN PROTESTLƏRİN TƏHLİLİ

***Elmira Əliyeva***
***BDU-nun II kurs magistrantı***

Müasir zamanda protestlərin, xüsusilə sosial protestlərin gücü nəhəng dövlətləri belə, əvvəldən qəbul etdikləri qanunlara və qərarlara yenidən baxmağa məcbur edir.

Yaşadığımız dövrdə bütün dövlətlərin hər birinin konstitusiyalarında protestlərin, aksiyaların, nümayişlərin müəyyən şərtlərlə, razılaşdırılmış formada keçirilməsi üçün konkret icazələr vardır. Demokratik üsulla idarə olunan bütün cəmiyyətlərin vətəndaşlarının öz fikirlərini sərbəst şəkildə ifadə etmək, öz hüquqlarını qorumaq və haqqını müdafiə etmək üçün mübarizə aparmağa tam icazəsi verilir. Azərbaycan Respublikasının Konstitusiyasının 49-cu maddəsində qeyd olunur:

Hər kəsin başqaları ilə birlikdə başqaları ilə sərbəst toplaşmaq azadlığı vardır.

Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə, dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ var.

49 maddənin 2-ci bəndində qeyd olunanlar insanların nümayişlər zamanı onların keçirtdikləri protestin mədəni məsələlərini qeyd etməklə, başqa insanların hüquqlarını nəzərə almağı təklif edir. Belə ki, Konstitusiyanın 37-ci maddəsinin 1-ci bəndində qeyd edilir ki, "Hər kəsin istirahət hüququ vardır".

Dövlət yalnız o halda qrupa nümayiş hüququ verir ki, o öz nümayişi ilə başqalarında qıcıq oyatmasın və bununla da o, insanlar arasında yarana biləcək hər cür qarşıdurmaları öncədən sıfırlamağa çalışır.

Qarşıdurmaların və qeyri-nümayiş iştirakçılarının hüquqlarının qorunması yalnız konstitusiyaların və birbaşa dövlətin deyil, eyni zamanda sosioloqların, sosial psixoloqların diqqət mərkəzində olmuşdur. Belə ki, sosial-psixoloqlar piketlər və nümayişlərin idarə olunmasının düzgün qurulması onun zamanlamasının və bu qəbildən olan məsələlərin yerli-yerində olduğu zaman gücünün artmasını və problemin daha tez həll olunduğunu qeyd edirlər. Belə ki, həqiqətən də,aparılan araşdırılmalara görə sülh şəraitində keçirilmiş piket, protest və nümayişlərin daha uğurlu olması faktı təsdiqlənmişdir.

Arizona Universitetinin professoru, psixoloq Duqlas Kenrik "Psixologiya bugün" jurnalında " Zorakılığa qarşı zorakı inqilablar" adlı məqaləsində sülh xarakterli və zorakı nümayişlərin müsbət, mənfi tərəflərini göstərir: "sülh şəraitində keçən nümayişlərin yaxşı tərəfi müsbəthəllin olması, daha çox insanın cəlb olunması, həvəsləndirmə və ya ilhamın olması, müvəffəqiyyət faizinin daha çox olması, aşağı risk faktorunda olması, təşkilatlanmanın daha yaxşı olması . Lakin zorakı üsulla keçirilən protestlərdə arzu olunan qətnamənin qəbulu çətinliklə başa gəlir. Bu isə aksiya iştirakçılarının daha da aqressivləşməsinə səbəb olur."

Aksiyaların zorakı və ya sülh şəraitində olması məsələsi nümayişin təşkilatçılarının əvvəldən qəbul olunmuş nizamnaməsinə və ya proqramına əsasən təyin edilir.

Bu məqamda protest menecmenti məsələsi diqqətdən yayınmamalıdır. Belə ki, müəssisə menecmenti qaydalarını bu təşkilatlanmada tətbiq olunması istisna edilə bilməz. Müəssisə-mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və mənfəət əldə edilməsi məqsədilə məhsul istehsal edən, satan, müvafiq iş və xidmətlər yerinə yetirən hüquqi şəxs

olan müstəqil təsərrüfat subyekti olduğu halda, protest-cəmiyyətdə ayrı-ayrı qrupların sosial narazılıqlarının həmin kütlə tərəfindən ictimaiyyətin nəzərinə çatdırmağa çalışdığı fəaliyyət növüdür. Hər iki anlayışın əsasını insan qrupu təşkil edir və burada təşkilatlanma və ümumi məqsəd ortaq maraqdır.

Bu gerçəkliyi qəbul etdiyimiz zaman sosial protestlərin idarə olunmasında fransız mühəndis Henri Fayolun menecment üçün təklif etdiyi "14prinsip" nəzəriyyəsini qəbul etməliyik. Bu prinsiplər bir-birinə mənaca bənzəsə də lakin Fayol hər birinin funksiyasını dəqiqliklə öz tədqiqatının nəticəsində bildirmişdir: iş bölgüsü, hakimiyyət, intizam, əmrin birliyi, istiqamət birliyi, mükafat, iyerarxik formada menecerliyin tətbiqi, şifarişlərin təminatı, bərabərlik, kadrların iş müddətinin sabitliyi, aktiv təşəbbüs, birlik ruhu, fərdi maraqların ümumi maraqlara tabe olması və mərkəzləşdirmə.

H.Fayolun qeyd etdiyi prinsiplər öz özlüyündə Azərbaycan Respublikasının Konstitudiyasındakı müvafiq maddələri xatırladır. Bununla da, açıq şəkildə deyə bilərik ki, müəyyən istisnaları nəzərə almaqla ümumi şəkildə idarəetmə prinsiplərinin təkcə müəssisə idarəçiliyində deyil, istənilən institutun menecmentində istifadə edə bilərik.

Zorakı üsullarla keçirilən protestlərdə idarəçiliyin zəif olduğunu ona görə əminliklə deyə bilərik ki, aqressiya göstərən tərəf artıq tələblərinin yerinə yetməyəcəyini anlayaraq mənfiyə köklənir və çarəni yalnız kütləvi davalar, polisləri qarşı durmaq və cəmiyyəti itaətsizliyə çağırmaqda görür və müəyyən qədər anarxiya yaradır. Həmçinin,Suriya və Ərəb baharı misalında da, onu deyə bilərik ki, zorakı yolla keçirilmiş protestlərin ziyan çəkən tərəfləri yalnız problemli iki tərəf deyil, bütün cəmiyyət hətta region ola bilir. Ərəb baharı hal-hazırda siyası etiraz forması alsa da,ilk dövrdə bu protestlərin əsas qayəsi sosial rifah və bu kimi sosial məsələlər idi. Getdikcə özündə zorakılığın gücünü artıran hər iki tərəfin aqressiyası artıq o həddə çatır ki, bu məsələyə onların probleminin varlığında

tərəfmaraqlı olan qüvvələr idarəni öz əlinə alır və bununla da məsələnin həlli, mümkünatı çətinləşir.

Zorakılıq barəsində müxtəlif tədqiqatçıların və siyasətçilərin öz görüşləri vardır. İngilis filosofu Tomas Hobbs zorakılığı "Ərazi, təhlükəsizlik və izzət kimi siyasi məqsədlərə çatmaq üçün səmərəli vasitə" kimi təsvir edirdi. Mahatma Qandi bu mövzuda qeyd edirdi ki: “Zorakılıqla qazanılmış qələbə məğlubiyyətə bərabərdir”.

Dünya aktivizm tarixinə adını qızıl hərflərlə yazdırmış Martin Lüter King isə cəmiyyətdə vətəndaş dövlət münasibətlərinin, etirazların və nümayişlərin əsasında zorakılıq məsələsinə bu cür yanaşır:

“Şiddət yalnız müvəqqəti qələbələr gətirir; zorakılıq, həll etdiyi bir çox sosial problem yaradaraq, heç vaxt daimi sülh gətirmir ”.

Sonda onu qeyd edə bilərik ki, istər demokratik, istərsə də, digər tip cəmiyyətlərdə etiraz etmək, müəyyən narazılıqları bildirmək insanların təkcə cəmiyyətdaxili xarakteri və ya vəzifəsi deyil, onun özünün fərdi psixologiyasından irəli gəlir. Sovet dönəmində hər hansı bir dövlət idarəsinə və ya qərarına qarşı çıxmaq, etiraz etmək faktının qeydə alınmaması bu reallığın, və ya cəhdin edilmədiyi mənasına gəlmir, əksinə, toplanan narazılıqların imperiyanın dağılmasının birbaşa səbəbi olaraq göstərə bilərik. Həmçinin, onu da qeyd etmək lazımdır ki, müasir zamanda hər bir vətəndaş onu da anlamalıdır ki, zorakılıq, zortətbiqetmə, kütləvi qarşıdurmaların yaradılması yalnız aktual problemin həllinin gecikdirilməsi və ya tamamilə inkar edilməsinə gətirib çıxara bilər.

## ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikası Konstitusiyası”, “Azərbaycan” qəzeti, 12 Oktyabr 2016, №224

2. Kenrick, Douglas T. “Violent Versus Nonviolent Revolutions: Which Way Wins?” Psychology Today, Sussex Publishers, 7 Apr. 2014,
3. Shaazka Beyerle and Cynthia Boaz,“The power of nonviolence”, New York Times, 18 Oct. 2007
4. Robert Lussier, “Management fundamentals: concepts, applications, skills”, 2008

## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ИЗУЧЕНИЯ ПРОБЛЕМЫ БРАЧНОСТИ И РАЗВОДИМОСТИ В АЗЕРБАЙДЖАНЕ

***Ханумзар Исмайылова***
***магистрант II курса БГУ***
*xanim_1497@bk.ru*

**Семья** - главный институт человеческого общества. В свою очередь институт семьи включает множество более частных институтов, а именно институт брака, институт родства, институт материнства и отцовства, институт собственности, институт социальной защиты детства и опеки и другие [1].

**Брак** как основа и ядро семьи – это санкционированная обществом, социально и личностно целесообразная форма половых отношений.

С точки зрения права, браком считается только свободный, добровольный, равноправный союз мужчины и женщины, заключенный с целью образования семьи с обязательным соблюдением установленных законом требований и порождающий между супругами взаимные личные и имущественные права и обязанности [2]. Существуютследующие *формыбрака:*

- **эндогамия** – брак внутри определенной группы;

➢ **экзогамия** – брак с партнером из-за пределов своей группы;

➢ **моногамия** – брак, в котором состоят один муж и одна жена;

➢ **полигамия**, имеющая две разновидности: **полигинию**, когда один муж имеет двух или более жен, и **полиандрию**, когда одна жена имеет двух или более мужей;

➢ **групповой брак** – два или более мужа и две или более жены.

По данным статистики, и в прошлом, и в современности наиболее распространена *полигиния* (83 % современных обществ разрешают мужьям иметь две и более жены), хотя фактически подобных браков сравнительно немного. Как прежде, так и теперь позволить себе иметь несколько жен могут только состоятельные люди. Но современная тенденция показывает, что распространенность полигамии снижается, на смену ей приходит моногамия. Во многих мусульманских странах (а также в Азербайджане), где религиозная мораль допускает и поощряет полигинию (многоженство), последняя запрещена законом или ограничена.

***Брачность*** — это процесс образования брачных (супружеских) пар в населении; включает вступление в первый и повторные браки. В сочетании с процессами овдовения и разводимое брак определяет воспроизводство брачной структуры населения.Брачность относится к числу процессов, которые образуются повторными событиями. В брак можно вступить на протяжении всей жизни неограниченное число раз (исключение составляют лишь те культуры, в которых повторные браки запрещены).

***Заключение брака*** — один из основных параметров брачности, а также начало семейного союза мужчины и

женщины. От прочности брачных уз зависят воспроизводство населения, характер взаимоотношений между родственниками и свойственниками по отцовской и материнской линии, климат и система взаимоотношений в обществе [3].

Следует пошире раскрыть понятия **«развода»**. Развод как социальный феномен изучает социология семьи, тот ее раздел, который так и называется социология развода. Интересующиеся могут более подробно ознакомиться с этим вопросом в соответствующей литературе [4].

***Развод*** – формальное окончание (расторжение) брака, кроме случаев, когда брак прекращается в случае кончины одного из супругов. Проблема развода находится в тесной связи с изменением типа отношений в современной семье: новые модели семьи порождают собственные формы разрыва этих отношений. Если в традиционном браке под разводом понимают разрыв отношений в юридическом, экономическом, психологическом плане, что влечет за собой реорганизацию жизни обоих супругов, то современные формы семейных отношений предполагают, что и после их прекращения психологические аспекты последствий расставания не только сохраняются, но и выходят на первый план.

По моему анализу, ***семейные конфликты*** возникают, как правило, вследствие следующих факторов:

1. социокультурного несоответствия мужа и жены (разница в образовании, культурно-духовных интересах);
2. неурегулированности социально-ролевых отношений (распределение семейных обязанностей);
3. психической несовместимости (не сходятся характерами);
4. сексуальной дисгармонии (взаимная неудовлетворенность половыми отношениями).

***Развод*** – это расторжение брака при жизни обоих супругов в органах записи актов гражданского состояния или, в особо предусмотренных случаях законодательством случаях, по решению суда. Развод также многими учеными понимается как обратной стороной **брака**. Развод производится по заявлению одного из супругов или обоих, или по заявлению опекуна супруга, признанного судом недееспособным [5].

***Разводимость*** – процесс распада супружеских пар в поколении вследствие расторжения брака (развода) [6].

## ЛИТЕРАТУРА


1. Антонов А.И. Микросоциология семьи. М., 1998. – 360 с.
2. Лукьянова И.Е., Прохорова Э.М. Семьеведение: Учеб. пособие / Под ред. Е.А.Сигиды. — М.: ИНФРА-М, 2010. — 265с.
3. Народонаселение: Энциклопедический словарь. М., 1994. – 367 с.
4. Семейный кодекс Азербайджанской Республики от 28 декабря 1999 года № 781-IQ.
5. Социальная энциклопедия. М., 2000. – 286 с.
6. Харченко Л. П. Демография. М., 2009. – 152 с.


# GƏNCLƏRİN İŞSİZLİYİ SOSİAL PROBLEM KİMİ


***Çinarə Rəhimova***
***BDU-nun II kurs magistrantı***


İşsizlik müasir dövrdə cəmiyyətin, xüsusən, gənclərin mühüm qismini narahat edən aktual sosial iqtisadi problemlərdən biri sayılır. İşsizlik digər sosial problemlərin – narkomaniya, cinayətkarlıq və s. yaranmasına səbəb ola bilir.

Müəyyən peşə və ixtisaslara yiyələnmək, iş tapmaq, karyera qurmaq, normal gəlir əldə etmək hər zaman cəmiyyətdə gənclərin mühüm hədəfləri və maraqları sırasındadır. Dünya təcrübəsi və sosial-iqtisadi məsələlərlə bağlı həyat keçirilən tədqiqatların nəticələri göstərir ki, insanların təhsil, bilik, peşə vərdişləri, işgüzar fəallığı sağlam ciddi ünsiyyəti genişləndikcə onların iş tapmaq, öz bizneslərini və karyeralarını qurmaq şansları əhəmiyyətli dərəcədə yüksəlir. Müasir dünyada, qlobal iqtisadi böhran şəraitində məşğulluq problemi aktualdır. Əmək bazarı iqtisadiyyatda çox vacib rol oynayır.Son dərəcə mürəkkəb paylama mexanizmi olaraq iş yerləri ilə əlaqəsini təmin edir. Beləliklə həm məhsuldarlığa,həm böyüməyə, həm də iqtisadiyyatın bir çox digər parametrlərinə təsir göstərir.İşsizlik səviyyəsi ölkənin iqtisadi inkişaf səviyyəsinin vacib bir göstəricisidir.

Cəmiyyətdəki işsiz vətəndaşlarla daimi iş yeri olanlar arasındakı əlaqəni əks etdirir [5].

Məşğulluq təkcə insanın maddi vəziyyətinə təsir göstərmir, həm də onun zehni, mənəvi və sosial mövqeyini, cəmiyyətdəki yerini və gələcəyini də müəyyənləşdirir [7]. Gənclik hər hansı bir cəmiyyətin gələcəyidir, buna görə də gənclərin işsizliyi gələcək inkişaf üçün ən mürəkkəb və təhlükəli nəticələrə malikdir [6]. Gənclərin məşğulluğu və gənclərin işsizliyi problemləri cəmiyyətin post-sənaye inkişafıyla və informasiya cəmiyyətinin sivilizasiyanın inkişafının yeni tarixi mərhələsi kimi formalaşması ilə əlaqəlidir [8].

Gənclərin işsizliyi, əmək qabiliyyətli gənclərin iş axtarışında olduqları və işə başlamağa hazır olduqları, lakin işləmək hüquqlarını həyata keçirə bilməmələri və bununla da əsas dolanışıqlarını itirdiyi bir sosial-iqtisadi hadisədir [3].

Bu gün gənclər arasında işsizliyin yüksək olması danılmaz faktdır.İşsizlik öz-özünə təkcə ölkədə iqtisadi qeyri-sabitliyin göstəricisi deyil, həm də dövrümüzün ən kəskin sosial-iqtisadi problemlərindən biridir.

Gənclərin işsizliyi sahəsində aparılan araşdırmaların nəticələrinə görə, gənc mütəxəssislər arasında yüksək işsizliyin əsas səbəbləri bunlardır:

- Ali təhsil müəssisələrinin məzunlarının qazandıqları ixtisaslara uyğun iş bölgüsü sisteminin olmaması.
- Universitetlərdə ixtisas prestiji ilə əmək bazarı arasındakı uyğunsuzluq.
- Gənclərin yüksək rəqabət qabiliyyətinin olmaması, dəyişən şərtlərə uyğunlaşma xərclərinin yüksək olması və işəgötürənlərin işə qəbul olunma riskləri ilə izah olunur.
- İşəgötürənləri, bir qayda olaraq, təcrübəsiz mütəxəssislərin işə götürülməsindən yayındırmaq.
- Gənclərin işləmək üçün aşağı motivasiyası.
- Əmək haqqı istəklərinin uyğunsuzluğu.
- Gənclərin məşğulluğu üçün məşğulluq xidmətinin fəaliyyətində zəruri proqram və pul bazasının olmaması.

-işsizlərin ümumi sayında artım

-sənaye müəssisələrinin fəaliyyətinin əsasən istehsalın inkişafı və genişləndirilməsinə deyil,özünü qorumağa və yaşamağa istiqamətlənməsi

-gənclər arasında kifayət qədər təcrübənin olmaması [2].

Bu baxımdan xüsusi sosial-demoqrafik xüsusiyyətlərinə görə gənclər cəmiyyətin və dövlətin müxtəlif dəstəyini tələb edən həssas sosial qruplardan biridir. Buna görə bir çox ölkələrdə gənclər sosial siyasətin xüsusi obyektidir, mahiyyəti gənc nəslin cəmiyyətin sosial-iqtisadi və ictimai-siyasi proseslərinə effektiv inteqrasiyasıdır. Sosiallaşmanın aktiv mərhələsində olan gənclər yetkinlik dövrünə girməyə hazırlaşırlar. Bu prosesin ən vacib cəhətlərundən biri peşəkar öz müqqədaratını təyinetmə, seçilmiş peşə üçün təlim və tədricən iş yerinə girişdir. Müasir cəmiyyətdəfərdin sosial yetkinliyinin ən vacib göstəricisi onun müəyyən bir sosial statusun qazanılması və konkret sosial-peşəkar funksiyaların icrası ilə əlaqəli cəmiyyətin sosial və peşə quruluşuna üzvi inteqrasiyası-

dır. Sosial və əmək münasibətlərinə girən bir gənc peşəkar özünü dərketmədən əlavə maddi müstəqillik, sabit bir sosial status və özünə və gələcəyinə inam qazanır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti, 15 aprel, 2010, № 89
2. "Azərbaycan" qəzeti, 8 may, 2010, № 104
3. ''Xalq" qəzeti. 11 may, № 106
4. Распоряжение Правительства РФ от 17 ноября 2008 г. N 1662-р «О Концепции долгосрочного социально-экономического развития РФ на период до 2020 года» (с изменениями и дополнениями) http://base.garant.ru/194365/ (дата обращения -05.11.2018)
5. Безбородова Т. М., Давыденко А. А. Безработица среди молодежи //Сибирский торгово-экономический журнал. - 2016. - №4. - С. 53-55
6. Волонина Н. А. Безработица молодежи//Экономика, предпринимательство и право. - 2012. - №1. - С. 9-14.
7. Гелета И. В. Подготовка персонала как важный инструмент развития организации// Экономический вестник Ростовского государственного университета. -Ростов-на-Дону. - 2006. - № 4. - С. 71-74
8. Зайцева И. А. Безработица как одна из глобальных проблем современного мира//РоШBook. Экономика и экономические науки. - 2017. - № 2. - С. 160-175


## AZƏRBAYCANDA SOSİAL İDARƏETMƏ HEYDƏR ƏLİYEV FONDU TİMSALINDA


***Ramil İsmayılov***
***BDU-nun II kurs magistrantı***
***ismayilovramin495@gmail.com***


Sosial idarəetmə olduqca mürəkkəb bir anlayış olub, ümumi idarəetmə nəzəriyyəsinin ayrılmaz tərkib hissəsidir. Sosial idarə-etmənin düzgün təşkili cəmiyyətdə mövcud sosial problemlərin

aradan qaldırılması, eləcə də, əhalinin rifahının və həyat şəraitinin yaxşılaşdırılması ilə nəticələnir. Sosial idarəetmə termin olaraq son dövrlərdə elmi ədəbiyyata daxil olsa da, mahiyyət baxımında tarixin müxtəlif dövrlərində fərqli formalarda mövcud olmuşdur. Bu bir daha sübut edir ki, istənilən cəmiyyət mövcud quruluşundan aslı olmayaraq idarəetməyə, eləcə də sosial idarəetməyə ehtiyyac duyur.

Sosial idarəetmə sahəsində beynəlxalq təcrübəyə nəzər saldıqda bir daha aydın olur ki, hər bir ölkədə ictimai-siyasi quruluşun birbaşa təsiri nəticəsində sosial idarəetmə ayrı-ayrı formalarda özünü biruzə verir. Bu heç də o demək deyil ki, sosial idarəetmə müxtəlif ölkələrdə məzmununa və mahiyyətinə görə fərqli formalarda mövcud olur. Sadəcə olaraq hər bir ölkədə sosial idarəetmənin məzmununda hər hansı bir prinsip daha qabarıq şəkildə özünü göstərir. Məsələ, bir çox avropa ölkələrində sosial idarəetmə sisteminin mövcudluğu humanizm prinsiplərinə əsaslanır.

Bəs sosial idarəetmə sistemindən irəli gələn prinsiplər və ümumilikdə sistemin özü necə reallaşır? Bu suala cavab isə olduqca dəqiq və birmənalıdır: təbii ki, ictimai təşkilatlar və qurumlar hesabına. Bu təşkilatlar əbəs yerə deyil ki, bəzən "ictimai faydalı təşkilatlar" da adlandırılırlar. Həmin təşkilatlar ölkə üzrə sosial siyasətin həyata keçirilməsində əvəzsiz rola malikdirlər.

İctimai təşkilat anlayışının izahını aşağıdakı kimi verə bilərik:

İctimai təşkilatlar ictimai siyasətin inkişaf etdirilməsi, digər tərəfdən onun cəmiyyətin mövcud ehtiyaclarına uyğunlaşdırılması, yoxsulluğun minimum həddə endirilməsi, ictimai iştirakçılığın reallaşdırılması, eləcə də insan hüquqlarının müdafiəsi, sağlamlıq, qida təhlükəsizliyivə bu kimi digər məsələlərlə bağlı fəaliyyəti həyata keçirirlər (1).

Göründüyü kimi, bu təşkilatlar cəmiyyət üçün həyati əhəmiyyətə malik sosial problemlərin aradan qaldırılmasına

xidmət etməklə əhalinin rifahının yüksəldilməsinin başlıca təminatçısıdır.

Azərbaycanda sosial idarəetmədən söz açarkən burada Heydər Əliyev Fondundan və onun ölkəmizdə və dünya miqyasında həyata keçirdiyi əhəmiyyətli sosial layihələrdən danışmamaq olmaz. Heydər Əliyev Fondu qeyri-kommersiya təşkilatıdır. Bu fond 10 may 2004-cü il tarixində yaradılmışdır. Fondun prezidenti Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, UNESCO-nun və ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır. Fondun başlıca məqsədlərinə aşağıdakıları aid edə bilərik:

Azərbaycanın sosial-iqtisadi, eləcə də mədəni inkişafı, əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə Heydər Əliyevin həyata keçirdiyi siyasətin dərindən öyrənilməsi və təbliğinə təkan vermək, ölkəmizin tərəqqisi və xalqımızın həyat səviyyəsinin yüksəldilməsinə yönələn mütəlif proqramlar və layihələrə dəstək vermək, elmi tədqiqatların reallaşdırılmasına təkan vermək, müxtəlif dünya ölkələrinin qabaqcıl elmi-tədqiqat mərkələri ilə alimlərin mübadiləsini həyata keçirmək, ölkə mədəniyyətinin beynəlxalq arenada geniş miqyaslı təbliği, Azəerbaycanın beynəlxalq nüfuzunun yüksəldilməsinə yönələn tədbirlərin həyata keçirilməsi işinin təşkili, QHT-lər və ictimai təşkilatlar arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi və s. Gördüyümüz kimi Heydər Əliyev Fondunun fəaliyyət məqsədlərini saymaqla bitirmək olduqca çətindir (2).

Heydər Əliyev Fondunun istər ölkə miqyasında, istərsə də beynəlxalq aləmdə həyata keçirdiyi fəaliyyət istiqamətlərini şərti olaraq bu cür qruplaşdıra bilərik:

Elm və təhsil, səhiyyə, mədəniyyət, sosial, ətraf mühit, İKT, idman və s. sahələr (3).

Elm və təhsil sahəsində həyata keçirilmiş tədbirlər sırasına ölkə üzrə bütün təhsil müəssisələrinin əsaslı surətdə təmir olunması, dünya standartlarına cavab verən yeni təhsil

müəssisələrinin yaradılması, uşaq bağçaları və internat məkəblərində həyata keçirilən yenidənqurma işlərini və s. daxil edə bilərik (4).

Bütün bunlarla yanaşı Fondun eyni zamanda səhiyyə və mədəniyyət sahələrində də həyata keçirdiyi tədbirlərə toxunmamaq olmaz. Bu qrupa daxil olan tədbirlər arasında səhiyyə sahəsində ehtiyyac duyulan ən müasir avadanlıqların ölkəmizə gətirilməsi, xəstəxanaların əsaslı şəkildə təmir edilməsi və s. qeyd edə bilərik. Digər tərəfdən mədəniyyət sahəsində görülən işlər kimi yerli və beynəlxalq əhəmiyyətli mədəni tədbirlərin keçirilməsi qeyd oluna bilər. Fondun fəaliyyət istiqamətləri içərisində ən əhəmiyyətli yeri sosial sahədə həyata keçirilən tədbirlər tutur. Bu tədbirlərin həyata keçirilməsində başlıca məqsəd aztəminatlı ailələrə dövlət yardımının göstərilməsi, onların rifahının yüksəldilməsinə dəstək göstərilməsi və həmin vətəndaşlarının cəmiyyət həyatında fəal iştirakının təmin edilməsidir (5).

## ƏDƏBİYYAT

1. http://ogp.org.az/az/index.php/2017/10/11/ictimai-faydali-teskilatlar-barede-qisa-icmal/
2.https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev_Fondu
3. https://heydar-aliyev-foundation.org/az/content/index/47/Heyd%C9%99r-%C6%8Fliyev-Fondu
4. https://heydar-aliyev-foundation.org/az/content/blog/56/Elm-v%C9%99-t%C9%99hsil
5. https://heydar-aliyev-foundation.org/az/content/blog/74/Sosial

# ƏLİLLƏRLƏ SOSİAL İŞ

*Rəcəbəli Əliyev, baş elmi işçi, Sosioloji tdqiqatlar laboratoriyası, Bakı Dövlət Universiteti*

Cəmiyyətin sosial-iqtisadi inkişafının müasir mərhələsində Azərbaycanın bütün vətəndaşları üçün layiqli həyat səviyyəsinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətlərindən biri sosial cəhətdən daha az müdafiə olunan vətəndaşlar kateqoriyasına aid edilən əlillərin dəstəklənməsi və onların sosial adaptasiyası üçün şəraitin yaradılmasıdır.

Hal-hazırda ölkədəki əlillərin ümumi sayı gündəlik həyatda bir çox sosial problemlərlə üzləşən 0,6 mln. yaxın insanı əhatə edir. Məhdud həyat fəaliyyəti, sosial və hüquqi bərabərsizlik, yoxsulluq, aşağı səviyyəli tibbi yardım, dərman ləvazimatları və reabilitasiya təminatı ilə bağlı problemlər bu gün əlillərin ən çox üzləşdiyi problemlərdəndir.

Mütəxəssislərin rəyinə görə, ölkədə əlilliyin artmasının əsas səbəbləri regionlardakı sosial-iqtisadi inkişafın aşağı səviyyəsi, qeyri-qənaətbəxş tibbi xidmət, ekoloji problemlər, texnogen qəzalar, istehsalat travmaları və yol-nəqliyyat hadisələridir.

BMT-nin və digər beynəlxalq təşkilatların səyləri sayəsində artıq uzun zamandır ki, əlillərin hüquqları dünya ictimaiyyətinin diqqət obyektinə çevrilib. Qeyd etmək lazımdır ki, BMT tərəfindən əlillərin hüquqları üzrə qəbul edilən bütün beynəlxalq sənədlər əsas ümumbəşəri dəyər kimi ümuminsan haqları ideologiyasına söykənir. Beləliklə BMT təsdiq etdi ki, əlillik reabilitasiya və ya sosial təminat sahəsinə deyil, insan haqları sahəsinə aiddir [1].

1975-ci ildə əlillərin statusunu müəyyənləşdirən əlillərin hüquqları haqqında Deklarasiya qəbul edildi və ilk dəfə olaraq əlillik əlillər və onların ətrafı arasındakı münasibətlərin funksiyası kimi müəyyənləşdirildi. 1993-cü ildə əlillər üçün

bərabər imkanları təmin edən Standart Qaydalar qəbul edildi. Həmin Qaydalar əllilər üçün bərabər imkanların təmin edilməsi üzrə ciddi mənəvi və siyasi öhdəlikləri dövlətin öz üzərinə götürməsini nəzərdə tutur.

Bu qanunda həyat fəaliyyətinin məhdudlaşması: şəxsin özünəxidmət, müstəqil hərəkət etmək, təhsil almaq və əmək fəaliyyəti ilə məşğul olmaq qabilliyətlərini və imkanlarını tamamilə  və yaxud qismən itirməsi kimi izah edlir.

Dövlətin əlillərlə bağlı siyasətinin əsasında iki təsəvvür (model) yer tutur: tibbi və sosial. Birinci model dövlət tərəfindən paternalist siyasəti, ikinci model isə əlillərin bərabərlik hüquqlarının müdafiəsini və təmin edilməsini nəzərdə tutur.

Bizim ölkəmizdə şəxsin əlil kimi tanınması məsələsi ilə dövlət tibbi-sosial ekspertiza müəssisələri məşğul olur. Bu xidmətin əsas vəzifəsi əlillik qrupunun, onun yaranmış səbəbinin (yaranma şəraiti və şərtləri), əlillliyin baş vermə tarixinin və müddətinin, əlilin müxtəlif növ sosial müdafiəyə olan ehtiyaclarının müəyyənləşdirilməsindən ibarətdir.

Əlillik statusu alan fərd dövlət tərəfindən sosial müdafiə ilə təmin olunur. Sosial müdafiənin əsas istiqaməti həyat fəaliyyətinin və reabilitasiyanın təmin edilməsidir. “Azərbaycan Respublikasında əlillərin sosial müdafiəsi haqqında” qanuna müvafiq olaraq əlillərin həyat fəaliyyətlərinin təmin edilməsi aşağıdakı istiqamətlərdə həyata keçirilir: pul təminatı (pensiyalar, müavinətlər, güzəştlər), natural təminat, tibbi-sosial xidmət [2]. Yuxarıda qeyd edilən sosial müdafiə istiqamətinin seçilməsi əllilərin ehtiyaclarının müəyyənləşdirilməsi və eyni zamanda dövlətin bu tələbatları təmin etmə imkanlarının da nəzərə alınması əsasında həyata keçirilir.

Əlillərin sosial müdafiəsinin digər istiqaməti reabilitasiyadır. Ümumdünya Səhiyyə Təşkilatı reabilitasiya anlayışını özündə fiziki və digər qüsurlara gətirib çıxaran əlillik amillərinin və şərtlərinin təsir qüvvəsinin azaldılmasına və

əlilərin sosial inteqrasiyaya nail olmaları üçün imkanların əldə edilməsinə yönəldilmiş bütün tədbirləri birləşdirən bir sistem kimi izah edir. Reabilitasiyanın mahiyyəti heç də sağlamlığın bərpasında deyil, daha çox əlilin müalicə aldıqdan sonra səhhətinin onun sosial funksiyaları yerinə yetirməsinə mane olmaması üçün əldə etdiyi imkanlardadır.

Qeyd etmək lazımdır ki, reabilitasiyanın məqsədi əlilin sosial statusunun bərpa edilməsinə, onun maddi cəhətdən müstəqil olmasına və sosial adaptasiyasına nail olunmaqdan ibarətdir.

Reabilitasiya tibbi, professional və sosial xarakterli tədbirlərdən ibarət olan bir prosesdir. Bunlardan hər birinin həyata keçirilməsində sosial xidmət mərkəzləri, reabilitasiya mərkəzləri, məşğulluq mərkəzləri iştirak edirlər. Burada əlillərlə iş üzrə müxtəlif istiqamət və texnologiyalardan istifadə edilir: işğal terapiyası, erkən müdaxilə, mənzil modeli, sosial mühitə adaptasiya və s. [3].

Sağlamlıq imkanları  məhdud uşaqların reabilitasiya problemlərini xüsusi olaraq qeyd etmək lazımdır. Uşağın sosial cəhətdən qeyri-yetkin olması onun sosial-psixoloji adaptasiyasına mənfi təsir göstərən səbəblərdən biridir ki, bu da öz növbəsində əsəb sistemi gərginliklərinin və bir sıra xəstəliklərin yaranmasına gətirib çıxarır.

Bu günlərdə uşaqların əlillik prosesinin irəliləməsinin qarşısının alınmasında məktəb reabilitasiya mərkəzlərinin imkanları geniş müzakirə obyektinə çevrilmişdir.

Əlillərlə sosial işin bütün istiqamətlərində əsas vəzifə əlillərin cəmiyyətə müvəffəqiyyətli inteqrasiyasına nail olmaq, diskriminativ praktikanı ləğv etməkdən ibarətdir.

## ƏDƏBİYYAT

1. BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının icrasına dairAzərbaycan Respublikasının ilk hesabatı // http://sosial.gov.az/uploads/

2. Əlillərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunu // http://www.e-qanun.az/alpidata/framework/data/7/f_7652.htm
3. "Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlərkabinetinin qərarı // http://sosial.gov.az/

## GƏNCLƏR CƏMİYYƏTDƏ SOSİAL QRUP KİMİ

***Fizzə İnqilabzadə***
***BDU-nun II kurs magistrantı***

1985-ci il dünyada "Gənclik ili"olaraq qeyd olunmuşdur.Daha çox idealist,hərəkətli olmalarıyla diqqəti çəkən bir sosial qrup olaraq gənclik, cəmiyyətin gələcəyinin mühüm bir göstəricisidir. Təbii ki,gənclik dövründə sahib olunan dəyərlərin, təlim və təhsil yolu ilə əldə edilənlərin zamanla dəyişməyəcəyini demək mumkun deyildir. Fərdin sosiallaşması ömür boyu davam edir.İnsan bədəninin inkişafı gənclik dövrünün sonunda dayanır,lakin ruhən və mənən inkişafı isə davam edər. Bu baxımdan,gənclik dövründə mövcud olan davranış növləri və dəyər hökümləri fərdin sosiallaşması ilə birgə tərk edilə bilər və ya zənginləşərək yenilənə bilər. Gənclik sosial qrupların ən dinamik ünsürüdür. Gəncliyin toplumda dinamik bir ünsür olmasını ortaya çıxaran misallar vardır. Məsələn,illər etibariylə baxdıqda ölkəmizdə xarici miqrasiya sahəsində gənclik nüfuzunun kəskin bir şəkildə hərəkətliliyinin artdığını görə bilərik. Azərbaycandan xarici ölkəyə gedən gənclik nüfuzunun bir çoxunun getdiyi ölkədə iş və mövqe baxımından ödənişli qrup içində yer aldığını müşahidə edə bilərik. Ödənişli qrupun daha çox fəaliyyət göstərdiyi sahələr-xidmətlər və istehsalatdır. "Gənc" anlayışına daxil olanların yaşının müəyyən edilməsiylə bağlı dəqiq cavab yoxdur. Bəzi siyasətçilər aşağı və yuxarı yaş hədlərini müəyyən edir, bəziləri

isə uşaq və gənc anlayışını birləşdirərək, uşaq və gənclər siyasəti yanaşmasından irəliləyirlər. Bir çox Avropa ölkələrində gənclər qrupu 15-25 yaş aralığı olaraq müəyyən edilir.

Ölkəmizdə gənclik yaşı Azərbaycan Respublikasının Gənclər siyasəti haqqında qanununa müvafiq olaraq 14-29 yaş arası olaraq qəbul edilmişdir və bu qrupu aşağıdakı başlıq altında 4 qrupa ayıra bilərik:

1.Təhsil alan gənclər-ali və orta təhsillilər;

2.Təhsilsiz gənclər;

3.Xüsusi vəziyyət içində olan gənclər-fiziki və əqli qüsuru olan gənclər; məhkum olunmuş və məhbus həyatı keçirənlər

4.Xaricdə olan gənclər

Tarixi dövr ərzində müasir zamana qədər dövlətlərin gəncliyi qanuni bir kateqoriya olaraq qəbul etmədikləri, ictimai xidmətlərin yerinə yetirilməsi baxımından uşaqlıq, yetkinlik, qocalıq şəklində bir bölgünün aparıldığı görülür. Bununla birlikdə gəncliyin kateqorizə edilməsi isə muasir dövrə təsaduf edir. Gənclik yaş dövrü uşaqlıq yaş dövrü ilə yetişkinlik arasında bir dövr olaraq qebul edilirdi. Gənclik sözü sosial bir kateqoriya olaraq xıx əsrdə işlənməyə başlandı.

Bir ölkənin sosial-iqtisadi inkişafında gənclər cəmiyyətin sanki sərmayəsi kimi gorünməkdədir. Gəncliyin nüfuz potensialından istifadənin praktik olaraq əksik olması böyük bir itki olaraq dəyərləndirilir. Bu baxımdanda gənçlik nüfuzu hər bir ölkə üçün inkisafın hərəkətverici qoludur. Cəmiyyət qloballaşan dünyada sürətli olaraq dəyişir və inkiçaf edir. Buna görə də gənclərə gənclərər kifayət qədər imkan yaratmaq dövlətin öhdəliyidir. Gənclərin sosial həyata adaptasiyasında bir çox aktual problemlər mövcuddur. Aktual problemlər sırasına-narkotik asılılığı, gələcək qorxusu, yadlaşma, qayğı, stres, tənhalıq, güvən problemi, işə yaramama hissi, sosial-psixoloji problemlər, boş zamanlar və s. bu kimi problemləri sadalamaq olar. Lakin gənclik dövrünü sosial, psixoloji an xarakterizə etdikdə bu dövrə aid olan problemlərin keçici olma ehtimalını müşahidə

edə bilərik. Gənclərin problemləri üzərindən aparılan gənclər siyasəti istər Avropanın inkişaf etmiş ölkələrində, istərsədə sosial-iqtisadi cəhətdən inkişafdan qalan ölkələrində fərqli rol oynayır. Dövlət həssas qrupdan olan və ya ehtiyacları olan gənclər üçün bərabər imkanların yaradılması, öz hüquqlarının müdafiəsi sahəsində önəmli öhdəlik daşımalıdır. Xüsusilə əlilliyi olan,kriminal və ya cinayət törətmiş gənclər, narkomaniyaya qurşanmış, alkaqol vasitələrdən istifadədən əziyyət çəkən gəncləri misal gğstərmək olar. Bu gənclər qrupu Milli Gənclər Siyasətinin əsas tərkib hissəsi olmalıdır.

## ƏDƏBİYYAT:


1.Gənclər siyasəti haqqında qanun-E-qanun www/e-qanun/az
2.Bayhan,Vehbi (1997). Universite Gençliyinde Anomi ve Yabancılaşma, Ankara Kültür Bakanlığı Yayınları
3.Yörükoğlu. Atalay (1996). Gençlik Çağı. İstanbul. Özgür yayınları
4.http://dergipare.org.tr
5.http://www.die.gov.tr/gostergelr.htm


# AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİNİN AKTUALLIĞI


***Nuray Qibləliyeva***
***ADMİU II kurs magistrantı***
***nuray_qiblaliyeva@mail.ru***


İlk öncə gender bərabərliyinin mənası və mahiyyətinin öyrənilməsi zəruridir. Gender bərabərliyi dedikdə mütləq ki, kişi və qadın eynidir demək deyil. Gender bərabərliyi mövcud olan cəmiyyət dedikdə kişi və qadın cinsinin bərabər üzv olduğu cəmiyyət nəzərdə tutulur. XXI əsrdə yaşamağımıza baxmayaraq hələ də dünya üzərində 55 ölkədə gender

bərabərliyi anlayışının nə olduğunu bilməyən insanlar mövcuddur. Azərbaycan gender bərabərliyinin mahiyyətini və vacibliyini dərk etmiş, bununla bağlı lazımlı tədbirləri həyata keçirmişdir. Bunun təməlində qadına qarşı olan zorakılığın qarşısını almaq, müəyyən iş sahələrində qadınların sayını artırmaq, təhsil sahəsində qadınların iştirak faizini yüksəltmək və s. dayanır. Bu bərabərlikdə qadın cinsinin ön planda olmağına səbəb yüzillərdir bu zərif cinsin nümayəndələrinin əzilməsi, hüquqlarının tapdalanması olmuşdur.

Azərbaycanda kişilərin çoxu gender bərabərliyinin və qadınların hüquqlarının təmin olunduğunu vurğulasa da digərləri bu cür düşünmür. Kişi və qadınların böyük bir hissəsi gender bərabərliyinin yetərincə yayıldığını zənn etsədə, əksəriyyət bərabərliyin təşviq edilməsi üçün daha çox işlərin görülməsinin zəruriliyi qənaətindədir. Buna baxmayaraq, bu sahədə kişilərlə daha çox iş aparılmalıdır, çünki qadın hüquqlarının təşviqi məsələsinə kişilər daha mənfi münasibət göstərir.

İnsanların gender bərabərliyinə qarşı olan fikirləri həm onların həyat tərzini, həm də davranış formalarına təsir göstərir. Əslində bu da bir növ insanın hansı cinsin nümayəndəsi olmağına baxmayaraq özünə özünün düzgün bildiyi bir yol seçməsidir.

## ƏDƏBİYYAT


1. https://www.socialworkers.org/About/Ethics/Code-of-Ethics/Code-of- Ethics-English
2. https://ausocialworkdepartment.wordpress.com/category/sosial-isin-etik- pirinsipl%C9%99ri/

# SOSİAL SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNDƏ DÖVLƏT HAKİMİYYƏT ORQANLARININ ROLU

***Arzu Nurullayeva***
***BDU-nun II kurs magistrantı***
***arzunurullayeva19@gmail.com***

Sosial siyasətin ölkə siyasətinin əsas tərkib hissəsi olması artıq onu göstərir ki, bu sahə siyasətlə birbaşa əlaqədardır. Siyasi sahədə baş verən hər bir dəyişiklik, tətbiq olunan hər bir yenilik, eyni zamanda sosial sahəyə də müsbət və yaxud da mənfi təsir göstərir. Bura hakimiyyət dəyişiklikləri, hakimiyyət qollarının saləhiyyətlərinin yerdəyişməsi, həm siyasi, həm də sosial sahədə aparılan məqsədyönlü islahatlar, həm ilk dəfə olaraq, həm də dünya təcrübəsindən yararlanaraq tətbiq edilən yeniliklər və s. aid edilə bilər. Qeyd etdiyimiz amillərin hər biri, əlbəttə ki, təkcə sosial-siyasi sahəyə deyil, eləcə də, cəmiyyət həyatının digər sferalarına da özünəməxsus təsir göstərir.

Sosial siyasət bu gün əhalinin tələbat və maraqlarını nəzərə alaraq dövlət orqanları tərəfindən həyata keçirilir. Yəni, dövlət orqanları dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsində mərkəzi rol oynayır. Bura həm qanunvercilik hakimiyyəti orqanları, həm icaraedici hakimiyyət orqanları, həm də məhkəmə hakimiyyəti orqanları aid edilir.

Sosial siyasət sosial sahənin tənzimlənməsi və inkişaf etdirilməsi kimi çıxış edərək, hakimiyyətin müxtəlif qollarının, dövlət orqanlarının qarşısına müxtəlif vəzifələr qoyur. Hakimiyyətin bölgüsünə əsasən, sosial siyasət proqramları, tədbirləri və layihələri də qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti əsasında həyata keçirilir.

Hakimiyyət qollarından danışırıqsa, əsas olaraq onu da qeyd etmək lazımdır ki, sosial siyasətin subyektləri

qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarıdır. Azərbaycan Respublikasında da hakimiyyətlərin bölünməsi prinsipinə uyğun olaraq, dövlət hakimiyyəti hakimiyyətin 3 qolu arasında bölünüb: Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və məhkəmə hakimiyyəti.

Respublikamızda sosial siyasət sahəsi Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, müvafiq nazirliklərin və digər orqanların normativ hüquqi aktları və s. vasitəsilə tənzimlənir.

Respublikamızda qanunverici hakimiyyət orqanı kimi Azərbaycan Respublikasının Milli Məclisi sosial siyasət sahəsinə xüsusi diqqət ayırır. Milli Məclisin daimi komissiyaları onun bütün qanunvericilik fəaliyyətində, həmçinin idarəetmə məsələlərində mühüm rol oynayır. Sosial siyasətin tənzimlənməsi məqsədilə də Milli Məclis tərkibində Əmək və sosial siyasət komitəsi fəaliyyət göstərir. Bu komitə dövlətin sosial siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir. Əmək və sosial siyasət komitəsi sosial inkişaf, əmək, məşğulluq, insanların, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial problemləri, ailə, qadın və uşaq məsələləri, gənclər, səhiyyə, sanitariya, sosial təminat və sığorta sahələri üzrə, sağlamlığın mühafizəsi sahəsində dövlət siyasətinin formalaşdırılmasına aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir.

Əhalinin sosial müdafiəsi, sosial rihafın yüksəldilməsi sahəsində siyasətin həyata keçirilməsində icraedici hakimiyyət orqanları daha önəmli rol oynayır. İcra hakimiyyəti orqanları ilk növbədə, qanunverici hakimiyyət orqanlarının verdiyi qanunların icrası üçün nəzərdə tutulur. Onlar qanunvericilikdə nəzərdə tutulan halda öz fəaliyyətləri çərçivəsində fəaliyyət

göstərirlər. Sosial siyasətin icra hakimiyyəti səviyyəsində təminatına 3 səviyyədə baxmaq daha məqsədəuyğun olar:

1. Azərbaycan Respublikası Prezidenti tərəfindən sosial sahəyə, sosial siyasətə ayrılan diqqət;

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial siyasət sahəsində vəzifələri;

3. Azərbaycan Respublikasında mərkəzi icra hakimiyyəti orqanları və yerli icra hakimiyyəti orqanlarının bu sahədə fəaliyyəti və yerinə yetirdikləri işlər.

Ölkəmizdə də sosial sahədə həyata keçirilən bütün tədbirlər, layihələr, bu sahədə yaranmış bütün problemlər Azərbaycan Respublikası Prezidentinin nəzarətindədir. Sosial sahəyə ayrılan diqqət bu sahədə aparılan siyasətin dövlət siyasətinin əsas tərkib hissəsi hesab olunmasından bəllidir. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri içərisində sosial proqramların təsdiqlənməsi öz əksini tapmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabineti sosial siyasət proqramlarının həyata keçirilməsində birbaşa iştirak edir. Bu Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsi ilə təsbit edilir və göstərilir ki, Azərbaycan Respublikası Nazirlər Kabineti dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir.Eyni zamanda, o, əhalinin sosial müdafiəsi məqsədilə müxtəlif risk qrupuna daxil olan kateqoriyaların hüquqlarının qorunması, təmin olunması ilə, həyat səviyyələrinin yüksəldilməsi ilə bağlı, həmçinin, məşğulluq, əlillik, sosial sığorta, pensiya, əmək haqqı, ünvanlı dövlət sosial yardımı və sosial siyasətlə əlaqəli digər sahələrdə yeniliklər və dəyişikliklər ilə bağlı qərarlar verir. Yerli icra hakimiyyəti orqanları isə müvafiq inzibati ərazi vahidində sosial siyasət tədbirlərini həyata keçirir, sosial sahənin perspektivlərinə dair təkliflər verir.

Məhkəmənin mövqeyi dövlət siyasətinə münasibətdə də ziddiyyətlidir. Siyasətdə birbaşa iştirak edən qanunverici və

icra hakimiyyətlərindən (parlament partiyaları, siyasi partiyalar) fərqli olaraq məhkəmə hakimiyyətinin həyata keçirilməsi siyasi təzyiqləri istisna etməlidir. Məhkəmə konkret bir işə baxarkən qanundan və hüquqi şüurdan kənar siyasi və ya digər səbəblərə əsaslanmamalıdır. Əslində məhkəmə cəmiyyətin bir hissəsidir və siyasət ona təsir edir. Ancaq ümumi halda məhkəmə hakimiyyəti orqanları sosial siyasətlə bağlı yaranan problemləri hüquqi əsasda həll olunmasına köməklik göstərirlər.

Beləliklə, hər üç hakimiyyət qolunun sosial siyasət strategiyalarının işlənib hazırlanması və inkişaf etdirilməsi ilə əlaqədar məsələlərdə birgə fəaliyyət göstərməsi bu sahədə fəaliyyətin daha da effektiv olmasına səbəb olur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, maddə 109, 119.
2. http://www.meclis.gov.az/?/az/content/221/


# İNSAN ALVERİ QURBANI OLMUŞ ŞƏXSLƏRLƏ SOSİAL İŞ


***Surxay Əhmədzadə***
***BDU-nun II kurs magistrantı***
***surxay41@gmail.com***


Müasir dövrdə insan alveri istər beynəlxalq, istərsə də milli səviyyədə ən qorxulu problemlərdən biridir. Bu problem artıq neçə illərdir ki, qlobal xarakter daşıyır. Bildiyimiz kimi, insan alveri narkotik ticarəti və silah alveri ilə birlikdə dünyanın ən çox gəlir gətirən sahələri arasında ilk üçlüyü tamamlayır. İnsan alveri tez-tez sənəd saxtakarlığı, narkotik

ticarəti, kiber cinayət, uşaq pornoqrafiyası, miqrant qaçaqçılığı kimi digər mütəşəkkil cinayətkarlıq növləri ilə əlaqələndirilir.

İnsan alveri insanların mütəşəkkil cinayət alverinin digər formaları arasında Aİ-nin 2014-2017-ci illərdə Mütəşəkkil və Ağır Beynəlxalq Cinayətkarlığa dair Siyasətində prioritet cinayət təhdidi sahəsi olaraq müəyyən edilmişdir. (Qiymətləndirmə 2017) Bu məqsədlə, Avropa insan alverinə istiqamətlənmək üçün cinayət təhdidlərinə qarşı çox şaxəli bir platforma (EMPACT THB) hazırlanmışdır. EMPACT THB çərçivəsində bütün siyasət dövrü üçün uyğun olan çox illik strateji plan və illik fəaliyyət planı hazırlanır və həyata keçirilir. İnsan alveri qarşıdakı Aİ-nin Mütəşəkkil və Ciddi Beynəlxalq Cinayətlərə dair 2018-2021-ci illər üçün də Siyasət Dövründə prioritet olaraq qalacaq.

İnsan alverini bir neçə formada izah edə bilərik:

İnsan alveri insanların əsas hüquq və ləyaqətini pozan ciddi bir cinayətdir. Bu, iqtisadi mənfəət məqsədi ilə həssas insanların cinayət istismarını ehtiva edir.

İnsan alveri müasir köləlik formasıdır. Çox vaxt ümumi xarakter daşıyır və onun qurbanları həm müxtəlif cinslərdən, həm də müxtəlif yaşdan ibarətdir.

İnsan alveri müxtəlif formalarda ola bilər və aşağıdakıları əhatə edə bilər:

1)cinsi istismar, o cümlədən fahişəlik;

2)məcburi əmək və ya xidmətlər;

3)köləlik, köləlik və əlaqəli təcrübələr;

4)həyati orqanların çıxarılması.

İnsan alveri, zorlama və narkotik ticarəti kimi məcburi cinayətkarlıq məqsədi ilə istismar formasına da keçə bilər.

İnsan istismarı fahişəlik, nizamsız miqrasiya, əmlak cinayətləri və ya hətta əmək mübahisələri kimi digər cinayət əməllərinin arxasında gizlənə bilər. Qurbanlar əksər vaxt çox saylı yollarla istismar olunur və ya digər qanunsuz fəaliyyətlərdə iştirak edirlər və beləliklə, bu proseslər araşdırılmayan və

ya qeydə alınmayan insan alveri hadisələri ilə nəticələnir. Burada qeyd olunması olduqca vacib olan bir məsələni nəzərə almalıyıq. İnsan alverinə dair milli-hüquqi təriflərdə bir çox fərqlər vardır. Bu fərqlər Aİ daxilində insan alveri istiqamətində ümumi meyllərin və nümunələrin müqayisəsini və qiymətləndirilməsini çətinləşdirir.

Son on ildə AB-nin hüquqmühafizə orqanları Aİ daxilində insan alverinin xeyli artmasının şahidi oldular. Məsələn, 2014-cü ildə, Europol bazasında insan alverinin qurbanı olmuş insanların əksəriyyəti (71%) AB vətəndaşları idi.

İnsan alveri nümunələri qanunsuz miqrasiya nümunələrinə bənzəsə də, qanuni cəhətdən aralarında olduqca böyük fərqlər var. Fərq ondadır ki, bir ölkəyə qeyri-qanuni giriş əldə etmək üçün qaçaqmalçıya pul ödəyən şəxslər könüllü olaraq bu addımı atırlar, halbuki insan alveri qurbanları çox vaxt aldadılır və ya başqa bir ölkəyə aparılmaq üçün məcbur edilir. Həmçinin, qaçaqmalçılıqla məşğul olan insanlar mütləq iqtisadi məqsədlər üçün istismar etmirlər. Bundan əlavə, qaçaqmalçılıq (insan qaçaqmalçılığı və ya miqrant qaçaqmalçılığı da deyilir) əlaqəli bir tətbiqdir və bu, qaçaqmal edilən şəxsin razılığı ilə həyata keçirilir. Qaçaqmalçılıq halları zamanı məcburiyyət və ya istismar tətbiq edilərsə qaçaqmalçılıq insan alverinə dönə bilər. İnsan alveri məcburiyyət aktları ilə xarakterizə olunur, insanlar insan alverçisi və ya başqalarına işləmək və ya xidmət göstərməyə məcbur edilir.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) məlumatına görə, təkcə məcburi əmək (insan alverinin bir komponenti) 2014-cü ilədək illik təqribən 150 milyard dollar gəlir gətirib. 2012-ci ildə BƏT, müasir dövrdə 21 milyon qurbanın kölə halına salınmasını müəyyən etdi. Bunlardan 14,2 milyonu (68%) əməyə görə, 4,5 milyon (22%) cinsi istismara, 2,2 milyonu (10%) dövlət tərəfindən məcburi əməyə cəlb edilmişdir. Beynəlxalq Əmək Təşkilatı uşaq işçilərin, azlıqların və nizamsız miqrantların daha ekstremalist ismar forması riski

altında olduğunu bildirdi. Statistik məlumatlardan bəlli olur ki, dünyada 215 milyon gənc işçinin yarıdan çoxunun təhlükəli sektorlarda, o cümlədən məcburi seks və küçə dilənçiliyi fəaliyyəti ilə məşğuldur. Etnik azlıqlar və yüksək marginallaşdırılmış insan qruplarının dərisi, dağ-mədən və daş karxanaları kimi ən istismarçı və ziyanlı sektorlarda işləmək üçün yüksək qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə insan alverinə qarşı olduqca güclü mübarizə aparılır. İnsan alveri yerli və ya daxili səviyyədə baş verə bilsədə, Birləşmiş Millətlər Təşkilatının İnsan, xüsusən Qadın və Uşaq alverinin qarşısının alınması və cəzalandırılması Protokolu tanındığı beynəlxalq aləmə də təsir göstərir. Protokol 25 dekabr 2003-cü ildə qüvvəyə minən BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Konvensiyasına (CTOC) dair beynəlxalq müqavilədir. İnsan Alveri Protokolu, yarım əsrdən çox müddətdə insan alverinə qarşı qanuni qüvvəyə minən ilk qlobal, insan alveri ilə bağlı razılaşdırılmış tərifi olan yeganə sənəddir. Ən ümdə məqsədlərdən biri insan alverinin istintaqı və cinayət təqibi sahəsində beynəlxalq əməkdaşlığı asanlaşdırmaqdır. Digər bir məqsəd, insan alveri qurbanlarının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit edilmiş hüquqlarına tam hörmətlə yanaşmaq, onları qorumaq və kömək etməkdir.

## ƏDƏBİYYAT

1. MehribanZe ynalova – İnsan alveri qurbanlarına yardım, BAKI-2010, səh 19.

2.“Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliliyi üçün əməkdaşlığın gücləndirilməsi – IV Faza” layihəsi-2016, səh 11.

3. ATƏT ATƏT regionunda insan alverinin qarşısının alınması və onunla mübarizəyə dair məlumat, 23 noyabr 2010-cu il. https://www.osce.org › Resources
4. https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf
5. İAQİƏQ 2012 İnsan Alverinə qarşı İdarələr-arası Əlaqələndirmə Qrupu, İnsan alveri ilə mübarizəyə dair beynəlxalq hüquqi çərçivələr səh.2

## «COVID 19» КАК РЫЧАГ СОЦИАЛЬНЫХ ИЗМЕНЕНИЙ

***Турал Исмайилзаде***
***магистрант II курса БГУ***
***infoismayilzade@gmail.com***

Современные тенденции развития общества требуют от нас позитивных отношений в благах общества. Отсюда и происходит модификация системы потребностей общества, под влиянием которой на передний план выдвигается производство услуг в условиях развития ИКТ.

Сейчас социально-инновационное пространство государств выделяется в структуре национальной экономики по технико-технологическим особенностям предоставляемых услуг. Они направлены на поддержание экономического прогресса, обеспечение защиты окружающей среды и общества. Именно такие инновации являются социально-важными.

На фоне глобальных измененийсоздается новое «социальное общество», где внедряются информационно-коммуникативные технологии и появится то государство, которое будет продуктом общественного развития общества [1].

Применение ИКТ в разных сферах жизни является показателем развития интеллектуального потенциала общества.Конечно определенные проблемы в применении новых информаций имелись в течении многих лет. А

проблемы - они всегда есть. Но их решение зависит от того, как мы к нему относимся. Если хотим внедрения ИКТ в нашу жизнь, это требует решения таких проблем, как:

- ✓ внедрение таких технологий, как «5G» и «голограмм» технологий в быту;
- ✓ выдвижение в передний план значения «интернет-вещей»;
- ✓ повышение качества программ, служащих развитию ИКТ;
- ✓ расширение количества пользователей компьютеров, мобильных телефонов и других технологий;
- ✓ усовершенствование законодательной базы употребления интернета;
- ✓ преодоление кибер-атак со стороны хакеров;
- ✓ охрана идентифицированных индивидуальных информаций.

Информационно - коммуникационных технологии становятся частью нашей деятельности. Именно развитие этого общества откроет путь к глобальным многим изменениям в мире, а с применением компьютерных технологийстанет интегрироваться в некую глобальную систему управления.

В нынешний день чаще стали слышать термины «мировое управление», «глобализация мира», «стандартизация общественного поведения, «чипы», а сейчас произошло то, что подтолкнул мир к глобальным изменениям. Эта всемирная пандемия, которую мы стали назвать, как «Covid 19».

Как мы называем из медицины, «Covid 19» или «SARS-COV2» - это один из семейства вирусов, который молниеносно распространяясь поражает миллионы людей. Инфекция впервые была зафиксирована 1 декабря 2019 года в Китае в городе Ухань в провинции Убей. Обычно эти заболевания протекают легко, не вызывая тяжелой

симптоматики, даже многие и не подозревают, что они больны этой болезнью. Однако бывают и тяжело больные, которые составляют люди старше 60-ти десяти лет.По состоянию на 10Апреля 2020 года [2], [3]:

- ✓ подтвержденных случаев –1 604 736;
- ✓ активных случаев – 1 152 329;
- ✓ выздоровело – 356 671;
- ✓ смертей – 95 736.

Смотря на всемирную статистику, если погибнут 10 миллион человек, что изменится? Абсолютно ничего. Наша численностьвозрастает даже за каждую долю секунды, то зачем стоит вести такой PR болезни и еще на таком уровне? А может это и есть метод внедрения информационно-коммуникативных технологий (в основном «5G» и «голограмм» технологий) внашу жизнь?

Основатель компании «Microsoft» Билл Гейтс еще за 5 лет до пандемии «предсказал» его: «Covid 19» убьёт миллионы людей и станет катастрофой!Но какБилл так был убежден, что она самая большая угроза для человечества и что он станет самой глобальной катастрофой, а не ядерный взрыв [4]?

Под влияниемэтой «катастрофы»меняется отношение мира на технологии:

- ✓ внедрение в образовательную систему и «online» образования - школьники и студенты, увидев лучшие стороны этого образования, не захотят вернуться к учебному заведению, и сама система будет вынуждена возобновляться и на основе этих потребностей будут создаться такие понятия как «transmission teacher», «homeschool», «onlinecontrol manager»,«reading diary»и другие;
- ✓ одно изменение, которую ввел пандемия, это внедрение в нашу жизнь роботов и дронов. Уже на улицах Японии, Турции, Италии, Испании, Германии и многих

других стран, где свирепствует болезнь, они начали выполнять наши обязанности, можно сказать, что и стали заменять нас, людей, в том числе и социальных работников. Они лучше нас и своевременно обслуживают пожилыхлюдей или людей, нуждающихся в посторонней помощи;

✓ сегодня на улицах роботы и дроны выполняют роль полицейского, следят за правопорядком, обеспечивают охрану помещения, проверяют документы людей на улицах, помогают полицейским в поиске нарушителей закона и даже сами могут обезвредить преступника и могут делать все, что нам не под силу;

✓ сегодня на улицах роботы и дроны выполняют роль также и медицинского персонала, следят за людьми, выявляют больных людей и дают знать об этом министерствуздоровья и органам правопорядка.

Можно привести тысячи примеров, которые свидетельствуют об изменении жизненных критериев в связи с влиянием интеграции технологий в нашу жизнь.

С дальнейшим изменением мира, изменится и отношения людей к социальным изменениям, одновременно изменится и суть социальных инноваций в условиях развития информационно-коммуникативных технологий.

## ЛИТЕРАТУРА

1. Priketty T. Capital in the Twenty-First Century. Cambridge: Harvard Univercity Press, 2014
2. worldometers.info/ru/
3. google.com/covid19-map/?hl=ru
4. www.bbc.com/russian/news-384665816

# «ОСТАНЬСЯ ДОМА» КАК МЕТОД СОВРЕМЕННОЙ БЛАГОТВОРИТЕЛЬНОСТИ В СОЦИАЛЬНОЙРАБОТЕ

***Наргиз Зейналлы***
***Магистрант II курса БГУ***
***zeynalli.nargiz@gmail.com***

Приобретенная с давних времен благотворительность в нынешний день начал проявить себя как форма социальной ответственности человека перед собой, его близкими и всей общественностью.

Понятие "благотворительности" в сознании нынешнего гражданина мира имеет чрезвычайно широкий ареал действия. Он может вступать и нравственным поступком, и моральным качеством, и нравственным отношением между людьми и социально справедливая деятельностью профессионалов-волонтеров.

В то время, как один из семейства вирусов «Covid 19» или «SARS-COV2» молниеносно распространяясь поражает людей, с целью предотвращения распространения вирусной инфекции среди населения, на поле боя бросились социальные работники и профессионалы из сфер социальных обслуживаний [1].

Инфекция впервые была зафиксирована 1 декабря 2019 года в Китае в городе Ухань в провинции Убей. Хотя заболевание протекает молниеносно, при том он может вызыватьникаких симптомов так, что даже многие и не подозревают, что они больны. Однако карта катастрофы очень велик, большинство из которых составляют люди старше 60-ти десяти лет.

По состоянию на 10Апреля 2020 года [2]:

- ✓ подтвержденных случаев – 1 604 736;
- ✓ активных случаев – 1 152 329;

- ✓ выздоровело – 356 671;
- ✓ смертей – 95 736.

В связи с распространением вирусной инфекции каждый противостоим ему в размерах его усилий и возможностях, проводя благотворительные акции общественного благодеяния. Они представляют собой поступки, отвечающие требованиям человечности, совершаемые сознательно по личным и моральным мотивам во имя высоких идеалов, интересов человека и общества.

Самая распространенная форма данной благотворительные акции является начатая во многих странах социальная кампания «Останься дома», которая даже стала социально-технологическим трендом. Эти акции означают делать добро, которое представляет собой одно из наиболее общих понятий высоко человеческого морального сознания [3].

В обществе в последнее время в связи с пандемией большее значение придается духовным потребностям человека. Постепенно происходит осознание того, что экономическая модель общества, не должна была основана только на материальных основаниях, т.к. это приводит к саморазрушению общества и людских отношений. Поэтому сегодня актуальной задачей является поиск компромисса между материальными и духовными устремлениями человека и как индивидуума, и как существа коллективного.

На фоне этих изменений мир стал глобализироваться, создалось удобное пространство длясоздания «информационного социального общества», стали внедряться в нашу жизнь информационно-коммуникативные технологии и впервые появится именно то государство, которое будет продуктом общественного развития общества.

Применение ИКТ в разных сферах жизни в период глобализации является показателем развитияэтого

интеллектуального общества. Конечно в течении многих лет имелись определенные проблемы в применении новых информаций, но его решение зависит от того, как мы будем к нему относимся.

С внедрением информационно-коммуникационных технологий в нашу жизнь, появятся и новые методы благотворительности:

✓ произойдет глубокое внедрение ИКТ в быту;

✓ на передний план выйдут значения «интернет-вещей»;

✓ повысится качества благотворительных мероприятий;

✓ с расширением количества пользователей компьютеров, мобильных телефонов и других технологий, люди с любой точки земли смогут помочь друг другу для преодоления общей проблемы;

✓ будет усовершенствоваться законодательная база благотворительности.

Развиваясь информационно-коммуникационных технологии будут интенсивно становиться составной частью нашей благотворительной деятельности. Именно развитие такого социального общества откроет путь ко многим изменениям в мире благотворительности.

## ЛИТЕРАТУРА

1. google.com/covid19-map/?hl=ru
2. worldometers.info/ru/
3. skr.su/news/post/133253

# AZƏRBAYCANDA AUTİZMLİ UŞAQLARLA SOSİAL İŞ

***Fəridə Mustafayeva***
***BDU-nun II kurs magistrantı***
***farida.mustafayevas@mail.ru***

Hal-hazırda mövcud olan iqtisadi və sosial vəziyyətsağlamlıq imkanları məhdud olan uşaqların da daxil olduğu əhalinin ən həssas qruplarının nümayəndələrinə xüsusi diqqətin vacibliyini göstərməkdədir. Uşaqlarda olan əlillik problemlərinin inkişaf dinamikasının təhlili göstərir ki, bəşəriyyət fiziki qüsurları, patofizioloji sindromları və psixososial pozuntuları olan uşaqların cəmiyyətə yenidən inteqrasiyasına ehtiyac duyulduğunu artıq anlamışdır. Bu sosial problemin ciddiliyi bizi sosial institutların davamlı qarşılıqlı təsirdə olduğu sistemin qurulmasına və sağlamlıq imkanları məhdud olan bir uşağın potensial qabiliyyətlərinin inkişafını təmin etməyə sövq edir. Pedaqogika, tibb və sosial işin xüsusi bölmələrinin humanist paradiqmasının inkişafı və tətbiqi bu uşaqlara müasir sivilizasiyanın diqqəti artıra və onların sosial-mədəni ehtiyaclarının daha dolğun şəkildə ödənilməsinə kömək edə bilər [3].

İnkişaf, təhsil və sosiallaşma baxımından daha çətin vəziyyətdə olan uşaq qruplarından biri kimi autizm sindromlu uşaqları misal göstərmək olar. Autizm erkən yaşda özünü biruzə verən və əsasən oğlan uşaqlarında rast gəlinən bir sindrom növüdür [5]. İrsi səbəblərdən və s. dolayı yarandığı kimi iddialar olsa belə, hazırda sindroma nəyin səbəb olduğu barədə formalaşmış tam bir fikir yoxdur. Ancaq həmautizmi olan bir uşağın, həm də ailəsinin ehtiyaclarına tam cavab verən sosial yardımın inkişaf etdirilməsinin məqsədəuyğunluğu getdikcə daha da aydın görünür. Onların idrakının inkişafında sosial mühitin də təsiri böyükdür [6]. Bu kateqoriyalı uşaqlarla sistematik hərtərəfli iş dedikdə uşaqlara cəmiyyətdə

uyğunlaşmağa, məktəbdə oxumağa vəmüəyyən bilik və ya sənət növlərində istedadın aşkarlanmasına kömək edən adekvat sosial-psixoloji və pedaqoji düzəlişlər və s. nəzərdə tutulur.

Hazırda Azərbaycanda 6000-dən çox autizmli uşaq var və bu uşaqların reabilitasiyası ilə məşğul olan bir sıra müəssisələr fəaliyyət göstərir. 2015-ci ilə qədər autizm sözü əlillik meyarlarında hesab olunmurdu, lakin edilən müraciətlərdən sonra onlara 67 manat məbləğində təqaüd ayrıldı [2]. Autizmli uşaqların reabilitasiya müəssisələrində müalicə alması isə daha baha başa gələn bir prosesdir. Bu uşaqlarla bağlı dövlət proqramıolmasa da, əlilliklə bağlı proqramda bu sindromla bağlı məsələlər də yer alır.

Autizmli uşaqlarla bağlı fəaliyyət göstərən təşkilatlardan biri də "Birgə və Sağlam" İctimai Birliyidir. Birlik 2013-cü ildə Aytən Qasımova tərəfindən yaradılmışdır [1]. Birliyin nəzdində Kaşalata adlı kafe-atelye fəaliyyət göstərir. Bu, autizmli yeniyetmə və gənclər üçün peşə təlimi sinifidir. Kafe 2017-ci ildə yaradılıb və personalı ancaq autizm sindromlu şəxslərdən ibarətdir. Mərkəzin nəzdində həmçinin xor qrupu da vardır və qrupun bugünə kimi bir neçə konserti baş tutmuşdur.

Təcrübə bu uşaqlarla sosial işin nə dərəcədə əhəmiyyətli olduğunu və müsbət nəticə verdiyini göstərir.Çox tez-tez ilk dövrün çətinliklərindən sonra müsbət bir nəticə əldə edilir və bu, olduqca dəyərlidir, çünki autizmli uşaqla işləmək sosial işdə mövcud olan demək olar ki, ən çətin işlərdən biri hesab olunur [4]. Dünya statistikasına görə erkən və ciddi reabilitasiya ilə autizm riski daşıyan uşaqların 40%-ində bu risk ortadan qalxır. Buna görə də valideynlər, eləcə də bu işlə məşğul olan qurumlar, şəxslər həmin uşaqlara xüsusi diqqət ayırmalı, cəmiyyətdən təcrid olunmalarına icazə verməməlidir.

## ƏDƏBİYYAT


1. http://birgesaglam.az/

2. https://www.bbc.com/azeri/azerbaijan-43620923
3. ПряжниковаЕ. Ю.Роль социальной работы с детьми с ранним детским аутизмом, 2003
4. Морозов С.А. Детский аутизм и основы его коррекции
5.https://www.mayoclinic.org/diseases-conditions/autism-spectrum-disorder/symptoms-causes/syc-20352928
6. Mohammad-Reza Mohammadi A comprehensive book on autism spectrum disorders, 2011

## NATAMAM AİLƏLƏRDƏ DOĞULAN UŞAQLARLA SOSİAL İŞİN TƏŞKİLİ.

***Hökümə Xalıqova***
***BDU-nun II kurs magistrantı***
***hokucamal97@gmail.com***

Ailə həyat yoldaşları, valideynlər və övladlar arasında tarixən konkret münasibətlər sistemi, üzvləri nikah və qohumluq əlaqələri, ümumi məişət və qarşılıqlı məsuliyyətlə birləşmiş, sosial vacibliyi, əhalinin fiziki və mənəvi artımına cəmiyyətin ehtiyacı ilə şərtlənən kiçik qrupdur (5). Lakin həyat yoldaşları cütünün hər ikisinin , övladların, həyat yoldaşlarının valideynlərinin mütləq şəkildə olması ailə üçün vacib şərt deyildir. Bu baxımdan müasir dünyada ailənin üç müxtəlif ayırd edirlər:

1. Ər və arvad cütlüyü – övlad və övladsız (nuklear ailə)
2. Valideynlərdən biri övladları ilə ( natamam nuklear ailə)
3. Ər və arvad cütlüyü övlad və övladsız, ər və arvadın valideynləri və başqa qohumları ilə (mürəkkəb ailə)

Amerika Birləşmiş Ştatlarında natamam ailələr “iti sürətlə artan ailə tipi” adlanır. Eyni vəziyyət bir çox başqa ölkələrdə də mövcuddur. Bu gün, əvvəllər olduğuna nisbətən daha çox adamlar boşanır, həyat yoldaşını tərk edir, ayrı yaşayır və ya

nikahdan kənar uşağa sahib olur. Bütün bunlar, milyonlarla valideyn və uşaqlara güclü təsir göstərir.

Valideynlərdən biri yaxud hər ikisinin vəfatı, yaxud onların boşanması nəticəsində yaranmış, valideynlərdən biri və övladlarından, ya da yalnız övladlarından ibarət olan ailəyə natamam ailə deyilir. Natamam ailələrdə diqqət yetirilməsi vacib olan başlıca məsələ bu ailədəki uşaqların psixoloji vəziyyəti, onların keçirdikləri hisslər, gələcəkdəki həyatlarına bu vəziyyətin təsir göstərib, göstərməməsidir. Təbii ki, uşağın yetişməsində, böyüməsində əsas rol valideynindir. Uşaq dünyaya gələn zaman ailə böhranlı, gərgin, konfliktli olubsa əlbəttə ki, bu uşağın inkişafında şüuraltı olaraq öz izini göstərəcək. Ailəyə kənar müdaxilələr, natamam ailə olması, ailədə həmişə dava-dalaş olması, nəticədə ailənin boşanması uşağın normal inkişafına mənfi təsir göstərir. Çünki, bütün bunlar uşaqlarda natamam təfəkkür formalaşdırır. Uşağın emosiyaları oyanır, artıq uşaqda emosional pozuntu meydana gəlir. Davranışlarında aqresiya, özünə qapanma yaranır. Həmin uşaq da böyüdüyü zaman valideynlərindən gördüyü münasibəti istər-istəməz gələcəkdə özü də ailə quranda və yaxud iş həyatında, karyerasında özünü göstərir. Ya çox aqressiv, ya çox kobud, ya da ki çox bədbin, içinə qapalı olur. Hər şeyi hər kəslə paylaşmaq istəmir (11).

Natamam ailələrdəki valideynlərin çoxu qəzəb, təqsirkarlıq və yalqızlıq kimi hisslərlə mübarizə aparmaqla yanaşı, eyni zamanda həm evdən kənarda işləməli, həm də ev işlərini yerinə yetirməlidirlər. Belə ailələrdəki uşaqlar isə çox vaxt özünəməxsus çətinliklərlə qarşılaşırlar. Ola bilsin, onlar, valideynlərinin qəfildən boşanması və ya onlardan birinin ölümü ilə əlaqədar yaranan güclü həyəcan hissləri ilə mübarizə aparmalı olurlar. Sanki atanın və ya ananın olmaması uşaqlara pis təsir edir (10). Natamam ailələr, Müqəddəs Kitabın yazıldığı dövrlərdə də mövcud idi. Müqəddəs Kitabda dəfələrlə

“yetim” və “dul qadın” xatırlanır, onlar haqqında kəlamlar öz əksini tapır.

Tənha valideynlərin əksəriyyətinə özlərinin maddi ehtiyaclarını təmin etmək çətindir.Bu, evli olmayan gənc analar üçün isə xüsusilə ağırdır. Dövlət tərəfindən kömək təqdim olunan ölkələrdə, heç olmazsa hər hansı bir iş tapana qədər bu cür köməkdən istifadə etmək müdriklik olardı. Buna bənzər çətinliklərlə dullar və boşananlar da qarşılaşırlar. İllər boyu ev işləri ilə məşğul olanların əksəriyyəti, bir daha evdən kənarda işləməyə məcbur olur və çox vaxt sadəcə maaşı az olan iş tapa bilirlər. Bəziləri peşə hazırlığı qruplarında və ya qısa müddətli kurslarda təlim almaqla öz vəziyyətlərini yüngülləşdirməyə nail olurlar.

Tənha valideynlərin öz uşaqlarına xüsusilə yaxın olmaları təbiidir, lakin bu zaman diqqətli olmaq lazımdır ki, valideynlərlə uşaqlar arasında təyin olunan münasibət normaları pozulmasın. Məsələn, əgər tənha ana ailənin başçılıq məsuliyyətlərini oğluna həvalə edərsə və yaxud qızını özünə sirdaş bilib, şəxsi problemlərini onun üstünə atarsa, ciddi çətinliklər yarana bilər. Bu, münasib davranış deyil, uşaqda stress yaradar və ya onun çaşıb qalmasına səbəb ola bilər.

Konstitusiyamıza əsasən isə deyə bilərik ki, valideynlərin hüquqları bərabərdir; uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur (2). Valideynlər tənha da olsalar bu borcun öhdəsindən gəlməlidirlər.

Ailə ilə sosial iş çoxaspektli xarakterə malikdir. Bu fəaliyyət ailənin və onun sosial mühitinin ehtiyaclarının ödənilməsinə yönəlmişdir. Sosial iş ailənin müxtəlif problemləri ətrafında təşkil olunacaqdır. Bunlar: psixi sağlamlıq, ailə xidməti, ailənin və məktəbin problemləri, ahıllarla iş, ailənin sosial təminatı. Ailənin problemi V. Satir, S. Minuxin, R. MakQreqor, M. Bouen və başqalarının elmi

işlərində nəzəri dərk edilir və bu yanaşmalar ailə ilə sosial iş təcrübəsində istifadə olunur (6).

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq hüquqları üzrə dövlət komitəsi. http://www.scfwca.gov.az/
2. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 1995. II Bölmə, III Fəsil, Maddə 34.http://www.e-qanun.az/framework/897
3. Azərbaycan Respublikası Ailə Məcəlləsi. Bakı, 2006. II Bölmə, III Fəsil.
4. Ə. S. Bayramov, Ə. Ə. Əlizadə "Psixologiya", Bakı, 2002.
5. F. Vahidov; T. Ağayev "Sosiologiya",Bakı,2013.
6. M. V. Firsov; E. Q. Studenova "Sosial işin nəzəriyyələri". Dos. Ü. Şəfiyevin başçılığı ilə tərcümə kitabı. Bakı, 2018.
7. R. H. Məmmədzadə "Konfliktlər, ailələr, məktəblilər", Bakı,2004.
8. Шейков В.П. «Конфликты в нашей жизни и их разрешение». Минск 1996.
9. Эглите А. «Семья». Рига 1998.
10. https://wol.jw.org/
11. https://www.yeniavaz.com/


## AZƏRBAYCANDA MƏŞĞULLUĞUN DÖVLƏT SİYASƏTİ


***Sitarə Nurumova***
***BDU-nun II kurs magistrantı***
***cosqunsitare@mail.ru***


Azərbaycan Respublikasında əhalinin məşğulluq sahəsindəki dövlət siyasəti "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyən olunur. Bu qanunun

“Məşğulluq sahəsində dövlət siyasəti” adlanan 6-cı maddəsində qeyd olunur: ”Dövlət vətəndaşların səmərəli və sərbəst seçilmiş məşğulluğunun təmin edilməsinə köməklik göstərir” (2, s.8).

Bildiyimiz kimi, məşğulluq hər bir istehsal üsulunun başlıca iqtisadi münasibətlərini təşkil edən istehsal amillərinin – istehsal vasitələri ilə iş qüvvəsinin birləşməsinin tarixi üsullarının xüsusiyyətlərini özündə əks etdirən sosial-iqtisadi prosesdir. Məşğulluğun səviyyəsi və strukturunun formalaşması isə ilk növbədə burada mövcud olan əhalinin və əmək ehtiyatlarının sayından asılıdır. Çünki insan əmək qüvvəsi olaraq cəmiyyətin məhsuldar qüvvələrinin başlıca ünsürü hesab edilir.

Azərbaycan SSRİ-nin tərkibində olduğu zaman dilimində üstünlük respublikanın iqtisadiyyatının birtərəfli inkişaf etdirilməsinə - daha çox neft istehsalı sahəsi, pambıqçılıq, üzümçülük, tərəvəzçilik və s. zəruri ehtiyac mallarının istehsalına daha çox verilirdi. Həmçinin, bu bazar sistemi Azərbaycanı sırf xammal mənbəyi dövlət olaraq tanımlamağa xidmət edirdi. Müstəqillik əldə etdikdən sonra isə, dövlətin qarşısında duran ümdə vəzifə mövcud iş yerlərinin saxlanması şərti ilə, yeni iş yerlərinin açılması, əmək qabiliyyətli əhalinin işlə təmin olunması, məşğul şəxslərin sayının artırılması istiqamətinə yönəldilmişdir. Bu tədbirlərin həyata keçirilməsi “səmərəli məşğulluq” siyasəti ilə mümkün olmuşdur. Səmərəli məşğulluq işə tələbatla iş təklifi arasındakı mütənasibliyi göstərir, bu isə nəticədə sosial-iqtisadi tərəqqi üçün hazırlıq mərhələsini tamamlayır.

Hal hazırkı mövcud vəziyyətə göz gəzdirdikdə görmək olur ki, işsizliyin azaldılması məqsədilə ölkəmizdə keçirilən məşğulluq siyasəti öz bəhrəsini verir. Xüsusilə, 2004-cü ildən başlayaraq, qəbul edilən dövlət proqramları sosial-iqtisadi inkişafın sürətlənməsində xüsusi rola malikdir. 2007-2010-cu illərdə Azərbaycan Respublikasının məşğulluq strategiyası üzrə Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planında da “Məşğulluq haqqında qanunun Avropa Sosial Xartiyasına

aidiyyatı müddəalarına uyğunlaşdırılması və təkmilləşdirilməsi ilə bağlı müvafiq təkliflərin hazırlanması” Nazirlər Kabinetinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Ədliyyə nazirliyinə həvaləedilmişdir (1, s. 15).

Həmçinin, səmərəli məşğulluq davamlı inkişafın əsas amillərindən biridir. Davamlı inkişaf 2000-ci ildə elan olunmuş “Minilliyin inkişaf məqsədləri”ndə “Tam və məhsuldar məşğulluğun və hamının, o cümlədən qadınlar və gənclərin layiqli işlə təmin edilməsi” kimi, 2015-ci ildə qəbul olunmuş “Davamlı inkişafın məqsədləri”ndə isə “Əhatəli və davamlı iqtisadi artıma, hamı üçün tam və məhsuldar məşğulluq və layiqli işin təmin olunmasına yardım göstərilməsi” kimi əks olunmuşdur.

Azərbaycanda yoxsulluğun səviyyəsinin aşağı salınması planı çərçivəsində bir sıra dövlət sənədləri, qanunlar, dövlət proqramları işlənib hazırlanmış və qəbul edilmişdir. Həmçinin, dövlətimiz bu istiqamətdə qəbul olunmuş beynəlxalq öhdəlikləri, Beynəlxalq Əmək Təşkilatının 88 saylı “məşğulluq xidmətinin təşkili” Konvensiyası və 122 saylı “Məşğulluq sahəsində siyasət” konvensiyasında qeyd olunan öhdəlikləri öz üzərinə götürmüşdür. Bu Plan çərçivəsində Azərbaycan Respublikasında 1991-2001-ci illərdə “məşğulluq haqqında” qanun qəbul edilmişdir.

“Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)” - 2003-cü ildə, 2007-ci ildə “2007-2010-cu illərdə Məşğulluq strategiyasının reallaşdırılması üzrə hərəkət planı”, 2008-ci ildə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” qəbul edilmişdir. 2010-cu ilin dekabrında Bakıda “Layiqli Əmək Proqramı”nın ikinci fazası üçün 2010-2013-cü illərdə regional konfransda ölkələr üzrə prioritetlər seçilmişdir.

Araşdırmalar göstərir ki, son 15 ildə iqtisadi fəal əhalinin və muzdlu müqavilə əsasında çalışan əhalinin sayı artmaqdadır

(fərq 2000-ci ildə 2.637,2 min nəfərdən 2014-cü ildə 3.083,3 nəfərə qədər artmışdır). Bu fərqi azaltmaq və məşğulluğun təmin olunması yeni iş yerlərinin yaradılması ilə bilavasitə bağlıdır. Ölkəmizdə 2014-cü ildə 105120-i daimi iş yeri olmaqla 127915 təzə iş yeri açılmışdır.

Yekun olaraq, bir neçə istiqamət sadalamaq olar ki, regionlar üzrə əhalinin məşğulluğunu təmin etmək məqsədilə bu işlər həyata keçirilir:

İşsizliyin mənfi nəticələrinin aradan qaldırılması məqsədilə tədbirlərin həyata keçirilməsi ərazi üzrə sosial-iqtisadi proqramların işlənib hazırlanması yeni iş yerlərinin yaradılması və bu sahədə üstünlüyün qeyri neft sektoruna verilməsi kənd yerlərində də şəhər infrastrukturunun yaradılması yolu ilə əhalinin şəhərlərə miqrasiyası səviyyəsinin azaldılması siğorta bazarının genişləndirilməsi kənd təsərrüfatı məhsullarının satışı üzrə marketinq şəbəkəsinin yaradılması (3, s.3).

**ƏDƏBİYYAT**

1. "Əmək və Məşğulluq sahəsində Dövlət Siyasəti"- Təhlil sənədi
2. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunu. 29 iyun 2018-ci il. № 1196-VQ
3. T.Ə.Quliyev – İnflyasiyanın anatomiyası. Bakı - 2003

## QAÇQIN VƏ MƏCBUR KÖÇKÜNLƏRLƏ SOSİAL İŞİN MƏZMUN VƏ İSTİQAMƏTLƏRİ

***Nərgiz Yusifova***
***ADMIU-nin II kurs magistrantı***
***nlkerimzade@gmail.com***

Məcburi köçkünlər milliyyətinə, irqi və vətəndaşlıq əlamətinə, dini etiqadına, dilinə, habelə siyasi əqidəsinə, müəyyən sosial qrupa mənsubiyyətinə görə təqibə məruz qalan, həyatına, ailəsinə, əmlakına real təhlukə yaranması ilə əlaqədar daimi

yaşadığı dövlətin onu mudafiə etməsindən istifadə edə bilməməsi, yaxud təhlukəyə görə bu mudafiədən istifadə etmək istəməməsi üzündən ölkə ərazisində daimi yasayış yerini tərk etməyə məcbur olub, başqa yerə köçən şəxslərdir.İrqi mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.

BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığının (UNHCR) hesabatına görə, dünyadakı ümumi miqrant sayı 2014-ci ilin sonuna olan rəqəmlərə görə, 60 milyona çatıb.Doğma vətənlərini, böyüyüb boya-başa çatdıqları torpaqları və öyrəşdikləri hər şeyi geridə qoyaraq tamamilə başqa torpaqlara köç etmək məcburiyyətində qalmış 60 milyon insan.Soyuq müharibənin sonunda beynəlxalq gündəmə yeni bir problem çıxdı, münaqişə və insan haqları pozuntuları nəticəsində evlərindən didərgin düşənlər, öz ölkələrinin hüdudları daxilində kökündə qalmaq və risk altında qalmaq.

İkinci Dünya Müharibəsindən sonra qaçqınların, sərhədlərdən qaçan insanların qorunması və yardım edilməsi üçün yaradılan beynəlxalq sistem məcburi köçkünlərə (məcburi köçkünlərə) şamil edilmədi. Son on beş ildə dünyanın 20-25 milyon məcburi köçkününün ehtiyaclarına cavab vermək üçün beynəlxalq bir sistem yaratmaq üçün ciddi səylər göstərildi, lakin suverenlik, hüquqi çərçivələr, institusional tənzimləmə və strategiyaların həllində uzun bir yol qalmaqdadır. öz ölkələrində təcavüz altında olan insanları qorumaq. Son tədqiqatlar uşaqların çətinliklərini və birbaşa və dolayı müharibəyə məruz qaldıqları zaman inkişaf edə biləcəkləri xəstəlikləri təsvir edir.

Qaçqınlara, köçkün uşaqlara və uşaq əsgərlərinə təsir edənləri əhatə edir. Doza məruz qalma onların sıxıntı dərəcələrinin əsas proqnozudur. Çox vaxt valideyn dəstəyinin itirilməsi çətinlik və ya pozğunluğu proqnozlaşdırır. Qaçqın və məcburi köçkün olan uşaqlar üzərində aparılan tədqiqatlar, valideynləri müşayiət edərsə, uçuşları ilə əlaqədar yaşanan çətin hadisələrin daha yaxşı öhdəsindən gəldiklərini tapdı. Uşaq əsgərlərinin araşdırmaları göstərir ki, onlar bir çox şiddətli əzabverici hadisələr yaşamaqla yanaşı günahkarlıqdan əziyyət çəkirlər. Tədqiqat, onların geri qayıtdıqları icmalar tərəfindən qəbul edilmələrini əhatə edən amilləri müəyyən etdi. Müharibəyə məruz qalan uşaqlar üçün duyğuların tənzimlənməsi, valideyn tərbiyəsi və sosial dəstək də daxil olmaqla şəxsi və sosial sabitlik mənbələri mövcuddur.

Dünyada sığınacaq istəyən böyüklər və uşaqların sayı getdikcə artır və bir çox millət həbs və digər sərt və müdaxilə immiqrasiya təcrübələrindən istifadə edir. Artıq həssas böyüklər və uşaqların tutulması ilə əlaqəli psixoloji zərərin sübutları var.

Qlobal qaçqın böhranı tədqiqatçılardan, siyasətçilərdən və klinisistlərdən məcburi köçkünlüyün psixoloji nəticələrinin miqyasını və onları yaradan amilləri dərk etmələrini tələb edir. Bu günə qədər bu mövzularda tədqiqatların heç bir empirik sintezi aparılmamışdır.

Meta-analitik olaraq dünya miqyasında araşdırma nümunəsindən istifadə edərək qaçqınlar (məcburi köçkünlər, sığınacaq axtaranlar və vətəndaşlığı olmayan şəxslər daxil olmaqla) arasında zədələnmiş ruhi sağlamlığın dərəcəsini müəyyənləşdirmək. Zehni sağlamlıq nəticələrinin potensial moderatorları, kontekstli dəyişənlərə (məsələn, postdisplasi-yadan sonra yerləşdirmə və iqtisadi imkanlar) və qaçqın xüsusiyyətlərinə görə araşdırıldı.

Aşağı mənbəli ölkələrdə davam edən siyasi və vətəndaş iğtişaşları məcburi köçkünlər üçün ixtisaslaşdırılmış reproduk-

tiv sağlamlıq xidmətlərinə ehtiyacın olduğunu vurğulayır. Məcburi köçkün qadınlar xüsusilə yüksək analıq ölümü, ailənin planlaşdırılması üçün ödənilməmiş ehtiyac, təhlükəli abortdan sonra yaranan fəsadlar və cinsiyyət zorakılığı, həmçinin cinsi yolla ötürülən xəstəliklər, o cümlədən HİV ilə üzləşirlər. Yardım və inkişaf agentlikləri və BMT orqanları texniki materiallar hazırlamış, böhran vəziyyətlərinə aid müsbət siyasət dəyişiklikləri etmiş və reproduktiv sağlamlığın daha yaxşı təmin edilməsi üçün çalışırlar.

Bununla birlikdə əhəmiyyətli boşluqlar qalmaqdadır. Böhranlarda reproduktiv sağlamlıq sahəsindəki əməkdaşlıq diqqətəlayiqdir, bir çox agentlik bir və ya bir neçə şəbəkədə çalışır. Beş illik RAISE təşəbbüsü, yardım və inkişaf sahələrindən olan BMT və QHT-lərin əsas qurumlarını bir araya gətirir və reproduktiv sağlamlıq xidmətinin göstərilməsi, təbliğat, klinik təlim və tədqiqat işlərini dəstəkləmək üçün təcrübələrinə əsaslanır. Ümumi rəhbər sənədlərdən istifadə etməyə, prioritetləri birgə inkişaf etdirməyə və mənbələri bölüşməyə hazır olmaq, daha mürəkkəb əməliyyatlara səbəb oldu və hər bir qurum müstəqil işlədikdən daha az üst-üstə düşdü. Sahədəki meyllər, o cümlədən məcburi köçkünlərə və düşərgə olmayan ərazilərdə yaşayanlara, düşərgələrdəki qaçqınlara, fövqəladə halların uzun sürən təbiətinə və empirik sübutlara artan ehtiyaca daha çox diqqət gələcək tərəqqiyə təsir göstərəcəkdir.

Mühafizə və yardıma ehtiyacı olan qaçqın və məcburi köçkünlərin sayı 1990-cı ildəki 30 milyondan bu gün 43 milyona qədər artdı. Müharibə və vətəndaş qarşıdurması dünyanın demək olar ki, hər bölgəsinə, o cümlədən Avropaya təsir edən bu kütləvi miqrasiya epidemiyasından çox məsuliyyət daşıyırdı. 1990-cı ildən bəri beynəlxalq sərhədləri keçən qaçqınların erkən axını zamanı xam ölüm nisbətləri (CDR) əvvəllər Kamboca və Efiopiya qaçqınları arasında bildirilən CDR-lərdən bir qədər aşağı olmuşdur.

Buna baxmayaraq, Efiopiya, Keniya, Nepal, Malavi və Zimbabve'ya 1990-cı ildən bəri gələn qaçqınlar arasında CDR-lər, ölkələrdəki ilkin CDR-lərin beş ilə 12 qat arasında dəyişdi. İraqın şimalında, Somalidə və Sudanda məcburi köçkünlər arasında CDR-lər çox yüksək idi və ləğv edilmiş yerlər üçün əsas CDR-lərin 12-25 qat arasında dəyişirdi. Həm qaçqınlar, həm də məcburi köçkünlər arasında 5 yaşdan kiçik uşaqlar arasında ölüm nisbəti yaşlı uşaqlar və böyüklər arasında müqayisədə daha yüksək idi. Banqladeşdə qadın Rohingya qaçqınlarında ölüm nisbəti kişilərə nisbətən bir neçə dəfə çox idi.

Tez-tez qidalanma ilə ağırlaşan ishal xəstəliyi, qızılca və kəskin tənəffüs yoluxucu infeksiyalar kimi profilaktik şərait əksər insanların ölümünə səbəb olmuşdur. 1990-cı ildən bəri qaçqınlar üçün yardım proqramları yaxşılaşsa da, məcburi köçkünlər arasında vəziyyət daha da pisləşə bilər. Vətəndaş müharibəsi, insan haqlarının pozulması, qida çatışmazlığı və kütləvi yerdəyişmə ilə əlaqəli mürəkkəb fəlakətlərin təkamülünə beynəlxalq birlik daha əvvəl müdaxilə etməlidir. Yardım proqramları sağlam sağlamlıq və qidalanma məlumatlarına əsaslanmalı və xüsusilə gənc uşaqlar və uşaqlar arasında ishal, qızılca və digər yoluxucu xəstəliklərdən ölüm hallarının qarşısını alan adekvat sığınacaq, yemək, su, sanitariya və ictimai səhiyyə proqramları ilə təmin edilməlidir.

Həm dövlətlərə, həm qeyri-hökumət təşkilatlarına, həm də dünya mediasına böyük iş düşür. Miqrant məsələsinə humanitar bir məsələ kimi baxdıqda, aid olduqları vətənlərindən, evlərindən, ailələrindən, mallarından, mülklərindən ayrılmaq məcburiyyətində qalan bu məzlum insanlara sevgi və şəfqət göstərdikdə problemin kökündən həll ediləcəyinə şübhə yoxdur. Unudulmamalıdır ki, sevgi bütün çətinliklərin həllidir.

Dünyanın hər tərəfində yardımlaşma və fədakarlığı dirçəldəcək sevgi kampaniyası başlamaq, miqrant problemini həll etmədə ən mühüm addım olacaq. Reallıq odur ki,

yaşadığımız dövr ədalətsizliklərə və amansızlığa səssiz qalacaq, milyonlarla insan zülm altında olduğu halda, heç bir şey yoxdur kimi davranacaq bir dövr deyil. Miqrant məsələsində də səssiz qalmamaq lazımdır. Zülmə razı olmağın, zülm olduğu həqiqətini unutmadan vicdan sahibi hər kəs məzlum miqrant qardaşlarımızın qurtuluşu üçün üzərinə düşən vəzifəni yerinə yetirməlidir [3].

## ƏDƏBİYYAT

1. Roberta Cohen. Developing an International System for Internally Displaced Persons
2. Michael J. Toole, Refugees and Displaced Persons War, Hunger, and Public Health
3. Woods LN.Behaviour change communication in emergencies: a toolkit. Nepal: United Nations Children's Fund; 2006.

## TƏHSİLDƏN YAYINAN YENİYETMƏ VƏ GƏNCLƏRLƏ SOSİAL İŞ

***İlahə Muradlı***
***BDU-nun II kurs magistrantı***
***ilahe_muradova@bk.ru***

Bildiyimiz kimi təhsil cəmiyyətdə mühüm vəzifəni həyata keçirən əsas institutlardan biridir. O, vətəndaş hazırlığından başlamış, mütəxəssis hazırlığı və sosiallaşma institutu kimi mühüm misyaları yerinə yetirir. Təssüflər olsun ki, bu gün Azərbaycanda və dünyada təhsildən yayınan kifayət qədər ciddi kritik kütlə vardır. Bu reallıq isə əfsuslar olsun ki, il keçdikcə öz artım səviyəsini göstərir. Ölkəmizdə mövcud olan təhsildən yayınma halları ilə biraz daha yaxından tanış olaq. Azərbaycanda təhsilin səviyyəsi heç də ürəkaçan deyil.

Zaman-zaman bu məsələdən çox danışılıb, müzakirələr aparılıb, ancaq təhsilin inkişafı ilə bağlı heç bir yenilik müşahidə edilmir. Bu sahədə olan nöqsanların sayı isə azalmır. Bu günlərdə Azərbaycanda təhsildən kənar qalan məktəbyaşlı uşaqların və həmçinin gənclərin dəhşətli statistikası üzə çıxıb. Verilən məlumata əsasən Azərbaycanda 70-80 min uşaq təhsildən kənar qalıb. Səsləndirilən rəqəm olduqca maraq doğurur və heç də inandırıcı görünmür. Bəzi ekspertlər bu rəqəmin 3-4 min arasında dəyişdiyini önə çəkir. Bir reallıqda mövcuddur ki:

***Təhsildən yayınan uşaqların sayı gizlədilir...***

Təhsil ekspertlərinin dediyinə görə, əslində təhsildən yayınma daha çox özünü bölgələrdə göstərmiş olur. Maddi çətinlik içində yaşayan ailələr öz övladlarına keyfiyyətli təhsil verə, bəzi yoxsul ailələr ümumiyyətlə, uşaqlarını məktəbə göndərə bilmirlər. Ailə dolanışığının çətin olduğunu öz gözlərilə görən və dərk edən yeniyetmələr və gənclər isə valideynlərinə kömək məqsədilə müxtəlif işlərə cəlb olunaraq evə az da olsa gəlir gətirməyə can atırlar. Bu isə artıq onların təhsildən yayınma hallarına səbəb olur. Ümumiyyətlə biz təhsildə iki müvəffəqiyyət əldə edə bilərik. Onlardan ikisi də vacibdir. Birincisi, uşaqlar ümumiyyətlə, təhsil alır, ya yox...

İkincisi isə uşaqların aldığı təhsil nə dərəcədə müasir dövrün tələblərinə cavab verir? Yəni təhsil keyfiyyətlidir ya yox... Təxmin etmək olar ki, Azərbaycanda 2 minə yaxın uşaq küçədə işləyir. Yəni bu uşaqlar "küçə uşaqları" qrupuna daxildir. Bilirsiniz ki, ölkədə 70 minə yaxın əlilliyi olan uşaq var. İnklüziv təhsilə isə çox az sayda onlarla, yüzlərlə uşaq cəlb olunub. Evdə təhsilə isə o qədər də çox uşaq cəlb olunmayıb. Səhv etmirəmsə 3-4 il bundan əvvəl aparılan araşdırmada müəyyən edilmişdir ki, təxminən 15 minə yaxın əlilliyi olan uşaq təhsilə cəlb olunmayıb. İnanıram ki, indi də həmin məsələ öz həllini tapmayıb. Yeniyetmə və gənclərin təhsildən yayınmasının digər bir səbəbi

***Evlənməyə məcbur edilmiş təhsilsizlər...(Erkən nikahlar)***

Azərbaycanda müəyyən yaşdan sonra uşaqların təhsildən yayınma halları da mövcuddur: Yəni onlar müəyyən yaşa qədər təhsil alıb sonradan təəssüf ki, təhsildən kənara qalır. Bu da əsasən qızlardır. Azərbaycanın bir neçə regionunda bu fenomen hələ də qalmaqdadır. Təhsildən yayınan bu qızlar "erkən nikah"ın qurbanına çevrilir. Bəzi bölgələrdə valideynlər öz qızlarını 9-cu sinifdən çıxarırlar. Bu da öz təsirini göstərir. "Erkən nikah" da əslində nikah bağlanmır. Bu erkən evlənməyə məcbur edilmiş qızların sayı barədə rəqəm demək çətindir. Digər qrup keyfiyyətli təhsil almayan uşaqlardır. Misal olaraq cəzaçəkmə yerlərində, internat müəssisələrində oxuyan uşaqların təhsil keyfiyyəti, texniki imkanları qat-qat aşağıdır.

Əlilliyi olan uşaqlar üçün məktəblər, o cümlədən yardımçı təhsil müəssisələrində, evdə təhsilə cəlb olunmuşların da təhsili heç də keyfiyyətli hesab olunmur. Bu istiqamətdə Təhsil Nazirliyi digər qurumlarla və qeyri-hökumət təşkilatları ilə vəziyyəti dəyişməyə çalışır. Lakin bunun üçün xeyli vaxt tələb olunur. Çünki fikrimcə bu məsələ qısa bir zaman çərçivəsində həll olunası deyil. Lakin bütün bunlara baxmayaraq Azərbaycanda təhsildən yayınma hallarının qarşısını almaq üçün ailə,məktəb, şagird və tələbələrlə iş aparılır. Bununla bağlı qanunvericilik təkmilləşdirilir.Bu baxımdan İnzibati Xətalar Məcəlləsinə əlavə edilən 51.1-1 maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində yeddi gündən çox buraxılmasına görə, şagirdin valideyni yüz manat miqdarında cərimə edilməsi ümumi işə fayda verə bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Təhsil Qanunu.Bakı.2009.

2. https://www.interpress.az/60395-thsildn-yaynan-uaqlarn-say-gizldilir.html#.Xns44YgzbIU
3. Azərbaycan Respublikası Dövlət Statistikası.Azərbaycanın demoqrafik göstəriciləri.Bakı.2017.

## TƏNHA AHILLARLA İŞ TƏCRÜBƏSİNDƏ SOSİAL-PSİXOLOJİ PROSEDURLAR

***Rauf Mirəliyev***
***BDU-nun II kurs magistrantı***
***miraliyevrauf1@gmail.com***

Ahıllıq probleminin elmə qədərki bu mərhələdə araşdırılması çox zəngin materiallara malikdir. Problemin araşdırılmasında ikinci mərhələ elmi şəkildə yanaşma formasıdır. Artıq burada problemin nəzəri həllinə üstünlük verilir. Keçən əsrin ikinci yarısından başlayaraq Amerikada və Avropanın bir sıra qabaqcıl ölkələrində ahıllıq problemi fəlsəfi və sosioloji aspektlərlə yanaşı psixoloji aspektdə də tədqiq edilməyə başlanmışdır. Həmin illərdə sovet psxoloqları bu problemi müəyyən dərəcədə tədqiq etsələr də, Azərbaycanda bir sıra sosial amillərdən irəli gələrək problem izah edilməmiş qalmışdır.

Üçüncü mərhələ isə eksprimental planda araşdırılma mərhələsidir. Bu mərhələdə isə qocalığın mexanizmləri, təzahür xüsusiyyətləri psixodiaqnostik metodların köməyi ilə tədqiq edilmişdir. Həmçinin psixoprofilaktik tədbirlərin də həyata keçirilməsinə başlanmışdır [1, s.57].

Qeyd edə bilərik ki,ahıllıq problemi üç mərhələdə təhlil olunmuşdur. Birinci səviyyədə bu problem güzəran və məişət psixologiyası səviyyəsində nəzərdən keçirilmişdir. Məlumdur ki, bu səviyyədəki təhlilə folklor nümunələrində, eləcə də bir sıra janrlarda yazılmış bədii ədəbiyyat nümulərində rast gələ bilərik. Məhz bu cəhətdən hər bir xalqın ədəbiyyat

nümunələrində, etnik xüsusiyyətlər nəzərə alınmaqla qocalığın təzahür xüsusiyyətləri və onu doğuran səbəbləri barəsində müəyyən fikir və mülahizələr müşahidə edilə bilər. Azərbaycan klassik ədəbiyyatında “ Leyli və Məcnun” poemasında (Məcnun obrazı vasitəsi ilə) həm qocalığı törədən sosial – psixoloji amillər, həm də təzahür formaları yüksək ustalıqla təsvir edilmişdir [4].

Müasir dövr ədəbiyyatında da bu problemin təsviri ilə bir sıra janrlarda rastlaşa bilərik. Bu gün artıq ahıllıq nəsr nümunələri ilə yanaşı dedektiv janrın da ayrılmaz hissəsinə çevrilib. Əgər biz Çingiz Abdullayevin bir çox əsərlərini təhlil etsək, onun cinayətkarın kiçik yaşlarında qazandığı psixoloji travma, daha sonralar qocalığa qapılması və deviant davranış nümunəsi olaraq cinayətə əl atması kimi faktlarla dəfələrlə rastlaşa bilərik.

Əgər klassiklərimizin əsərlərində “ahıllıq” anlayışı yaxın adamlarını itirmiş, sevgilisindən ayrılmış, fiziki cəhətdən tək qalmış insanların keçirdiyi hisslərin təzahürü kimi ortaya çıxırdısa, indi isə məzmununu dəyişmişdir. Müasir təsvirlərdə artıq ahıllıq insanları yaxın qohumların, tanışların, bir çox insanların içərisində haqlayır.

Belə bir sual qarşıya çıxır: şəxsin interovert və ya ekstrovet olması ahıllıq halətini şərtləndirə bilərmi? K.Yunq bu anlayışları şəxsiyyətin şüurunun yönəliş istiqamətindən asılı olaraq tipoloji cəhətləri müəyyən etmək üçün irəli sürmüşdür. O qeyd edirdi ki, hər bir insanda iki cəhət də özünü göstərə bilər, lakin hansısa biri üstünlük təşkil edir. Ekstrovert insan başqa insanlara, ətrafdakı obyektlərə yönəlmiş olur. Bu tip insanlara ünsiyyətlilik, hərəkətlilik xasdır. Onlar başqaları ilə tez əlaqəyə girərək ünsiyyət qururlar, sosial adaptasiya prosesi onlarda daha yaxşı gedir.

İntrovertlər isə öz daxili aləminə - fikir və hisslərinə yönəlmiş olur. Bu tip insanın bütün marağı özündə cəmlənmiş olur, özünütəhlilə, təkliyə meylli, ünsiyyətsiz, qapalı, sosial

cəhətdən passiv olurlar. Sosial adaptasiyada çətinlik çəkirlər. Növbəti sual bu formada təşkil edilə bilər: temperament tipləri ilə qocalığın yaşanması arasında hansı asılılıq vardır? Əvvəlcə temperament tiplərinin qısa xülasəsi ilə tanış olaq və daha sonra onlar arasında mövcud ola biləcək asılılığı müəyyən edək.

Sanqvinik – aktivdir, müvazinətlidir, dəyişkən həyatı situsiyalara, yeni tələbləə və yeni şəraitə asanlıqla uyğunlaşır. Ünsiyyətlidir, ətrafdakılarla asanlıqla dil tapır, yeni, tanımadığı adamlarla görüşəndə sıxılmır. Hər şeyə bir o qədər əhəmiyyət vermir, zarafatcıldır, şəndir, tam ümid və arzularla yaşayan bir insandır. Canlı mimika və ifadəli hərəkətlərə malik olduğu üçün onun üzünə baxanda onun əhval-ruhiyyəsini, müəyyən şeylərə və ya insanlara münasibətini asanlıqla duymaq olur. Onun yüksək mütləq həssaslıq həddi olduğu üçün, çox zəif səsləri və s. duya bilmir. Ekstravertdir.

Xolerik – sanqvinik kimi zəif həssaslığa malikdir, aktivdir, çox tez özündən çıxır, səbirsizdir, hövsələsizdir. Sanviniklə müqayisədə knartəsirlərə nisbətən gec uyğunlaşır. Yəni maraq cəhdəri sabit olur və diqqətin keçirilməsində çətinliklərlə üzləşə bilir. Ekstravertdir.

Fleqmatik – zəif həssaslığa və emosionallığa malikdir. Onu güldürmək və qəmləndirmək çətindir. Çox çətin, gec hirslənir. Əvvəlcə fikirləşir ki, hirslənməyə dəyər ya yox. Böyük xoşagəlməzliklər olduqda belə o, sakit və təmkinli qalır. Adətən onun mimikası kasad, hərəkətləri və nitqi isə ifadəsiz və asta olur. Diqqətin keçirilməsi çox çətin olur və yeni şəraitə çətin uyğunlaşır. Səbrlidir, dözümlüdür, məqsədyönümlüdür, özünü ələ almağı və idarə etməyi bacarır. İ.P.Pavlova görə, fleqmatikə müəyyən mənada autizm xasdır. Lakin, bu autizm melanxolikin autizmi deyil. Yəni buradakı autizm öz gücünə qənaət etmə, boş yerə qüvvəsini sərf etməmə arzusundan irəli gəlir. İntrovertdir [2, s. 74].

Melanxolik – yüksək həssaslığa malikdir. Yüksəkinertliklə, fəaliyyətsizliklə yanaşı yüksək həssaslığın olması ona gətirib

çıxarır ki, adi, əhəmiyyətsiz bir şey onu ruhdan salaraq ağlamaq səviyyəsinə gətirib çıxara bilir. Həddən artıq hər şeyə həssasdır və tez inciyəndir. Səsi sakit, mimika və hərəkətləri isə ifadəsizdir. İnadcıl,enerjili deyil, tez yorulur, özünəinamsız və aciz bir insandır.

İ.Pavlov melanxoliki autistik tip adlandırır və onun autizmini onunla izah edir ki, yeni şərait qarşısında qorxu hissi yaranaraq onda ləngimə gətirir və ümumiyyətlə, onun üçün həyatın hər bir təzahürü ləngidici agent rolunu oynayır. O, heç nəyi inanmadığı, heç nəyə ümid etmədiyi üçün hər şeydə təhlükəli, pis şeyləri görür. Zəif tipdir, utancaqdır, cəsarətsiz qətiyyətsizdir. İntrovertdir.

Bütün bu xüsusiyyətləri nəzərə alsaq, ilk növbədə belə bir fikrə gələ bilərik ki, introvert tipə məxsus insanlarahıllıq halətinə daha meylli olurlar. Yəni xarici obyektlərə, insanlarla ünsiyyətə yönümlü olan ekstravertlərdən fərqli olaraq, subyektiv aləmə yönümlü olan introvertlərin öz daxili aləmini tez-tez "səyahət" edib orada sırf subyektiv yaşantı olan qocalığı "müşahidə etmə" şansı daha çox ola bilər [3, s. 134].

Beləliklə də, bütün deyilənlərdən belə nəticə çıxara bilərik ki, diqqətini bütünlüklə öz hisslərində cəmləyən, daima öz problemlərini çözələyən, ünsiyyətdən yayınaraq yanlızöz problemləri ilə məşğul olan introvertlərdə, ekstravertlərlə müqayisədə, ahıllıq hisslərinin yaranma ehtimalı daha çoxdur.

Bu nəticəni introvert və ekstravert xüsusiyyətlərini özündə ehtiva edən temperament tiplərinə də şamil etsək, onda temperamentə görə sanqvinik və xolerik olan ekstravertlərdə, melanxolik və fleqmatiklərlə müqaisədə tənha olma, bu hissi yaşama şansının daha az olduğunu deyə bilərik. Lakin, temperament tiplərinin sadəcə ekstraversiya və introversiyanın deyil, digər daha da mühüm, spesifik xüsusiyyətlərin də daşıyıcısı olduğunu nəzərdən qaçırmaq olmaz. Düzdür, melanxolik və fleqmatik tipli insanların introvert xüsusiyyətləri – qapalılığa, təkliyə meylli olması onların ünsiyyət imkanlarını

xeyli məhdudlaşdırır. Lakin, digər tərəfdən, güclü, təmkinli, iradəli, qətiyyətli, fiziki və sosial təcrid şəraitinə kifayət qədər səbrlə dözən fleqmatiklə müqaiysədə nisbətən qətiyyətsiz, zəif, depressiv emosiyalara meyilli, daima başa düşülməyə, halına yanan, dərdinə şərik olan insana təlabat duyan melanxolik tip ahıllıq halətini daha kəskin yaşaya bilər.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı, 1981
2. Алиев Б.Г. Социально-психологические проблемы личности несовершеннолетних правонарушителей. Баку, 1996.
3. Алиев Б.Г. Методология социально-психологического исследования. Баку, 1999
4. http://anl.az/el/h/h001/h001003/lvm001.htm

## SİYASİ DAVRANIŞA TƏSİR EDƏN AMİLLƏR

***Fərida Sadıqova***
***BDU-nun II kurs magistrantı***
***faridasdqv@gmail.com***

Sivil bir cəmiyyətdə siyasət insanlar üçün və insanlar vasitəsilə həyata keçirilir. İnsan siyasi-iqtidar münasibətlərinə qarışdıqda, qərar vermə və idarəetmə prosesində iştirak edərkən təkcə bir obyekt deyil, həm də bir siyasət subyekti, onu yaradan və icra edəndir. Sosial qruplar, təbəqələr, siyasi hərəkatlar, partiyalar, ictimai təşkilatlar, dövlət quruluşları, şübhəsiz ki, siyasətdə mühüm rol oynayır, onun subyektləridir, lakin bu qruplar və təşkilatlar özləri də ayrı-ayrı şəxslərdən ibarətdir [2, s. 46]. Məhz şəxslərin qarşılıqlı əlaqəsi, maraqları, nəticədə siyasi prosesin məzmununu müəyyənləşdirir. Buna

görə fərdin dəyər yönümləri sistemində siyasət aparıcı yerlərdən birini tutur. Müasir dünyada hələ də inkişaf etməkdə olan ölkələrdə, avtoritar və totalitar dövlətlərdə olduqca geniş yayılmış paternalist görüşlər qorunub saxlanılır. Siyasət müəyyən insanlara yox,işyerinə,işçi sinfə və fərdin taleyinə əsaslanırdı, sosial sinif və sosial statusu əsas götürülmürdü. Fərd dövlətlə bərabərhüquqlu tərəfdaş kimi deyil, partiya-dövlət mexanizmindən asılı olaraq dövlətin mülkiyyəti hesab olunurdu.

Bu gün bir insanın ictimai həyatda, siyasi fəaliyyətdə, idarəetmədə yeri və rolunu müəyyənləşdirmək vacibdir. Cəmiyyətin mütərəqqi hərəkəti - haqsızlıqdan azadlığa gedən hərəkətdir, bu müddətdə fərdin yaradıcılıq imkanları reallaşır, ümumbəşəri dəyərlər və demokratik ideallar təcəssüm olunur. İqtisadiyyatdan başlayaraq mənəvi sahəyə qədər davam edən cəmiyyətin bütün inkişafı insanın hərtərəfli inkişafına, ehtiyaclarını ödəməyə yönəldilmişdir.İnsan sosial sahədə sosial münasibətləri uğurlu idarə etməsi, istehsalatda hansı yeri tutmasından,əmək fəaliyyətindən, vicdanından, insanın həyatından, iş şəraitindən işə marağından, iqtisadi uğurları həyata keçirmək qabiliyyətindən birbaşa asılıdır. Siyasi sistemin inkişafında çox şey siyasi yetkinlikdən, təhsildən, insan təşəbbüsündən asılıdır. Şəxsiyyətə, onun sosial keyfiyyətlərinə, ictimai-siyasi şüuruna və davranışına artan diqqət təhsil sisteminin, təhsilin, mədəniyyətin, əxlaqın yenidən qurulması ilə sıx bağlıdır.

Bir insanın ictimai-siyasi münasibətlər sistemində yerini müəyyənləşdirmək siyasi sosiallaşma anlayışını, yəni bir insanı aktiv siyasi həyata hazırlayan, fərdlərin və sosial qrupların siyasi davranışlarını müəyyənləş dirən ictimai-siyasi proseslərin məcmusunu nəzərə almağı tələb edir.

Bir fərdin siyasi sosiallaşması problemi sual doğurur: fərdin siyasi həyatda necə və niyə yer aldığı, hansı amillər və ən əsası bu prosesin nəticələri nədən ibarətdir? Lakin sual

olduqca sadə şəkildə həll olunur: şəxsin siyasətə qarışması onun siyasi fəaliyyətdə iştirakı ilə həyata keçirilir. Bu iştirak bir neçə amildən asılıdır. Birincisi, insana ən güclü təsir siyasi sistemin institutları, güc strukturları, milli və sosial icmalar, təbəqələr və qruplar tərəfindən həyata keçirilir. İkincisi, şəxsin özü ictimai-siyasi impulslara şüurlu və şüursuz reaksiya verməyin daxili mexanizmlərini özündə cəmləşdirir. Fərdin siyasətə cəlb olunmasının sosial şəraiti fərdin siyasi sosiallaşması prosesindəki siyasi və qeyri-siyasi amillər arasındakı fərqi əhatə edir. Hökümətin xarakteri və növü, siyasi rejim, siyasi qurumlar, siyasi partiyalar və siyasi hərəkatlar, birliklər - bunlar prosesin əsas siyasi amilləridir. Ailə, məktəb və digər təhsil müəssisələri, iş, xidmət, mədəniyyət, incəsənət, ədəbiyyat, media, milli adət və ənənələr və s. - bunların hamısı siyasi olmayan amillərdir. Ancaq bir insanın sosiallaşması amillərinin siyasi və qeyri-siyasi olması arasındakı fərq nisbidir. Siyasi sosiallaşma fərdin özünəməxsus siyasi mövqeyinin formalaşmasını əhatə edir. Siyasi mövqe konsepsiyasına aşağıdakılar daxildir:

siyasi hadisələrə və proseslərə emosional münasibət;

siyasi hadisələrə və siyasi dəyərlər sisteminə inam;

siyasi fəaliyyətə meyl;

Siyasi mövqe, insanın motivlərini, maraqlarını və ehtiyaclarını anlamağa imkan verən fərdi bir fenomendir [3, s. 76].

Mədəniyyətinin səviyyəsi nə qədər yüksək olarsa, şəxsiyyətin siyasi davranışın əsas normalarını mənimsəmə imkanları bir o qədər yüksək olar, o, siyasi vəziyyəti sürətli analiz edər və sistemləşdirə, siyasi hadisələrin məcmusundan əsas ideyaları ayırd edə bilər. Demokratik ənənələrin şəxsiyyətinin siyasi sosiallaşması üçün böyük əhəmiyyəti qeyd olunmalıdır. Qərb ölkələrinin siyasi həyatı yüz illər əvvəl bu ənənələri qəbul etməyə başladı. Söz, düşüncə azadlığı, fərdlərin siyasi hüquqlarının təmin edilməsi, səlahiyyətlərin bölüşdürül-məsi

və onların hər birinin ciddi şəkildə yerinə yetirilməsi siya-si azad bir insanın formalaşması üçün əlverişli şərait yaradır. [1, s. 48].

Müasir həyatın özü sürətlə insan davranışını siyasiləşdirir, bəzən insanı qeyri-iradi şəkildə siyasi həyata daxil edir ki,bu da siyasi şüurun inkişafına təkan verir. Bir fərdin siyasi davranışını təhlil edərkən iki əsas növü ayırmaq lazımdır:

1) siyasi iştirakçılıq

2) siyasi dözümsüzlük (insanın siyasi həyat dan kənarlaşdırılması, siyasi hakimiyyətdən uzaqlaşması, bir şəxsin siyasi sosiallaşması nəticəsində yaranan bir növ mənfiyə doğru dəyişmə). Bunu müxtəlif formalarda ifadə etmək olar:

-siyasi apatiya;

- siyasi hadisələrə laqeydlik;

- seçkiləri boykot etmək, müxtəlif siyasi aksiyalar və s.

İqtidarın siyasi münasibətlərinin həyata keçirilməsində fərdin iştirakı və ya onların həyata keçirilməsinə qarşı çıxması siyasi iştirakdır. Məhz burada bir şəxs siyasət mövzusu kimi çıxış edir. Ancaq fərqli insanların həyatında siyasət fərqli bir yer tutur. Cəmiyyətin siyasi həyatında iştirak aktiv və passiv, birbaşa və dolayı, könüllü və məcburi, peşəkar və qeyri-peşəkar, qanuni və qanunsuz və s.olur. Fərdin siyasətdəki rolu belə bir sosiallaşma sistemi ilə gücləndirilir,bunlar:

- cəmiyyətə şüurlu şəkildə yönəlmiş insanların qabiliyyətlərinin və innovativ potensialının reallaşması üçün ən yaxşı şərait yaradır;

- fərdin özünün ən çox meyl etdiyi siyasi iştirak forması ilə bu rolların yerinə yetirilməsini təmin edir;

- cəmiyyətin təhsil sisteminin (təhsil müəssisələri, media, mədəni və təhsil birlikləri, ictimai və siyasi təşkilatlar) ən optimal xüsusiyyətlərini və effektivliyini müəyyənləşdirir;

- sosial problemlər, siyasi qərarın qəbul edilməsi şərtləri və görülən işlərin sosial nəticələri barədə lazımi miqdarda məlumat verir. Bu, ictimai rəyin qəbul edilən qərarlara və

hakimiyyət orqanlarının fəaliyyətinə təsir göstərməsinə imkan verir. Müasir siyasi təlimlərin əksəriyyəti şəxsiyyəti dövlətə münasibətdə prioritet hesab edir. Cəmiyyətin siyasi sisteminin vəzifəsi əhalinin siyasi iştiraka cəlb edilməsini maksimum dərəcədə artırmaqdır, çünki yalnız bu vəziyyətdə dövlətin həyata keçirdiyi siyasətə şüurlu dəstək vermək mümkündür.

## ƏDƏBİYYAT

1. Jiveligov A.K. Vətəndaşların hüquq dövlətində hüquqları və vəzifələri. M.; 1999-cu il
2. Puqachev V.P. Siyasət obyektləri: şəxsiyyət, elitalar, liderlik. M.; 1991-ci il
3. Siyasi sistem və cəmiyyətin siyasi həyatı. Ed V.F. Viburnum. M.; 1991

# SOSİOLOGİYADA KEYS-STADİ METODUNUN TƏTBİQİ İMKANLARI

***Arzu Əskərova***
***BDU-nun II kurs magistrantı***
***arzu.esgerova.1988@mail.ru***

Keys-stadi gerçəkliyə və real problemlərə söykənən, təklif olunan vəziyyətdə müvafiq qərar qəbul etməsini tələb edən situasiya təlimi metodologiyasıdır. Buraya problemin təsviri, vəziyyət haqqında məlumat və əlavə məlumat, tədris materialları və təlimatlarla müəyyən bir praktik vəziyyətin təsviri daxildir. Bir problemi müəyyənləşdirmək, onu hər baxımdan nəzərdən keçirmək, itkin məlumatları axtarmaq və fikirlərini mübahisə etmək bacarığını inkişaf etdirir.

Case study metodu ən çox xaricdə iqtisadiyyat və biznes elmləri tədrisində istifadə olunur. İlk dəfə 1870-ci ildə Harvard Hüquq Məktəbində tədris prosesində istifadə edilmişdir;

Harvard Biznes Məktəbində bu metodun tətbiqi 1920-ci ildə başlamışdır. İlk vəziyyət tədqiqatları 1925-ci ildə Harvard Business Report-da dərc edilmişdir. Hal-hazırda iki klassik presedent məktəbi - Harvard (Amerika) və Manchester (Avropa) birlikdə fəaliyyət göstərir. Bu gün, case study metodu təlimdə qabaqcıl mövqe qazanaraq, xarici işgüzar təhsildə fəal istifadə olunur və tələbələrə tipik problemləri həll etmək bacarıqlarını öyrətməyin ən təsirli yollarından biri hesab olunur.

Beləliklə Harvard Biznes Məktəbi İş təlimi zamanı case study metodunun prioritet dəyərini qorumaqla, işin müəyyən müddətinin təhlilinə təxminən 90% vaxt ayırır. Harvardda yerləşən situasiya təhsili video materiallar, kompüter və proqram təminatlarından istifadə edən tələbələrin intensiv təlimidir. Harvardda və ya hər hansı digər bir iş məktəbində orta hesabla bir tələbə təhsil aldığı müddətdə yüzlərlə davranır. Hər il Harvardda yüzlərlə yeni iş, tədris vəsaitləri və işlər toplusuna əlavələr dərc olunur. Situasiya tədrisinin tətbiqinə bir bahis də Şimali Amerikadakı məşhur universitetlərdən biri - Western Ontario Universiteti (Kanada) tərəfindən edilir (2, s.8).

***Case study metodunun əlamətləri:***

1. Vəziyyəti zamanında bəzi diskret nöqtələrdə nəzərə alınan bir sosial-iqtisadi sistem modelinin olması.
2. Kollektiv qərar vermə.
3. Çox alternativ həllər; vahid bir həllin təməl çatışmazlığı.
4. Qərar verməkdə ümumi məqsəd.
5. Fəaliyyətlərin qrup qiymətləndirmə sisteminin mövcudluğu.
6. Tələbələrin idarə olunan emosional stressinin olması.

Case study metodunun texnoloji xüsusiyyətləri:

1. Metod müəyyən bir tədqiqat analitik texnologiyasıdır, yəni tədqiqat prosesinin əməliyyatları, analitik prosedurlar daxildir.

2. Case study metodunun ən vacib komponenti bir qrupda (və ya alt qruplarda) işləmək və qarşılıqlı məlumat mübadiləsi aparan kollektivin təlim texnologiyası kimi çıxış etməkdir.

3. Təlimdə presedent metodu sinerjist bir texnologiya kimi qəbul edilə bilər, bunun mahiyyəti qrupun vəziyyətə batırılması, biliklərin çoxaldılması, fikir dərsi, kəşflərin bölüşdürülməsi və s. təsirini formalaşdırmaq üçün prosedur hazırlamaqdır.

4. Case-study metodu fərdi, qrup və kollektiv inkişaf, tələbələrin müxtəlif fərdi keyfiyyətlərinin formalaşdırılması prosedurlarını əhatə edən təhsilin inkişaf texnologiyalarını birləşdirir.

5. Case study metodu dizayn texnologiyasının müəyyən bir növü kimi çıxış edir (1, s.13-15).

Adi təhsil dizayn texnologiyasında mövcud problemin həlli prosesi tələbələrin birgə fəaliyyəti ilə həyata keçirilir, hal-hazırda öyrənmə metodunda isə problem və onun həlləri həm texniki tapşırıq, həm də effektiv fəaliyyət seçimlərini başa düşmək üçün məlumat mənbəyi kimi çıxış edən davranış əsasında formalaşır. Bu metod həqiqətin plüralistik olduğu fənlər üzrə bilik əldə etmək üçün nəzərdə tutulmuşdur. Yəni qoyulmuş suala dəqiq cavab yoxdur, ancaq həqiqət dərəcəsində rəqabət edə biləcək bir neçə cavab var.

Eyni zamanda tədris vəzifəsi dərhal klassik sxemdən yayınır və problem sahəsindəki bir çox həqiqətə və istiqamətə sahib olmağa yönəldilmişdir. Təlimin vurğusu hazır bilik sənətinə deyil, onun inkişafına, tələbə və müəllimin birgə yaratmasına yönəldilmişdir; bu səbəbdən presedent metodu ilə ənənəvi metodlar arasındakı əsas fərq - tələbənin problemi müzakirə edərkən digər tələbələrlə və müəllimlə bərabər olduğu zaman bilik əldə etmə prosesindəki demokratiyadır. Metodun tətbiqinin nəticəsi təkcə bilik deyil, həm də peşəkar fəaliyyət bacarıqlarıdır (3, s.19).

Bu metodda həm də müəyyən qaydalara əsasən real həyatda baş verən konkret vəziyyətin bir modeli hazırlanır və tələbələrin əldə etməsi lazım olan bilik və praktik bacarıqlar kompleksi əks olunur; bu vəziyyətdə müəllim lider kimi çıxış edir, suallar yaradır, cavablar verir, müzakirəni dəstəkləyir. Situasiya təhlili metodunun şübhəsiz üstünlüyü təkcə biliklərin əldə edilməsi və praktik bacarıqların formalaşması deyil, həm də tələbələrin dəyər sisteminin, peşə mövqelərinin, münasibətlərin, bir növ peşəkar münasibət və dünya çevrilməsinin inkişafıdır. Təlim metodu ənənəvi tədrisin klassik qüsurunu, "quruluq", materialın duyğusuz təqdimatı - duyğular, yaradıcı rəqabət və hətta bu metoddakı mübarizəni o dərəcədə üstələyir ki, işin yaxşı təşkil olunmuş müzakirəsi teatr tamaşasına bənzəyir (2, s.33).

Case study metodu praktik problemləri həll etmək üçün nəzəri bilikləri tətbiq etməyə imkan verən bir vasitədir. Metod tələbələrin müstəqil düşüncə tərzinin, qulaq asmaq və alternativ bir nöqteyi-nəzərdən istifadə etmək, öz fikirlərini əsaslı şəkildə ifadə etmək bacarıqlarının inkişafına kömək edir. Bu metoddan istifadə edərək tələbələr analitik və qiymətləndirmə bacarıqlarını nümayiş etdirmək və inkişaf etdirmək, bir komandada işləməyi öyrənmək və problemin ən səmərəli həllini tapmaq imkanı əldə edirlər. İnteraktiv tədris metodu olmaqla, case study metodu nəzəri prinsiplərin inkişafını və materialdan praktik istifadənin ustalıqla təmin edilməsini tələbələrin müsbət rəğbətini qazanır; tələbələrin peşəkarlığına təsir göstərir, yetkinləşməsinə kömək edir, təhsilə münasibətdə maraq və müsbət motivasiya yaradır.

Eyni zamanda, case study metodu həm də müəllimin düşüncə tərzi, fərqli düşünmək və hərəkət etmək, yaradıcılıq potensialını yeniləməyə imkan verən xüsusi paradiqması kimi fəaliyyət göstərir. Dava - həqiqi bir işdən götürülmüş nümunə, hadisələrin əsl təsviri deyil, vəziyyəti başa düşməyə imkan verən vahid informasiya kompleksidir (4, s.22).

Case study metodunun mahiyyəti hər kəsin biliyinə, praktik təcrübəsinə və intuisiyasına əsaslanan seçimlər təklif etməsidir. Məsələn, bəziləri üçün şirkət rəhbərinin ailə vəziyyətini dəyişdirməyi vacib bir detal hesab etmir. Təcrübəsinə əsaslanan başqa bir tələbə isə bu həqiqəti son dərəcə vacib hesab edə bilər. Case study metodu digər texnoloji xüsusiyyətlərinə malikdir ki, həmin xüsusiyyətlər onu digər tədris metodlarından fərqləndirir (5, s.11).

## ƏDƏBİYYAT


1. Романов П.В. Стратегия case-study в исследовании социальных служб. Социологические исследования.2005. №4
2.Социология жизни II под редакцией профессора Мамедзаде И.Р., Баку: Avropa, 2018
3. Романов П.В. Микроуровень социальной реальности: возможности междисциплинарного подхода // Социологические исследования. 2002, № 3
4. Bent Flyvbjerg, "Five Misunderstandings About Case Study Research." Qualitative Inquiry, vol. 12, no. 2, April 2006,
5. Robert E. Stake, The Art of Case Study Research (Thousand Oaks: Sage, 1995).
6. Robert K. Yin. Case Study Research. Design and Methods. Third Edition. Applied social research method series Volume 5. Sage Publications. California, 2002.


# AZƏRBAYCAN DEMOKRATİYA MODELİNİN DÜNYA DEMOKRATİYA MODELLƏRİ İLƏ FƏRQLİ VƏ OXŞAR CƏHƏTLƏRİ


***Türkanə İsmayılova***
***BDU-nun II kurs magistrantı***
***turkanismyl@hotmail.com***


Keçən əsrin 90-cı illərində Soyuq Müharibənin sona çatması demokratikləşmə proseslərinin üçüncü mərhələsinin əsasını qoydu. Çox mürəkkəb ictimai-siyasi münasibətlər konteksində SSRİ-dən ayrılan və öz istiqlaliyyətini yenidən bərpa edən Azərbaycan da

müstəqilliyinin ilk illərindən bu demokratikləşmə proseslərinə qoşuldu və prezident respubli-kası idarəçilik formasını qəbul etdi. Ölkədə 1991-93-cü illərin qeyri-sabit ictimai-siyasi mühitinin ardından 1995-ci ildən baş-layaraq demokratik idarəçilik prinsipləri bərqərar olunmağa başladı və Konstitutsiya sənədinin qəbul edilməsi ilə Azərbaycan Respublikasının siyasi sisteminin hüquqi cəhətdən formalaşmasının əsası qoyuldu.

Beləliklə, Konstitutsiyanın qəbul edilməsi ilə siyasi idarəçilik institutları müəyyən olundu, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin səlahiyyət çərçivələri təyin edildi. 1995-ci il tarixli Azərbaycan Konstitutsiyası demokratik siyasi sistem və idarəçilik rejiminə hüquqi bazis olmaqla yanaşı, xalqın milli adət-ənənələrini və tarixi şəraitin reallıqlarını da nəzərə alaraq hazırlanmışdır. Habelə, Azərbaycanın siyasi sistemi demokratik idarəçilik rejiminə malik ölkələrdə olduğu kimi bir-biri ilə qarşılıqlı əlaqədə olan daxili struktur elementlərdən, daha doğrusu alt sistemlərdən (institusional; normativ-tənzimləyici; kommunikativ; siyasi-ideoloji) təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Konstitutsiyasına görə, Azərbaycan dövləti demokratik dövlətdir. Bu, demokratik idarəçiliyin başlıca şərti olan xalqın hakimiyyətin əsas mənbəyi olması yaxud seçdiyi nümayəndələr vasitəsilə öz-özünü idarəetməsi deməkdir. Müasir demokratiyaların hər birinin başlıca funksionallıq vasitəsi olan bu prinsip Azərbaycan Konstitutsiyasında əks olunmuşdur və seçki institutu vasitəsilə həyata keçirilməkdədir. Respublikaların demokratikliyi siyasi sosial-iqtisadi hüquq və azadlıqların təminatı və qorunması – bu konteksdə siyasi partiyaların, vətəndaş cəmiyyəti təşkilatlarının və müxtəlif maraq qruplarının nümayəndəli demokratiyada iştirakına şərait yaradılması, habelə vətəndaşların demokratik vasitələrlə siyasi-hüquqi qərar vermə prosesində iştirakına əsaslanır.

Bu kontekstdə Azərbaycanda demokratik dövlət rejimi nümayəndəli demokratiyanın (seçkili orqanların fəaliyyəti) mövcudluğuna və əhalinin həyatı ilə bağlı qanunların, qərarların qəbulunda onların (parlament, bələdiyyə və s. şəklində) iştirakına əsaslanır ki, bu da inkişaf etmiş demokratiyalara (ABŞ, Fransa, İngiltərə, Almaniya, Yaponiya və s.) xas bir xüsusiyyətdir. Azərbaycanda idarəçilik rejiminin demokratikliyini şərtləndirən digər amil dövlətin hüquqi xarakterli olması, yəni öz fəaliyyətində hüququ rəhbər tutmasıdır. Özfəaliyyətində hüququ rəhbər olaraq tutmayan, qanunun aliliyinə dayanmayan, ictimai həyatın hər sahəsini qanunlarla idarə etməyən, mühüm insan azadlıq və hüquqlarını təmin etməyən bir sistem hüquqi hesab edilə bilməz.

Bu baxımdan Azərbaycanda hakimiyyətin əsas özülü kimi xalqı (seçicini) və əsas məqsədi olaraq onun maraq və istəklərinin təmin olunmasını qəbul etməsi, o cümlədən hüquqi dövlətin mövcudlugunu şərtləndirir. Bu halda vətəndaşlar dövlətin işlərində yaxından iştirak edir, cəmiyyətin demokratik şəraitdən bəhrələnməklə özlərinin hüquq və azadlıqlarını reallaşdırırlar. Dövlət konstitusion normalar vasitəsi ilə ictimai-siyasi sistemin sabitliyinə, əhalinin təhlükəsizliyi və maraqlarına təhlükə yaradan bütün halların qarşısını alır. Azərbaycan Respublikasının konstitutsion sənədi müasir demokratiyalara xas digər xüsusiyyəti özündə ehtiva edir: din dövlətdən ayrıdır (2).

Yəni Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisliyini davam etdirərək yenidən istiqlaliyyət qazandıqdan sonra da dünyəvi-sivil dövlət kimi qalmaq yolunu seçmişdir. Bu, dinin dövlət siyasi-hüquqi qərarvermə və digər işlərinə qarışmaması, din adamlarının siyasi fəaliyyət göstərməsinin qanunla qadağan edilməsi, hansısa dini inanca üstünlük verilməməsi, dini təşkilatların qanun qarşısında bərabərliyi mənasına gəlir. Bəhs edilən prinsip, yəni respublikanın dünyəvi olması müasir dünya demokratiyalarının ayrılmaz xüsusiyyətidir. Azərbaycan dövlə-

ti idarəçilik forması baxımından respublika tiplidir. Lakin Konstitusiyada bu dövlətin idarəetməsinin növü (Respublika idarəetməsinin dünyada parlamentli, Prezidentli və natamam Prezident idarəçiliyi olmaqla üç forması mövcuddur) müəyyən edilməmişdir. Buna baxmayaraq, Konstitutsiya hakimiyyət bölgüsü müəyyən etmişdir ki, bu da demokratik dövlətin mühüm əlamətlərindən digəridir.

Konstitusiyaya görə, ölkəni daxildə və xarici aləmdə dövlət başçısı – Prezident təmsil etsə də, dövlət hakimiyyətinin təşkili hakimiyyətlərin bölünməsi prinsipi əsasında həyata keçirilir. Qanunvericilik hakimiyyətini Milli Məclis, icra hakimiyyətini Prezident, məhkəmə hakimiyyətini isə məhkəmələr həyata keçirirlər. Bu prinsip həyata keçirilərkən hakimiyyətin qollarından hər birinin öz səlahiyyətləri daxilində müstəqil fəaliyyət göstərməsi və bir-birinin işinə müdaxilə edə bilməməsi Konstitutsiyada tənzimlənməyə çalışılmışdır. Lakin demokratiyanın Azərbaycan modeli, ABŞ və Fransa kimi inkişaf etmiş demokratiyalarda olduğu kimi, icra hakimiyyətinin qanunvericilik və məhkəmə hakimiyyətləri üzərində nisbi üstünlüyü ilə səciyyəlidir.

Hakimiyyət funksiyalarının müstəqil, bir-birindən asılı olmayan dövlət qurumları vasitəsi ilə həyata keçirilməsinin əsas məqsədi demokratik idarəetməyə, qarşılıqlı nəzarətə və əsas insan azadlıqlarına, hüququn dövlət və fəaliyyət üzərində üstünlüyünə təminat verilməsi ilə bağlıdır. Çünki, bu halda müvafiq dövlət institutları vasitəsilə qanunvericilik, icra və məhkəmə hakimiyyətinin fəaliyyətinin sərhədləri müəyyənləşir. Azərbaycanda icra hakimiyyəti sosial münasibətləri qurucu, tənzimləyici və tətbiq edici xarakter daşıyır. Məhkəmə hakimiyyəti isə bu münasibətlərlə bağlı hüquqi normalarda mübahisə yarandığı halda işə qarışır, faktları araşdırır və mühakimə edir.

Ümumilikdə isə, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı şəkildə bir-birinin fəaliyyətini

tənzimləyir. Məsələn, Milli Məclis Prezidentin təqdimatına uygun olaraq Baş nazirin vəzifəyə təyin olunmasına razılıq verir (AR-nın Konstitusiyası, m. 95). Prezident isə Milli Məclisin verdiyi qanunları imzalayır və dərc edir (m. 109). Konstitusiya Məhkəməsi isə Prezidentin fərmanlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və Nazirlər Kabinetinin şıxardığı qərarların Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olması məsələlərini həll edir (maddə 130). Ən başlıcası, Konstitusiya Məhkəməsi icra, qanunvericilik və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlərin bölüşdürülməsi ilə əlaqədar mübahisələri həll etməklə, ali konstitusion nəzarəti funksiyasını icra edir (1).

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının konstitusiyası
2. http://www.supremecourt.gov.az/static/view/1

# ZƏRƏRLİ VƏRDİŞLƏR:SOSİAL VƏ PSİXOLOJİ ASPEKTLƏR

***Samir Əsədli***
***BDU-nun II kurs magistrantı***
***samir.esedov.738@gmail.com***

Bəşəriyyət üçün ən böyük bəlalardan olan narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizə bu gün xususilə aktual xarakter daşıyır. Narkomaniya əleyhinə aparılan tədbirlər hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzində olmuş, onların gücləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Bu istiqamətdə görülən tədbirlərin gücləndirilməsi və koordinasiyası məqsədi ilə yaradılmış Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə

Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 iyun tarixli, 2966 nömrəli sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur.

Yeni Dövlət Proqramının məqsədi ölkədə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkotiklərin qanunsuz alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdı-rılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, cəza tədbirlərinin səmərəliliyinin öyrənilməsi üçün elmi və praktik araşdırmaların aparılması, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsindən və digər genişmiqyaslı məsələlərdən ibarətdir. Gənclərin zərərli vərdişlərdən azad olması, çəkindirilməsi məqsədilə atılan mühüm addımlardan biri də maarifləndirici tədbirlərdir. Bu tədbirlər maarifləndirici seminarlar olaraq həyata keçirilir. 02.12.2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə təşkil olunan 8-ci qrant müsabiqəsində qalib olmuş Gülşən Fətəliyevanın "Gəncləri Zərərli Vərdişlərdən Uzaqlaşdırmaq" adlı layihəsinin ikinci təlimi Azərbaycan Texniki Universitetində keçirilib.

Layihənin məqsədi gəncləri zərərli vərdişlərdən uzaq tutmaq və bu istiqamətdə maarifləndirmə işini təşkil etməkdən ibarətdir. Həmçinin təşkil olunacaq seminarlarda gənclərə ziyanlı vərdişlər haqqında ümumi və geniş məlumatlar verməkdir.

Qeyd edək ki, layihənin ikinci təlim günü gənclərin böyük marağına səbəb olub və 200-dən çox tələbə və müəllim heyətinin iştirakı ilə həyata keçirilən tədbirdə iştirakçıların aktivliyi müşahidə edilib. Sonda tədbir iştirakçılarına sertifikat təqdim edilib və xatirə şəkli çəkdirilmişdir.

Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və Vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər.

Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Sağlam gənclik sağlam nəsil deməkdir. Yaxın tarixi keçmişimizdə - Sovet dönəmində bu quruluşa xas stereotiplərə görə cəmiyyətdə mövqe sahibi olmaq, dövlət strukturlarında çalışmaq üçün bəlli bir yaş həddini keçməli idin. Belə bir quruluşda gəncliyin inkişafından və cəmiyyətdəki rolundan danışmağa dəyməzdi. Lakin Azərbaycan tarixi müstəqilliyini bərpa etdikdən, xüsusən də xalqın təkidli tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlara başlandı.

1996-cı il fevralın əvvəllərində Azərbaycan gənclərinin ilk forumu keçirildi və bununla da gəncliyin inkişafına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Ulu Öndərin 1997-ci ildə imzaladığı fərmanla fevralın 2-si ölkədə Gənclər Günü kimi təsbit olundu.

Son illər Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir.

## ƏDƏBİYYAT


1. https://www.tehsilmerkezleri.az
2. https://edumap.az
3. http://nmdk.gov.az


## AİLƏ CƏMİYYƏTİN ƏN MÜHÜM SOSİAL İNSTİTUTU KİMİ


***Solmaz Aslanova***
***ADMİU-nun I kurs magistrantı***
***solmaz_aslanova@list.ru***


Sosial təcrübə göstərir ki, cəmiyyətin müəyyən sosial əhəmiyyətli münasibətləri nizamlaması, tənzimləməsi və möhkəmləndirməsi onun üzvləri üçün zəruridir. İctimai həyatın tənzimlənməsinin əsas elementi sosial institutlardır.

Sosial quruluş cəmiyyətin əsas ehtiyaclarını ödəyən, əhəmiyyətli sosial dəyərləri və prosesləri özündə cəmləşdirən münasibət və normaların mütəşəkkil bir sistemidir (1). Ailə institutu cəmiyyətdə çox mühüm rol oynayır. Ailənin özünəməxsusluğu ondan ibarətdir ki, ailə cəmiyyətin ən vacib funksiyalarından birini - üzvlərinin çoxalmasını və onların ilkin sosiallaşmasını həyata keçirən xüsusi bir sosial institut hesab olunur. Bütün sosial qurumlar kimi, ailə də cəmiyyətin varlığı və inkişafı üçün zəruri olan fəaliyyətlər və münasibətlər sistemidir. Ailə, nikah bağlantısı - valideynlik - qohumluq əlaqələri ilə bağlı və bununla da əhalinin və ailə nəsillərinin davamlılığını artıran, uşaqları ictimailəşdirən və ailə üzvlərinin varlığını qoruyan vahid ailə fəaliyyətinə əsaslanan bir cəmiyyətdir.

Ailə insanların bir-birlərini mənəvi və fiziki cəhətdən dəstəkləmək, vaxt, məkan və iqtisadi cəhətdən birləşmək öhdəliyi ilə bağlı bir sosial-mədəniyyət sistemidir. Ailə evlilik

və qohumluğa əsaslanan, ortaq bir həyat və övlad böyütmək üçün qarşılıqlı məsuliyyətlə bağlı olan insanlar birliyidir. Bir ailəni təyin edərkən tez-tez bir dam altında ailə üzvlərinin yaşama kimi bir xüsusiyyətə sahib olduğu vurğulanır. Ailə mürəkkəb bir quruluş bütövlüyüdür. Onun məzmunu iki nisbətən müstəqil və eyni zamanda bir-biri ilə əlaqəli olan sistemlərdən - nikah və qohumluq münasibətlərindən ibarətdir.

Ailə münasibətləri nikaha əsaslanan münasibətlərdir, yəni, ictimai bir şəkildə tanınan və təsdiqlənmiş bir birlikdə kişi ilə qadın arasındakı münasibətləri əks etdirir. Evliliyin mahiyyəti sevgi və harmoniyadır. Kişilərlə qadınlar arasındakı bioloji və fizioloji fərqlərin əks cinsdən olanlarda tamamlanmasını istəmələrini təmin edir. Sosial-psixoloji baxımdan, bu axtarış həmişə həssaslıqla rənglənir, seçilənə emosional bağlılıq, ona tamamilə sahib olmaq və eyni zamanda tamamilə ona aid olmaq istəyi ilə əlaqələndirilir. Sosial-mədəni baxımdan məhəbbət ahəngdar bir tamamlama şəraitində özünü göstərir: aktiv, rasional kişi prinsipi və passiv, həssas qadın prinsipi ilə.

Ailə quruluşunun ikinci tərəfi - qohumluq əlaqəsi də sevgi və harmoniya olmadan mümkün deyil. Ancaq burada aparıcı məqam nəsillər arasındakı qarşılıqlı əlaqənin təbiətini tənzimləyən status və rolların iyerarxiyasıdır, bu bir tərəfən ailə üzvləri arasında güc, hüquq və vəzifələrin bölünməsi, valideynlər və uşaqlar arasında münasibətlərin tənzimlənməsi və digər tərəfdən qardaşlar, bacılar və başqa qohumlar arasında qan bağlarıdır.

Ailə fərdin sosiallaşmasının ən vacib institutudur. Ailənin içində bir şəxs sosial qarşılıqlı əlaqənin ilk təcrübəsini alır. Uzun müddət ərzində, ailə ümumiyyətlə uşağın bu təcrübəni əldə etməsi üçün yeganə yer olmuşdur. Sonra uşaq bağçası, məktəb, küçə kimi sosial təşkilatlar insan həyatına daxil olur. Ancaq bu zaman belə, ailə fərdin

sosiallaşmasında ən vacib, bəzən isə ən əsas amillərdən biri olaraq qalır. Ailə bir insanın əsas həyat təliminin bir modeli və forması hesab edilə bilər. Ana, ata, qardaş, bacı, baba, nənə və digər qohumlarla yaxın münasibətlər prosesində uşağın şəxsiyyəti həyatının ilk günlərindən formalaşmağa başlayır. Ailədə yalnız uşağın deyil, həm də valideynlərin şəxsiyyəti formalaşır. Valideyn yetkin şəxs olaraq öz şəxsiyyətini zənginləşdirir və sosial təcrübəsini gücləndirir.

Hər bir insanın həyatında valideynlər böyük və məsuliyyətli rol oynayırlar. Onlar uşağa yeni davranış nümunələri verirlər və valideynlərinin köməyi ilə o ətrafını dərk edir, bütün hərəkətlərində onları təqlid edir. Bu meyl, uşağın valideynlərlə müsbət emosional əlaqələri və ana, ata kimi olmaq istəyi səbəbindən getdikcə daha da güclənir. Valideynlər uşağın şəxsiyyətinin formalaşmasının bir çox cəhətdən onlardan asılı olduğunu başa düşdükdə, bütün davranış və ünsiyyətlərini bütövlükdə uşağın insani keyfiyyətlərinin formalaşmasına və ona çatdırmaq istədikləri insani dəyərlərə yönəldirlər. Belə bir tərbiyə prosesi olduqca məqsədyönlü hesab edilə bilər, çünki davranışına, digər insanlara münasibətinə, ailə həyatının təşkilinə daim diqqət yetirmək valideynlərə uşaqlarını onların hərtərəfli və ahəngdar inkişafına səbəb olan ən əlverişli şəraitdə böyütməyə imkan verir.

Ailənin inkişafının bütün mərhələləri insanın yeni təcrübə ilə zənginləşməsinə və sosial baxımdan daha da yetkin olmasına kömək edən yeni sosial şərtlərə uyğunlaşmağı tələb edir. Ailənin inkişafının bir çox mərhələsi əvvəlcədən müəyyən edilə bilər. Ancaq həyatda əvvəldən görmək mümkün olmayan vəziyyətlər var, çünki, sanki onlar kortəbii olaraq bir anda yaranır, məsələn, ailə üzvlərindən birinin ağır xəstəliyi, xəstə uşağın doğulması, sevilən insanın ölümü, işdəki problem və s. Bənzər hadisələr ailə üzvlərindən uyğunlaşma, münasibətlərin yeni üsullarını tapmalarını tələb

edir. Böhran vəziyyətini aradan qaldırmaq cəhdləri insanların birliyini daha da gücləndirir. Ancaq belə də olur ki, bu vəziyyətlər ailənin həyatında dönüş nöqtəsi olur, dağılmasına səbəb yaradır, həyatını pozur (3).

Ailə də səmimi kollektivin özünəməxsus növüdür. Kollektivin bütün növlərində olduğu kimi, ailədə də insan başqa adamın, ilk növbədə həyat yoldaşının, uşaqlarının mənafeyini nəzərə alır. Başqa adamın mənafeyini nəzərə almaq – tərbiyəli adam üçün səciyyəvi olan başlıca xüsusiyyətdir (2).

## ƏDƏBİYYAT


1. Общая социология: учеб. М.: Проспект, 2010.
2. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. "Maarif", Bakı: 1989
3. Щербаков С.А. Семья и личность//Проблемы теории и практики управления. 2007.
4. Токарев Т.Н. Проблемы личности в психологии//Психология. М.: 2007.


# PENİTENSİAR MÜƏSSİSƏLƏRDƏ CƏZA ÇƏKMƏKDƏN AZAD EDİLMIŞ ŞƏXSLƏRİN REABİLİTASİYASI PROBLEMLƏRİ


***Cavid Əlizadə***
***Azərbaycan Universitetinin II kurs magistrantı***
***cavid6455@mail.ru***


Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə inteqrasiyası proqramları bu şəxsləri cinayətlərdən çəkindirmək, həmçinin yenidən cinayət əməlinin törədilməməsi üçün lazım ola biləcək yardım və nəzarəti təmin etmək məqsədi daşıyır. Qeyd edə bilərik ki, penitensiar müəssisələrdən cəza çəkməkdən azad edilmiş şəxslərin

cəmiyyətə inteqrasiyasının mühüm vasitələri kimi "sosial adaptasiya" və "reabilitasiya" anlayışları iştirak edir və onlar fərqli mənalar kəsb edir. Belə ki, sosial adaptasiya şəxsiyyətin sosiallaşmasının mühüm mexanizmi kimi çıxış etdiyi halda, reabilitasiya isə, artıq itirilmiş iş qüvvəsinin bərpa olunması üzrə fəaliyyəti özündə əks etdirir.

Reabilitasiya pozulmuş əmək qabiliyyətinin bərpasına yönəlmiş tibbi, sosial-iqtisadi, peşə və hüquqi tədbirlərin kompleksidir. Reabilitasiya penitensiar müəssisələrdən azad edilən şəxslərin cəmiyyətə sağlam adaptasiyası tədbirlərini həyata keçirmək onları əməyə cəlb etməklə istedadını üzə çıxarmaq məqsədi daşıyır. Reabilitasiya tədbirlərinə aşağıdakılar aiddir:

a) sosial reabilitasiya – şəxsin sosial dirçəlişi, onun cəmiyyətdə qəbul olunmuş qaydalara uyğunlaşması ilə bağlı bərpa işlərini təmin etməkdən ibarətdir;

b) tibbi reabilitasiya - qüsurun, əlilliyin, asılılığın profilaktikası, aradan qaldırılması;

c) hüquqi reabilitasiya – şəxsin yaşadığı cəmiyyətdə qəbul edilmiş hüquq və təminatları əldə etməsinə nail olmasıdır;

d) məişət reabilitasiyası - peşə, istehsalat və ailə statusunun bərpasını əhatə edir;

e) psixoloji reabilitasiya – şəxsin əvvəlki və məqbul sayılan sosial statusu əldə etməsini ifadə edir, onun psixoloji vəziyyəti stabilləşdirilir, mövcud gərginliklər aradan qaldırılır, həmçinin yeni fəaliyyət növünə psixoloji hazırlığı əks etdirir;

f) pedaqoji reabilitasiya – daha çox yetkinlik yaşına çatmayan şəxslərə aiddir, onların təhsil səviyyəsini formalaşdırmaq, artırmaq məqsədi daşıyır.

Göstərmək lazımdır ki, ilk növbədə cəza çəkməkdən azad edilmiş şəxslərə fərdi reabilitasiya proqramının tətbiq edilməsi zəruri məsələdir. Fərdi reabilitasiya proqramı tibbi-sosial ekspert komissiyasının rəyi əsasında həyata keçirilməli,

reabilitasiya tədbirlərinin növünü və icra müddətini müəyyən etməlidir.

İ.L.Trunov göstərir ki, məhkumluğunun olması faktoru cəza çəkməkdən azad edilmiş şəxslərin işə düzəlməsində ciddi əngəl kimi çıxış edir. Çox zaman bu amil əsas tutularaq onlara iş verilməsindən imtina olunur. Hətta iş tapılsa belə, bir qayda olaraq, maaşı aşağı və azprestijli iş olur. Bu isə həm məhkumluğun olması, həm də təhsil səviyyəsinin aşağı olması ilə bağlıdır [4, s.675]. Analoji mövqedən çıxış edən N.A.Struçkov hesab edir ki, cəzaçəkmə müəssisələrində əmək prosesinin düzgün təşkil olunması azadlığa çıxdıqdan sonra da məhkumun əməyə münasibətini müəyyən edir, artıq qazanılmış əmək vərdişlərinin saxlanılmasına və inkişafına şərait yaradır [3, s.170].

Hüquq pozan şəxsin cəmiyyətdən təcrid edilməsi həm onun özü, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması və islah məqsədi daşıyır. Lakin azadlıqdan məhrumetmə özü bir sıra mənfi psixoloji vəziyyətlərin yaranmasına gətirib çıxarır və onlar müəyyən şərtlər daxilində məhkumun şəxsiyyətində möhkəmlənən xüsusiyyətə çevrilə bilir. Bu isə şəxsiyyətin yenidən sosiallaşmasına ciddi əngəl törədə bilər [3, s. 340]. V.S.Kuvşikov məhkumun şəxsiyyətində mənfi xüsusiyyətlərin möhkəmlənməsinin qarşısını alan şərtlərə aşağıdakılar aid edir[1, s.109]:

- ailə ilə sosial əlaqələrin saxlanılması;
- əvvəlki əmək kollektivi ilə əlaqələrin saxlanılması;
- azadlıqdan məhrumetmə yerində əmək prosesinin düzgün təşkil olunması;
- məhkumların ümumtəhsil səviyyəsinin yüksəldilməsi: yüksək təhsil səviyyəsi insana baş verən hadisələri obyektiv qiymətləndirmək və yaranmış həyati situasiyadan düzgün çıxış yolu tapmaq imkanı verir [2, s. 111];
- məhkumların düzgün saxlanılması rejimi.

Hal-hazırda ölkəmizdə kompleks və tam formada müxtəlif reabilitasiya xidmətlərini həyata keçirən hər hansı bir institut yoxdur. Yalnız reabilitasiyanın konkret istiqamətləri üzrə fəaliyyət göstərən müəssisələr və ya ictimai təşkilatlar vardır ki, bu isə mövcud tələbatı qismən belə ödəmir. Məsələn, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin yenidən cinayət törətməsi ilə nəticələnir. Belə ki, cəza çəkməkdən azad edilmiş şəxsin təhsili, cəmiyyətə sağlam adaptasiyası, sosiopsixoloji reabilitasiyası kimi məsələlərin təkmilləşdirilməsi, onların resosializasiyası və bu kimi proqramların həyata keçirilməsi vacib vəzifələrdəndir.

## ƏDƏBİYYAT


1. Васильев А.И., Кувшинов В.С. Условия социальной адаптации освобажденных от наказания//правоведение, 1973, №3, с. 108-111.
2. Сафонов А.П. О рецидиве преступлений, совершенных лицами, отбывшими лишение свободы//Советское государство и право, 1967 № 3, с. 107-122
3. Стручков Н.А. Советская исполнительно-трудовая политика и ее роль в борьбе с преступностью. Саратов: Издательство СУ, 1970, 271 с.
4. Уголовно-исполнительное право Российской Федерации:Учебник/Под ред. И.Л.Трунова. М.: Эксмо,, 2005, 768 с.

# MÜNDƏRİCAT

## FƏLSƏFƏ BÖLMƏSİ

***Динара Алиева.*** Философский анализ альтернативных социальных концепций.........................................................3
***Тамара Саламлы.*** Идейные предпосылки возникновения социальной философии К.Поппера.......................................7
***Güllər Məmmədova.*** İsmayil bəy Qaspiralinin siyasi-fəlsəfi görüşləri..........................................................................10
***Ülkər Vəliyeva.*** Elmi idrakın metodoloji prinsipləri....................14
***Murad Həsənov*** İbn Xəldunun iqtisadi nəzəriyyəsi....................19
***Şəmsəddin Cəfərov.*** Müasir elmdə "həqiqət" anlayışı və onun metodologiyası.............................................................23
***Tural Hacıbəyli.*** "Həyatın mənası" anlayışının fəlsəfədə yeri və rolu..................................................................................26

## PSİXOLOGİYABÖLMƏSİ

***Aydan Səməndərova.*** Tələbələrin idrak fəallığının səviyyələri...29
***Aydan Əliyeva.*** Məktəb mühitində bullinqin psixoloji xüsusiyyətləri.........................................................................32
***Sevinc Allahyarova, İradə Həsənova.*** Dermatoloji xəstəliklər və onların şəxsiyyətə psixoloji təsiri............................................35
***Elnarə Şəfiyeva, Çinarə İskəndərli.*** Neyropsixoloji korreksiya..37
***Rəşidə Cavadova.*** Qadın cinayətkarlığının psixoloji xüsusiyyətləri.........................................................................39
***Sevinc Allahyarova, Savrum Kadir.*** Hiperaktivliyin etiologiyası...........................................................................42
***Tamilla Ağazadə.*** Natamam ailələrdə yeniyetmələrin hüquqazidd davranışı..............................................................................47
***Müşfiq Mustafayev, Qüdrətli Ülkər.*** Böyük məktəblilərdə cinsi tərbiyənin psixoloji aspektləri...................................................50

***Təhminə Yaqubova.*** Qadınlarda hüquqazidd davranışın psixoloji mexanizmləri vətəzahür xüsusiyyətləri.......................................53
***Örbəyi Sait Çavşin.*** Emosional-iradi özünütənzimləmə..............57
***Mirələm Vəliyev, Əfsanə Rəhmanzadə.*** Məktəbəqədər yaş dövrünün psixoloji xüsusiyyətləri..............................................60
***Mətanət Əliyeva.*** Yeniyetmələrdə böhran hallarına dair psixoloji yanaşmalar...................................................................63
***Elnarə Piriyeva, Fatimə Qəhrəmanova.*** Böyük məktəblilərin peşə seçiminə təsir göstərən amillər..........................................68
***Elnarə Şəfiyeva, Zülfiyə Azayeva.*** Autizmli uşaqlar ilə aparılan müdaxilələrdə valideynlərin iştirakı..........................................71
***Elnarə Piriyeva, Nərmin Əhmədova.*** Yeniyetmə şəxsiyyətinin formalaşmasında sosial şəbəkələrin rolu.....................................74
***Fatih Aşan.*** Tənhalıq halətinin təzahürüvə fəsadları............................76
***Murat Kurhan.*** Təlim prossesində müəllim şəxsiyyətinin rolu...80
***Sevinc Allahyarova, Nuranə Salmanlı.*** Seksual pozuntusu olan şəxslərin idrak prosesinin xüsusiyyətləri....................................85
***Lalə Cabbarova, Gülnarə Həsənova.*** Gender rolları anlayışının bəzi konseptual məsələləri.........................................................87
***Firuzə Əliyeva.*** Nağıl terapiyasının xüsusiyyətləri və tətbiq edilmə sahəsi...................................................................91
***Лала Талибова.*** Гендерные различия самооценки у детей....93
***Vüsalə Yusifli.*** Yeniyetmələrin antisosial davranışının qarşısın alınmasında idrak fəaliyyətinin rolu..........................................97
***İranə Məmmədli, Aytəkin İskəndərova.*** Tolerantliq və onun təzahürü xüsusiyyətləri.........................................................101
***Sevinc Quliyeva, Elmin İsayev.*** Autizmli uşaqlarda yaddaşın xüsusiyyətləri...................................................................103
***Afət Cəlilova.*** Müasir elmdə "nəsil" anlayışı və onun təsnifatı məsələsi........................................................................109
***İranə Məmmədli, Reyhan Rüstəmova.*** İnklüziv təhsil və onun psixoloji mahiyyəti.................................................................112

***Müşfiq Mustafayev, Nayim Səmədzadə.*** “Mən” konsepsiyası ilə bağlı nəzəri fikirlər.................................................................114
***Gülər Dadaşova.*** Reklam şəxsiyyətin davranışının tənzimində əsas təsir vasitəsi kimi.........................................................119
***İlahə Abasova.*** Emosional intellektin cinslər arası fərqli xüsusiyyətəri...........................................................................121
***Эмиль Ибрагимов.*** Успеваемость школьника, как результат влияния со стороны родителей............................................123
***Kamilə Kazımova, Karadeniz Mizgin.*** Kiçik yaşlı məktəblilərdə qorxu hissinin yaranmasının psixoloji səbəbləri........................125
***Ülfət Abbaszadə.*** Televiziyanın uşaqların psixi inkişafına təsiri..........................................................................................129
***Şəfa Nəsibova.*** Qadın və kişilərdə stresə və həyəcana davamlılıq xüsusiyyətləri.........................................................................133
***Əminə Məcidli.*** Qadın məhkumları psixoloji problemləri və onların psixokorreksiyası.......................................................139
***Эмиль Ибрагимов*** Понятие детско-родительских отношений и его типы..................................................................................142
***Mehriban Ağabalayeva.*** Yeniyetməlik dövründə psixoliji dəyərləndirmənin komponetləri.............................................144
***Toğrul Qasımzadə.*** E. Fromm ailə psixologiyası barədə..........147
***Laləzar Cəfərova.*** Təlimdə geriqalma problemi və onun səbəbləri.......................................................................................149
***Aydan Osmanlı.*** Ailə sturukturun sosial – psixoloji təhlili.......153
***Elnarə Piriyeva, Şəlalə Babayeva.*** Kiçik yaşlı məktəblilərdə yaradıcı təfəkkürün tədqiqi istiqamətləri.................................158
***Эльнура Гусейнова.*** Самооценка и эффективность учебной деятельности.............................................................................162
***İlahə Dadaşova.*** Cinayətkarlarin yenidən ictimailəşməsinin psixoloji xüsusiyyətləri..........................................................166
***Xavərxanım Bakıxanova.*** Posttravmatik stress haqqından olan başlıca konsepsiyalar..............................................................169
***Yamən Vəliyeva, Aişə Musayeva.*** Zorakılığa məruz qalmış qadınların şəxsiyyətinin psixoloji xüsusiyyətləri......................175

***Emre Aykan.*** Uşaqlarda nitqin inkişafı....................................178
***Çinarə Hüseynli.*** Peşəyönümünə yanaşmaların psixoloji təhlili.....................................................................................182
***Ирана Мамедли, Периханым Магеррамова.*** Домашняя работа как средство активизации учебной деятельности младших школьников...........................................................186

## PEDAQOGİKA BÖLMƏSİ

***Səma Abbasova.*** Ali təhsil sistemində keyfiyyətə nəzarət mexanizmi......................................................................188
***Mətanət Səmədli.*** Ali təhsildə monitorinq və qiymətlən-dirmənin təlimin keyfiyyətinin yüksəldilməsində rolu.............................192
***Нармин Рамазанова.*** Слова Гейдара Алиева об Бакинском Государственном Университете............................................195
***Aygün Abuzərli.*** Təlim prosesində monitorinq və qiymətləndirmənin həyata keçirilməsinin imkan və yolları.......198
***Lalə Yusifova.*** İdarəetmə prosesində məqsəd qoyuluşu və planlaşdırma.....................................................................200
***Алсу Велизаде.*** Понятие и общая характеристика информационно коммуникационных технологий в образовании.................................................................................202
***Фазлуллах Меликов.*** Передовой характер идей Яна Амоса Коменского..........................................................................205
***Suqra Rzayeva.*** Çətin yeniyetmələrin xüsusiyyətləri................208

## SOSİOLOGİYA VƏ SOSİAL İŞ BÖLMƏSİ

***Elmira Əliyeva.*** Zorakılıq və sülh şəraitində keçirilən protestlərin təhlili......................................................................................211

***Ханумзар Исмайылова.***Теоретико-методологические основы изучения проблемы брачности и разводимости в Азербайджане.........................................................................215
***Çinarə Rəhimova.*** Gənclərin işsizliyi sosial problem kimi.......218
***Ramil İsmayılov.*** Azərbaycanda sosial idarəetmə Heydər Əliyev Fondu timsalında..................................................................221
***Rəcəbəli Əliyev.*** Əlillərlə sosial iş.........................................225
***Fizzə İnqilabzadə.*** Gənclər cəmiyyətdə sosial qrup kimi..........228
***Nuray Qibləliyeva.***Azərbaycanda gender bərabərliyinin aktuallığı..........................................................................230
***Arzu Nurullayeva.*** Hakimiyyət orqanlarının rolu....................232
***Surxay Əhmədzadə.***İnsan alveri qurbanı olmuş şəxslərlə sosial iş.......................................................................................235
***Турал Исмаилзаде.*** «COVİD 19» как рычаг социальных изменений...........................................................................239
***Наргиз Зейналлы.*** «Остнься дома» как метод современной благотворительности в социальной работе..........................243
***Fəridə Mustafayeva.*** Azərbaycanda autizmli uşaqlarla sosial iş.......................................................................................246
***Hökümə Xalıqova.*** Natamam ailələrdə doğulan uşaqlarla sosial işin təşkili........................................................................248
***Sitarə Nurumova.*** Azərbaycanda məşğulluğun dövlət siyasəti.........................................................................251
***Nərgiz Yusifova*** Qaçqın və məcbur köçkünlərlə sosial işin məzmun və istiqamətləri....................................................254
***İlahə Muradlı*** Təhsildən yayınan yeniyetmə və gənclərlə sosial iş.......................................................................................259
***Rauf Mirəliyev.*** Tənha ahıllarla iş təcrübəsində sosial-psixoloji prosedurlar.........................................................................262
***Fəridə Sadıqova.*** Siyasi davran;şa təsir edən amillər.........................266
***Arzu Əskərova.*** Sosiologiyada keys-stadi metodunun tətbiqi imkanları...........................................................................270
***Türkanə İsmayılova.*** Azərbaycan demokratiya modelinin dünya demokratiya modelləri ilə fərqli və oxşar cəhətləri...........................274
***Samir Əsədli.*** Zərərli vərdişlər:sosial və psixoloji aspektlər............278

***Solmaz Aslanova.*** Ailə cəmiyyətin ən mühüm sosial institutu kimi..........................................................................................281
***Cavid Əlizadə.*** Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin reabilitasiyası problemləri...................................................284

Texniki redaktor:V.K. MUSAYEVA

GƏNC TƏDQİQATÇILARIN RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ
materialları
(17 aprel 2020-ci il)